**Tanrıverdi Paşa**

# MADDİ MƏDƏNİ İRSİN SOSİAL-İQTİSADİ TƏSİRLƏRİ

**Bakı-ELM-2022**

**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi**
**İqtisadiyyat İnstitutunun Elmi Şurasının qərarı ilə nəşr olunur**

**Elmi redaktor:** **AMEA İqtisadiyyat İnstitutunun şöbə müdiri iqtisad elmləri doktoru R.S.Abdullayeva**

**Rəyçilər:** **AMEA İqtisadiyyat İnstitutunun şöbə müdirləri: iqtisad elmləri doktoru Y.Ə.Məmmədov**

**i.f.d., dos. P.S.Həsənov**

**Azərbaycan Memarlıq və İnşaat Universitetinin dosenti, i.f.d., S.A.Vəliyeva**

Monoqrafiyada mədəni irsin cəmiyyətin davamlı sosial-iqtisadi inkişafında rolu və potensial təsir sahələri açıqlanır, mədəni irsin qorunub saxlanılması, bərpası və ondan istifadəyə dövlət dəstəyinin və müdaxiləsinin zəruriliyi əsaslandırılır, müasir şəraitdə mədəni irsin iqtisadi komponentlərinin qiymətləndirilməsi, mədəni irsin idarə edilməsi, müxtəlif idarəetmə qurumları səviyyəsində mədəni irs obyektlərinin kapitallaşdırılması strategiyaları araşdırılır, dünya təcrübəsinə əsaslanaraq mədəni irsin Azərbaycan Respublikasında xarici və daxili turizmin inkişafına, kreativ iqtisadiyyatın təşəkkülünə verə biləcəyi fayda və töhfələr, ağıllı şəhər və ağıllı kənd kontekstində yeni kreativ imkanlar açıqlanır. Əsərdə işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında tarixi-mədəniyyət abidələri əhəmiyyətinə görə təhlil olunur, regionlarda mədəni irsin idarə edilməsinin təkmilləşdirilməsi, mədəni-tarixi mühitinin yaxşılaşdırılması yolları göstərilir. İşdə həmçinin dünya təcrübəsinə əsaslanaraq, mədəni irs obyektlərinin qorunub saxlanılması və bərpasına maliyyə mənbələrinin cəlb olunması mexanizmləri təklif edilir.

Əsər elmi işçilər, mədəniyyət və mədəni irsin iqtisadiyyatı ilə məşğuı olan mütəxəssisıər, magistr və doktorantlar, ali məktəb müəllimləri və tələbələr üçün nəzərdə tutulmuşdur.

## MÜNDƏRİCAT


***GİRİŞ*** 5

**I Fəsil Mədəni irsin qorunub saxlanması və bərpasının nəzəri əsasları** 8

1.1. Mədəni irsin saxlanması və bərpasının əhəmiyyəti 8

1.2. Mədəni irsin mahiyyəti və məzmunu 12

1.3. Mədəni irs davamlı inkişafın əsas amili və gələcək prioteti kimi 16

1.4. Mədəni irsin ölkənin iqtisadi və sosial inkişafında rolunun artması 20

1.5. Mədəni irsin qorunub saxlanılması və bərpasına dövlət dəstəyinin və müdaxiləsinin zəruriliyi 24

1.6. Qlobal miqyasda mədəni irsin qorunmasında YUNESKO-nun fəaliyyəti 27

**II Fəsil Müasir şəraitdə mədəni irsin qorunması və bərpasının iqtisadi komponentlərinin qiymətləndirilməsi və idarə olunması** **30**

2.1. Mədəni irsin qorunması və bərpasının birbaşa və dolayı iqtisadi təsirlərinin qiymətləndirilməsi 30

2.2. Müasir şəraitdə mədəni irs obyektlərinin qorunub saxlanılması, bərpası və ondan istifadə problemləri 37

2.3. Mədəni irsin idarə edilməsi konsepsiyasının yeni dövlət idarəçiliyində yeri 42

2.4. Müxtəlif idarəetmə qurumları səviyyəsində mədəni irs obyektlərinin kapitallaşdırılması strategiyaları 47

2.5. Mədəni irsin qorunması və turizmin inkişafı 52

**III Fəsil Azərbaycan Respublikasinda kreativ iqtisadiyyatin inkişaf potensiali** **65**

3.1. Kretiv iqtisadiyyatın əlamətləri, əsas ünsürləri və təzahürləri 65

3.1.1. Kreativliyin şərtləri və əlamətləri 71

3.1.2. Kreativ sənaye və kreativ sinif 72

3.2. Kreativ iqtisadiyyatda mədəni irsin faydaları 77

3.3. Kreativ sektor: dünya təcrübəsi və inkişaf potensialı 84

3.4. Azərbaycan Respublikasında kreativ sənayenin kapitallaşdırılması 90

3.5. Ağıllı şəhər və ağıllı kənd konsepsiyasında yeni kreativ imkanlar: rəqəmsallaşan və interaktiv yaradıcı proseslər 98

**IV Fəsil Azərbaycan regionlarında mədəni irsin iqtisadi dövriyyəyə inteqrasiyasının təşkilati-iqtisadi mexanizmləri** **101**
4.1. Regionun mədəni-tarixi mühitinin yaxşılaşdırılması yolları 101
4.2. Regionların mədəni irs obyektlərinin qorunması və bərpasının təşkilati-iqtisadi mexanizmləri 104
4.3. Azərbaycan Respublikasında dövlətin mühafizəsində olan daşınmaz tarixi-mədəniyyət abidələrinin iqtisadi dövriyyəyə inteqrasiyası 108
4.4. İşğaldan azad olunmuş regionlarda dövlətin mühafizəsində olan daşınmaz tarixi-mədəniyyət abidələrinin əhəmiyyətinə görə bölgüsü 115
4.5. İşğaldan azad olunmuş ərazilərdə mədəni və tarixi irs abidələrinin təkrar pasportlaşdırılması zərurəti 123
4.6. İşğalın nəticələrinin və dəymiş zərərlərin qiymətləndirilməsi problemi 128
4.7. Ümumdünya İrs Obyektlərinin seçilməsi üçün meyarlar 133
**V Fəsil Azərbaycanda mədəni irs obyektlərinin qorunub saxlanılması və bərpasına maliyyə mənbələrinin cəlb olunması mexanizmləri** **141**
5.1. Azərbaycanda mədəni irsin mühafizəsi və inkişafının idarə edilməsi və səmərəliliyinin artırılması problemləri 141
5.2. Mədəni irs obyektlərinin qorunub saxlanılması və bərpasına maliyyə mənbələrinin cəlb olunmasında dünya təcrübəsi. 143
5.3. Mədəni irsin qorunması və bərpasının müasir maliyyələşdirmə mexanizmləri 151
5.4. Mədəni irsin qorunması və bərpasının vergilər vasitəsilə stimullaşdırılması 170
NƏTİCƏ 182
ƏDƏBİYYAT 200
Əlavələr 214
Azərbaycan, ingilis və rus dilində XÜLASƏ 239
Müəllifin bioqrafiyası 243

# GİRİŞ

Mədəni irsin qorunub saxlanması problemi minillikdən artıqdır ki, aktualdır və öz köklərini bəşəriyyətin tarixindən götürür. Müasir elm, mədəni irsin sosial dəyərinin, istər insan kapitalının inkişafına, istərsə də iqtisadi artıma və əhalinin rifahının artmasına kömək edən mühüm potensialının ölçülməsi ilə bağlı problemi hələ də ağlabatan şəkildə həll edə bilməyib.

Son illərdə mədəni irs mühüm roluna, sosial həyatın bütün səviyyələrini əhatə etməsinə, eləcə də iqtisadi faydalarına görə ölkə iqtisadiyyatında və cəmiyyətində getdikcə daha vacib amil, müxtəlif ənənəvi və yeni sahələrdə iqtisadi artım və məşğulluq üçün innovativ stimul kimi qəbul edilir. Ayrı-ayrı ölkələrdə və beynəlxalq ictimaiyyətdə mədəni inkişaf səviyyəsinə xalqların sosial-iqtisadi inkişafını xarakterizə edən ən vacib göstəricilərdən biri kimi diqqət diqqət yetirilir.

Mədəni irs innovasiyalar, sərvət yığımı və sosial dəyişikliklər üçün də hərəkətverici qüvvədir. Mədəni irsə milli identiklik, sosial birliyi gücləndirən, vətəndaş şüurunu aktivləşdirən, müəyyən əraziyə, yerə aid olma hissini formalaşdıran amil kimi də mühüm rol verilir. Bu baxımdan, mədəni irs yerli özünüidarəetmə və ərazi inkişafının hərəkətverici qüvvəsi kimi çıxış edir.

Bu günkü Azərbaycan, daha çox ölçüdə dünyanın müxtəlif ölkələrinə göndərilən neft, qaz və digər xammal axınına xidmət edən bir struktur kimi təqdim edilir. Qlobal sivilizasiyanın təsiri yerli mədəniyyətə, yerli kimliyə və ənənələrə marağın bərpasına gətirib çıxarır. Bu əslində, suverenlik və mühafizəkarlığın da əsasında duran amillərdəndir. Azərbaycan xalqının mədəni irsinin qorunub saxlanılması nəinki daxili turizmin inkişafı üçün əsasdır, həm də ötən əsrdə çox bəlalar çəkmiş, təhrif edilmiş milli kimliyin özünün qismən

yenidən qurulması məsələsidir. Ümid edək ki, vaxt gələcək və keçmişimiz, mədəni irsimiz dövlət və iqtisadi qurumların işinin məntiqini müəyyən edən "yeni neft"ə çevriləcək. Başqa sözlə, qorunan mədəni irs obyektləri bizim mühüm milli sərvətimizdir, neftdən və qazdan da qat-qat önəmlidir.

Mədəni irs tədqiqatlarının tədris proqramlarına daxil edilməsi, eyni zamanda mədəniyyətlərarası dialoqu və mədəni anlaşma, hörmət, insan və azlıqların hüquqları, yaxşı idarəçilik və demokratiya kimi həssas məsələlərə yanaşmanı təşviq etmək üçün də effektiv yol ola bilər. Mədəni irsin qorunması, həm də müəyyən bir ərazidə mövcud olan və hər birinin özünəməxsus kimlik və cəhətləri olan müxtəlif icmalar arasında daha yaxşı anlaşma və etimadın təşviq edilməsi deməkdir.

Müəllifin iqtisad elmində çox az tədqiq olunan "Mədəniyyətin və mədəni irsin iqtisadiyyatı" kimi çox az işlənən belə bir geniş profilli mövzuya müraciət etməsi Azərbaycan Respublikası Mədəniyyyət Nazirliyi, və AMEA İqtisadiyyat İnstitutunun birgə təşkilatçılığı ilə ölkəmizin mədəniyyət paytaxtı Şuşa şəhərində 2022-ci il sentyabr ayının 18-19-da "Mədəniyyətin iqtisadiyyatı: Şuşadan inkişaf impulsları" mövzusunda beynəlxalq elmi-praktik konfransda iştirak etmək arzusu ilə bağlı olmuşdur və əslində, bu kitabın yazılması 1 ilə yaxın vaxt ərzində tamamlanmışdır. 1978-1993-cü illərdə, xüsusən konfliktin və I Qarabağ savaşının başladığı vaxtlarda (1991-1993) İnstitut əməkdaşı kimi Qarabağ və Şərqi Zəgəzura aid olan rayonlara dəfələrlə rəsmi ezamiyyələrdə olarkən bölgənin təbii gözəlliyinə, abad şəhər və kəndlərinə, zəngin maddi mədəni irsinə – tarixi memarlıq abidələrinə baxaraq heyran olmuşdum və etiraf edim ki, belə zənginliyi heç bir bölgədə görməmişdim. Lakin 2021-ci ilin sentyabrın 16-da "Qarabağda yeni iqtisadiyyat quruculuğu: Ağdamdan inkişaf impulsları" mövzusunda beynəlxalq elmi konfransda iştirak edərkən,

Ağdam rayonuna yaxın kəndlərin və şəhərin özünün tam viran qoyulmuş evlərinin, yerlə yeksan edilmiş mədəni irs obyektlərinin, mədəniyyət ocaqlarının və məktəblərinin xarabalıqlarını görərkən çox sarsılmışdım və bu kitabın qısa müddətdə yazılmasında onun da rolu az olmayıb. Müəllif həm də 2016-cı ildən Azərbaycan Dövlət İqtisad Universitetində Elmi Şuranın Qərarı ilə yaradılan "İşğal olunmuş torpaqlara dəyən zərərin qiymətləndirilməsi üzrə işçi qrupu"nun üzvü olarkən xeyli materiallarla, elmi ədəbiyyatla, bu sahədə aparılmış müxtəlif tədqiqatlarla tanış olmuşdu və bu mənbələrdən də kifayət qədər yararlanıb.

Monoqrafiya bütövlükdə mədəni irsə, onun qorunub saxlanması, bərpası, istifadəsi və idarə edilməsi, mədəni irs obyektlərinin kapitallaşdırılması strategiyaları, mədəni irsin Azərbaycan Respublikasında xarici və daxili turizmin inkişafına, kreativ iqtisadiyyatın təşəkkülünə verə biləcəyi faydalar, mədəni irs obyektlərinin qorunub saxlanılması və bərpasına maliyyə mənbələrinin cəlb olunması mexanizmlərinə həsr olunmuşdur. Lakin müəllif, mövzunun genişliyini, statistik məlumatların məhdudluğunu, həmçinin işğaldan azad olunmuş rayonlarda daha çox daşınmaz maddi irs abidələrinə və obyektlərinə zərər dəyməsini nəzərə alaraq, bilavasitə irsin bu növü ilə bağlı araşdırmalara və təhlillərə üstünlük vermişdir.

Kitabı həm də, Azərbaycanın 44 günlük II Qarabağ savaşında qazandığı zəfərə, erməni işğalından azad olunmuş torpaqlarımızla yanaşı xeyli mədəni irs abidələrinin də yenidən xalqımızın xidmətinə qaytarılmasıi münasibəti ilə müəllifin kiçik bir  hədiyyəsi də saymaq olar.

# I FƏSİL. MƏDƏNİ İRSİN QORUNUB SAXLANMASI VƏ BƏRPASININ NƏZƏRİ ƏSASLARI

## 1.1. Mədəni irsin qorunub saxlanması və bərpasının əhəmiyyəti

“Mədəni irsin iqtisadiyyatı” iqtisad elmində və tədris prosesində XX əsrin 70-ci illərində, “Mədəniyyətin iqtisadiyyatı”nın özünün yaranmasından təxminən on il sonra formalaşmışdır. Bu predmetin banilərindən biri - ingilis iqtisadçısı Alan Pikok hesab olunur. [157. s.12] Mədəni irsin iqtisadiyyatının əlli ilə yaxın mövcudluğu ərzində onun iqtisadi aspektlərinə dair çoxlu sayda nəzəri-metodoloji və praktiki elmi əsərlər nəşr edilmişdir.

Ənənəvi iqtisadi nəzəriyyə iqtisadi sistemi ənənə və adətlərin məhdud resurslardan istifadə təcrübəsi kimi müəyyən etdiyindən, fərdi faydalılığa əsaslanan iqtisadi davranış baxımından, “mədəni irs istehlakçı üçün faydalılığın artmasının görünməyən və ya hiss olunmayan komponentidir, onun vasitəsilə tarixi binalar və artefaktlar istehlak obyektidir”. [169] İqtisadi nəzəriyyənin A.Pikok konsepsiyasından sonra mədəni irsin qorunmasını maliyyələşdirən himayədar dövlətdən investor dövlətə çevrilməsini nəzərdə tutan nəzəriyyələr ön plana çıxıb.

Mədəniyyətin iqtisadiyyatının demək olar ki, yarım əsrlik tarixində mədəniyyətə dövlət dəstəyini əsaslandıran bir sıra konsepsiyalar yaranmışdır. Mədəni irsin mühafizəsi sahəsində bunlara aşağıdakı nəzəri konstruksiyalar daxildir:

-bazar uğursuzluqları anlayışı;

- Baumolun “qiymət xəstəliyi”;

-meritor sərvətlər nəzəriyyəsi;

- himayə olunan sərvətlər nəzəriyyəsi.

Standart iqtisadi nəzəriyyədə yanlış bir dilemma vardır. Əgər mədəni irs cəmiyyət üçün əhəmiyyətlidirsə, o zaman bu, istehlakçılardan gələn tələbdə əksini tapmalı, nəticədə, abidələrdən istifadəyə görə ödəniş onların istismarı ilə bağlı xərcləri ödəməlidir. Həmçinin, məsrəflər abidələrdən istifadədən əldə edilən gəlir hesabına ödənilmirsə, o zaman ya cəmiyyət mədəni irs obyektlərinə kifayət qədər maraq göstərmir, ya da onların istismarı ilə bağlı xərclər bu marağı üstələyir. Belə sadələşdirilmiş şərh mədəni irsin qorunub saxlanması sahəsinə yönəldilən maliyyələşməni səmərəsiz hesab etmək üçün əsas rolunu oynayır və bu, iqtisadiyyatın gəlir gətirən sektorlarından məhdud vəsaitlərin xaricə çıxmasına səbəb olur. Bu yanlışlığı aradan qaldırmaq mədəni fəaliyyətin iqtisadi nəzəriyyəsinin ən mühüm vəzifələrindən biridir.

Eyni dərəcədə çətin problem, "mədəni irsin qorunması"nın adekvat iqtisadi məzmununun müəyyən edilməsidir. Bu, sadəcə olaraq, mədəniyyət abidələrinin müəyyən edilməsi, konservasiyası və bərpası, təmir-bərpa işlərinin vaxtında və tam yerinə yetirilməsidir, yoxsa daha çox mədəni irs obyektlərinin müasir istifadə və bu abidələrin mövcud zədələnmə riskinin aradan qaldırılması imkanları nəzərə alınmaqla onların özlərinin uyğunlaşdırılmasıdır? "Qızıl orta"nı necə tapmaq olar: abidəni qorumaq və ona yeni nəfəs vermək vacibdir? Azərbaycanın mədəni irsinin ən böyük payı dövlət mülkiyyətində olduğu vəziyyətdə bu problem necə həll olunmalıdır. Ona görə də "uyğunlaşma yolu ilə inkişaf" prinsipi, əslində, abidəyə yeni funksionallıq verən gələcəyə müraciət deməkdir.

Təəssüf ki, müasir elm, mədəni irsin sosial dəyərinin, istər insan kapitalının inkişafına, istərsə də iqtisadi artıma və əhalinin rifahının artmasına kömək edən mühüm potensialının iqtisadi

ölçülməsi ilə bağlı üçüncü problemi hələ də səriştəli şəkildə həll edə bilmir. Bu cür ölçülərə dair mövcud cəhdlər hələ də sırf təbliğat və ya siyasi xarakter daşıyır, halbuki onlar çox vaxt mədəni irsin həqiqi dəyərinin daha yaxşı başa düşülməsinə kömək edə və ona ictimai dəstəyin həcmini bir qədər də artıra bilər.

Bazardakı uğursuzluqlar və onların aradan qaldırılması zərurəti mədəni irsin qorunması sahəsində dövlət dəstəyinin əsaslandırılmasının başlıca leytmotividir. Bazar uğursuzluqları, adətən bazar mexanizminin resursların rasional bölüşdürülməsini və istifadəsini təmin edə bilmədiyi vəziyyətlər kimi başa düşülür. Bazar uğursuzluqlarının aradan qaldırılmasına yönəlmiş dövlət fəaliyyəti, bu halda, müasir iqtisadiyyatın zəruri elementi sayılır. Burada, üç standart halın: ictimai sərvətlər, xarici təsirlər, informasiya asimmetriyasının olması qəbul edilir.[7, s.255]

Mədəni irsin qorunub saxlanması problemi minillikdən artıqdır ki, aktualdır və öz köklərini bəşəriyyətin tarixindən götürür. Hazırda mədəni irsin əhəmiyyəti təkcə cəmiyyətin mədəni və estetik tələbatlarının ödənilməsi, mədəni dəyərlərin gələcək nəsillər üçün qorunub saxlanılması istəyi ilə məhdudlaşmır, həm də sosial-iqtisadi inkişaf üçün strateji resurs, insan həyatının keyfiyyətinin və bütövlükdə sosial təşkilat sisteminin yaxşılaşdırılmasının mühüm tərkib hissəsi kimi daha geniş şəkildə şərh olunur.

Mədəni irsin istehlakı daha çox kollektiv xarakter daşımaqla ikili xarakterə malikdir, yəni istehlakı istisna edilməyən və rəqabətliyi olmayan ictimai sərvətlər kateqoriyasına aid edilir. İstisna edilməmək - heç kimin bu sərvətin istehlakından kənarlaşdırıla bilməyəcəyini nəzərdə tutur, istehlakda rəqabətin olmaması isə - bu sərvətin eyni vaxtda çox sayda istehlakçı üçün əlçatan olması deməkdir. [157, s.15] Başqa sözlə, istənilən şəxs digər insanların oxşar ehtiyaclarını ödəmək

imkanlarına xələl gətirmədən, mədəni irsdən və mədəniyyət abidələrinin gözəlliyindən həzz ala bilər.

Mədəni irsin qorunub saxlanması ənənəvi olaraq, iqtisadi nöqteyi-nəzərdən dövlət büdcəsinin yüklənməsi kimi şərh olunurdu. Ancaq indi inkişaf etmiş ölkələrdə bu sahə "müxtəlif ənənəvi və yeni sənayelərdə iqtisadi artım və məşğulluq üçün innovativ stimul" kimi qəbul edilir. Mədəni irsə milli identikliyi, sosial birliyi gücləndirən, vətəndaş şüurunu aktivləşdirən, müəyyən əraziyə, yerə aid olma hissini formalaşdıran amil kimi də mühüm rol verilir. Bu baxımdan, mədəni irs yerli özünüidarəetmə və ərazi inkişafının hərəkətverici qüvvəsi kimi çıxış edir.

Ayrı-ayrı ölkələrdə və beynəlxalq ictimaiyyətdə mədəni inkişaf səviyyəsinə xalqların sosial-iqtisadi inkişafını xarakterizə edən ən vacib sahələrdən biri kimi diqqət diqqət yetirilir. Mədəni irs innovasiyalar, sərvət yığımı və sosial dəyişikliklər üçün də hərəkətverici qüvvədir. Mədəniyyət sahələrinin roluna maraq göstərmək bir çox ölkələrdə inkişaf strategiyasının bir hissəsinə çevrilmişdir. [59, s.6-9: 62, s.47-51] Zəngin mədəni irsə malik olmaqla yanaşı həmin irsin idarə edilməsində təzahür edən mədəniyyət siyasətinə və mədəni turizmə "insanların müəyyən zövqlərini və mədəni ehtiyaclarını təmin etmək qabiliyyətini dərk etməyə və dəstəkləməyə yönəlmiş fəaliyyət sahəsi" kimi də baxmaq olar. [48, s.19].

Beynəlxalq təşkilatların ekspertlərinin fikrincə, mədəni irsə - tarixi, estetik, etnoloji və ya antropoloji baxımdan müstəsna ümumbəşəri dəyərə malik olan bütün memarlıq əsərləri, heykəltəraşlıq və rəsm əsərləri, kitabələr, tikili kompleksləri, insanın yaratdığı əsərlər və arxeoloji abidələr daxildir. [70, s.1-15: 25: 44].

İqtisadi inkişaf bütövlükdə üç əsas istiqamətdə: 1) gəlirlərin dəyişməsi (yerli sakinlərin, yerli hakimiyyət orqanlarının və yerli

sahibkarların gəlirləri); 2) iqtisadiyyatda struktur dəyişiklikləri, 3) həyat səviyyəsinin və keyfiyyətinin dəyişməsi, təbii resursların və mədəni mühitin keyfiyyətinin vəziyyəti, qorunması kimi təzahür edir.

Sosial-iqtisadi proses kimi inkişafa daha müasir və geniş baxış ondan irəli gəlir ki, istənilən məkan miqyasında baş verən dəyişikliklər, daha yüksək tələblərə keçid nəzərə alınmaqla, əsasən yerli icmanın tələbatının ödənilməsinə təsiri baxımından qiymətləndirilir. Dəyişikliklər - mənzil fondunun keyfiyyətini, sosial infrastrukturu, təhsil, istirahət və mədəniyyət imkanlarını, təhsil və mədəniyyət müəssisələrinin keyfiyyətini, ərazi idarəçiliyini və təbii mühiti, insanlar arasında təkcə iqtisadi inkişafdan asılı olmayan əlaqələrin və sosial münasibətlərin (sosial kapital) tipinə və sıxlığına uyğun "cəlbedici mühit"in yaradılmasını əhatə edir. [40, s.113-133]

## 1.2. Mədəni irsin mahiyyəti və məzmunu

Mədəniyyət haqqında Azərbaycan Respublikasının Qanununda milli mədəni irs – "Azərbaycan xalqına məxsus, ümumazərbaycan əhəmiyyəti kəsb edən, universal dəyərlərə malik mədəniyyət nümunələrinin məcmusu" [2, Maddə 1] kimi məyyən olunur.

"Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikasının Qanununa görə mədəni irs anlayışı mədəniyyət və tarix abidələri ilə sinonimdir. Qanunun 2-ci maddəsinə görə "Tarix və mədəniyyət abidələri (bundan sonra - abidələr) arxeoloji və memarlıq obyektləri, etnoqrafik, numizmatik, epiqrafik, antropoloji materiallar, tarixi hadisə və şəxsiyyətlərlə bağlı olan bina, xatirə yerləri, əşyalar xalqın dini əqidəsi ilə bağlı dəyərlərdir.[3, Maddə 2] Bu Qanunda tarix və mədəniyyət abidələri kimi: arxeoloji abidələr; memarlıq abidələri; tarix abidələri; sənədli abidələr; incəsənət abidələri; qoruqlar; adibələrin mühafizə zonası anlayışlarından istifadə

edilir. Müxtəlif mənbələrdə istifadə edilən mədəni irs, mədəni irs obyektləri, mədəni dəyər, tarixi və mədəni dəyərli obyektlər və s. mahiyyətcə oxşar, eyni prosesi əhatə edən anlayışlar kimi də qəbul etmək olar.

Mədəni irs obyektləri dedikdə, dövlətin iqtisadi və sosial vəzifələrindən irəli gələrək keçmişdə insan tərəfindən yaradılmış və ya onun məqsədyönlü təsirinə məruz qalmış daşınmaz mədəni sərvətlər başa düşülür və müvafiq dövlət və ya bələdiyyə orqanının normativ hüquqi aktı əsasında Azərbaycan xalqının mədəni irsi (tarix və mədəniyyət abidələri) dövlət reyestrinə daxil edilir. Abidələr dövlət və bələdiyyə mülkiyyətində, eləcə də xüsusi mülkiyyətdə ola bilər.

"Mədəniyyət haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, dünya təbii və mədəni irs siyahısına daxil edilmiş, həmçinin milli mədəni və təbii irsə aid dövlət mülkiyyətində olan abidələrin özəlləşdirilməsinə (yerli əhəmiyyətli memarlıq abidəsi kimi qeydə alınan yaşayış binaları, onların ayrı-ayrı hissələri və bu maddənin üçüncü hissəsində nəzərdə tutulmuş özəlləşdirilməsinə yol verilən digər yerli əhəmiyyətli memarlıq abidələri istisna olmaqla) yol verilmir. Mühəndis kommunikasiyaları, müdafiə obyektləri, şəhərsalma, dini və xatirə abidələri, hidrotexniki qurğular istisna olmaqla, yerli əhəmiyyətli memarlıq abidələri qanunvericiliyə uyğun olaraq özəlləşdirilə bilər. Özəlləşdirilmiş yerli əhəmiyyətli memarlıq abidələrinin görkəmini və daxili quruluşunu pozmaq, onların mədəni, tarixi dəyərinə xələl gətirə biləcək hər hansı hərəkət etmək qadağandır. Dövlət qeydiyyatından keçmiş və xüsusi mülkiyyətdə olan abidələr satıldıqda dövlət onları almaqda üstün hüquqa malikdir. Hər hansı bir ərazidə yeni abidə aşkar olunarsa, həmin ərazi tarixi-mədəni əhəmiyyətli zona elan olunur və onun yerləşdiyi torpaq sahəsi üzərindəki tikililərlə birlikdə

qanunvericiliklə nəzərdə tutulmuş qaydada dövlət tərəfindən satın alına bilər. [2, Maddə 4]

Fikrimizcə, mədəni irs obyektlərinə təkcə daşınmaz mədəni obyektlər deyil, dini ayinlərin icrası ilə bağlı təbiət obyektləri də daxil edilməlidir. Təbiət obyektlərinə hələlik, Azərbaycan Respublikasının normativ hüquqi aktlarında da dəqiq bir tərif verilməmişdir. Lakin Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 27 dekabr tarixli 195 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Daşınmaz tarix və mədəniyyət abidələrinin bərpası, qorunması, tarix və mədəniyyət qoruqlarının fəaliyyətinin təkmilləşdirilməsi və inkişafına dair 2014-2020-ci illər üzrə Dövlət Proqramı" çərçivəsində ölkədə xüsusi mühafizə olunan abidələr kimi Bakı şəhərində "Məhəmməd" məscidi, "Məktəb-məscid", Şəki rayonunda "Kiş" alban məbədi, Quba rayonunun Xınalıq kəndində "Əbu-Müslüm" və "Xıdır Nəbi" məscidləri, Babək rayonunda "Əshab-ül-Kəhf" ziyarətgahı dini mədəni abidə kompleksi və digər mühüm tarixi-memarlıq əhəmiyyəti olan dini abidələrdə bərpa-konservasiya işləri başa çatdırılmışdır.

Ümumilikdə tarix və mədəniyyət abidələrinin mahiyyətini, məzmununu və bu əsasda, tərifini vermək də vacibdir.

*Tarixi abidələr:* - Tarixi şəxsiyyətlərin o cümlədən, dövlət xadimlərinin və hərbi xadimlərin, Sovet İttifaqı Qəhrəmanlarının, Milli Qəhrəmanların, görkəmli elm və incəsənət xadimlərinin həyatı ilə bağlı qurmalar, mənzillər, xatirə yerləri, sənədlər və əşyalar, eləcə də mədəniyyət, incəsənət və elm xadimlərinin həyatı ilə bağlı xatirə yerləri, yaşayış evləri, kompleksləri və ansambılları əhatə edir.

*Memarlıq abidələri:* - öz həcm-plan həllini kifayət qədər saxlayan qurmalar, müxtəlif təyinatlı memarlıq-inşaat binaları, yardımçı obyektlər, mühəndis kommunikasiyaları başa düşülür. Bu qrupa - qalalar, siklon tipli memarlıq abidələri, körpülər, karvansaralar,

malikanələr, saraylar, məscidlər, türbələr, su dəyirmanları, kahalar, qara damlar və ev damları; sovmələr, bazilikalar, kilsələr və monastrlar; xüsusi quruluşa malik fərdi evlər, hərbi istehkamlar, mədəniyyət sarayları, ictimai binalar, ticarət mərkəzləri; elm, təhsil və nəqliyyat müəsisələrinin binaları, o cümlədən heykəllər, qəbrüstü abidələr, bədii incəsənət nümunələri və s. daxildir. [137]

*İncəsənət abidələri:* - tarixi və estetik dəyəri olan bədii, təsviri, dekorativ-tətbiqi sənət nümunələri hesab edilirlər. İncəsənət abidələri sahəsinə, monumental abidələr və xatirə nişanları, Azərbaycanın tarixi və mədəniyyəti ilə bağlı oıan məhşurların həyatlarını əks etdirən lövhələr və digər əl işləri, heykəltaraşlıq əsərləri, rəsm əsərləri, bəzək əşyaları, bədi toxuculuq sənəti nümunələri, təsviri sənət nümunələri, mozaikalar, əlyazmalar, vitrajlar *(rənglı şüşələrdən düzəldilmiş şəkil və ya naxışlar)*. Musiqi əsərləri, musiqi alətləri və s. əhatə edir.

*Arxeoloji abidələr* - İnsanın fəaliyyəti ilə əlaqədar yer altında olan maddi mədəniyyət nümunələrinin olduğu güman edilən ərazilər arxeoloji abidələr sahəsinə daxildir. Arxeoloji abidələr sahəsinə aiddir:

- qədim yaşayış məskənləri, ibtidai insan düşərgələri, magaralar, eləcədə kənd və şəhər qalıqları. Qədim müdafiə sistemləri və istehkamlar, daş və torpaq sədlər o cümlədən ağac və ya daşdan tikilmiş qədim mühafizə divarlarının qalıqları;
- Dini xarakterli ərazilər yəni ziyarətgahlar, qədim məbəd və monastrların qalıqları, dini ibadət komplekslərinin qalıqları, dini mərasimlərin keçirildiyi güman edilən ərazilər;
- Qədim qəbiristanlıqlar, dini xatirə abidələri, digər dəfn yerləri o cümlədən kurqanlar və torpaq qəbirlər kompleksləri, küp qəbirlər;
- Qədim təsərrüfat yerlərinin qalıqları; o cümlədən hər cür qədim əşyalar, qaya və daş üzərində təsvirlər və yazılar, ovçuluqla bağlı yerlər, ərazilər və izlərin qalıqları, heyvandarlıq, əkincilik və

sənətkarlıqla bağlı ərazilər, qədim mədənlərin istismar izləri, əmək alətləri, istehsalat kürələri, tikinti qalıqları, hidrotexniki qurğuların qalıqları *(nohurlar, arxlar ovdan və kəhrizlər, su kəmərləri, kürəbəndlər və s.)*, nəqliyyat xəttləri, tikintiləri və yaşayış məskənləri *(qədim yollar, körpü qalıqları, və s.)*.

Bir qayda olaraq, arxeoloji abidələrin mahiyyəti onun çoxplanlığı eləcədə digər aktual məsələləri müasir şəraitdə arxeoloji irs obyektlərinin informasiya və funksional xassələri ilə şərtlənən əhəmiyyətini də artırır. Arxeoloji abidələrin qiymətləndirilməsində ilk növbədə, hansı informasiya mənbəyi olması, tamaşaçıya estetik təsirliliyi, insan fəaliyyətinin və müasir mühitinin təşkilində nə dərəcədə rol oynaması nəzərə alınır.

### 1.3. Mədəni irs davamlı inkişafın əsas amili və gələcək prioteti kimi

Son illərdə mədəni irs mühüm roluna, sosial həyatın bütün səviyyələrini əhatə etməsinə, eləcə də iqtisadi faydalarına görə ölkə iqtisadiyyatında və cəmiyyətində getdikcə daha vacib amil kimi qəbul edilir. Mədəni irsin qorunması - konkret inkişaf faktı və ya tarixi hadisə üçün əhəmiyyətli olan konkret strukturları, obyektləri və şəraiti qorumaqla ölkənin tarixi, mədəniyyəti və adət-ənənələri ilə əlaqə saxlamağın son dərəcə təsirli üsuludur. Eyni zamanda, mədəni irs müxtəlif sosial tərəfləri bir araya gətirmək, tolerantlıq, sabitlik və ekoloji problemlərdən xəbərdar olmaq məqsədi daşıyır, həminin mədəniyyət, turizm və xidmət sənayesi ilə bağlı bir sıra sektorlarda iqtisadi faydalar və məşğulluq imkanları yaradır. [11, s.20] Yoxsulluğun azaldılması və sosial inklüzivlik sahəsində funksiyasını nəzərə alaraq, dövlət və qeyri-hökumət institutları və beynəlxalq mədəniyyət təşkilatları son vaxtlar mədəni irsin yerli, milli və qlobal səviyyədə

davamlı inkişaf strategiyasına əsas amil və gələcək prioritet kimi daxil edilməsinə güclü təsir göstərirlər.

Davamlı inkişafın ən müasir konsepsiyası daha genişdir, çünki o, gələcək nəsillərin istifadəsinə xələl gətirmədən bugünkü iqtisadi və sosial rifahı təmin etmək üçün resurslardan ehtiyatlı və məsuliyyətli istifadəni nəzərdə tutur. Son vaxtlarda davamlı inkişafa verilən daha çoxölçülü və geniş tərif – təkcə dar iqtisadi deyil, inkişafın sosial, mədəni, ekoloji və siyasi aspektlərini, bu dəyişikliklərin doğurduğu və ya səbəb olduğu ekzogen və endogen amilləri, o cümlədən müəyyən ərazi və coğrafi mühitə xas təzahürlərin nəzərə alınmasını tələb edir. [11, s.20] Başqa sözlə, mədəni irs - müasir inkişafda ən vacib sərvətdir, inkişafın daha mürəkkəb dərkinə keçiddir, çünki sosial-iqtisadi və davamlı inkişaf mədəni irsin inkişafa potensial təsir sahələrinin genişlənməsi ilə müşayiət olunur və bu təsirin qiymətləndirilməsi müxtəlif göstəricilərdə nəzərə alınmalıdır.

Müvafiq olaraq, müxtəlif ölçülü ərazilərdə (xüsusən, yerli, regional və s.) mədəni irsin inkişaf proseslərinə təsirinin bir neçə əsas potensial sahələri müəyyən edilə bilər.

Birincisi, mədəni irsin qorunması və təbliği, irs xidmətlərinin göstərilməsi, irs institutlarının (muzeylər, kitabxanalar, arxivlər) fəaliyyəti nəticəsində gəlir əldə edilməsi və bu sahədə xeyli insanın məşğulluğa cəlb edilməsi sayəsində mədəni irsdən istifadənin birbaşa iqtisadi nəticələri də var. Dövlət sektorunda gəlirlərə və daşınmaz əmlak bazarına təsirlə (turizmə təkan verən) yanaşı müəyyən bir bələdiyyə və ya regionda gəlir, texniki xidmət və iş yerlərinin yaradılmasına dolayı və birbaşa təsirlər də (multiplikasiya təsiri) mövcuddur.

İkincisi, mədəni irsin bilik iqtisadiyyatına təsirindən təhsil resursu kimi istifadə edilməli, mədəniyyət sektorunda, kreativ sənayelərdə və

turizmdə insanların orijinal məhsul və xidmətlərə olan tələbatının hərtərəfli təmin olunmasını təşviq etməlidir. [186, s.106]

Bundan əlavə, mədəni irs sahəsi ilə bağlı digər sektorlarda və hər şeydən əvvəl, xidmət sektorunda: texniki xidmət, inzibati və maliyyə, mədəni turizmlə bağlı xidmətlər, nəqliyyat vasitələri, mallar və irs obyektlərinin əlçatanlığı ilə bağlı xidmətlər və s. dolayısı ilə də olsa, əlavə iqtisadi faydalar mövcuddur. Mədəni irs sahəsi lazımi qaydada bərpa edildikdə və təbliğ edildikdə, o, turizm, mədəniyyət, ticarət və əyləncə, o cümlədən otellər, restoranlar və digər xidmət təminatçıları üçün əsl inkişaf dirəyinə çevrilir. Bu, təkcə iqtisadi sektorun böyüməsinə imkan vermir, həm də şəhərin və ya rayonun imicinin inkişafına və yaxşılaşmasına töhfə verir ki, bu da son nəticədə, ziyarətçilərin və potensial investorların cəlb edilməsində əvəzsiz rol oynayır. Tədqiqatlar həmçinin göstərir ki, beynəlxalq şirkətlərin xaricdə iş yerini seçərkən nəzərə aldıqları meyarlardan biri məhz, sosial-mədəni mühit və yaşam keyfiyyətidir. Bu da əvvəllər Avropa İttifaqının Qətnamə və Konvensiyalarında qeyd olunduğu kimi digər amillərlə yanaşı, yerli mədəni irsin qorunması və təşviqi səviyyəsindən asılıdır. [70, s.1-15: 109, s.122-127]

Adətən müxtəlif səviyyələrdə aparılan müzakirələrdə mədəni irs haqqında iki əsas fikir bildirilir: birincisi, çox bədbin - "hər şey əldən gedir, hər şey məhv olur və unudulur"; ikincisi, "bərpa edilmiş, ölçülmüş və əbədi saxlanmaq üçün muzeyə aparılmışdır". Emosional yükü ilə əks olan bu fikirlər bir-birinə bənzəyir ki, əslində, maddi irsin nəyə lazım olduğunu izah etmir. Bu gün hətta böyük biznes dünyasından olan insanlar çox nadir hallarda, əcdadlarımızın bizə qoyub getdiyi irsə xas olan nəhəng iqtisadi potensialı başa düşürlər. Yəqin Bakı şəhərinin qədim arxitektur abidələri ətrafında və ya birbaşa pəncərəsi onlara baxan evlərin, yeni tikililərin fantastik qiymətləri

haqqında hamı məlumatlıdır. Tarixinin, maddi abidələrinin istər bu gün, istərsə də gələcəkdə nə qədər böyük maddi və mənəvi dəyərə malik olacağını hər bir Azərbaycan vətəndaşı dərk etməlidir.

İndi "tarixi irsə tələbat", məsələn, qidaya olan tələbat qədər təbiidir. Normal insan, bəlkə də genetik olaraq, haradan gəldiyini, keçmişdə şəhərlərin necə göründüyünü, məişət və adət-ənənələrin necə olduğunu, hansı mahnıları oxuduqlarını və məktəblərdə nə öyrətdiklərini bilmək istərdi. Bu gün insanların kütləvi şəkildə hansısa şəhərə "tarix üçün" getməsi üçün az-çox normal yol, orijinal (yaxşı baxımlı) vəziyyətdə olan abidələr, orta təmizlik və yaşayış səviyyəsi, həm də hər şəraiti olan otellər lazımdır.

İndi insanlar çox vaxt ölkədə cəmiyyəti birləşdirən müəyyən ümumi məqsəd və ya ideologiyanın olmamasından şikayətlənirlər. Doğrudan da, yerli icmaları yerli mədəni irs "resurslarından" istifadə etmək, keçmişdə öz unikallığını və dəyərini axtarmaq və onları bu günə köçürmək, bir növ "zaman maşını" yaratmaq ideyası ətrafında birləşdirmək mümkündür. Bu, onlarla yerli ideologiyanın bir araya toplanması, sonda milli ideyaya çevrilməsinə gətirib çıxara bilər. Bu günkü Azərbaycan, daha çox ölçüdə dünyanın müxtəlif ölkələrinə göndərilən neft, qaz və digər xammal axınına xidmət edən bir struktur kimi təqdim edilir. Ümid edək ki, vaxt gələcək və keçmişimiz, mədəni irsimiz dövlət və iqtisadi qurumların işinin məntiqini müəyyən edən "yeni neft"ə çevriləcək.

Lakin keçmişə münasibətdə aktiv mühafizəkar siyasətin olmaması ilə yanaşı, indiki zaman ölkəmiz üçün başqa, ondan az olmayan problemlər yaradır. Qlobal sivilizasiyanın təsiri yerli mədəniyyətə, yerli kimliyə və ənənələrə marağın bərpasına gətirib çıxarır. Bu əslində, suverenlik və mühafizəkarlığın da əsasında duran amillərdəndir. Azərbaycan xalqının mədəni irsinin qorunub saxlanılması nəinki daxili

turizmin inkişafı üçün əsasdır, həm də ötən əsrdə çox bəlalar çəkmiş, təhrif edilmiş milli kimliyin özünün qismən yenidən qurulması məsələsidir.

Mobillik və dayanıqlılıq konsepsiyanın daha çox diqqət etdiyi əsas amillərdən hesab edilir. Şəhər və insanlar arasında interaktivlik onu daha yaşanılır yerə çevirərək yaradıcılıq üçün də imkanlar açır. Başqa sözlə, qorunan mədəni irs obyektləri bizim mühüm milli sərvətimizdir, neftdən və qazdan da qat-qat önəmlidir. Məhz bu "istinad nöqtələri" sayəsində, təkcə havasız, iqtisadi və demoqrafik cəhətdən həddən artıq yüklənmiş, hər gün saatlarla davam edən tıxaclara rəğmən paytaxt-meqapolis Bakı və onun ətraf qəsəbələrini deyil, ölkənin canlanan və məna ilə dolu olan yerli icmalar ətrafındakı digər geniş ərazilərini yenidən tikmək və bərpa etmək mümkündür.

## 1.4. Mədəni irsin ölkənin iqtisadi və sosial inkişafında rolunun artması

Mədəni irsin iqtisadi inkişafa təsirləri: irslə bağlı fəaliyyətlə əlaqədar birbaşa gəlirlər (mühafizə, ictimaiyyət üçün açıqlıq, təbliğ); multiplikator effektləri, o cümlədən turizm multiplikatoru (dolayı və induksiya olunmuş gəlir və iş yerlərinin yaradılması); iqtisadiyyatda struktur dəyişikliklərinə dəstək; vergi gəlirləri; daşınmaz əmlak bazarı ilə bağlıdır.

Yerli icmanın yaşam standartları və keyfiyyəti: daha yüksək səviyyəli ehtiyacların ödənilməsi (estetik, mənəvi, mədəni, asudə vaxt); sosial həmrəyliyə və sosial kapitalın yaradılmasına təsir; yerli kimliyin və qürur hissinin gücləndirilməsi.

Ətraf mühitə təsir:mədəni və təbii dəyərlərin birgə mövcudluğu və bir-birini tamamlaması; antropologiya ziyarətçilərin və istifadəçilərin sayına müsbət təsir göstərir (yol, infrastruktur, aşınma və köhnəlmə);

urbanizasiyanın qarşısını almaq və ya məhdudlaşdırmaq üçün potensialın yaradılması.

Şəhər və kəndlərin bərpası və dirçəlişi proseslərində rolu:ruhlandırıcı və katalizator; qabaqcıl layihə kimi regenerasiya strategiyası; regenerasiya prosesləri üçün fon.

Yerli imic və brendinqin formalaşmasında:turistlər arasında; sahibkarlar və investorlar arasında; rezidentlər və potensial rezidentlər arasında (daxili marketinq).

Bilik iqtisadiyyatının inkişafına dəstək:irsdən təhsil və tərbiyə prosesində istifadə; fərdi mədəni kapitalın, insan kapitalının və yaradıcı potensialın inkişafı və dəstəklənməsi; mədəni və kreativ sənayelər tərəfindən təqdim olunan orijinal məhsul və xidmətlərin inkişafı. [70, s.1-15: 29, s.27: 40, s.113-133] [5, 28]

2013-cü ilin may ayında YUNESKO-nun Xançjouda keçirilən Beynəlxalq Konqresində qəbul edilmiş “Mədəniyyətin davamlı inkişaf siyasətinin mərkəzinə qoyulması”na dair Bəyannamədə və davamlı inkişafı təşviq edən “İnkişafdan qalmış millətlər” “Mədəniyyət və Davamlı İnkişaf” adlı Qətnamədə - mədəniyyətin, davamlı inkişafın təmin edilməsinə yönəlmiş strategiya və proqramların yerinə yetirilməsində hərəkətverici rolu və əhəmiyyəti etiraf edilmişdir. [48, s.19: 44]. XX əsrin 70-ci illərində Dünya Bankı mədəni irsin qorunmasına investisiyaları sırf iqtisadi əsaslarla dəstəkləməyə başladı və artıq 1980-ci ilə qədər xüsusilə inkişaf edən turizm sənayesi ilə bağlı “mədəni irs” haqqında danışmaq adi hala çevrildi. [49]. Mədəni irsin idarə edilməsi ilə iqtisadi faydalar arasındakı əlaqə indi bir sıra beynəlxalq araşdırmalarla da təsdiqlənib və mədəni irs getdikcə daha çox mühüm gəlir mənbəyi, məşğulluq imkanları və turizmin inkişaf generatoru kimi tanınır. Həqiqətən də, ekspertlər, mədəni irsin bir sıra sektorlarda yerli iqtisadi fəallığı artırarmaqla ölkənin iqtisadi inkişafının

potensial hərəkətvericisi və sürətləndiricisi ola biləcəyini irəli sürürlər. Avropa İttifaqının Təhsil, Gənclər, Mədəniyyət və İdman Şurasının mədəni irsin davamlı Avropa üçün strateji resurs olmasına dair qəbul etdiyi nəticələrdə 2020-ci ilə qədər Avropa İttifaqı strategiyasının məqsədlərinə nail olunmasında, o cümlədən davamlı inklüziv iqtisadi artımı təmin etməkdə bu resursun xüsusi töhfəsi və əhəmiyyəti vurğulanır. [27]

Mədəni irs obyektləri insanın yaşam keyfiyyətinin yaxşılaşdırılmasının mühüm komponenti və ərazinin sosial-iqtisadi inkişafı üçün strateji resurslardan biridir. Onlar həm ənənəvi, həm də yeni fəaliyyət sahələrində iqtisadi artımın və məşğulluğun təmin edilməsi üçün effektiv stimula çevrilirlər. Bundan əlavə, irs obyektləri insanın müəyyən bir əraziyə və mədəniyyətə daimi bağlanmasını formalaşdıraraq təhsil-tərbiyə funksiyasını yerinə yetirir. Bu, həm də əhalinin ərazilərin inkişafında daha yüksək fəallığına təkan verir.

Mədəni irs, digər məsələlərlə yanaşı, iqtisadi fəal əhalinin kiçik şəhərlərdən və kənd yerlərindən iri şəhərlərə axınının azaldılmasına da təsir edir. Gələcəkdə mədəni irs, bölgələrdə, xüsusən kənd yerlərində turist cəlbediciliyinin artırılmasına və infrastrukturunun inkişafına yönəlmiş layihələrin işlənib hazırlanması və həyata keçirilməsi baxımından əhalinin fəallığını stimullaşdırmaqla, əhalinin fəal hissəsinin yerlərdə qalmasına da kömək edəcəkdir.

Mədəni irs, şəxsiyyət və sivilizasiyanın təşviqində rolu ilə həyati məqsədlərə çatmaqda prioritet ola bilər. Mədəni irsin bu xüsusiyyəti incəsənət və mədəni irsin milli xəzinəsi olan "Mühafizə olunmayan irsin və abidələrin, milli ənənələrin qorunub saxlanılması haqqında Xartiya"da yaxşı təsvir olunub və qeyd edilir ki, "Obyektlərin memarlıq irsinin qorunub saxlanması vətən hissinin, ölkənin qloballaşan dünyada yerinin və xarakterinin qorunub saxlanmasını təmin etməklə,

cəmiyyətə “təkcə keçmişini qorumaq deyil, həm də gələcəyi müəyyən etmək imkanı” təklif edir. [40, s.113-133] Mədəni irs qorunub saxlanılarsa və təşviq edilərsə, həqiqətən də insanların həmrəyliyinə, milli özəlliklərinin və mənsubiyyət hissinin möhkəmlənməsinə töhfə verir və müxtəlifliyi, mədəniyyətlərarası və dinlərarası dialoqu təşviq edir, xalqlar arasında daha yaxşı anlaşma və hörmət yolu ilə sosial birlik yaradır. Mədəni irsin qorunub saxlanması - yerli mədəniyyətlərin, adət-ənənələrin, kimliklərin, eləcə də fərqliliklərin və ümumiliyin təbliği: icmaların zənginləşməsi, qarşılıqlı anlaşma və etimadın möhkəmləndirilməsi, tam və balanslaşdırılmış insan və ictimai-siyasi inkişafın təşviqi amili ola bilər. [109, s.122-127] Mədəni irs obyektləri yerli icmalar arasında ortaq tarixi və ümumi mədəni dəyərləri müəyyən etmək və təbliğ etməklə, sosial inklüzivliyin və birliyin güclənməsinə təsir göstərir. Ümumi dəyərlərin bölüşdürülməsi eyni qrupa aid olmaq hissini təşviq edir və yerli, regional və milli səviyyədə inteqrasiya, qürur, birlik və sabitliyin əsas elementinə çevrilir. [79, s.53-54]

Araşdırmalar və sorğular göstərir ki, Azərbaycanın şəhər və qəsəbələrinin sakinlərinin öz mədəni irsi ilə bağlılığına dair həm müsbət, həm də mənfi nümunələr vardır. Ekspert hesablamalarına görə, kiçik şəhərlərdə və qəsəbələrdə turizmin inkişafı əmək qabiliyyətli əhalinin 30 faizdən 70 faizə qədərini işlə təmin edə bilər. Bu gün Azərbaycanın ən çox turist axınlarının olduğu Şamaxı, İsmayıllı, Qəbələ, Quba, Qusar və digər rayonlar bu fikri təsdiq edir. Şuşaya, Ağdama və azad olunmuş digər rayonlara səfər etmək arzusunda olanların sayının durmadan artması da göz qabağındadır.

Azlıqların siyasi və sosial təcrid olunması kontekstində mədəni irs obyektlərinin qorunub saxlanılması və təbliği ilə bağlı layihələr insan haqları, mədəniyyət və azlıqların problemləri, ayrı-seçkilik və millətlərarası zorakılıq kimi məsələlərdə maarifləndirməni gücləndirir.

Mədəniyyət layihələri qarşılıqlı anlaşma, sosial birlik və vətəndaş iştirakının təşviqində, həmçinin insan, mədəni və azlıqların hüquqlarının gücləndirilməsində həqiqətən effektiv olduğunu sübut edir. Bundan əlavə, onlar həm yerli, həm də milli səviyyədə demokratik proseslərin və idarəetmə strukturlarının möhkəmlənməsinə kömək edir. Mədəni irs obyektlərinin səmərəli bərpası və idarə edilməsi üçün müxtəlif etnik icmalardan və sosial qruplardan olan ekspertləri, işçiləri, alimləri və geniş auditoriyanı bir araya gətirməyə, qarşılıqlı etimad yaratmağa kömək edir və ümumi ənənələri, dəyərləri və məqsədləri aşkara çıxarmaqla, eyni icmaya aidiyyət hissini gücləndirərək, əməkdaşlıq və birgə işlərə həvəsləndirir.

Mədəni irsin qorunması o deməkdir ki, ölkədə kollektiv yaddaşın və ümumi identikliyin bərpasına çalışılır və bu səylər vasitəsilə ictimai birlik və harmoniya üçün əsaslar yaranır. Mədəni irsin qorunması, həm də müəyyən bir ərazidə mövcud olan, hər birinin özünəməxsus kimliyi və xarakterləri olan müxtəlif icmalar arasında daha yaxşı anlaşma və etimadın təşviq edilməsi deməkdir. Bu, hər bir etnik mənsubiyyət üçün mədəni fərqlərin tanınması və hörmət edilməsini və mərkəzi hökumət tərəfindən demokratik, insani, mədəni dəyərlərin qorunmasını tələb edir. Bu, son nəticədə, davamlı sosial-siyasi inkişaf siyasətinin həyata keçirilməsinin əsas ünsürü kimi ictimai harmoniyanın, idarəetmənin və siyasi sabitliyin təkmilləşdirilməsinə gətirib çıxarır.

## 1.5. Mədəni irsin qorunub saxlanılması və bərpasına dövlət dəstəyinin və müdaxiləsinin zəruriliyi

Hazırda mədəni irsin iqtisadiyyatında dövlət qurumlarının kifayət qədər diqqət yetirmədiyi əsas problem: mədəni irsə dövlət dəstəyinin, onun qorunub saxlanılması, o cümlədən təmir-bərpa işlərinin aparılması üçün tələb olunan büdcə vəsaitlərinin ayrılması

zərurətinin əsaslandırılması; mədəni irs obyektlərinin bazar dövriyyəsinə çıxarılması, yəni abidələrin müasir iqtisadi şəraitdə kommersiya məqsədləri üçün uyğunlaşdırılmasıdır.

Mədəni irsin qorunub saxlanmasına dövlət müdaxiləsinin məqsədəuyğunluğu ilə bağlı növbəti hal - bazar sövdələşməsində iştirak etməyən üçüncü şəxslərə təsir edən xarici təsirlərlə bağlıdır. Məsələn, daşınmaz əmlak sahibləri şəhərin tarixi tikililərinin qorunması proqramı ilə birbaşa maraqlıdırlar. Onlar təmir-bərpa işləri aparır, bunun müqabilində dövlətdən öz xərclərinin bir hissəsini müxtəlif vergi güzəştləri şəklində kompensasiya etmək imkanı əldə edirlər. Lakin bütövlükdə cəmiyyət bu prosesdə birbaşa iştirak etməsə də, şəhərlərin görkəminin yaxşılaşdırılmasından faydalanır.

Nəhayət, mədəni irsin mühafizəsi sahəsinə dövlət müdaxiləsinin üçüncü halı informasiya asimmetriyası ilə bağlıdır. Belə şəraitdə, ayrıca şəxs konkret mədəni irs obyektinin real mədəni dəyəri və əhəmiyyəti haqqında əhəmiyyətli dərəcədə az məlumatlı olduqda. onun irsin qorunması ehtiyacları və istehlakçı tələbatı da (tarixi yerləri görmək, ziyarət etmək arzusu, mədəni turizm və s.) daha aşağı səviyyədə özünü biruzə verir. Aydındır ki, informasiya asimmetriyası potensialını daşıyan mədəni irs dövlət tərəfindən adekvat fəaliyyət tələb edir.

Baumolun "qiymət xəstəliyi" mədəni irsin qorunması ilə bağlı dövlət maliyyəsinin çatışmazlığını izah edir. V.Baumol və V.Bouen ABŞ və Böyük Britaniyada bir neçə onilliklər ərzində ifaçılıq sənəti təşkilatlarının böyük həcmdə maliyyə hesabatlarını təhlil etdikdən sonra belə qənaətə gəldilər ki, ifaçılıq sənəti təşkilatları daimi maliyyə israfçılığı - xərcləri demək olar ki, həmişə qazanclarını üstələyən şərtlər altında fəaliyyət göstərirlər. Bu, onunla bağlıdır ki, ifaçılıq sənətində istehsal xərcləri son məhsulun qiymətindən daha sürətlə qalxır. Sonradan bu müəyyən edilmiş nümunə Baumol effekti və ya "qiymət

xəstəliyi" adlandırıldı. [157, s.16]

Mədəni irsin qorunmasının maliyyə problemləri də ifaçılıq sənətində olduğu kimidir, bu da, müasir bina və tikililərin nisbətən aşağı məsrəfləri ilə müqayisədə, bahalı materiallardan və yüksək ixtisaslı işçi qüvvəsindən istifadə edilməsi, təmir-bərpa işlərinin daha yüksək xərclərdə ifadə olunması ilə bağlıdır. [7, s.11-12]

*Meritor sərvətlər (merit mallar) nəzəriyyəsi* R.Masqreyv (R.Musqreyv) tərəfindən işlənib hazırlanan dövlət maliyyəsi nəzəriyyəsi [39] çərçivəsində təklif edilmişdir. Fərdi şəxslərin tələbatı cəmiyyətin istədiyindən geridə qalan və istehsalçılara subsidiyalar vasitəsilə dövlət tərəfindən stimullaşdırılan mallar *meritor* adlanır. *Meritor sərvətlərin* digər mümkün izahı ondan ibarətdir ki, "o, adi istehlak mallarından fərqlənən, ancaq ona məxsus dəyərə və ya daxili üstülüklərə malik mal və xidmətlər sinfini təmsil edir". [24, s.16-17] Mədəni irs obyektləri də, şübhəsiz ki, belə xüsusiyyətlərə malikdir.

R.Masqreyv özü, dövlətin maddi mədəni irsinə qayğı göstərməsinin zəruriliyini cəmiyyətdə fərdi istehlakla bilavasitə əlaqəsi olmayan kollektiv ehtiyacların olması ilə izah edirdi. Məsələ bundadır ki, mədəni irsin qorunub saxlanmasına dövlət dəstəyi cəmiyyətin maraqlarını reallaşdırmaq naminə həyata keçirilməlidir.

A.Rubinşteyn [93: 94, s.65-87] tərəfindən işlənib hazırlanmış *himayə olunan sərvətlər nəzəriyyəsi* meritor sərvətlər nəzəriyyəsinin və iqtisadi sosio-dinamika konsepsiyasının [23: 66] davamı oldu. Bu nəzəriyyənin özəyini, ənənəvi iqtisadi nəzəriyyənin xalis fərdiyyətçiliyindən fərqli olaraq, fərdi üstünlüklərin və sosial maraqların bir-birini tamamlaması (komplemantarlığı) prinsipi təşkil edir. Dövlətin bu işə müdaxiləsi bazar uğursuzluqlarını aradan qaldırmaq zərurəti ilə deyil, cəmiyyətin maraqlarını reallaşdırmaq istəyi ilə izah olunur. Bunu nəzərə alaraq, mədəni irs, təbii ki,

himayə olunan sərvətlər kateqoriyasına aid edilir.

Mədəni irsin iqtisadiyyatı ilə bağlı yuxarıda göstərilən nəzəriyyələrdən çıxarılan əsas nəticə ondan ibarətdir ki, fəaliyyəti uzunmüddətli iqtisadi artıma və insanların rifahının yaxşılaşdırılmasına yönəlmiş müasir dövlət, gələcək nəsillər qarşısında mədəni irsin qorunmasında öz məsuliyyətini dərk etməlidir. Eyni zamanda, nəzərə almaq lazımdır ki, bu sahəyə qoyulan dövlət sərmayələri tez geri qaytarılmır və buna görə də, bəzən dövlətin "uzaqgörən olmaması" çox vaxt istisnasız olaraq ani mənfəət əldə etmək arzusu ilə diktə olunur. Bu çətin şəraitdə, bir qayda olaraq, mədəni irs obyektlərinin şəhər iqtisadiyyatının inkişafına təsirlərinin qiymətləndirilməsi və müasir şəraitə uyğunlaşdırılmasının xüsusi təcrübəsi və ilə bağlı böyük praktiki potensiala malik olan tətbiqi işlər mühüm rol oynayır.

## 1.6. Qlobal miqyasda mədəni irsin qorunmasında YUNESKO-nun fəaliyyəti

Mədəni irsin qorunması sahəsində ilk komissiyalar və müfəttişlər 19-cu əsrin ortalarında ayrı-ayrı ölkələr səviyyəsində yaradılsa da, dünya birliyi çərçivəsində bu məsələ ancaq Birinci Dünya Müharibəsi zamanı qaldırılıb və bu istiqamətində bəzi addımlar atılıb. İkinci Dünya Müharibəsi illərində Millətlər Liqasının bir çox komitələri fəaliyyətini dayandırdı və ya ləğv edildi. Onlardan bəziləri yeni yaradılmış Birləşmiş Millətlər Təşkilatının Təhsil, Elm və Mədəniyyət Təşkilatının (YUNESKO) səlahiyyətinə keçdi. Daha çox dövləti öz fəaliyyətinə cəlb etmək üçün YUNESKO uzun müddət yeni Konvensiya üzərində çalışsa da, birincisi gözlənilən nəticəni vermədiyindən, təxminən 9 il ərzində yeni konsepsiyalar işlənib hazırlanmışdı. Burada əks olunan ən vacib maddələr 1954-cü ildə "Silahlı münaqişələr zamanı mədəni

sərvətlərin mühafizəsi haqqında" yeni Konvensiyada öz əksini tapdı. Sənəd imzalandığı yerə görə sonralar Haaqa Konvensiyası adlandırıldı.

Fərqləndirmə nişanı da təsdiqləndi, bundan sonra dünya birliyi tərəfindən əlavə qorunmaya ehtiyacı olan mədəni dəyərlərinin qeydiyyatı aparılmağa başlandı. Konvensiyanın ratifikasiyasından dərhal sonra məlum oldu ki, dünya, mədəni irsi təkcə müharibə dövründə deyil, həm də dinc vaxtlarda insanın zorakı fəaliyyətindən qorunmağa ehtiyac duyur.

Yeni qaydaların qəbulu üçün ilkin zəmin Misirdə Asuan bəndinin aktiv tikintisi olmuşdu, belə ki, tikintinin gedişində Nil çayının yuxarı axarındakı Əbu Simbel məbədləri üçün təhlükə yaranmışdı. Bu abidələr tamamilə su altında qalmaq və sonradan məhv olmaq təhlükəsi ilə üzləşmişdi. 1959-cu ildə Misir və Sudan hökumətləri YUNESKO-dan bu nadir qədim tikililərin qorunmasını xahiş etdilər.

YUNESKO dərhal güclü bir əməli fəaliyyətə başladı - məbədlər söküldü, yeni yerə daşındı və yenidən yığıldı. Bu hadisə, təşkilatın işində əlamətdar bir hadisə oldu, bundan sonra özünün əsas fəaliyyət istiqamətlərini, gələcək inkişaf konsepsiyasını və yeni dövlətlərin müttəfiqliyə cəlb edilməsi perspektivlərini müəyyən etməyə təkan verdi.

Təxirə salınmadan digər "xilasetmə" əməliyyatları da başladı: Venesiyanın və onun unikal laqonlarının; Pakistandakı Mahenco-Daro xarabalıqlarının; İndoneziyada Borobudur məbədi kompleksinin qorunması üzrə əhəmiyyətli tədbirlər görüldü. Qədim dəyərlərin bəziləri bərpa edildi, bəziləri indiki halında qorunub saxlanıldı, digərləri yeni yerə daşındı. Amma bu günə kimi onların hər birinə əlavə mühafizə və təşviq tədbirləri tətbiq edilir. Bu hadisələr Mədəni İrsin Qorunması üzrə yeni Konvensiyanın hazırlanmasına səbəb oldu. Bu, 1960-cı illərin əvvəllərində baş verdi.

YUNESKO-nun Ümumdünya İrs Siyahısının qlobal şəkildə rəsmiləşdirilməsi və təbliği məsələlərinin müzakirə olunduğu konqreslər və iclaslar müntəzəm olaraq keçirilməyə başladı. 1972-ci il noyabrın 16-da YUNESKO-nun Baş Konfransının 17-ci sessiyasında Mədəni və Təbii İrsin Mühafizəsi üzrə yeni Konvensiyanın iştirakçısı olan bütün ölkələr tərəfindən əsas müddəalar formalaşdırıldı və qəbul edildi. Bundan sonra YUNESKO-nun Ümumdünya İrs Siyahısının formalaşdırılmasına başlanıldı.

1976-cı ildə vahid Ümumdünya İrs Komitəsi yaradıldı. Onun əsas vəzifəsi Konvensiyanın müddəalarına əməl olunmasına nəzarət etmək, habelə konkret obyektin Siyahıya daxil edilməsi ilə bağlı yekun qərar qəbul etməkdir.

YUNESKO qlobal miqyasda mədəni və tarixi dəyərlərin qorunub saxlanmasında mühüm rol oynayır. YUNESKO BMT-nin təhsil, mədəniyyət və elm sahəsində siyasətinin tərkib hissəsidir. Fəaliyyətin əsas strategiyası ölkələr arasında əməkdaşlıq təcrübəsi üçün vahid normativ hüquqi bazanın yaradılmasıdır. Bu cür tədbirlər təkcə milli səviyyədə deyil, həm də beynəlxalq səviyyədə mədəni prosesləri inteqrasiya etməyə imkan verir.

Beynəlxalq mədəniyyətə, elmə və təhsilə təsir edən real hadisələrin təhlili mütəmadi olaraq həyata keçirilir. YUNESKO təkcə analitik deyil, həm də nəşriyyat fəaliyyəti ilə məşğuldur. Təşkilatın qrifi ilə bölgənin, məhəllələrin və dünyanın mədəni irsinə aid müntəzəm olaraq çoxlu kitab, məqalə və nəşrlər buraxılır. Oxucular arasında populyar olan dövri nəşrlərin sayı son illətdə azalsa da, bu, Ümumdünya İnternet Şəbəkəsinin təsiri altında baş verib, çünki bütün məlumatlar ictimaiyyətə açıqdır. Bir çox dövri nəşrlər artıq rəqəmsallaşdırılıb, rəqəmsal kitabxanalara daxil edilib, ona görə də kağız nəşrlər unudulmağa başlayıb.

# II FƏSİL. MÜASİR ŞƏRAİTDƏ MƏDƏNİ İRSİN QORUNMASI VƏ BƏRPASININ İQTİSADİ KOMPONENTLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ VƏ İDARƏ OLUNMASI

## 2.1. Mədəni irsin qorunması və bərpasının birbaşa və dolayı iqtisadi təsirlərinin qiymətləndirilməsi

Mədəni irsin qorunması və uyğunlaşdırılması sahəsində tətbiqi tədqiqatlarda iqtisadi komponentin lazımi səviyyədə qiymətləndirilməməsinə diqqət yetirilir. Bu zaman, mədəni irsin iqtisadi qiymətləndirilməsi iki komponenti: mədəni və tarixi daşınmaz əmlakın şəxsi sərvət hesab edildiyi istifadə dəyərini; üstəgəl, obyektin istifadəsi ilə əlaqəli olmayan ictimai sərvət kimi qiymətini əhatə edir. Bu kontekstdə, obyektin kirayə haqqına onun kommersiya məqsədləri üçün istifadə dəyəri ilə müqayisədə baxılır. Mədəni irsin qeyri-bazar dəyəri onun sosial əhəmiyyətini əks etdirir, ona görə də "layihənin iqtisadi qiymətləndirilməsi ən azı müəyyən dərəcədə mədəni dəyərləri nəzərə almalıdır". [100, s.114]

Sənətşünaslar (yaxud daha geniş mənada incəsənət adamları) və mədəniyyət iqtisadiyyatı mütəxəssisləri mədəni fəaliyyətin nəticələrini nə dərəcədə fərqli qiymətləndirmələri də maraqlıdır. İncəsənət adamları mədəni fəaliyyətin iqtisadi qiymətləndirilməsinə əsaslanan tədqiqatlara üstünlük verirlər. Mədəniyyətlə məşğul olan iqtisadçılar isə müsbət xarici təsirlərin mahiyyətini anlamaq və bazar mexanizmi tərəfindən nəzərə alınmayan, mədəni fəaliyyət nəticələrini qiymətləndirməyə imkan verən tədqiqatlara daha çox diqqət yetirirlər. [22, s.2]

Mədəni irsin iqtisadi qiymətləndirilməsinə dair empirik tədqiqatlarda üç əsas yanaşma mövcuddur:

– mədəni irsin qorunması sferasının makroiqtisadi təhlili;

– şərti qiymətləndirmə metodu (ŞQM);

– təsir və ya təzahür tədqiqatları.

Mədəni irsin qorunub saxlanmasının makroiqtisadi təhlili, bu sahənin xərclərinin və gəlirlərinin milli iqtisadiyyat kontekstində qiymətləndirilməsi ilə bağlıdır. Söhbət, mədəni irs obyektlərində təmir-bərpa işlərinə ayrılan vəsaitin həcminin ümumi qiymətləndirilməsindən, bu sahədə məşğul olanların sayından, büdcəyə vergi ayırmalarının ümumi məbləğindən, giriş haqqından maliyyə daxilolmalarının məbləğindən (əgər varsa) gedir. Bu təhlil, həmin sahədə ümumi maliyyə axınlarını və onun ölkənin ümumi milli məhsuluna töhfəsini qiymətləndirməyə imkan verir.

*Şərti qiymətləndirmə üsulları* istehlakçıların sözügedən ictimai sərvətin, bu halda, mədəni irsin qorunması üçün ödəməyə maksimum hazırlığını göstərir. Respondentə, məqsədi - ödəməyə hazır olduğu məbləği cavablandırmaq olan suallar verilir (sorğu telefon, poçt və ya müsahibə yolu ilə aparılır). Suallardan asılı olaraq, alınan məlumatlar müxtəlif üsullarla işlənir. D.Trosbiyə görə, "şərti qiymətləndirmə metodu və əlaqəli üsullar, tələbin normal bazar kanalları vasitəsilə ifadə oluna bilsəydi, tələb funksiyasının nə olacağını hesablayaraq, iqtisadi dəyəri müsbət xarici təsirlərə və ya ictimai sərvətlərə aid etmək mümkün olardı". [100, s.46] Bu yanaşmanın əhəmiyyətli çatışmazlığı – "insanların real deyil, hipotetik iqtisadi seçim vəziyyətində nümayiş etdirdiyi və bəyan etdikləri üstünlüklərin qiymətləndirilməsidir". [59, s.24]

Nümunə olaraq, 2014-cü ildə Sankt-Peterburqdakı Avropa Universitetinin Ermitajın 250 illiyinə həsr olunmuş " Ermitaj şəhər və vətəndaşlar üçün: muzeyin iqtisadi və sosial vəziyyətinin qiymətləndirilməsinin nəticələri" adlı tədqiqatı göstərmək olar. Burada,

Sankt-Peterburq şəhərinin həyatına qatqı (töhfə), əsasən, ödəməyə hazırlığın müəyyənləşdirilməsinə əsaslanırdı. Bu metodologiyaya görə, ümumi iqtisadi effekt üç komponentdən: birbaşa təsir, dolayı təsir və multiplikator təsirdən ibarətdir.

Birbaşa təsir, Ermitajın il üçün ümumi maliyyə gəliri (federal büdcədən vəsaitlər; əsas qanunvericilik fəaliyyət növlərindən gəlirlər; xeyriyyə ianələri və sponsorluq fondları) əsasında hesablanırdı. 2013-cü il üçün birbaşa iqtisadi təsir 5,2 milyard rubl təşkil edirdi. [110, s.30]

Dolayı təsir, şəhərdən kənarda olan və Ermitajı ziyarət edən xarici ziyarətçilərin şəhərdəki xərclərinin (yaşayış, yemək, nəqliyyat, alış-veriş) smetasına əsasən hesablanırdı. Hesablama metodologiyası - ildə ziyarətçilərin sayını şəhərdə qalan günlərin sayına və bir gündə sərf olunan orta məbləğə vurmaqla aparılırdı. Turistlərin xərclərini hesablamaq üçün respondentlərdən, gündəlik xərclərin təxmini məbləğini qeyd etmək istənilirdi. Nəticədə, 2013-cü ildə Ermitajın dolayı iqtisadi təsiri 19,3 milyard rubl təşkil etmişdi. [110, s.39]

Dolayı effekt və ya multiplikator təsiri muzeyin illik xərclərinin məbləğinə (birbaşa təsir), muzeyə gələnlərin illik xərclərinin məbləğinə (dolayı təsir) və multiplikator əmsalına vurulmaqla hesablanırdı. 2013-cü ildə Ermitajın dolayı iqtisadi təsiri 1,50 multiplikatorla 35 milyard rubldan çox olmuşdu. [107, s.42] Nəticədə, 2013-cü ildə Ermitajın ümumi iqtisadi effekti təxminən 60 milyard rubl təşkil etmişdi.[110, s.42] Eyni zamanda, bir sıra təsdiqlənməmiş fərziyyələri və bu metodologiyanın əsas müddəalarının əsassızlığını qeyd etməmək mümkün deyil, bu da əldə edilən nəticələrin və muzey fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsi metodunun özünün dəyərini bir qədər aşağı salır.

Təsir və ya təzahür tədqiqatları mədəni irsin iqtisadi göstəricilərini həm birbaşa, həm də dolayı yolla (əlaqəli sənayelərdə)

mədəni irs obyektlərinin təmiri və bərpası nəticəsində əldə edilən gəlirlər baxımından ölçür. Bu tədqiqatlar, siyasətçilər və dövlət dəstəyi tərəfdarları arasında çox populyardır, çünki mədəni irsin qorunması sahəsində dövlət xərclərinin iqtisadi cəhətdən əsaslandırıldığını göstərir.

Bunun bariz nümunəsi kimi ötən əsrin 1970-ci illərindən ABŞ-da həyata keçirilən və əsas məqsədi şəhərlərin tarixi görkəminin bərpası və dirçəldilməsi olan - Tarixi Qoruma Milli Trestinin "Baş Küçə" ("Main Street") proqramını göstərmək olar. Proqramın nəticələri göstərir ki, "cəmi üç il ərzində Main Street layihəsinə yatırılan hər dollar şəhərin tarixi mərkəzi bölgəsində orta hesabla 11 ABŞ dolları həcmində yeni investisiya yaradıb". [91, s.140]

Mədəni irs özəl sektor, müstəqil biznes strukturları və kreativ məhəllələrin inkişafi baxımından regionların, şəhərlərin və kənd yerlərinin cəlbediciliyinin mühüm tərkib hissəsidir. Belə ki, Hamburqda aparılan araşdırmaya görə, kommersiya istifadəsinə uyğunlaşdırılmış mədəni və tarixi irs obyektləri biznesin yerləşdirilməsi baxımından çox məşhurdur: işəgötürənlərin 87%-i ofislərinii tarixi binaya köçürdükdən sonra iş mühitinin yaxşılaşdığını qeyd edib; müştərilərinin 73%-i belə ofisin yerləşməsinə müsbət münasibət bildirib.[14, s.21, 161]

Konkret təcrübə də yeni iş yerlərinin açılmasından xəbər verir ki, onların da əksəriyyəti yerli əhali arasındandır. Bu zaman, xərclərin 70%-ə qədəri əməkhaqqına gedir, beləliklə, yatırılan vəsait regionda qalır, ərazinin investisiya cəlbediciliyinin yaxşılaşdırılmasında iştirak edir, həmçinin yerli biznes mühitinin, əsasən də kiçik biznesin inkişafına töhfə verir. [14, s. 162] Bundan əlavə, mədəni irs obyektlərinin təmiri və bərpasına bir qayda olaraq, yeni tikintiyə cəlb olunan işçi qüvvəsindən fərqli olaraq, daha yüksək ixtisaslı işçilər cəlb

olunur ki, bu da, peşəkarlıq səviyyənin yüksəldilməsinə, peşəyə yaradıcı yanaşmaya və bununla da ümumilikdə insan potensialının təkmilləşdirilməsinə əlavə stimul verir.

Mütəxəssislərin qiymətləndirmələrinə görə, mədəni irs, onun qorunub saxlanması ilə bilavasitə bağlı olan 1 iş yerinə 26,7 dolayı iş yeri yaradır ki, bu da, məsələn, avtomobil sənayesində analoji göstərici (6,3 dolayı iş yeri) ilə müqayisədə xeyli çoxdur. Avropada mədəni irsin mühafizəsi sektorunda birbaşa işləyənlərin sayı 300 min nəfərə yaxındır, lakin əlaqədar sahələrdə iş yerlərinin yaradılmasına dolayı təsir 7,8 milyon nəfər olaraq qiymətləndirilir. Dünya Bankının məlumatına görə, 2001-ci ilə kimi tarixi binaların bərpasına qoyulan hər milyon dollar 31,3 iş yeri, sənaye istehsalına eyni miqdarda investisiya isə əmək bazarında cəmi 21,3 iş yeri yaradır. [157, s.22]

Makkenzi audit və konsaltinq şirkətinin (McKinsey and Company (2001)) hesabatına görə, Londonun cənub sahilindəki keçmiş sənaye zonasının yenidən qurulmasından sonra bu, Böyük Britaniyada ən çox ziyarət edilən üçüncü turizm məkanı olub. Eyni zamanda, 2100-3900 iş yeri açılıb, ölkə iqtisadiyyatına töhfə təxminən 75-140 milyon funt sterlinq təşkil edib ki, bunun da 50-70 milyon funt-sterlinqi birbaşa London iqtisadiyyatı ilə bağlıdır. Onu da qeyd etmək lazımdır ki, 1997-ci ildən 2000-ci ilə qədər mehmanxana və iaşə obyektlərinin sayı 23% artmışdı. Bu, 1800-ə yaxın turizm xidməti iş yerinin yaradılması ilə nəticələnmişdi. [14, s.159-160]

Bundan əlavə, təmir-bərpa işləri yüksək əmək tutumluluğu (xərclərin 60-80% -i, yeni tikinti üçün isə yalnız 50%) ilə xarakterizə olunur. Mədəni irsin ayrı-ayrı komponentlərinin həyat dövrü 25-40 ildir, ona görə də, hər il tarixi binaların cəmi 2-3%-i bərpa işlərinə ehtiyac duyur. Mədəni irs obyektinin uyğunlaşdırılması, ona yeni funksionallıq verilməsi mədəni-tarixi daşınmaz əmlak obyektinin

təsərrüfat dövriyyəsinə buraxılmasına imkan verir. [45, s.113-118]

Bu sahədə aparılan tədqiqatlar irs və mədəni turizm arasında birbaşa əlaqə olduğunu göstərir, belə ki, bu, ümumi dünya turizminin 37%-ni təşkil edir və onun illik artım tempi 15%-dir. Tarix və mədəniyyət abidəsinin öz ərazisinə çəkilən xərclər yalnız turistin bu ərazidə xərclədiyi ümumi məbləğin 6-10%-i təşkil edir. [45, s.6-7]

Amerika qeyri-kommersiya təşkilatının (Americans for the arts) məlumatına görə, bir mədəniyyət obyektinə ziyarət edənlər, ziyarətin özünə əlavə olaraq, yemək, suvenirlər, nəqliyyat, mənzil və s. xərclərinə hər adam və bir ziyarət başına orta hesabla 27,79 dollar xərcləyirlər. Üstəlik, yerli sakin üçün bu əlavə xərclər, gəlmə bir ziyarətçidən təxminən iki dəfə azdır ki, bu da, müvafiq olaraq 40,19 dollara qarşı 19,53 dollardır. Tədqiqatın nəticələri təsdiq edir ki, mədəni yerlərə səyahət edən turistlər daha çox pul xərcləyirlər, qonaqpərvərlik sənayesindən istifadə edirlər və yerli əhaliyə və ya yaxın ərazilərin sakinlərinə nisbətən daha uzun müddət qalmağa meyllidirlər, buna görə də, mədəni və tarixi irsin qorunması region ərazisinin sosial-iqtisadi inkişafının katalizatoruna çevrilir. [6, s.15-16]

Mədəni irsin qorunmasının digər nəticəsi, əlaqəli sahələrin - qonaqpərvərlik sənayesinin, nəqliyyat və kommunal infrastrukturun inkişafıdır. ABŞ-da Main Street layihəsinin həyata keçirilməsinin 35 ildən çox tarixi ərzində on minlərlə kilometr yol yenidən qurulmuş və ya tikilmiş, elektrik şəbəkələrinin, su təchizatının, qaz təsərrüfatının, kanalizasiya sistemlərinin texniki vəziyyəti və s. təkmilləşdirilmişdir ki, bu da öz növbəsində, həyat keyfiyyətinin yaxşılaşmasına və ərazinin investisiya cəlbediciliyinin artırılmasına xidmət etmişdir. “Mədəni irs obyekti özlüyündə, yalnız minimal dərəcədə iqtisadi dəyər daşıyır”. [45, s.113]

Belə ki, 2008-2009-cu illərin qlobal maliyyə böhranı zamanı

Fransa Mədəniyyət Nazirliyi nəinki irsin qorunub saxlanılması, həm də bu sahədə yeni iş yerlərinin yaradılması, habelə iqtisadi tənəzzül dövründə mədəni və iqtisadi inkişafı stimullaşdırmaq üçün tarixi-mədəni obyektlərdən istifadə etmək məqsədilə müxtəlif mədəni irs obyektlərinin təmiri və bərpasına 100 milyon avro sərmayə qoymuşdu. [30, s.38]

Mədəni irs onun qorunmasına qoyulmuş kapitaldan yaxşı gəlir nümayiş etdirir və həm mədəni irsin qorunması ilə bilavasitə bağlı iqtisadi fəaliyyətlərdən, həm də mədəni irsin istifadəsinə yönəlmiş layihələrin həyata keçirilməsindən dolayı xarici təsirlər hesabına, dövlət vergi daxilolmalarını əhəmiyyətli dərəcədə artıran generatorudur, bu isə öz növbəsində, yeni investisiyaların cəlb edilməsinə kömək edir.

1997-ci ildə Hollandiyada mədəni irsin mühafizəsi sahəsində Hollandiya siyasətinin iqtisadi səmərəliliyini qiymətləndirmək üçün tədqiqat aparılmışdır. Tarixi binaların sahibləri təmir-bərpa işləri üçün dövlət qrantları üçün müraciət edə bilərdilər. Nəticədə, dövlətin yatırdığı hər dollar 2,78 dollar investisiyaya yüksəlib, yəni mədəni irsin qorunması sahəsinə özəl investisiyalardan, sponsorluqdan və xeyriyyəçilikdən 1,78 dollar cəlb edilib. Hökumətin yatırdığı hər dollar 0,74 ABŞ dolları həcmində iqtisadi gəlirlə nəticələnib. Beləliklə, 1 dollar investisiya əslində dövlətə cəmi 0,26 dollara başa gəlib. [16, s.33]

Bundan əlavə, mədəni irsin nəticələrinin qiymətləndirilməsi onların dar miqyasda ölçülməsindən, əsasən turistlərin sayı baxımından qiymətləndirilməsindən və ya ziyarətçilərin növü, onların istehlakının xarakteri və qalma xərcləri baxımından, yerli səviyyədə daha diqqətlə təhlil edilməsindən asılı olaraq, fərqli şəkildə dəyərləndirilə bilər. Mədəni irsin qorunması və bərpası üzrə müxtəlif təşəbbüslər yerli mədəni irsin unikallığına, regional və yerli həyat tərzinə, ənənələrinə, resurslarına və ehtiyaclarına uyğun olmalıdır.

Həmçinin regionda sosial-iqtisadi, mədəni və ekoloji inkişafın bütün aspektləri, eləcə də yerli turizmin potensial qazancı və xərcləri nəzərə alınmalıdır. Müxtəlif maraqlı tərəflərə aid olan nəticələrin və uğurlu inkişaf üçün tədbirlərin tapılması həm turizmə iqtisadi təsirə (birbaşa təsir, turizm multiplikatoru), həm də onun sosial dəyərinə və davamlılığına töhfə verə bilər.

## 2.2. Müasir şəraitdə mədəni irs obyektlərinin qorunub saxlanılması, bərpası və ondan istifadə problemləri

Müstəqilliyini bərpa etdikdən sonra ölkəmiz bir sıra əhəmiyyətli beynəlxalq və regional təşkilatlarla əməkdaşlıq siyasətini həyata keçirir. Dünya səviyyəli mütəxəssislərin, texniki yardımların, kadrların hazırlanması, qlobal elmi layihələrdə iştirak etmək məqsədilə 1992-ci ildə Azərbaycan dövləti YUNESKO ilə əməkdaşlığa başlayıb. Azərbaycan artıq beynəlxalq səviyyədə mədəniyyətlərarası dialoqun mərkəzinə və təşkilatçısına çevrilib. Bu baxımdan son illər dövlətimizin nüfuzlu beynəlxalq konfranslara ev sahibliyi etməsi təsadüfi deyildir.

Ölkə Prezidenti Ilham Əliyevin böyük diqqət və qayğısı sayəsində Azərbaycanda tarixi abidələrin tədqiqi, mühafizəsi və bərpası, mədəniyyət nümunələrinin beynəlxalq aləmdə təbliği istiqamətində böyük işlər görülür. Bütün bunlar isə Azərbaycanın qlobal dünyaya öz maddi və mənəvi mədəniyyəti ilə birgə inteqrasiyasını təmin edir.

"Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında mədəni irsin qorunması və səmərəli idarə edilməsi ölkənin strateji inkişaf istiqamətlərindən biri kimi qeyd olunur. Bu Konsepsiyanı həyata keçirmək və milli mədəni irsin qorunmasını təmin etmək məqsədilə Prezident İlham Əliyevin müvafiq Fərmanı ilə "Daşınmaz tarix və mədəniyyət abidələrinin bərpası, qorunması, tarix və mədəniyyət qoruqlarının fəaliyyətinin təkmilləşdirilməsi və inkişafına

dair 2014-2020-ci illər üzrə Dövlət Proqramı" təsdiq edilib. Bu müddət ərzində Dövlət Proqramının icrası məqsədilə milli pasportların və xəritələrin hazırlanması, normativ bazanın gücləndirilməsi, abidələrin təbliği istiqamətində bir sıra işlər həyata keçirilib.

Son zamanlar Azərbaycan Respublikasında mədəni irs obyektlərinin (bundan sonra - MİO) qorunub saxlanılmasına və bərpasına, habelə onların potensialından şəhərlərin, qəsəbələrin və ərazilərin iqtisadi və sosial inkişafı üçün istifadə edilməsinə böyük diqqət yetirilir. Bu fəaliyyət, əhəmiyyətli maliyyə investisiyalarını da əhatə edir. Bərpa işlərinin və mədəni irs obyektlərinin saxlanması üzrə tədbirlərin görülməsi yalnız müxtəlif səviyyəli büdcələr hesabına ödənilə bilməz. Hazırda ən aktual olan, ciddi büdcə məhdudiyyətləri şəraitində MİO-nun qorunması və inkişafı üçün müxtəlif mənbələrdən maliyyə resurslarının birləşdirilməsi mexanizmlərinin axtarışıdır.

Azərbaycan memarlığının YUNESCO tərəfindən Ümumdünya mədəni irs siyahısına: Bakıda Şirvanşahlar Sarayı və Qız Qalası ilə birlikdə Köhnə Qala (2000); Qobustan qayaüstü rəsmlərinin mədəni mənzərəsi (2007); Xan Sarayı ilə birlikdə Şəkinin tarixi mərkəzi (2019) daxil edilmişdir. Hazırda digər tarixi yerlər və abidələrimizin də bu siyahıya daxil edilməsi istiqamətində işlər davam etdirilir. Azərbaycan Respublikası 1992-ci ildə YUNESCO-ya üzv qəbul edilmiş, 1996-cı ildə isə YUNESCO və Azərbaycan arasında əməkdaşlıq haqqında memorandum imzalanmışdır.

Artıq beş ildir ki, dövlət başçısının müvafiq Fərmanı ilə mədəni irsimizin qorunması, inkişafı və təbliğinə bilavasitə cavabdeh olan dövlət qurumu - Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti yaradılıb. Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti mədəni irsin qorunması, "İçərişəhər" Dövlət Tarix-Memarlıq və "Qala" Dövlət Tarix-Etnoqrafiya qoruqlarının

ərazilləri istisna olmaqla, dövlət mühafizəsində olan daşınmaz tarix və mədəniyyət abidələrinin istifadəsi, bərpası, rekonstruksiyası, konservasiyası və yenidən qurulması sahəsində dövlət nəzarətini həyata keçirən icra hakimiyyəti orqanıdır. Ötən müddət ərzində Dövlət Xidməti ölkəmizdə bir sıra tarixi abidələrin bərpa və konservasiyasını həyata keçirib, hazırda bu istiqamətdə görülən işlər davam etdirilir.

Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin Regional idarələrini yaratmaqda əsas məqsəd - abidələrin mühafizəsinin həyata keçirilməsini asanlaşdırmaqdır. Belə ki, bu gün ölkəmizin bütün regionlarını əhatə edən 6000-ə yaxın Dövlət Qeydiyyatında olan mədəni irs abidələrini qorunması, istifadə və idarə edilməsi, həmçinin onlara nəzarət edilməsinin Bakıdan – Mərkəzi ofisdən həyata keçirilməsi mümkünsüzdür. [140]

Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti tərəfindən mədəni irsin qorunması işinin kompleks şəklində təşkil edilməsi məqsədilə abidələrin pasportlaşdırılması və mühafizə zonalarının müəyyənləşdirilməsi işləri 2021-ci ildə də davam etdirilib. İl ərzində 110 tarix və mədəniyyət abidəsinin pasportu hazırlanıb, 72 abidənin isə mühafizə zonası ilə bağlı sənədləri başa çatdırılıb. Daha 155 abidənin 2022-ci il ərzində hazırlanması və daha 108 abidə ilə bağlı mühafizə zonasına dair layihənin hazırlanması nəzərdə tutulur. Hazırda abidələr tarixilik və önəmlilik dərəcəsinə görə bərpa siyahısına salınır. [150]

Görülən vacib işlərdən biri də daşınmaz tarix və mədəniyyət abidələrinin bərpası və qorunması ilə bağlıdır. Şabran rayonunda yerləşən dünya əhəmiyyətli "Çıraqqala" abidəsində bərpa-konservasiya işləri yekunlaşmaq üzrədir. V-VI əsrlərə aid "Çıraqqala" mərkəzi qala da daxil olmaqla 17 bürcdən ibarət düzbucaqlı formaya malikdir. Ötən müddət ərzində Azərbaycan Respublikası Prezidentinin imzaladığı

Sərəncama əsasən bərpa-konservasiya işlərinə start verilib və bərpa üzrə zəruri tədbirlər görülüb. Dəniz səviyyəsindən 1234 metr hündürlükdə yerləşən bu abidənin bərpası həm daxili, həm də xarici ziyarətçilər üçün böyük maraq kəsb edəcəkdir.

Ölkəmizin zəngin mədəni irsinin təbliği, milli memarlıq və bərpaçılıq sənətinin təşviqi, tarix və mədəniyyət abidələrinin qorunması sahəsində fəaliyyətin dəstəklənməsi və stimullaşdırılması məqsədilə 2013-cü ildən etibarən Mədəniyyət Nazirliyi tərəfindən "Milli irs mükafatı" təsis edilib. Bu mükafat, mədəni irsimizin təbliği, milli memarlıq və bərpaçılıq sənətinin təşviqi, tarix və mədəniyyət abidələrinin qorunması sahəsində fərqlənmiş şəxslərə və təşkilatlara təqdim olunur. [141]

Bəzi abidələrin ətrafında sel sularından mühafizə üçün drenaj sistemi qurulmuş, ərazisi işıqlandırılmış, qoruqlara gedən magistral yollarda informasiya lövhələri və yol nişanları quraşdırılmışdır. Qoruqların bir qisminin maliyyələşdirilməsi dövlət büdcəsinin yerli xərclərindən mərkəzləşdirilmiş xərclərinə keçirilmişdir. Daşınmaz tarix və mədəniyyət abidələrinin pasportlaşdırılması və mühafizə zonalarının müəyyən edilməsi istiqamətində işlər davam etdirilir.

Müasir sosial-iqtisadi münasibətlərdə mədəni irs obyektlərindən istifadə problemi təkcə Azərbaycanda deyil, malik olduğu mədəni irsi qoruyub saxlamağa çalışan bütün ölkələrdə də mövcuddur. MİO-ların xüsusi mülkiyyətçiyə aid olduğu dövlətlərdə həmin obyektdən istifadə dövlətin və cəmiyyətin ciddi nəzarəti altında həyata keçirilir. Bir qayda olaraq, qanunla tarixi-mədəni dəyərə malik olan obyektlərdən istifadə qaydası və üsulu ilə bağlı bir sıra məhdudiyyətlər qoyulur. ABŞ, Almaniya, Böyük Britaniya, Fransa, İtaliya, Yaponiya və s. belə ölkələrdəndir. Azərbaycandanda bu mexanizmlər yenicə formalaşmağa başlayıb.

Mədəni irs abidələrin saxlanılması və istifadəsi təcrübəsi demək olar ki, həmişə bir sıra həll edilməmiş məsələlərlə üzləşir. Bu gün həm də memarlıq irsindən istifadə, onun saxlanılmasının ən yaxşı üsullarından biridir. Mədəni irsin qorunub saxlanması sahəsində Azərbaycan təcrübəsi də son zamanlar bir qədər intensivləşməyə məruz qalıb, lakin bir sıra məhdudiyyətlər qalmaqdadır:

- səthi institusionallaşma, dövlətin həddən artıq məsuliyyəti, funksiya və səlahiyyətlərin kifayət qədər aydın şəkildə bölüşdürülməməsi;
- ictimai təşkilatlar mədəni-tarixi irsin qorunub saxlanması üçün fəal işləməklə bir çox işlər görsələr də, çox vaxt onların təşkilati potensialı zəif olur və nəticədə, ancaq dar peşəkar xüsusiyyətlərə malikdirlər;
- bir sıra mədəni irs obyektləri dövlət orqanları ilə ictimai təşkilatlar arasında konstruktiv iş əlaqələrinin olmaması və həll edilməmiş münaqişələrlə xarakterizə olunur;
- mədəni irsin əhəmiyyətinin dərk edilməsinə yönəlmiş məqsədyönlü və sistemli təbliğat və izahat işinin kifayət qədər aparılmaması və onun qorunmasında bütün maraqlı tərəflərin əməkdaşlığının lazımi səviyyədə olmaması;
- peşəkar genişmiqyaslı tədbirin olmaması (Fransadakı Heritage Salonuna bənzəyən);
- daşınmaz irs anlayışı onun "insani ölçüsündən" - insanların həyat tarixi, adət-ənənələri, yerli icma ilə əlaqələri və s. ayrılır. Müvafiq olaraq, çox vaxt işin yalnız maddi tərəfinə diqqət yetirilir;
- fərdi sahibkarlarla maarifləndirmə işinə və onların tarixi obyektlərin uyğunlaşdırılması üçün mümkün istifadə və texnologiyaları ilə tanışlığına ehtiyac var.

Azərbaycanın bir çox kiçik şəhərlərində və kənd yerlərində məskunlaşma sistemindəki dəyişikliklər, xüsusən 30 ilə yaxındır ki, Ermənistanın işğalçı təcavüzü ucbatından məcburən cəlb olunduğumuz müharibə səbəbindən, bəzi mənfi demoqrafik meyillər baş vermiş, işğal zonası və ətrafındakı ərazilərdə mədəni irs abidələrinə böyük zərər vurulmuş, bəziləri tamamilə dağıdılmışdır. İqtisadi fəal əhalinin təkcə kənd yerlərindən deyil, həm də kiçik şəhərlərdən intensiv köçməsi hələ də davam etməkdədir, nəticədə, mədəni landşaftın davamlılığı pozulur, nəinki nadir tarix və mədəniyyət abidələrinin mövcudluğu, həm də bütün kənd yerlərinin sosial-iqtisadi inkişafı ləngiməkdədir. Təcrid olunmuş və ucqar ərazilərə çevrilən kiçik və xırda kəndlərin sayı artır, iri şəhərlərlə kənd yerləri arasında "sivilizasiya" mədəni fərqlər daha da güclənir. Belə bir şəraitdə, mədəni irs Azərbaycanın bir çox əraziləri üçün dirçəliş və yeni sosial-iqtisadi şəraitə uyğunlaşma üçün əsas mənbəyə çevrilə bilər. Bunun üçün mədəni irsin kapitallaşdırılması və onun obyektlərindən istifadənin səmərəliliyi artırılmalıdır.

### 2.3. Mədəni irsin idarə edilməsi konsepsiyasının yeni dövlət idarəçiliyində yeri

Mədəni irsin idarə edilməsi konsepsiyası çox vaxt nəzarətçi qurumun spesifik funksiyalarına əsaslanaraq mədəni obyektlərə rəhbərlik və ya onların idarə edilməsi anlamında da ifadə edilir. Halbuki, mədəni irs obyektlərinin idarə edilməsi - bir ərazinin sosial və təbii mühitini təşkil edən elementlərə, onun fiziki vəziyyətinə, torpaqdan istifadəyə, ziyarətçilərə, onun əhəmiyyətinin dərk edilməsinə, qorunmasına, mühafizəsinə nəzarət etmək üsuludur.

Mədəni irsin idarə edilməsinin məqsədi - onu qorumaq və mühafizə etmək, onun müxtəlif təhlükə yaradan risklərə və ya məhvə

məruz qalmasını azaltmaq və obyekti geniş ictimaiyyətə təqdim etməkdir. [27] Digər tərəfdən, idarəetmə - arzu olunan məqsədlərə çatmaq üçün obyektin elementlərindən səmərəli istifadə, habelə, bu məqsədlərin əlaqələndirilməsi, obyektin qorunması ilə onun yerli icma da daxil olmaqla gələcək nəsillər üçün geniş istifadə imkanlarının saxlanması arasında tarazlığın yaradılması üzrə işlərin məcmusudur. [17, s.20]

Qalalar, abidələr və tarixi şəhərlər kimi turizm obyektləri hesab edilən mədəni irs obyektlərinin idarəetmə prosesi – obyektin fəaliyyətinin bütün aspektlərini əlaqələndirir ki, bu da ziyarətçilərin cəlb edilməsinə, yerli ictimaiyyətin ehtiyaclarının ödənilməsinə və ətraf mühitin qorunmasına xidmət edir. [38, s.123-126] Mədəni irsə münasibətdə maraqlı tərəflərin məqsədləri nəzərə alınmaqla, onların himayəsində olan bina və tikililərin idarə edilməsi üsulları mövcuddur.

Belə idarəetmənin əsas nəticəsi - mədəni irsin tarixi dəyərinin, onun bütün strukturlarının məcmusunun indiki və gələcək nəsillər üçün yüksək səviyyədə təhlükəsizliyinin təmin edilməsi və cəmiyyətə daha geniş faydaların təmin edilməsidir. [36, s.191]

Mədəni irsin idarə edilməsi və inkişafına dair effektiv layihələr həm mədəni malların, həm də xidmətlərin təşviqi baxımından, mədəni fəaliyyətlərə birbaşa iqtisadi töhfədir. Bundan əlavə, onlar, xidmət göstərilməsi sektorlarının inkişafını dəstəkləyərək, xüsusilə çox aşağı gəlirli natural iqtisadiyyatdan yüksək əlavə dəyərli iqtisadi modelə keçidə dolayı iqtisadi təsir göstərirlər. Mədəni irs, bilavasitə bu sahələrə aid olan - arxeoloji ərazilərin və muzeylərin idarə edilməsi, tarixi binaların bərpası və istifadəsi, ənənəvi texnologiyaların və nou-hauların istifadəsi, zərgərlik məmulatlarının istehsalı və s. mədəniyyət turizmi ilə bağlı sənətkarlığın və fəaliyyətlərin inkişafı, o cümlədən audio və video materialların və nəşrlərin istehsalına birbaşa təsir göstərir. Bu tədbirlər,

yerli resursların, sənətkarların və mədəniyyət mütəxəssislərinin, müstəqil sahibkarların, mədəni birliklərin, təhsil müəssisələrinin, təbii ehtiyatların istifadəsini və iqtisadi dəyəri olan mal və xidmətlərin istehsalını təşviq edir. [40, s.113-133]

Mədəni irs, həm də periferiya və kənd rayonlarının iqtisadi inkişafının hərəkətverici qüvvəsidir, çünki idarəetmə və bərpa layihələri ənənəvi hallar və mədəni hadisələr kimi qeyri-maddi mədəni irsin təzahürünə də təsir göstərir. Mədəni irs yerlərində keçirilən festivallar və ictimaiyyəti cəlb edən digər bədii tədbirlər yerli sahibkarlar üçün mühüm gəlir mənbəyidir. İqtisadi resursların az olduğu kənd və periferik ərazilərdə mədəniyyət tədbirlərinin iştirakçılarının fəaliyyəti yerli iqtisadiyyata da təkan verəcək. Bu, öz növbəsində, aztəminatlı sosial kateqoriyalar və çətin vəziyyətdə olan insanlar üçün iş və gəlir əldə etmək üçün imkanlar yaradacaq ki, bu da sosial-iqtisadi inkişafı və sosial təbəqələşmənin azalmasına gətirib çıxaracaqdır. [5, s.142]

Nəzarət mexanizmlərinə - mədəni irs obyektlərinin qorunması, əhəmiyyətinin və istifadəsinin izah edilməsinə yönəlmiş fəaliyyətləri təmin etmək məqsədilə planlaşdırma dövrləri, planların icrası və onların icrasının monitorinqi daxildir. Bu mexanizmlər çox vaxt mədəni irs imkanlarının davamlı şəkildə istifadə edilməsini ehtiva edən daha geniş proqramı əhatə edir. [59, s.543-546: 61, s.123: 47, s.321-324]

Son illərdə Avropa ölkələrində mədəniyyətin - bütövlükdə cəmiyyət və yerli icmalar üçün vacibliyi; yeni iqtisadiyyat və sosial inkişaf üçün faydaları; mədəni irsin şəhərlərin və ərazilərin davamlı inkişafına töhfələri və s. kimi məsələlər geniş müzakirə olunur. Mədəni irsin qorunub saxlanması, ən əsası isə inkişaf etdirilməsi yükünü artıq dövlət və məhdud sayda aristokrat ailə daşıya bilməz. Büdcə dəstəyi və patronajlığın elit texnologiyaları tədricən sosial tərəfdaşlığın

demokratik texnologiyaları ilə əvəz olunur. Qlobal miqyasda maliyyə resurslarını birləşdirməyə və onları dünya mədəniyyətinin ehtiyaclarına uyğun xərcləməyə, mədəni texnologiyaların inkişafında innovasiyaların dəstəklənməsinə diqqət yetirməyə və mədəni prosesdə bütün maraqlı iştirakçıların və şəxslərin dünya resurslarına çıxışını təmin etməyə imkan verən güclü *fandreyzinq* maliyyə infrastrukturu formalaşır.

Lakin bu, mədəni irsi dəstəkləmək üçün kifayət etmir. Milyonlarla insan mədəniyyətin və incəsənətin qorunub saxlanması və inkişaf etdirilməsində öz real iştirakını və marağını hiss etməlidir. Bunun üçün mədəni irsi cari istehlaka, ailə büdcələrində daimi xərc maddələrinə daxil etmək lazımdır. Bu asan iş deyil. Mədəni irsə və müasir incəsənətə müraciət ailə büdcəsinə uyğun olmalıdır ki, bir çox insanlar mədəniyyətin qorunub saxlanması və inkişafını birgə maliyyələşdirsinlər.

Bavariya kralı II Lüdviq nəfəs kəsən qəsrlərinin tikintisi ilə təkcə xəzinəni deyil, bütün Bavariyanı məhv etdiyinə görə "dəli elan edilmiş və hakimiyyətdən uzaqlaşdırılmışdı. Onda heç kim bu "gələcək investisiyaların" kommersiya potensialını qiymətləndirə bilməzdi. 100 ildən sonra, yalnız xüsusi olaraq oraya getmək naminə çətin keçilən uzaq bir yerdə yerləşən Neuschwanstein Alp qalasını hər il təxminən 2,8 milyondan çox insan ziyarət edir. Ora gedən hər kəs bilet və suvenirlərə orta hesabla təxminən 25 avro xərcləyir. Qala ziyarətindən maliyyə axınının Bavariyada turizmdən gələn əlaqəli multiplikator gəliri - otellərdən, restoranlardan, nəqliyyatdan, mağazalardan və s. gəlirləri nəzərə almadan ildə təxminən 70 milyon avro olduğu ehtimal edilir. [57, s.92-99]

Ümumdünya mədəni irs obyektlərinin bərpası və ondan istifadənin idarə edilməsində vahid strukturların yaradılması vacib şərtlərdəndir. Müxtəlif ölkələr belə obyektlərin idarə edilməsində

unikal təcrübəyə malikdir. Türkiyə, İtaliya və s.-də Ümumdünya İrsi obyektlərinin idarə olunmasına müxtəlif səviyyəli dövlət qurumları cavabdehdir. Fransa, Almaniya, Avstriyada mərkəzi və regional səviyyələrdə administrasiyaların təxminən bərabər iştirakı təmin edilsə də, yerli hakimiyyət orqanları üstünlük təşkil edir. Bəzən obyekt idarəetmə sisteminə müxtəlif növ dini təşkilatlar, özəl şirkətlər, fondlar və cəmiyyətlər də daxil edilir (Hollandiya, Almaniya, İngiltərə). Bu zaman bəzi obyektlər və ya onların hissələri müstəqil, qeyri-kommersiya icma təşkilatları tərəfindən idarə oluna bilər. [171:172]

Müxtəlif səviyyəli hakimiyyət orqanları ilə lazımi əməkdaşlığın olduğu yerdə irəliləyişlər də ortaya çıxır. Buna görə də, mədəni layihələrin inkişafına marketinq nöqteyi-nəzərindən baxmaq, rəqabət üstünlüklərini müəyyən etmək, unikal təkliflər irəli sürmək və onları həyata keçirmək lazımdır.

İqtisadiyyatdan danışarkən, müxtəlif tipli oyunçuların bir-birinə bağlı olduğu böyük bir sistem nəzərdə tutulur. Mədəniyyət uzun müddət ictimai şüurda əyləncə sahəsi kimi kök salıb və ciddi qəbul edilməyib. Bu baxımdan, indi mədəniyyət "hardasa idmandan sonra", axırıncı yerdə gəlir və onun ərazinin və cəmiyyətin inkişafındakı rolu lazımınca qiymətləndirilmir. Mədəniyyət müəssisələri bu sistemin bir hissəsidir və indi onlar, həm də mədəni irsi aktivləşdirməyə və onun necə işləyə biləcəyini göstərməyə başlayan sahibkarlıq məntiqi ilə fəaliyyətə başlayırlar. Mədəniyyət müəssisələri daxilində yaranan təşəbbüslər - təhsil layihələri, şəhər gəzintiləri və s. dərhal biznes nümayəndələri tərəfindən də dəstəklənir.

"Hakimiyyət - biznes - mədəniyyət" üçbucağında dördüncü oyunçu - cəmiyyət çatışmır. Bir tərəfdən, mədəniyyətlə həyat sferası kimi məşğul olan insanlar, yerli sakinlər, digər tərəfdən, hökumət və biznes nümayəndələri bir-biri ilə əlaqəlidirlər. Onlar mədəni siyasətin

həm subyektlərində, həm də obyektlərində iştirak edən mühüm oyunçulardır. Birdəfəlik başa düşmək lazımdır ki, regionlarda mədəniyyətinin inkişafi ilə bağlı siyasət olmayana qədər, bütövlükdə ölkədə iqtisadiyyatın hərtərəfli inkişafından danışmaq da yersizdir.

Əgər biz ağıllı iqtisadiyyat, ağıllı şəhərlər, ağıllı dövlət qurmaq istədiyimizdən danışırıqsa, bunu ağıllı insanlarsız edə bilmərik və mədəniyyət sadəcə insana özünü dərk etməyə, onun əslində cəmiyyətdən, şəxsiyyətdən ayrıca bir fərd kimi kim olduğunu anlamağa kömək etməyə çalışır. Mədəni institutlar belə özünüidentifikasiyanın baş verdiyi yerlərdir. Ancaq özünü dərk edən insan özünü reallaşdıra bilər. Arxaik şüur modernləşən iqtisadiyyat yarada bilməz. [119]

## 2.4. Müxtəlif idarəetmə qurumları səviyyəsində mədəni irs obyektlərinin kapitallaşdırılması strategiyaları

Azərbaycan və xarici tədqiqatların təhlili göstərir ki, mədəni irsin qorunmasının müasir konsepsiyaları simvolik, qeyri-maddi, ekoloji aspektlərə diqqət yetirir, mədəniyyət obyektlərindən istifadənin səmərəliliyini artırmaq, əsas iştirakçılar: bütün səviyyələrdə hakimiyyət orqanları, ictimai və qeyri-kommersiya təşkilatları və fondları, kommersiya şirkətləri və özəl sahibkarlar, yerli icmalar və fərdlər arasında funksiyaları bölüşdürmək üçün inteqrasiya olunmuş yanaşma üstünlük təşkil edir. [21: 42, s.113-123] Əsas postulat - mədəni irsin qorunmasından onun kapitallaşmasına keçiddir. Ümumiyyətlə, xarici təcrübəni ümumiləşdirərək, bu cür kapitallaşmanın aşağıdakı əsas texnologiyalarını qeyd edə bilərik.

*Turizm və qonaqpərvərlik sənayesi* - əsasən müəyyən bir ərazinin unikal xüsusiyyətlərindən istifadə edərək özünəməxsus turizm növləridir - mədəni-maarif turizmi, ekoturizm, aqroturizm, qastronomik turizm.

*Artmalikanələr* ("ArtResidence" - müasir Avropa arxitekturası kimi təqdim olunan azmərtəbəli müasir malikanələr), *mədəniyyət və təhsil mərkəzləri* - nisbətən yeni bir təcrübədir, lakin tarixi köklərə malikdir. Yaradıcı şəxslərə və ya qruplara öz bədii layihəsini bu və ya digər yerdə həyata keçirmək imkanı verilir. Mədəniyyət və təhsil mərkəzlərinin layihələri yerli icmada müsbət dəyişikliklərə təkan verir, yerli mədəniyyətin beynəlxalq kontekstdə yer almasına imkan verir.

*Xüsusi mədəni hadisələr* - istər beynəlxalq, istərsə də milli tədbirlərin əksəriyyəti ya görkəmli mədəniyyət xadimlərinin təltif edilməsinə və qabaqcıl təcrübənin təbliğinə ya da forum və festivalların formatına, o cümlədən müzakirə platformalarına, həm sektor daxilində, həm də ondan kənarda işgüzar əlaqələrin qurulmasına, xarici tərəfdaşların cəlb edilməsinə yönəlib. [12, s.35-52: 37: 81: 42: 53]

Azərbaycanda mədəni irsin kapitallaşdırılması və istifadəsinin səmərəliliyinin artırılması üçün əsas problemlər arasında aşağıdakıları qeyd etmək olar:

mədəniyyət, səhiyyə, təhsil, idman və turizmin qarşılıqlı fəaliyyətində idarələrarası maneələrin olması;

mədəni irsin inkişafı üçün dövlət-özəl tərəfdaşlıq mexanizmlərinin təkmil olmaması;

bütün maraqlı tərəflərin - ictimai birliklərin, QHT-lərin, dövlət və yerli özünüidarəetmə orqanlarının, şirkətlərin və sahibkarların koordinasiyasının və konstruktiv qarşılıqlı fəaliyyətinin olmaması;

mədəni irs obyektlərinin monitorinqi və ekspertizası proseslərinə maraqlı ictimai təşkilatların cəlb edilməməsi. [158, s.105-106]

Mərkəzi hökumət, regional və bələdiyyə orqanlarının qarşılıqlı əlaqəsi üçün yaxşı qurulmuş mexanizmlər olmadıqda və mədəni irs obyektlərinin əsas istifadəçiləri arasında əhəmiyyətli idarələrarası maneələrin mövcudluğunda, bir tərəfdən, yeni idarəetmə

strategiyalarının hazırlanması, resursların konsolidasiyası, digər tərəfdən isə səmərəliliyin artırılması zərurəti ortaya çıxır.

*Nəqliyyat əlçatanlığı* - mədəni irs obyektləri potensialının ən mühüm göstəricisidir. Abidələrin yerləşdiyi yerli ərazilərin heç də hamısı inkişaf etmiş mehmanxana infrastrukturuna malik deyil, buna görə də, turistlərin yola sərf etdiyi vaxt nəzərə alınmaqla, ora hətta həftəsonu bir günlük (qayıtmaqla) səfərlərin təşkili də vacibdir. [158, s.107] Turist axınının həcminə belə əhəmiyyətli təsir, konkret mədəni irs obyektinin populyarlığının yüksəlməsində də əhəmiyyətli rol oynaya bilər.

Ölkənin müxtəlif regionlarında yerləşən mədəni irs obyektlərinin kapitallaşdırılması strategiyaları xüsusi mədəni tədbirlərin - müntəzəm festivalların, salonların, forumların, bayramların təşkilini nəzərdə tuta bilər. Bu yaxınlarda azad olunmuş Şuşa şəhərində keçirilmiş Mədəniyyət Festivalına ictimaiyyətin böyük diqqəti buna nümunədir. Azərbaycan ordusunun II Qarabağ savaşında azad olunmuş bütün ərazilərdə göstərdiyi qəhrəmanlıq salnamələrinin yazıldığı yerləri əyani görməyi və baş verənləri eşitməyi arzu edənlərin sayı yüzminlərlədir. Buna qonşu ölkələrdən, xüsusən Türk ölkələrindən də böyük maraq olacağı şəksizdir. Azad olunmuş ərazilərdə "Türk xalqlarının ədəbiyyatı və folkloru günləri", "Azərbaycanın islam və xristian irsi" və s. kimi festivallar, sərgilər və yarmarkalar da təşkil etmək olar. Bu cür tədbirlər, çox sayda qonaqlar və turist axını cəlb etməklə yanaşı yerli ərazinin populyarlaşmasına, ona davamlı marağın və "dostlar klubu"nun formalaşmasına səbəb ola bilər. Mədəni və turizm komplekslərinin formalaşdırılması yolu ilə mövcud muzeylərin genişləndirilməsi də effektiv strategiya olardı.

Uğurlu dünya təcrübəsi və Azərbaycanın özündə sınaqdan çıxmış bəzi nümunələr, mədəni irsin kapitallaşmasının onunla bağlı olan

sahələrin – istirahət, yaradıcılıq sahələrinin, kiçik biznesin inkişafından və düzgün əlaqələndirilməsindən də asılıdır.

Mədəni irsin qorunması sahəsində daha bir mürəkkəb problem - onun kapitallaşdırılması üçün sistemli və düşünülmüş siyasətin olmaması, kiçik şəhərlərin tədricən deqradasiyasıdır. Halbuki, mədəni irs obyektləri onların diqqətli və səriştəli istismarı şərti ilə, həm bölgəyə əlavə turist axını cəlb edə bilər, həm də yerli icmalar üçün semantik cəlbedici məkanlara çevrilə bilər.

Digər ölkələrlə müqayisədə Azərbaycanda mədəni irsin palitrasının qorunması ideologiyası çox önəmlidir. Amma bu gün Azərbaycanda məhz bu müxtəliflik daha çox təhlükə altındadır. Halbuki, məhz mədəni irs müasir kreativ sənayelərin və turizmin inkişaf etdirə biləcəyi ən humanitar resurslardır, həm də, bu cür layihələr vətəndaşların öz bölgəsinin mədəniyyəti və tarixinə marağının artması, onların bu  bu prosesə daha fəal cəlb edilməsi baxımdan da vacibdir.

Müasir şəraitdə, mədəni irsin kapitallaşdırılmasını təmin edən yaradıcı mədəniyyət təşkilatlarına dəstək bütün ölkələrdə regional inkişaf, sosial-iqtisadi proqramlarında: təhsilin və elmin inkişafı; məşğulluq və işsizliyə qarşı mübarizə; kiçik sahibkarlığa yardım; təsərrüfat fəaliyyətinin stimullaşdırılması; şəhər təsərrüfat infrastrukturunun yenidən qurulması; kadrların peşə hazırlığı və yenidən hazırlanması və s.-də yer alıb.

Bir qayda olaraq, yaradıcı işçilərə peşə fəaliyyəti ilə bağlı xərclərin vergitutma bazasından çıxılması üçün əlavə güzəştlər: o cümlədən, qeyri-kommersiya yaradıcılıq təşkilatları üçün onların mədəniyyət mallarının və xidmətlərinin alınması ilə bağlı xərclərini kompensasiya etmək üçün ƏDV üzrə vahid güzəşt tətbiq edilir; yaradıcılıq sahələrinin inkişafına və ya mədəni irsin kapitallaşdırılması sahəsində peşəkar

fəaliyyətə yönəldilmiş investisiyaların yaradıcı təşkilatın vergi bazasından və ya yaradıcı işçinin gəlir vergisindən tutulmasına icazə verilir.

Mədəni irs obyektlərinin kapitallaşdırılması maraqlı biznes subyektlərinin maksimum cəlb edilməsinə, eləcə də mədəni irsdən istifadədə könüllülük fəaliyyətinin genişləndirilməsinə və yerli icmaların iştirakına əsaslanır. Bir çox hallarda, dövlət-özəl tərəfdaşlıq layihələrinin həyata keçirilməsində əsas maneə - obyektlərin potensial investorların təklifinə hazır olmamasıdır. Bir qayda olaraq, bu obyektlərin əksəriyyəti, müxtəlif dərəcədə qorunub saxlanılan bir neçə tikili, infrastrukturu olmayan və formalaşmamış sərhədləri olan, abidənin mədəni və tarixi əhəmiyyəti haqqında fotoşəkillər və məlumatlar olan, lakin gələcək istifadəçilərin məsuliyyət və məhdudiyyətləri aydın şəkildə müəyyən edilməyən bir kompleksdir. Belə komplekslər potensial investorlar bazarı üçün adekvat deyil, çox böyük investisiyalar və ciddi ilkin qiymətləndirmə tələb edir. İnvestorların real marağını təmin etmək üçün həmin obyektlərdə əlavə hazırlıq işləri aparılmalıdır:[158, s.100-116]

▪turizmin inkişafı və mədəni tədbirlərin keçirilməsi üçün perspektivli ərazilərin və mədəni irs obyektlərinin mədəni potensialının “xəritələri” hazırlanmalı;

▪perspektivli mədəni irs obyektlərinin potensial investorların bazarına çəkilən xərclərinə mütənasib investisiya təklifləri ilə (əsasən komplekslər daxilində fərdi tikililərin və ya biznesin inkişafı üçün obyektlərin ayrılması hesabına) təmin edilməli;

▪investisiya cəlbediciliyinin ilkin iqtisadi qiymətləndirilməsi və məqbul istifadələrin siyahısı ilə lotlar təmin edilməklə, belə xəritələr əsasında lotların reyestri yaradılmalı;

▪dövlət-özəl tərəfdaşlığı əsasında müasir mədəni və turizm infrastrukturunun yaradılması üçün perspektivli sahələrdə bir-biri ilə əlaqəli layihələr həyata keçirilməli, məsələn, mühəndis şəbəkələrinə qoşulması üçün mədəni irs obyektinə rayon və bələdiyyə vəsaitləri hesabına yollar çəkilməli, abidənin özü isə turizm biznesi ilə əməkdaşlıqda işləyən investorlar hesabına bərpa edilməli;

▪yerli icmanın sahibkarlıq fəaliyyətini dəstəkləmək və stimullaşdırmaq, o cümlədən kiçik və orta biznesin dəstəklənməsi proqramlarında kreativ sənayelər üçün kvotalar ayrılmalı, habelə, mədəniyyət və turizmin iri infrastruktur obyektlərinin inkişafı üçün fərdi sahibkarlıq subyektlərinin fəaliyyətini birləşdirməyə imkan verən korporativ (paylı) təsərrüfat birlikləri formalaşdırılmalıdır.

## 2.5. Mədəni irsin qorunması və turizmin inkişafı

Ölkə Prezidentinin sərəncamı ilə təsdiq edilən "Daşınmaz tarix və mədəniyyət abidələrinin bərpası, tarix və mədəniyyət qoruqlarının fəaliyyətinin təkmilləşdirilməsi və inkişafına dair 2014-2020-ci illər üzrə Dövlət Proqramı"nda nəzərdə tutulan məsələlərdən biri də mədəni irs məkanlarının turizm məqsədli istifadəsi ilə bağlıdır. Tarix və mədəniyyət qoruqlarında, turizm məqsədləri üçün istifadə edilən abidələrdə müvafiq infrastrukturun yaradılması, sektorun inkişaf etdirilməsi baxımdan, xüsusi aktuallıq kəsb edir. Bu gün Azərbaycanda turizmin əsas infrastrukturu qurulub, yeni hotellər istifadəyə verilir, keyfiyyətli xidmətin təşkili, kadr hazırlığı, turizm imkanlarımızın tanıtımı istiqamətində işlər görülür. Turistlərin mədəni istirahəti, tarixi-mədəni məkanlara turların təşkili də bu sahədə işin növbəti mühüm mərhələsidir. Qeyd edək ki, Azərbaycanda hazırda 5693 (2010-2015-ci illərdə - 6308) tarix və mədəniyyət abidəsi dövlət mühafizəsindədir, 27 dövlət tarix-mədəniyyət, memarlıq, bədii və

etnoqrafiya qoruğu fəaliyyət göstərir. Abidə və qoruqların bir qisminin ərazisində turizm infrastrukturu qurulub.

Dövlət Proqramına əsasən ilk mərhələdə turizm marşrutlarına düşən tarixi abidələrin siyahısı müəyyənləşdirilməli, sonra isə bu məkanlarda turizm infrastrukturunun yaradılması istiqamətində işlər görülməlidir. İnfrastrukturun qurulması üçün, abidənin bərpası və ya konservasiyası həyata keçirilməli, bunun əsasında xüsusi mühafizə zolağı təşkil olunmalıdır. Turistlərin abidənin tarixi, memarlığı, burada aparılan bərpa işləri ilə bağlı müfəssəl məlumat alması üçün xüsusi informasiya lövhəsi qoyulmalı, çap məhsulları hazırlanmalı, turistlərin ekskursiyası üçün şərait yaradılmalıdır.

Şəhər mərkəzindən uzaqda yerləşən tarixi abidələrin yaxınlığında hotellərin, motellərin olması da önəmlidir. Yəni turistin həm gəzməsi, həm də istirahəti üçün lazımi şərait yaradılmalıdır. Turistlər regionlarda yerləşən tarixi abidələri ziyarət edərkən, eyni zamanda o bölgənin sənətkarlığı, mətbəxi, özünəməxsus adət-ənənələri ilə də tanış olmalıdır.

Tarixi mədəniyyət abidələri turizmin inkişafına təsir göstərən, ölkənin turistlər üçün cəlbedici olmasını şərtləndirən mühüm faktorlardandır. Çünki istənilən ölkəyə səyahət edən turist həmin ölkənin tarixinə, yaşayış tərzini əks etdirən maddi-mədəniyyət nümunələrinə maraq göstərir. Öz növbəsində, hər bir ölkə qədimliyini, bəşər sivilizasiyasının formalaşmasındakı rolunu sübuta yetirmək, onu dünyaya təqdim etmək üçün mədəni irs nümunələrindən faydalanmış olur. Deməli, turizm də öz növbəsində, ölkənin mədəni irsinin dünyaya tanıdılmasında vasitə rolu oynayır.

Ərazisində qədim yaşayış məskənlərinın, abidələrin olduğu Azərbaycanda son dövrlər turizmin digər növləri ilə yanaşı, mədəni turizmin inkişafına xüsusi önəm verilir. 2008-ci ildə Heydər Əliyev

Fondu tərəfindən bərpa edilərək istifadəyə verilən Qala Arxeoloji Etnoqrafik Muzey Kompleksi hazırda minlərlə yerli və xarici turistlərin axışdığı məkanlardandır. Bundan əlavə, təbiətin başqa bir möcüzəsi olan Yanar dağda təbiət və dövlət qoruğunun yaradılması ilə əlaqədar müvafiq sərəncam imzalanıb. Ölkə başçısı tərəfindən təsdiq edilən "2010-2014-cü illərdə turizmin inkişafına dair Dövlət Proqramı"nda da tarixi-memarlıq və mədəniyyət qoruqlarının ərazilərində müasir turizm infrastrukturunun yaradılmasına xüsusi yer ayrılıb.

Turizmin inkişafında mədəni turizmin rolu böyükdür. İlin bütün fəsillərində turistləri cəlb etmək istəyən ölkələrdə mədəni turizmin inkişafına xüsusi önəm verirlər. Çünki mədəni turizm mövsümlə əlaqəli deyil. Ölkəmizdə turizmin bu növünün inkişaf etdirilməsi üçün böyük işlər görülür. Bu abidələrin pasportlaşdırılması, yerləşdikləri ərazilərə turizm marşrutunun müəyyən edilməsi mühüm önəm kəsb edir. Əgər ölkəmizdəki abidələrdən turizm məqsədi üçün lazımi səviyyədə istifadə edilsə, xeyli sayda turist cəlbinə nail ola bilərik.

Mədəni turizmin müxtəlif istiqamətləri var: turistlərin bir qismi teatrla, bəziləri tarixi-memarlıq abidələri ilə, lakin əksər hissəsi daha çox tarixi mədəniyyət nümunələri ilə maraqlanırlar. Azərbaycanın ən böyük mədəni turizm marşrutlarından biri "İpək yolu" marşrutudur. Ölkəmizə gələn mədəni turizm həvəskarları Qobustan qayaüstü rəsmləri, İçərişəhər, Şirvanşahlar sarayı, Qız qalası ilə daha çox maraqlanırlar. Bundan başqa, hazırda mədəni turizm həvəskarlarına Atəşgahı, Yanardağı, Ramana və Mərdəkan qalalarını, yeni yaradılmış Qala Arxeoloji Etnoqrafik Muzey Kompleksi də təqdim edilir. Ölkəmizə gələn yapon turistləri Şəkiyə də böyük maraq göstərirlər. Yolüstü onlara Diri baba məqbərəsi, Şamaxıda Cümə məscidi və Yeddi Günbəz məqbərə-kompleksi göstərilir. Bütövlükdə, xarici turistləri mədəni turizm marşrutları daha çox cəlb edir.

Qala Arxeoloji Etnoqrafik Muzey Kompleksinə gələn xarici turistlərin sayı hər il artır. Kompleksdə müasir muzey texnologiyalarından istifadə olunması və muzeyin açıq səma altında yerləşməsi seyrçilərin xüsusi marağına səbəb olur. Prezidentin imzaladığı sərəncama əsasən, "Atəşgah məbədi" Dövlət Tarix-Memarlıq Qoruğu ərazisinin maraqlı turizm obyektinə çevrilməsi üçün burada konservasiya işləri həyata keçirilib. Məbəd hazırda turistlərin ən çox sevdiyi məkanlardan biridir. İl ərzində bu tarixi abidəni ziyarət edənlərin təxminən yarısı xarici ölkə vətəndaşları olur.

Abidələrin bərpasına böyük maliyyə vəsaiti ayrılır. Müstəqillik əldə edildikdən sonra ölkəmizdə maddi-mədəni irsin qorunmasına xüsusi önəm verilir. Son vaxtlar abidələrimizin təbliği ilə bağlı çoxlu iş aparılır, bukletlər hazırlanır, filmlər çəkilir. Bundan əlavə, turizm marşrutlarına daxil olan abidələr müəyyənləşdirilib, dövlət tərəfindən onların bərpasına böyük maliyyə vəsaiti ayrılır. Bu gün Azərbaycanda YUNESKO-nun Maddi-Mədəni İrs siyahısına düşən İçərişəhər, Qız qalası, Şirvanşahlar sarayı, Qobustan qoruğu kimi abidələrin dünyaya daha yüksək səviyyədə tanıdılması vacibdir. Respublikamızın bölgələrində turizm nümunəsi kimi təqdim edilə bilən xeyli sayda başqa abidələrimiz də var. Məsələn, Qaxda "Samuxqala" qalası, Naxçıvanda "Möminəxatun türbəsi", "Qarabağlar türbəsi", Salyanda "Cümə məscidi", Ordubad bir qoruq şəhər kimi, Basqal və digərləri dünya turistlərinin diqqətini cəlb edən abidələrdir.

Müasir dünyada turizm sənayesi bu gün yaxşı formalaşmış mexanizmlə iqtisadiyyatın ən böyük, yüksək gəlirli və ən dinamik sahələrindən biridir. Hazırda turizmə yerli iqtisadiyyatı stimullaşdıran, ölkə əhalisinin rifahını artıran və həyat keyfiyyətinə və səviyyəsinə təsir göstərən bir sahə kimi baxılır. Buna görə, turizm bazarında konkret regionun müsbət imicinin yaradılması xüsusi aktuallıq kəsb edir. Bu

kontekstdə, mədəni turizm böyük əhəmiyyət daşıyır, belə ki, tolerantlıq, bütünlükdə dünya mədəniyyətlərinin müxtəlifliyinin qəbul edilməsi və düzgün başa düşülməsi ideallarına xidmət etməlidir. Bu, bütünlükdə mədəniyyət sahəsində siyasətin məqsədlərinə də uyğundur.

Mədəni irs olmadan mədəni turizmin inkişafı mümkün deyil, belə ki, o, ölkənin tarixi-mədəni potensialından istifadəni nəzərdə tutur. Mədəni turizmin inkişafının ən mühüm şərtlərindən biri mədəni irs obyektlərinin müəyyən dərəcədə zənginləşdirilməsidir. Digər bir şərt - düzgün və kreativ şəkildə təşkil etməklə, bu irsə diqqət cəlb edilməsidir. Buna görə, mədəni siyasətin ən mühüm məqsədi təkcə regionun müsbət imicinin yaradılması deyil, həm də mədəni irs obyektlərinə stabil və ehtiyatlı münasibətin formalaşdırılmasıdır. Mədəni turizmin əsas məqsədi isə ölkə memarlığı, rəssamlığı, musiqisi, teatrı, folkloru, ənənələri, adətləri, insanların həyat tərzi və üslubu, ölkənin mədəniyyəti və tarixi ilə tanışlıqdır. Mədəni turizm öz növbəsində, mədəni irsin zənginləşməsinə böyük töhfə verir, ənənəvi sənətlərin, mədəniyyətin və folklorun qorunub-saxlanmasına və çiçəklənməsinə şərait yaradır.

Müstəqillik əldə etdikdən sonra və bu günə qədər Azərbaycanın turizm sənayesi böyük inkişaf yolu keçib. Dövlət tərəfindən göstərilən diqqət və qayğı sayəsində xüsusən son illər, turizm sektoru xeyli genişlənməyə başlayıb. İlin bütün dövrlərində Azərbaycanın turizm obyektlərində yerli və xarici turistlərə yüksək səviyyədə xidmətlər göstərilir. Bu gün Azərbaycanda turizmin ən müxtəlif növləri, o cümlədən mədəni turizm, rekreasiya turizmi, dağ-xizək, idman turizmi, işgüzar turizm, ekoloji turizm, ov və çimərlik turizmi üzrə xidmətlər tətbiq edilir.

Azərbaycanda kifayət qədər çox olan tarixi və dini abidələr

mədəni turizm çərçivəsində ölkəmizə səyahət edən turistlərin diqqətini xüsusilə cəlb edir. Belə tarixi obyektlər həm paytaxt Bakıda, həm də regionlarda var. Azərbaycan qədim tarixi, zəngin mədəniyyəti və ənənəvi qonaqpərvərliyi ilə turizm sahəsinin inkişafı üçün böyük potensiala malikdir. Hazırda turizm marşrutlarının sayının və turistlərə xidmətin keyfiyyət səviyyəsinin daha da artırılması üçün bir sıra zəruri tədbirlər görülür.

Azərbaycanda turizmin inkişafı istiqamətində ən mühüm tədbirlərdən biri daxili, xarici və mədəni turizm marşrutlarının köməyi ilə Azərbaycanın turizm sahəsinin dünya turizm bazarına inteqrasiyasıdır. Daxili turizmin məşhurlaşdırılması məqsədilə 2003-cü ildə regionlarda 7 turizm marşrutu müəyyən edilib. Onların 4-ü əsas, 3-ü isə köməkçi marşrutlardır. Əsas marşrutlar: Bakı-Xaçmaz, Bakı-Balakən, Bakı-Astara və Bakı-Qazax, köməkçi marşrutlar isə: Bakı-Abşeron yarımadası, Bakı-Dağlıq Qarabağ və Bakı-Naxçıvandır.

2006-cı ildə Mədəniyyət və Turizm Nazirliyi yaradıldıqdan sonra bu istiqamətdə iş daha sistemli xarakter alıb. Məhz müəyyən regionda daha perspektivli olan turizm növlərinin inkişafı istiqamətində müvafiq iş aparılır. Ölkə ərazisində mövcud olan arxeoloji turlar, atçılıq, avtomobil safarisi və xalçaçılıq turları turistlərin gözündə kifayət qədər cəzbedicidir.

Lakin turistlərin gözləntiləri heç də həmişə reallıqla üst-üstə düşmür. Xidmətdən, pis yollardan və kiçik şəhərlərin özlərinin cəlbedici görünməməsindən açıq-aşkar narazılıqlar var. Turistləri cəlb etmək uğrunda mübarizədə qələbəni ancaq öz bölgəsini başqalarından daha yaxşı tanıtdıra bilən, əfsanəsini və şəxsiyyətlərini, yaxud hansısa möcüzə ilə tarixi mərkəzin qorunub saxlanmasını bacaran şəhər və ya qəsəbələr qazanır. Təbii ki, iqtisadi nöqteyi-nəzərdən, mədəni irsin səmərəliliyinin də hüdudları var. Lakin o, yenə də yerli əhalinin

kapitallaşması və sosiallaşmasının güclü mənbəyi olaraq qalır. Axı məhz mədəni irs onlara maraqlı iş əldə etməyə imkan verir, böyük şəhərlərə qaçmaq ehtiyacını aradan qaldırır.

Bu gün turizm sənayesi Azərbaycan iqtisadiyyatının qeyri-neft sektorunun prioritet istiqamətlərindən biridir. Azərbaycan prezidenti İlham Əliyevin bu sahənin inkişafi məqsədilə imzaladığı "Azərbaycan Respublikasında turizmin inkişafi üzrə əlavə tədbirlər haqqında" və "İxtisaslaşmış turizm sənayesinin inkişafina dair Strateji Yol Xəritəsinin təsdiq edilməsi haqqında" Fərmanla iqtisadiyyatın bu sahəsinin inkişafında yeni mərhələyə start verilib. Bu sənədlərdə göstərilmiş mövcud nöqsanların aradan qaldırılması, yeni turizm məhsullarının yaradılması və xidmət səviyyəsinin artırılması üzrə tədbirlər Azərbaycanda turizmin inkişafina güclü təkan verəcəkdir.

Güclü rəqabətin mövcud olduğu Qafqaz və Yaxın Şərq regionunda Bakı şəhərinin malik olduğu üstünlüklərdən faydalanmaq lazımdır. Dünyanın əksər ölkələri, xüsusilə də Türkiyə, İran, ərəb ölkələri ilə yüksək səviyyəli hava əlaqəsinin olduğu Bakı, həm də müasir, inkişaf etmiş infrastruktura malikdir. Bundan əlavə, YUNESKO-nun qorunan mədəni abidələri siyahısına salınmış "İçərişəhər" dövlət qoruğu, zəngin mətbəx və ən əsası, sakinlərin qonaqpərvərliyi Bakını kifayət qədər cəlbedici məkana çevirir.

2017-ci ilin 10 aprel - 10 may tarixləri arasında Bakıda birinci Şopinq-festivalın keçirildiyini qeyd etmək yerinə düşərdi. Artıq bir brendə çevriləcək Bakı Şopinq Festivalı öz xüsusi təklifləri və güzəştləri ilə Azərbaycan paytaxtını həm də tanınmış ticarət məkanı kimi məşhurlaşdıra bilər. Ümumi dövriyyəsi 18 mln. manat olan festivalın nəticəsi olaraq dövlət büdcəsinə 5,6 mln. manat həcmində vəsait daxil olub. Azərbaycana gələn əcnəbilər müxtəlif növ xidmətlərə 2 mlrd. dollardan çox vəsait xərcləyiblər. Beynəlxalq ekspertlərin fikrincə,

Bakıda keçiriləcək mədəni tədbirlərin sayını artırmaqla, yerli və xarici dizaynerlərin, modelyerlərin şopinq təklifləri ilə bu festivalın miqyasını daha da genişləndirmək olar. [117]

Belə, müsbət nəticələrə baxmayaraq, Azərbaycan turizmi daha geniş şəkildə inkişaf etdirmək üçün böyük potensiala malikdir. Bu potensialdan səmərəli istifadə üzrə iş uğurla davam etdirilir və yaxın illərdə onun nəticələri daha çox hiss olunacaq. Daxili turizm marşrutlarından fərqli olaraq, beynəlxalq marşrutlar ən azı iki ölkəni əhatə edir və turizm sahəsində ikitərəfli və ya çoxtərəfli əməkdaşlığın inkişafına şərait yaradır. Bu cür marşrutlar regionlarımızın beynəlxalq səviyyədə məşhurlaşmasına şərait yaradır. Bu nöqteyi-nəzərdən "Aleksandr Düma Qafqazda" və "Şərab, mədəniyyət və turizm mübadiləsi" layihələrini tamamilə uğurlu hesab etmək olar. "Böyük İpək Yolu", "Azərbaycanda Alman Məskənləri" və "Yəhudi İrsi üzrə Avropa Marşrutu" layihələrini də qeyd etmək lazımdır. Bu marşrutların daha da inkişaf etdirilməsi üçün iştirakçı ölkələrlə birgə iş aparılır.

Ölkənin infrastrukturu, regionlarda yenidənqurma işləri, yeni mehmanxanaların yaradılması bu sahədə müxtəlif layihələrin həyata keçirilməsi üçün gözəl zəmin yaradır. Bu marşrutların daha da məşhurlaşdırılması üçün virtual təşviqat sahəsində bir sıra tədbirlər həyata keçirilir, eyni zamanda, marağın artırılması məqsədilə film və videoçarxların yaradılmasından istifadə olunur.

Məqsəd - Azərbaycanın zəngin turizm potensialından daha səmərəli istifadə vasitəsilə ölkə ərazisində həm vətəndaşlarımızın, həm də əcnəbilərin turizm istirahətini daha mənalı və yaddaqalan etməkdir. Məlumdur ki, hər bir turist istirahət etdiyi ölkənin və ya şəhərin sonrakı təbliğatçısına çevrilir. Lakin bu təbliğat mənfi xarakterli də ola bilər. Buna görə də turizm sektoru ən qabaqcıl beynəlxalq təcrübə əsasında qurulmalı, ən mütərəqqi ideyalar tətbiqinə əsaslanmalıdır ki, turistlər

ölkəmizdən və xidmətlərimizdən məmnunluq duysunlar. Turistlərə xidmət edən ekskursiya rəhbərlərinin və bələdçilərin hazırlanmasından başlamış, onların istirahətinin təşkilinə qədər hər bir incəlikdə Azərbaycan xalqının ənənəvi qonaqpərvərliyi özünü göstərməli, ölkəmizin turizm sahəsində geniş imkanları ilə yanaşı, ölkəmizdə uzun əsrlər ərzində formalaşmış çoxmədəniyyətlilik və tolerantlıq dəyərlərini tanıtmaqla və əyani göstərməklə, xarici turistlərin səyahət obyekti kimi regionda daha çox Azərbaycanı seçməsinə nail ola bilərik.

Son bir neçə ildə Azərbaycan bir sıra beynəlxalq səviyyəli mədəniyyət tədbirlərinə, siyasi tədbirlərə və idman tədbirlərinə ev sahibliyi edib. Bütün bunlar öz-özlüyündə ölkəmizə marağı artırır. Azərbaycana səfər edən turistlər arasında bir çox ölkələri və müxtəlif sosial təbəqələri təmsil edən insanlar görmək olar. Bu gün işgüzar məqsədlərlə ölkəmizə səfər edən insanların sayında da artım müşahidə olunur. Bu yaxınlarda təsis edilmiş Milli Turizm Təbliğat Bürosu bu istiqamətdə fəal iş həyata keçirir.

Büronun missiyalarına Bakının beynəlxalq imicinin formalaşdırılması, brenddən istifadə üzrə işlərin uzunmüddətli planının işlənib hazırlanması, brenddən istifadəyə nəzarət tədbirlərinin görülməsi, müxtəlif səviyyələrdə rebrendinq seçimi, marketinq işlərinin əlaqələndirilməsi və turistlərin məmnuniyyətinin artırılması kimi vəzifələr daxildir.

Azərbaycan çoxsaylı turizm məhsulları sayəsində beynəlxalq turizm bazarında da rolunu və nüfuzunu artırmaqdadır. Son illərdə ölkənin ÜDM-də turizm sənayesinin payı: 2020 (1,1%) və 2021-ci (1,3%) pandemiya illəri istisna olmaqla, 2014-2019-cu illərdə bilavasitə turizmin ÜDM-də xüsusi çəkisi 2,2-2,4% həddində olmuşdur. Turizm üçün xarakterik sahələrdə yaradılan əlavə dəyərin ölkənin ümumi daxili məhsulunda xüsusi çəkisi, 4,5% həcmində

qiymətləndirilir. Bu, həmçinin ölkəyə gələn turistlərin sayının ildən-ilə artmasında da özünü göstərir. 2016-cu ildə ölkəyə cəmi 8949, 2019-cu ildə isə 30950 nəfər turist səyahət etmişdir. Başqa sözlə, son 4 ildə bu göstərici 3 dəfədən çox artıb. 2018-cı ildə Azərbaycana səyahət edən turistlərin əksəriyyəti: Rusiya (17,4%), İsrail (13,5%); 2019-cu ildə - İsrail (29,7%); Hidistan (11,8%); BƏƏ (6,1%); 2020-ci ildə - Rusiya (34,0%); BƏƏ (10,8%); Hindistan (4,5%); 2020-ci ildə - BƏƏ (8,1%); Rusiya (7,7%); İsrail (7,6%); ÇXR (1,9%) kimi ölkələrdən olmuşdur. [121]

Həmçinin, Fars Körfəzi və Yaxın Şərq regionundan, Asiya, Afrika, Amerika və Avstraliya qitəsi ölkələrindən gələnlərin sayında artım müşahidə olunur. İndi əcnəbilər və vətəndaşlığı olmayan şəxslər "ASAN Viza" sisteminin (www.evisa.gov.az) köməyi ilə 3 iş günü ərzində elektron viza ala bilərlər. Prosedur 3 mərhələdən (müraciət, ödəniş, elektron vizanın yüklənməsi) ibarətdir. Bu viza üçün dövlət rüsumu 20 ABŞ dollarına bərabərdir və ölkəyə birdəfəlik giriş və 30 günə qədər ölkədə qalmaq hüququ verir.

Azərbaycan güclü turizm resurslarına malik olmasına baxmayaraq, uzun illər turizm sahəsində bazarda yeni və tələbat olan turizm məhsulunun və yeni, keyfiyyətcə əvvəlkindən fərqlənən müasir turizm infrastrukturunun kifayət qədər olmaması əsas problem kimi qalmaqdadır. Məhz ölkə rəhbərliyi səviyyəsində görülmüş böyük işlər və müasir islahatlar nəticəsində, hazırda bütünlükdə turizm sahəsində və xüsusən mədəni turizm seqmentində böyük dəyişikliklər baş verəcəyi gözlənilləndir.

İstənilən ölkədə mədəni turizmə maraq daha güclüdür. Məhz mədəniyyət, inkişaf prosesinin, müstəqilliyin qorunmasının və möhkəmləndirilməsinin və istənilən xalqın özünəməxsusluğunun fundamental əsası kimi qəbul edilir. Yunanıstan antik məbədləri ilə,

Misir ehram və piramidaları ilə, Roma Kolizey və dünyada məşhur olan digər memarlıq və incəsənət əsərləri ilə bütün dünya ölkələrindən turistləri cəlb edir. Eyfel qülləsi və Stounhenc, Azadlıq heykəli və Çexiyanın qədim qəsrləri haqqında indi hamı məlumatlıdır. Lakin təəssüflə etiraf edək ki, hələlik çox az insan Azərbaycanda - həm Bakı ərazisində, həm də regionlarda nə qədər çox maraqlı və tarixi-mədəni abidələrin olduğunu tam bilmirlər.

Mədəni irs turizmi fəaliyyətinin və xidmətlərinin "arzu olunan" formalarının inkişafı irsin lazımi qaydada bərpası və irsin təqdimatı üçün maraqlı fəaliyyətlərin təşviq edilməsi yolu ilə (bunlara vergi güzəştləri və müavinətləri, qrantlar, prizlər və s. mükafatlar, tərəfdaş əlaqələri, şəbəkə və reklam agentliklərinin yaradılması, irsin və ekoturizmin təbliği ilə bağlı fəaliyyətlər və s.) reallaşdırıla bilər. Müvafiq dövlət qurumları institusional çərçivənin yaradılmasında və bu sahənin təşviqində nəzərə almalıdırlar ki, mədəni irs turizminin yerli mühitə iqtisadi və qeyri-iqtisadi təsirlərinin gücü bir çox amillərdən, xüsusilə də ərazinin özünün xüsusiyyətlərindən (onun irs ehtiyatları, əhalisi, ehtiyacları, bacarıqları, yerli icmanın münasibəti) və ərazidə təşviq edilən turizm növündən də asılıdır.

Azərbaycan Respublikası Nazirlər Kabineti nəzdində iki qoruğa ("İçərişəhər" və "Qala") görə məsul olan "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi artıq 10 ildir qeyd edilən ərazilərdə turizm, mədəniyyət və abidələrin mühafizəsi sahəsində dövlət siyasətini həyata keçirən və buna məsul olan qurumdur. Azərbaycana, Bakıya səyahət edənlər Köhnə şəhər, İçərişəhərə səyahət etmək arzusu mütləqdir və demək olar ki, ölkəmizlə tanışlığın başlanğıcıdır. Bakıda yeni muzeylərin açılması, muzey ekspozisiyalarının yenilənməsi, muzey fondlarının zənginləşdirilməsi və Qoruğun qonaqlarının onunla tanış olmasını daha əlverişli və maraqlı edən yeni texnologiyalar sayəsində

mədəni turizmin inkişafı ildən-ilə daha da genişlənir. [123]

Fikrimizcə, İçərişəhər kompleksinin potensiala hələ də böyükdür və təkcə regional miqyasda deyil, dünya miqyasında da uğurlu model ola bilər. Təcrübə göstərir ki, uğur üçün dörd əsas amil: zəngin tarix və nadir memarlıq abidələri; maraqlı mədəni-əyləncə tədbirləri; müasir turizm infrastrukturunun mövcudluğu; yüksək səviyyədə inkişaf etmiş xidmət sahəsi başlıca rol oynayır.

İçərişəhər sadəcə yüzlərlə tarixi abidənin cəmləşdiyi açıq hava muzeyi deyil. O, dünyanın sivilizasiya ocaqlarından biri, Bakının başladığı yerdir. Qədim Bakı qüdrətli Şirvanşahlar dövlətinin paytaxtıdır. Qoruqda Şirvanşahlar sarayının (Şirvan hökmdarlarının iqamətgahı) mövcudluğu Azərbaycan xalqının dərin dövlətçilik ənənələrinə dəlalət edir.

Son illər İçərişəhər muzeylərində yeni müasir muzey ekspozisiyaları yaradılıb, onlar turistlərin böyük marağına səbəb olur. Lakin qonaqları Qız Qalası, Şirvanşahlar Saray Kompleksinə cəlb etməklə yanaşı, həm də onlara digər, hələlik o qədər də məşhur olmayan abidələr haqqında kifayət qədər məlumat verilməlidir. Qoruq ərazisində belə abidələrin sayı həddindən artıq çoxdur.

Bu gün Azərbaycan tamamilə müxtəlif istiqamətlər və maraqlar üçün zəruri olan hər şeyi - böyük idman yarışları (Formula-1 Qran-pri, Avropa Oyunları və İslam Həmrəyliyi Oyunları, gələcəkdə Avropa Futbol Çempionatı-2020), çimərlik istirahəti, ölkəmizin mənzərəli regionlarına səfərlər, tarixi-etnoqrafik araşdırmalar, kulinariya səyahətləri və s. təqdim etmək iqtidarındadır,

Müvafiq olaraq, müxtəlif istiqamətlər və maraqlar müxtəlif kateqoriyalı qonaqları cəlb edir ki, bu da tamamilə təbiidir. Kompleks şəklində bu turistlər bütünlükdə ölkəyə və xüsusən səyahətin hər mərhələsində onlara xidmət göstərən bizneslərə gəlir gətirir.

Turizm şirkətləri tarixi abidələrə infoturlar təşkil edirlər. Eyni zamanda, bu abidələrin özlərinin lazımi səviyyədə təqdim olunması, müvafiq pasportlaşmanın aparılması zəruridir: Turizmin inkişafı baxımından, tarixi abidələr əvəzolunmaz bir imkan yaradır. Çünki səyahətə gələn hər bir insan gəldiyi ölkənin tarixi, mədəni irsi ilə yaxından maraqlanır. Bunun üçün də turistlərə dəqiq məlumat təqdim olunmalıdır.

Turizm mədəniyyətin inkişafına xidmət etməlidir, eləcə də turistlərdən əldə olunan gəlirlər vasitəsilə tarix-mədəniyyət abidələrinin də bərpası aparılmalıdır. Azərbaycanda turizmin inkişafında tarixi abidələrin çox böyük rolu var. Turistləri maraqlandıran, cəlb edən məqamlardan biri də, yerli özünəməxsusluqdur. Bu da özünü ilk növbədə, tarixdə, mədəniyyətdə, abidələrdə biruzə verir.

Azərbaycanda çoxlu tarix-mədəniyyət abidələri olsa da, onların hamısının turizm xidmətləri göstərməyə hazır olduğunu deyə bilmərik. Bu sahədə dünya təcrübəsi var. Arxeoloji və digər abidələr sadəcə bir abidə olaraq qalsa, turistllər üçün elə də maraq kəsb etməyəcək. Ancaq bu obyektlər, turistin başa düşə biləcəyi bir vəziyyətə gətirilsə, yol infrastrukturu qurulsa, həmin abidənin yerləşdiyi ərazidə turistlərin dincəlməsi, əyləncəsi üçün şərait yaradılsa, onlar, əsl turizm obyektlərinə çevriləcək. Bu istiqamətdə artıq yerli təcrübəmiz də var, məsələn, Qobustan qoruğunda yaradılan yeni muzey digər abidələrdə görüləcək iş üçün örnək ola bilər.

# III FƏSİL. AZƏRBAYCAN RESPUBLİKASINDA KREATİV İQTİSADİYYATIN İNKİŞAF POTENSİALI

## 3.1. Kretiv iqtisadiyyatın əlamətləri, əsas ünsürləri və təzahürləri

Kreativ (lat. create - yaratmaq) - orijinal, yaradıcı, parlaq, görkəmli bir şey deməkdir.

Kreativ iqtisadiyyat (creative economy) - yaradıcılıq, mədəniyyət, incəsənət, iqtisadiyyat və və innovativ məhsul və xidmətlər yaradan fərdlərin və biznesin texnologiya arasındakı əlaqəyə əsaslanan sosial münasibətlərin  və iqtisadi fəaliyyət təcrübələrinin məcmusudur. Bu sistem həm də yaradıcıların öz işlərini sərbəst təqdim edə, rəy ala və fikir mübadiləsi apara biləcəyi məkanları da əhatə edir. [167:168:169]

Kreativ iqtisadiyyat  - əsas kapitallaşdırılmış dəyərin yeni ideyalar olduğu "gələcək nəsil" iqtisadiyyatıdır. Bu, innovasiyalara, yeniliklərə və kreativ məhsullara əsaslanan iqtisadiyyatdır.

Kreativ iqtisadiyyatın əsasını insanların bu və ya digər ideyanın dəyərini artırmaq üçün yaradıcı təxəyyüldən istifadə etməsi təşkil edir. 1994-cü ildə Avstraliyada "Kreativ Millət: Avstraliya birliyinin mədəniyyət siyasəti" adlı hökumət hesabatı yayımlandı. Sənəddə o dövrdə ölkədə 336 minə yaxın insanın işlədiyi, hər il 13 milyard dollar gəlir gətirən mədəniyyət və incəsənət sahələrinin iqtisadi potensialı qeyd olunurdu.[159]

1998-ci ildə Böyük Britaniyanın Mədəniyyət, media və idman Departamenti Kreativ sənayeni rəsmi olaraq "əqli mülkiyyətin yaradılması və istifadəsi yolu ilə əlavə dəyər əlavə etmək və yeni iş yerləri yaratmaq potensialı olan fərdi kreativlıq, vərdiş, bacarıq və istedada əsaslanan iqtisadi fəaliyyət" kimi müəyyən etmişdir. [167] Lakin hələ də ümumi tərif, eləcə də vahid termin yoxdur. Aİ-də "mədəni və kreativ sənaye" (cultural and creative industries),

YUNESKO-da - “kreativ sənaye”, DƏMT-də (Dünya Əqli Mülkiyyət Təşkilatı) – “əqli mülkiyyət hüququ ilə qorunan sənaye” (copyright industries) anlayışlarından istifadə olunur. Koreya Respublikası və Yaponiyada “kontent sənaye” anlayışı yeni texnologiyalarla əlaqələndirilir. “Media sənayesi” və “təəssürat iqtisadiyyatı” terminləri də var.

2000-ci ilə qədər “kreativ iqtisadiyyat” anlayışı məlum deyildi. Onu istifadə edən ilk şəxs professor Con Hokins olmuşdur. Con Hokins 2001-ci ildə dəyərin torpaq, əmək və kapital kimi ənənəvi resurslardan daha çox orijinallıq və kreativlikdən qaynaqlandığı iqtisadi sistemi təsvir edərək, kreativ iqtisadiyyat konsepsiyasını işləyib hazırlamışdı. O, ənənəvi iqtisadiyyatın köhnəldiyini və onu kreativ iqtisadiyyat əvəz etməli olduğunu qeyd edirdi. Dünya nə qədər tez yenidən qurula bilsə, böhrandan çıxış yolu da bir o qədər sürətli və təhlükəsiz olacaq. Con Hokins kreativ iqtisadiyyat və kreativ biznes arasındakı sıx əlaqəyə diqqət çəkirdi. Onun fikrincə, kreativ iqtisadiyyatın spesifikliyi iqtisadiyyatın özü ilə onun təkmilləşdirilməsinə kreativ yanaşma arasında yaranan xüsusi iqtisadi və sosial münasibətlərdə ifadə olunur. [105, c.34] Hazırda postindustrial iqtisadiyyatın intellektual və kreativ potensialdan istifadəsinə əsaslanan yeni kreativ sektoru formalaşmışdır.

Riçard Florida “kreativ iqtisadiyyat” anlayışına bir qədər fərqli şərh verib. Tədqiqatçı kreativ iqtisadiyyatın xüsusiyyətlərini müəyyənləşdirilməsinə əsas kimi kreativ sektorda işçilərin məşğuliyyət və peşələ əlamətini qoyub [162, s.61].

Bəzən “kreativ iqtisadiyyat” termini daha dar mənada - müstəqil müəlliflərin (kreatorların) yaratdıqları unikal kontentə görə qazandıqları sənaye mənasında işlədilir.

Bununla belə, ikinci tərif birinciyə qətiyyən zidd deyil: bütün növ kontent yaradıcıları - yazıçılar, blogerlər, musiqiçilər ideyalar

iqtisadiyyatında mühüm yer tuturlar. Onların yaradıcılıqlarını da unikal ideyalara aid etmək olar.

İqtisadiyyatda innovasiya sferasının əhəmiyyəti çoxdan elm adamlarının əsərlərində əks olunmuşdur. Filip Agiyon və Peter Hovit ilk dəfə innovasiyaya əsaslanan uzunmüddətli iqtisadi artım modelini yaradaraq, göstərir ki, iqtisadiyyatın inkişafı ilk növbədə, texnoloji tərəqqi hesabına baş verir və bu da köhnə şirkətləri və istehsal üsullarını məhv edir, nəticədə onları daha gəlirli və səmərəli metodlar və bizneslər əvəz edir. [163, s.51]

İnnovativ məhsulun yeni texnologiya olması şərt deyil: o, yeni bucaqdan, yeni kontekstdə tanış bir şey də ola bilər, lakin gələcək istehlakçıların təxəyyülünü təəccübləndirəcək bir şey olmalıdır.

Konkret sənaye sahələri ilə məhdudlaşan kreativ sənayelərdən fərqli olaraq "kreativ iqtisadiyyat" termini bütövlükdə iqtisadiyyatın özünün kreativliyini təsvir edir.

"Kreativ iqtisadiyyat" termini çox vaxt "bilik iqtisadiyyatı" kateqoriyası ilə eyniləşdirilir. Bu zaman, o, müxtəlif intellektual fəaliyyət növlərinə əsaslanan iqtisadiyyatın xüsusi sektoruna aid edilir [167].Müəyyən iqtisadi və sosial münasibətlər sistemi iqtisadiyyatın, o cümlədən kreativ iqtisadiyyatın fəaliyyət göstərməsi mexanizmi kimi çıxış edir. Yeni tələbatların formalaşması və inkişafı ilə əlaqədar olaraq onların ödənilməsi üçün daha təkmil və effektiv mexanizmlərin axtarışına ehtiyac yaranır. Belə tələbatlar müxtəlif - ənənəvi və kreativ (qeyri-standart) yollarla ödənilə bilər. Kreativ iqtisadiyyat, gələcək strateji inkişaf məqsədi ilə, eləcə də təkrarlanan böhran və fövqəladə halların aradan qaldırılması, yaşamanın, inkişafın və bazarda rəqabət qabiliyyətinin artırılmasının yeni yolların axtarışı və rəqabət mübarizəsində uğurun təmin edilməsi üçün qeyri-ənənəvi, orijinal, qeyri-standart idarəetmə qərarlarının qəbul edilməsinə əsaslanır.

“Kreativ sənaye”, “Kreativ iqtisadiyyat” anlayışı hələ Azərbaycan Respublikası qanunvericiliyində əks olunmayıb. Əksər rəsmi sənədlərdə, elmi ədəbiyyatda, kütləvi informasiya vasitələrində və mətbu nəşrlərdə “kreativ” termini daha çox “yaradıcı, yaradıcılıq”, nadir hallarda isə “kreativ” kimi işlənilir.

“Kreativ, kreativlik, kreativ iqtisadiyyat” və s. müasir elmi ədəbiyyata (iqtisadiyyat, sosiologiya, psixologiya, riyaziyyat, mədəniyyətşünaslıq və s.) artıq elmi termin kimi daxil olmuşdur. Terminlər – öz vacib təyinatına uyğun olaraq məhdudlaşdırılmış xüsusi sözlərdir; anlayışların və şeylərin adlarının birmənalı, daha dəqiq ifadəsinə cəhd edən sözlərdir. Buna görə də, yeni yaradılmış terminlərin milli dillərdə birmənalı qarşılığı, tərcüməsi olmadığına görə həmin terminin yarandığı mənbə dilinə üstünlk verilir. Kreativ də belə termindir, verdiyimiz izah və şərhlərdən göründüyü kimi o, “yaradıcı, yaradıcılıq” anlayışlardan fərqlənir. Burada fərqin az olması önəmli deyil, bunu dünyanın aparıcı dillərinin heç biri milli tərcümə variantını seçmir, terminologiyanın hamı tərəfindən qəbul edilmiş “benəlmiləllik” prinsipini qəbul edir. [164]

Bu gün pul və ya texnologiyalar deyil, yeni ideyalar, ən əsası isə şəxsi məmnunluq uğur gətirir. Kreativ iqtisadiyyat istehsala, xidmətə, ticarətə və əyləncə sferasına yeni həyat verir. O, insanların yaşamaq, işləmək və öyrənmək istədikləri, düşündükləri, icad etdikləri və yaratdıqları mühiti dəyişir.

Kreativ iqtisadiyyat getdikcə daha çox yeni reallıq - hətta bəşəriyyətin inkişafının növbəti mərhələsi adlandırırlar. Cəsarətli proqnozlar faktlar və rəqəmlərlə də təsdiqlənir: oyunçuların sayı artır, investorlar təkcə “yaradıcılarla” işləyən startaplara deyil, həm də birbaşa kontent yaradıcılarına milyardlarla sərmayə qoyurlar. 2024-cü ilə isə qlobal kreativ iqtisadiyyat bazarı 1 trilyon dollara çata bilər.

İndi kreativ iqtisadiyyat tam şəkildə sabit iqtisadi vəziyyətə və vətəndaşların yüksək həyat səviyyəsinə malik inkişaf etmiş ölkələrdə (ABŞ, Qərbi Avropa) mövcuddur. Silikon Vadisinin yerləşdiyi və istehsal institutunun inkişaf etdiyi ABŞ-ı əminliklə bu hərəkatın lokomotivi adlandırmaq olar. Amma Asiya ölkələri də tədricən kreativ iqtisadiyyata cəlb olunur. Onların mühüm rəqabət üstünlüyü: böyük auditoriya var. Kreativ iqtisadiyyatın nədən ibarət olduğunu daha yaxşı başa düşmək üçün onun əsas anlayışlarını baxaq.

Kreativ iqtisadiyyat qlobal iqtisadiyyatın sürətlə inkişaf edən bir sahəsidir. O, material resurslarla daha az bağlı olduğu üçün gəlirin formalaşması, iş yerlərinin yaradılması və ixracın inkişafı baxımından daha dinamikdir. İqtisadçı və sənət nəzəriyyəçisi Pyer Luici Sakko da vurğulayır ki, kreativ iqtisadiyyat yerli xüsusiyyətləri ən yaxşı şəkildə əks etdirir və qloballaşma dövründə şəxsiyyəti qoruyur. O, kreativ iqtisadiyyatın inkişafında ən fəal yerlərə nümunə kimi Parisdə İle-de-Fransı, İç Londonu və Milanı sadalayır. [170]

Dünyanın qalan hissəsi kreativ məhsulun potensial istehlakçısıdır: ideyanın/kontentin dəstək alıb-almayacağı, onun yüzlərlə, bəlkə də milyonlarla insanı maraqlandırıb-maraqlandırmaması kreatorun səylərindən və dəstəkləyici infrastrukturdan asılıdır. Bütün bunlar baş tutsa, o zaman ideya böyüyəcək və bununla, pul da qazanılacaq.

Kreativ iqtisadiyyatın yaranması üçün bir çox ilkin şərtlər var: dünyanın bir çox ölkələrində insanların həyat səviyyəsi və rifahı yaxşılaşmaqdadır, dünyanın hər yerində tapıla bilən eyni “seriyalı” mallardan fərqli olaraq, bənzərsiz hər şeyə meyl də artmaqdadır. Buna son 20 il ərzində ideyanın nə qədər dəyərli ola biləcəyini sübut edən startap sənayesinin böyüməsi də əlavə etsək, mənzərə ortadadır. Ola bilsin ki, ilkin şərtlərdən biri kimi rəqəmsal dünyada həddindən artıq informasiya bolluğunu da saymaq olar: indi çox şeylər bizim diqqətimizi

çəkmir, daha tez unuduruq, daim yadda qalacaq və təəccübləndirəcək yeni informasiyalara ehtiyac duyuruq.

Bu və ya digər şəkildə, ideyalar bazarı bütün cəbhələrdə böyüyür: *Pre-seed* mərhələsində (yəni əslində, bir ideyaya) startaplara vençur investisiyalarının həcmi artır, təsir edənlər və kontent istehsalçıları bazarı genişlənir. Böyük korporasiyalar (Meta və TikTok kimi) ən yaxşı kontent yaradıcıları üçün öz təşviq fondlarını yaradır və investorlar blogerlərə sərmayə qoyurlar. Birləşmiş Millətlər Təşkilatı da 2021-ci ili Davamlı İnkişaf üçün Beynəlxalq Kreativ İqtisadiyyat İli elan edib.

Kreativ iqtisadiyyat müəyyən dərəcədə demək olar ki, həmişə mövcud olub: ideyalarını - ixtiralar, şeirlər və ya sadəcə olaraq cari hadisələrə öz baxışları şəklində həyata keçirən istedadlı "kreatorlar" öz fəaliyyətləri sayəsində vaxtaşırı pul qazanmağa nail olublar. Lakin kreativ iqtisadiyyat sistemli inkişafa və öz bazarının formalaşmasına yalnız son 10-15 ildə gəlib.

2000-ci illərin əvvəllərindən bəri yaradıcı xidmətlərin (reklam, məhsul yaradılması, musiqi sənayesi və s.) artım tempi hər il 17% artmışdır. İqtisadi artım sayəsində getdikcə daha çox insan başa düşür ki, ideyalar maddi rifaha zidd olan bir şey deyil, əksinə, çoxlu gəlir gətirə də bilər. Son 3-5 ildə kreativ iqtisadiyyat haqqında mühüm bazar tendensiyası və cəmiyyətin inkişafında yeni mərhələ kimi danışılır.

2021-ci ildə vençur kapitalı investorları kontent yaradıcıları ilə işləməyə diqqət yetirən 50 startapa ümumilikdə 2 milyard dollardan çox sərmayə qoyublar. Influencer Marketing Hub-ın məlumatına görə, qlobal kreativ sənaye bazarı hazırda təxminən 104,2 milyard dollar dəyərindədir. 2024-cü ilə qədər qlobal kreativ iqtisadiyyat 1 trilyon dolları keçə bilər. [166]

### 3.1.1. Kreativ sənaye və kreativ sinif

*Kreativ sənaye* (kreativ sənaye, kreativ iqtisadiyyat, bilik iqtisadiyyatı) - iqtisadiyyatın intellektual fəaliyyətlə əlaqəli, əsasən ideya və texnologiyalar üzərində inkişaf edən sektorudur.

Kreativ sənaye - əlavə dəyərin əhəmiyyətli hissəsi yaradıcılıq fəaliyyəti və əqli mülkiyyət hüquqlarının idarə edilməsi hesabına formalaşan iqtisadiyyat sahəsidir. Bu mal və xidmətlərin istehsalında texnologiya və innovasiyaların inkişafı mühüm rol oynayır. [168]

Kreativ sənaye həyatın bir çox sahələrini: elmi tədqiqat fəaliyyəti, dizayn, televiziya, musiqi, moda, memarlıq, proqram təminatının hazırlanması və s əhatə edir. Kreativ sənayelərin əsas xüsusiyyəti yaradıcı komponent və yüksək texnologiyanın birləşməsidir. [169]

Kreativ sənayelər inkişaf etmiş ölkələrdə nəhəng yaradıcı qüvvə kimi iqtisadiyyatın əsası və hərəkətverici qüvvəsi hesab olunur. İdeyaların, mənaların, obraz və nümunələrin istehsalını təmin edən güc – informasiya cəmiyyətinin ən çox tələb olunan məhsuludur.

Yəqin çoxlarının müasir Cənubi Koreya mədəniyyətinin dünyada insanların böyük marağına səbəb olmasından xəbəri var. “Koreya dalğası” - moda, kino, kompüter oyunları və digər multimedia layihələri ilə dünya bazarlarını fəth etməkdədir. Cənubi Koreyada hələ 2009-2017-ci illərdə KOCCA adlı xüsusi yaradılmış Dövlət Kreativ Kontent Agentliyi fəaliyyət göstərirdi. Onun fəaliyyəti yaradıcı sənayelərlə iş qurmağa səmtlənmişdi və bu, Koreya kontentini beynəlxalq bazara çıxarmağa imkan vermişdi.

Kreativ sənayelər haqqında danışarkən bəzən “kreaativ sinif” termininindən də istifadə olunur. Bunu ilk dəfə, 2002-ci ildə yaradıcı peşələrlə məşğul olan insanlara müraciət kimi amerikalı sosioloq və iqtisadçı Riçard Florida təklif edib. O, “Kreativ sinif: gələcəyi dəyişən insanlar” kitabında yazır: “Kreativlik iqtisadi inkişafın hərəkətverici qüvvəsi olduğundan, yaradıcı sinif artıq cəmiyyətdə dominant mövqe

tutur. Belə ki, işçi və xidmətçi sinfi gördüyü işlərə və göstərdiyi xidmətlərə görə plana uyğun olaraq maaş alırlar, yaradıcı sinif isə yeni şeylər yaratmaqla qazanırlar".

*Kreativ biznes* gəlir əldə etmək üçün əsas "yanacaq" kimi innovativ ideyalardan və intellektual kapitaldan istifadə edən təşkilatdır. Startapların əksəriyyətini yaradıcı biznesə aid etmək olar.

*Kreativ sinif* əsas fəaliyyəti ideya yaratmaq və təbliğ etmək olan insanların sosial təbəqəsidir. Bura həm müxtəlif yaradıcı peşələrin nümayəndələri (yazıçılar, bəstəkarlar, rəssamlar), həm də elm adamları, kontent istehsalçıları və "fikir liderləri" daxildir. Son dərəcə fərqlənən bir cəmiyyət ortaya çıxmasına baxmayaraq, bütün bu insanları kreativ iqtisadiyyatın aparıcı qüvvəsi olmaları birləşdirir.

*Kreativ sferanın alətləri* - bura kontentin yaradılmasına, yayılmasına və pul qazanmasına kömək edən bütün növ xidmətlər daxildir.

*Kreatorlar* - unikal ideyalar (və ya unikal kontent) hazırlayanlardır. Onlara kreativ iqtisadiyyatda baş rol verilir. Kreativ iqtisadiyyatın "özəyi" - unikal ideyalar və ya unikal kontent istehsal edən kreatorlardır.

### 3.1.2. Kreativliyin şərtləri və əlamətləri

*Kreativlik* müasir dünya reallığında şəxsiyyətin ən çox tələb olunan keyfiyyətlərindən biridir. Bu anlayışın geniş yayılmasına və çoxları tərəfindən işlədilməsnə baxmayaraq, onun təkib hisələrini, xarakterik cəhətlərini sadalamaq, onu necə inkişaf etdirmək haqqında əksəriyyətin təsəvvürləri bəsitdir.

Kreativlik - insanın ənənəvi ideyaların, qayda və şablonların hüdudlarından və çərçivələrindən kənara çıxmaq bacarığıdır ki, bu da yeni unikal ideyalar, metodlar, şərh formaları və s. yaratmağa imkan verir. Kreativlik həm də mütərəqqi yanaşmanın, təxəyyülün və orijinallığın mövcudluğunu nəzərdə tutur. Termin ingiliscə "creativity"

sözündən gəlir, tərcümədə çoxlarının ifadə etdiyi kimi "yaradıcı, yaradıcılıq" yox "yaradılış" deməkdir.

Kreativlik özündə 2 xüsusiyyəti - *zəka* + *təxəyyülü* birləşdirir. İntellekt insana düşünməyə, informasiya ilə işləməyə, səbəb-nəticə əlaqələrini təhlil etməyə, həmçinin alınan məlumat əsasında nəticə çıxarmağa imkan verir. Təxəyyül sayəsində insan öz fəaliyyəti zamanı adətən istifadə etdiyi adi alətlərdən və şablonlardan kənara çıxa bilər. Həmçinin, təxəyyül ən çox yayılmış stereotiplərdən qurtulmağa, problemlərin həllinin innovativ yollarını tapmağa imkan verir.

Kreativ insan, qeyri-adi təfəkkürü, eləcə də obyekti müxtəlif nöqteyi-nəzərdən qiymətləndirmək bacarığı, ortaya çıxan problemlərə başqalarının ağlına belə gətirməyəcəyi unikal və gözlənilməz bir həll tapmağı bacaran bir insandır. Cəsarətli fəaliyyəti yeni üfüqlər kəşf etməyə və standart düşüncədən kənara çıxmağa imkan verən novatorlar və inqilabçılar bu kateqoriyaya aiddir. Belə insanlar hər cür tərəqqinin əsas mühərrikidir.

Kreativliyin əsas komponentləri məşhur Amerika psixoloqu və kreativliyin tədqiqatçısı Ellis Pol Torrance tərəfindən tərtib edilmiş və xarakterizə edilmişdir. [168] O, müəyyən bir insanın kreativlik dərəcəsini müəyyən etmək üçün 5 əsas komponenti göstərir.

1. *Səlistlik* – insanın qısa zaman kəsiyində çoxlu sayda ideyalar çıxarmaq qabiliyyəti. Bu bacarığı həqiqətən inkişaf etmiş insan bir dəqiqə ərzində bir obyektdən, məsələn, karandaşdan istifadə etmək üçün 20-dən çox orijinal üsul tapmağı bacarır.

2. *Çeviklik* - ortaya çıxan problemin həllinə çoxşaxəli yanaşma, habelə onun həlli üçün müxtəlif alqoritm və üsullardan istifadə etmək bacarığı. Çeviklik sayəsində bir insan müxtəlif hadisələrlə əlaqələri kifayət qədər tez müəyyən etmək, qanunauyğunluqları vurğulamaq,

həmçinin bir-birinə uyğun gəlməyən obyektlərdə belə ümumi hissələri tapmaq qabiliyyətinə malikdir.

3. *Orijinallıq* - insanın unikal, qeyri-standart və ya tamamilə gözlənilməz ideyalar yaratmaq, habelə ümumi qəbul edilmiş şablondan kənara çıxmaq qabiliyyətidir. Orijinallıq insana istənilən fövqəladə vəziyyətin öhdəsindən gəlməyə imkan verir.

4. *Detallaşdırma* - yaradılan bütün unikal ideyaları tamamlamaq və inkişaf etdirmək bacarığıdır. Belə xüsusiyyətlər müxtəlif mühəndis və dizaynerlər üçün xarakterikdir.

5. *Qapanmaya qarşı müqavimət* - insanın yeni məlumatların qavranılmasına həmişə açıq qalma qabiliyyətidir. Bu, obyektin tərəflərindən birinə asılmamağa, ən uyğun görünən həlli seçməyə imkan verir. Xarakter və şəxsiyyətin belə bir xüsusiyyəti onun dünya görüşünün daim genişlənməsinə, həmçinin faydalı məlumatların toplanmasına kömək edir.

Kreativliyin bəzi heyrətamiz nümunələrinə nəzər salaq.

*Nike oğurluq problemini necə həll etdi?* Nike bütün dünyada genişlənməyə və istehsal qurmağa başlayanda kifayət qədər kasıb ölkələrdə də fabriklər açdı. Bu fəaliyyət böyük itkilər də gətirməyə başladı, çünki işçilər tərəfindən hazır məhsulların yüksək səviyyədə oğurlanması prosesin qurulmasına imkan vermədi. Oğurluğun ən yüksək səviyyəsi yaşayış səviyyəsinin ən aşağı olduğu Afrika və Asiya ölkələrində özünü göstərirdi.

Qeyd etmək lazımdır ki, bu ölkələrdə bir cüt idman ayaqqabısının qiyməti işçilərin illik gəliri ilə müqayisə olunurdu, buna görə də onlar hazır məhsulu böyük həvəslə özləri üçün götürürdülər. Nəticədə, bütün kənd sakinləri Nike idman ayaqqabısı ilə gəzməyə başladılar. Mühafizəçilər də Nike məhsullarını bəyəndiyi üçün işə götürülməsi və ya təhlükəsizliyi gücləndirmək cəhdi əbəs idi. Problem həm də onda idi

ki, belə bir vəziyyətdə bütün mühafizəçilərin saxlanması xərcləri də xeyli artmışdı.

Bütün Nike qərargahı uzun müddət ərzində bu problemin həllini tapmağa çalışdı və bunu, məhz kreativ əməkdaşının sayəsində tapdılar. O, sağ və sol idman ayaqqabılarının istehsalını müxtəlif fabriklərə ayırmağı təklif etdi: bir fabrik yalnız sol idman ayaqqabısı, ikinci fabrik isə yalnız sağ ayaqqabı istehsal edirdi və bu fabriklər bir-birindən uzaq idi. Bu, yerli sakinlərdə oğurluq etməyin heç bir mənası olmadığı fikrini formalaşdırdı.

*Sears Roebuck kataloq satışlarını necə artırdı?* Sears Roebuck şirkəti ilə bağlı 100 ildən çox əvvəl baş vermiş hadisə də son dərəcə maraqlıdır. O məqamda şirkət poçt vasitəsilə malların satışı üçün kataloqların istehsalı ilə məşğul idi, lakin bir anda rəqiblərin meydana çıxması səbəbindən, satışlar ciddi şəkildə azaldı. Mütəxəssislərdən biri parlaq bir ideya təklif etdi - daha kiçik kataloqlar yaratmağa başlamaq. Bu yanaşma, rəqiblərdə daha böyük nümunələr olduğu üçün mağazanın rəflərində ən kiçikləri rəflərdə yuxarıya yerləşdirilməyə başladı. Satışlar sürətlə artdı və rəqiblərini iflas etdi.

*Kreativlik və yaradıcılıq arasındakı fərqlər.* Dərin mənasına baxılmasa, yaradıcılıq xüsusi fəaliyyət növüdür, kreativlik isə bu fəaliyyət növünə meyldir. Burada qeyd etmək yerinə düşər ki, kreativlik təkcə təbii qabiliyyətlər və yaratmaq istəyi deyil, həm də insanın maksimum fəallığını və məqsədyönlülüyünü təmin edən, həm də onun qətiyyətini təmin edən şəxsiyyət xüsusiyyətlərinin, psixikasının və xarakterinin məcmusudur.

Beləliklə, yaradıcılıq potensialı yüksək olan insanların heç də hamısını kreativ adlandırmaq olmaz. Yalnız öz ideyalarını həyata keçirmək üçün kifayət qədər aktiv olan insanlar kreativdirlər. Həm də burada, son dərəcə fərqləndirici vacib bir amil kimi, təkcə ideya

yaratmaq qabiliyyəti deyil, həm də onları həyata keçirmək bacarığını vurğulamaq olar.

Bu sahədə pul qazanmaq üçün çoxlu imkanlar var - uzaqgörən istedada və parlaq ideyalara sahib olmaq heç də vacib deyil.

*Ümumi onlayn keçid.* Dünya əhalisinin əksəriyyətinin gündəlik onlayn mövcudluğu kreativ sənayenin inkişafı üçün çoxlu imkanlar yaradır: bu, böyük auditoriya, gündəlik kontent istehlakı və yeni ideyalara ehtiyacdır.

*İdeya yaratmaq prosesində çeviklik.* AI, virtual reallıq, NFT kimi müxtəlif texnologiyaların inkişafı ilə kreativ kontent yaratmaq və innovasiya imkanları artır.

*İdeyaların və yaradıcılığın monetizasiyası.* Hər il müxtəlif istiqamətlərdə ideyalar və unikal kontentlə pul qazanmağın getdikcə daha çox yolu meydana çıxır, təkcə texnoloji ideyalara deyil, həm də sırf bədii ideyalara investisiyanın da həcmi artır.

*Bazar liderlərinin meydana çıxması.* Kreativ iqtisadiyyat bazarının və orada qaydaların yeni formalaşmasına baxmayaraq, həm kontent istehsalı üçün köməkçi xidmətlər arasında, həm də birbaşa oyunçular-kreatorlar arasında artıq liderlər var. Onların arasında daimi rəqabət təbii olaraq bütün bazarın inkişafına gətirib çıxarır.

Kreativ iqtisadiyyat bütün dövrlərdə onun "yaradıcıları" üçün kifayət qədər çətin olub: ədəbiyyatda və kinoda klassik mövzulardan biri iqtisadi cəhətdən sərfəli olmayan səmimi yaradıcılıq ilə gəlirli ruhsuz sənət arasında münaqişələrin xeyli hekayələri qalıb. Bu münaqişədən qalib çıxmağı bacaran bir çox insanların adları indi də məlumdur, lakin çox qiymətli ideyaları yarımçıq qalan, hətta unudulan nə qədər korifeylər olub. Şöhrət və maddi rifah bəzən kreatorlara yalnız ölümdən sonra gəlib: sağlığında yeganə tablosunu satan, yoxsulluq və faciə ilə həyatını başa vuran Van Qoqu indi kim tanımır?

İndi  məhz kreativ iqtisadiyyat nəhayət ki, bu münaqişəni həll etməyə qadirdir. İstedadlı, kreativ insanların vaxtında tanınması, pul qazanması üçün böyük imkanlar yaranıb.

## 3.2. Kreativ iqtisadiyyatda mədəni irsin faydaları

Bir çox ölkələrdə sosial-iqtisadi inkişafın postsənaye tipinə keçid baş verməkdədir. Son onilliklərdə bütün dünyada, o cümlədən Azərbaycanda mədəni irsin cəmiyyətdəki rolu, müasir mədəniyyətin iqtisadiyyatının necə qurulduğu, hansı iqtisadi mexanizmlərin və idarəetmə texnologiyalarının mədəniyyət sahəsinə zəruri resurslar axınını təmin etdiyi barədə fikirlər nəzərəçarpacaq dərəcədə dəyişmişdir. [158, s.100]

Bəzi Avropa ölkələri, xüsusilə Hollandiya və Böyük Britaniya, öz şəhərləri üçün aparıcı inkişaf strategiyası kimi sənayesizləşdirməni seçirlər. Ötən əsrin 70-ci illərindən mədəniyyətin və mədəni irsin dəstəklənməsi, bu ölkələrin siyasətində strateji prioritetə çevrilib. Həmin dövrdə hazırlanmış layihələr - ərazilərin investisiya cəlbediciliyinin artırılmasına, işçilərin ixtisaslarının yüksəldilməsinə, yaradıcılıqda innovasiyaların stimullaşdırılmasına, ölkə, ərazi və şəhərlərin rəqabət qabiliyyətinin artırılmasına töhfə verən, iqtisadiyyatın kreativ sektorunun - yaradıcılıq sahələrinin dəstəklənməsi proqramlarının əsasını təşkil edirdi. [158, s.100-116]

Kreativ sənayenin inkişafi bir çox ölkələrə post-sənaye iqtisadiyyatında "yeni məşğulluğa" keçməyə imkan verən sosial adaptasiya proqramına çevrildi. Şəhərlərdə və kənd yerlərində ərazilərin simasını dəyişən kreativ klasterlər onların cəlbediciliyini artırmaqla, kapitalın, turistlərin və yeni gəlir mənbələrinin axınını təmin edirdi. Həmin vaxtdan "kreativ iqtisadiyyat"ın formalaşması başlandı, onun nəzəriyyəsi indiki klassiklər - C. Hokins, R. Florida, C. Landri, digər tədqiqatçılar və mütəxəssislər tərəfindən işlənib hazırlanmışdır. [106: 101: 81]  Müasir tendensiyalar kontekstində

mədəniyyət və mədəni irsə yeni iqtisadiyyatın resursu və inkişafın fəal agenti, yeni təfəkkür mənbəyi kimi yanaşılmağa başlanılmışdır.

Amerikalı professor, iqtisadçı və sosioloq Riçard Florida "Yaradıcı sinif: Gələcəyi Dəyişən İnsanlar" adlı əsərində Amerika cəmiyyətinin siyasi və iqtisadi inkişafının təhlili nəticəsində belə qənaətə gəlir ki, onun əsasında son illərdə kreativ iqtisadiyyat dayanır. O, cəmiyyətin özəyini yaradıcı təbəqə, yaxud yaradıcı peşələrin nümayəndələri adlandırır. Floridaya görə kreativlik "praktik yeni formalar haqqında bilik əsasında yaradılışdır" və yaradıcı iqtisadiyyatın inkişafının əsasında 3 "T" prinsipi: "texnologiya, talant və tolerantlıq" durur. [101]

Kreativ iqtisadiyyatla bağlı digər klassik mənbə - Dünya Bankının eksperti ingilis Çarlz Landrinin "Kreativ şəhər" kitabıdır. O, müasir şəhərlərin inkişafını təsvir edir və belə nəticəyə gəlir ki, şəhər mühitinin inkişafında, infrastrukturu, təbii sərvətləri və s. ikinci plana sıxışdıraraq, insan qabiliyyətləri və motivasiyaları ön plana çıxır. [126]

Bir sıra müəlliflər hesab edirlər ki, kreativ iqtisadiyyat pirinq (eyni ranqlı - peer economy) iqtisadiyyatının inkişafı ilə sıx bağlıdır, onun xarakterik xüsusiyyətləri informasiya istehsalının üstünlük təşkil etməsi, iyerarxiyaların üfüqi iqtisadi şəbəkələrlə sıxışdırılması, qeyri-maddi sərvətlərin bolluğu və kapitalın funksiyalarının azalması ilə təzahür edir. Kreativ iqtisadiyyatın sahələri əsasən informasiya kontentinin istehsalı ilə əlaqəli olduğundan, onlar üçün ən optimal mühit qlobal cəmiyyət daxilində kreativ məhsul və məlumat mübadiləsi azadlığını təmin edən üfüqi şəbəkələrdir. İştirakçıların vasitəçilər olmadan birbaşa qarşılıqlı əlaqədə olduğu pirinq şəbəkələrində kreativ potensial maksimum dərəcədə artır. [127: 128: 129]

Ekspertlər və mütəxəssislər mədəni sərvətləri öyrənir və "xəritələyir", mədəni irs və cari mədəniyyət məkanların xüsusiyyətlərini necə formalaşdıra biləcəkləri, ərazinin imicini necə dəyişdirə biləcəkləri, yerli ictimaiyyət tərəfindən tələb olunan maraqlı hala

gətirilməsi, turistlər və qonaqlar cəlb edilməsi üzrə idarəetmə texnologiyaları üzrə konkret təkliflər hazırlayırlar. Hazırda geniş müzakirə olunuraq əsaslandırılır ki, məhz mədəniyyət müxtəlif sahələrə müsbət təsirləri özündə cəmləşdirir, zəif cəhətləri güclü tərəflərə çevirməyə, mədəniyyət təşkilatlarının digər qurumlarla əməkdaşlıq və koopersiya mövqeyinə keçməsi şəhər mühitini yaxşılaşdırmağa, turizmi inkişaf etdirməyə, investisiya cəlb etməyə, bununla da yeni iş yerlərinin yaradılmasına təşəbbüs göstərməyə, müasir dünyada sosial-iqtisadi problemləri və münaqişəli vəziyyətləri həll etməyə imkan verir.

Kreativ iqtisadiyyat nəzəriyyəçiləri yaradıcılıq, mədəni irs və iqtisadiyyatın birgə yaşama qabiliyyətinə üstünlük verməklə, onların bir-birini məhv edib-etməməsi məsələsinə də diqqət yetirirlər, çünki kreativ iqtisadiyyat ənənəvi iqtisadiyyatdan yaradıcı insanın mərkəzi rolu ilə fərqlənir. Adi iqtisadiyyatda şirkətlər məhdud maddi resurslarla işləyir və ilk növbədə, qiymətə görə rəqabət aparırlar.

Kreativ iqtisadiyyatın iştirakçıları təkcə mədəniyyət xadimləri (rəssamlar, muzeylər, musiqiçilər) deyil, həm də İnternet şəbəkəsində yaradıcı, maarifləndirici, əyləncəli məzmunlu kontentlərin (insanların marağına səbəb olacaq, bilmək və öyrənmək istədikləri informasiya) müəllifləri – kreativ iqtisadiyyat (Creator Economy) yuvasını formalaşdıran və ayrıca marketinq sahəsinə çevirən müstəqil müəlliflər və bloggerlər də daxil edilməlidir. Signal Fire-ın məlumatına görə, kreativ sənayelərin aktiv inkişafı cəmi on il əvvəl başlamasına baxmayaraq, dünyada 50 milyondan çox insan özlərini kreator (kreativ) hesab edir. [121]

Kreativ iqtisadiyyatda insanlar və firmalar qeyri-məhdud resurslardan istifadə edir, onlar üzərində qısamüddətli ola biləcək əqli mülkiyyət hüquqlarını əldə edirlər və qiymətlə rəqabət aparmırlar. Beləliklə, biz təbii ehtiyatların və maddi nemətlərin qıtlığına əsaslanan mənfəət marjalarının düşdüyü dünyadan mümkün ideyaların sonsuzluğuna və onların yeni məhsul və əməliyyatların istehsalında istifadəsinə əsaslanan artan mənfəət marjası dünyasına keçirik. [106]

Kreativ iqtisadiyyatda həyat tərzi aparıcı rol oynamağa başlayır, onlar müasir cəmiyyətdə özünü identifikasiyanın oxşar mal və xidmətlərin istehlakına, eyni asudə vaxta əsaslandığına dəlalət edir. Bu, fərdlərin müəyyən bir sosial təbəqəyə aid edilməsinəə əsas verir. Sosial iyerarxiyanın qurulması prinsipi ondan ibarətdir ki, müəyyən növ əşyaların əldə edilməsi insanların hansı qrupa aid edilməsini təsdiqləyir və müəyyən bir dairənin həyat tərzindən yayınma və ya müəyyən bir sosial təbəqə üçün atribut sayılan şeyləri əldə edə bilməmək, həmin qrupdan imtina etmək deməkdir. [158, s.101]

Kreativ iqtisadiyyatda real iqtisadiyyatdan əsas məhsulu mədəni sərvətlərin xəritələri və brendə çevrildiyi ərazilərin mədəni potensialı olan "simvollar iqtisadiyyatı" adlanan iqtisadiyyata keçid baş verir. Qeyri-maddi sərvətlər mədəniyyət təşkilatlarının strateji resursuna və kapitalına çevrilir ki, bu da qeyri-iqtisadi nemətlərdən - simvolik atributlardan və üstünlüklərdən, nüfuzun maddi və qeyri-maddi elementlərindən, əfsanə və miflərdən, mədəni ənənələrdən, xəyal və arzulardan, kütlənin zövqü və rəğbətindən iqtisadi faydalar əldə etməyə imkan verir. Brend, tamaşaçıların mədəni təklifin keyfiyyətinə və cəlbediciliyinə inamının simvoluna, mədəni irsin orijinallığının təminatına çevrilir.

Son dövrlərdə iqtisadiyyatın məzmunu və keyfiyyəti ilə bağlı çox ciddi dəyişikliklər baş verib ki, bunlardan biri də kreativ iqtisadiyyatın, başqa sözlə, yaradıcı sənayenin təşəkkülü və inkişafıdır. Kreativ məhsulların əhatə dairəsi kifayət qədər genişdir. Ənənəvi kontekstdə baxsaq, sənət məhsulları, yəni xalq yaradıcılığı - əl işləri, rəsm əsərləri, musiqi xidməti və məhsulları, audiovizual məhsul və xidmətlər, nəşr məhsulları, foto xidməti və məhsulları, muzey, kitabxana, teatr, qoruq-abidə xidmətləri, dəb geyimləri xidmətləri və s. təqdim edilir. Müasir kontekstdən yanaşılsa, texnologiyanın dəstəyi ilə formalaşan kreativ məhsul və xidmətlər - dizayn məhsulları və xidmətləri, onlayn reklam, media xidmətləri, kontentə bağlı olan bütün növ xidmət və məhsullar və s. təqdim olunur.

Kreativ və Mədəniyyət sənayesi (KMS) dünya iqtisadiyyatında dinamik inkişaf edən sektorlarından biridir. KMS-lər iqtisadiyyat, mədəniyyət, yaradıcı texnologiya sahələrini birləşdirən sənaye növüdür. Beynəlxalq kateqoriya və təsnifatlandırmaya əsasən KMS-lər musiqi, rəqs və teatr, dizayn, memarlıq və moda sənəti, sənətkarlıq və təsviri sənət, film, video və foto sənəti, ədəbiyyat və nəşriyyat, reklam, TV və radio yayımı, oyunlar və yaradıcı texnologiyalardan ibarətdir.

Mədəniyyət və incəsənət mallarının və xidmətlərinin qiymətində simvolik komponentin payı durmadan artır. Eyni zamanda, kreativ iqtisadiyyat texnologiyaları mal və xidmətlərə təkcə simvolik deyil, həm də sosial əhəmiyyət verir. İnsanların ehtiyac duyduğu maddi şeylər qeyri-maddi ehtiyacların mövcudluğunu əks etdirir. Mədəniyyət sferasının təklif etdiyi mal və xidmətlərə tələbat birbaşa onu doğuran sosial-psixoloji motivlərlə bağlıdır. [173:174] Tələbin miqyasına təsir edən iqtisadi təsirlər - çoxluğa qoşulmaq, müəyyən sosial qrupun həyat tərzinə uyğunlaşmağa səy göstərmək, həyatla ayaqlaşmağa çalışmaq, dəbli olmaq, kütlədən fərqlənmək istəmək, təklikdən qaçmaq, sevilmək kimi sosial davranış motivlərinə əsaslanır.Tələbin miqyasına təsir edən iqtisadi təsirlər - çoxluğa qoşulmaq, müəyyən sosial qrupun həyat tərzinə uyğunlaşmağa səy göstərmək, həyatla ayaqlaşmağa çalışmaq, dəbli olmaq, kütlədən fərqlənmək istəmək, təklikdən qaçmaq, sevilmək kimi sosial davranış motivlərinə əsaslanır.

Kifayət qədər uzun müddətdir ki, bazarlarda xammalın qiymətində azalma tendensiyası müşahidə olunur. "Facebook", "Apple", "Google" kimi nəhənglərin qlobal bazardakı çəkilərinə diqqət yetirilir. Bu korporasiyaların ümumi kapitallaşması Cənubi Koreyanın illik ÜDM-i ilə müqayisə edilə bilər. Bütün bunların fonunda dünya iqtisadiyyatının gələcək perspektivləri bilavasitə innovativ və kreativ layihələrdən asılı olacağına praktiki olaraq heç bir şübhə yeri qalmır. Bölgələrin və şəhərlərin bu cür təşəbbüslərin praktiki həyata keçirilməsi üçün əlverişli mühitin yaradılmasının əhəmiyyəti də bu

zərurətdən doğur. Hazırda dünyada nadir bacarıq və istedada malik kreativ insanların sayında da artım müşahidə olunur. Bu, mədəni və texnoloji inkişafı stimullaşdırır, həmçinin iqtisadi yüksəlişə yeni impulslar verir.

Mədəniyyət və mədəni irs öz potensialına görə həzz və zövq mənbəyinə çevrilə bilir və bununla da emosional dünyanın sərhədlərini genişləndirir. İnsanların qeyri-maddi ehtiyaclarının idarə edilməsinin mürəkkəb və incə texnologiyaları insanlar üçün mədəni irsi və mövcud mədəniyyəti demək olar ki, yenidən kəşf etməyə imkan verir və hər kəs öz maliyyə imkanlarından asılı olaraq ona pul xərcləyir. Kreativ iqtisadiyyat, mədəni irs və yaradıcılıq sahələri bir-birinin mövcudluğunu şərtləndirir və qarşılıqlı inkişafa təkan verir.

Müasir dünyada kreativ sənaye davamlı iqtisadi inkişafın ən mühüm amillərindən biri və insan kapitalının formalaşmasının baza şərtlərindən hesab edilir. Müxtəlif ölkələrdə kreativ sənayenin müxtəlif konsepsiyaları və bu seqmentin inkişafına müxtəlif yanaşmalar formalaşmışdır. İnnovativ iqtisadiyyatın inkişafı sahəsində artan qlobal rəqabəti nəzərə alaraq, bir çox ölkələr dövlət səviyyəsində kreativ sənayenin dəstəklənməsi proqramları işləyib hazırlayıb və qəbul ediblər. Ekspertlər və futuroloqlar insanın kreativlıq potensialının dünya ÜDM-də lider mövqeyə iddialı olacağını, həm də qlobal geosiyasi proseslərə təsir etmək iqtidarında olan yeni dəyərinin daima artacağını proqnozlaşdırırlar. [120] Bütün bunlar, gələcəyin iqtisadiyyatının inkişafı strategiyasında mədəni-tarixi irsin də nəzərə alınmasını zəruri edir.

Kreativ iqtisadiyyat beynəlxalq ticarətin ən dinamik sektorlarından birinə çevrilir, bunu 2002-2012-ci illərdə dünya ixracının iki dəfə artması da sübut edir. UNCTAD-ın məlumatına görə, qlobal maliyyə böhranı tələbin azalmasına səbəb olmuş və beynəlxalq ticarətin həcmi 12% azalmış, kreativ iqtisadiyyat isə hər il 14% artmışdır. [47] Beləliklə, inkişaf etmiş ölkələrin əksəriyyətində

mədəniyyətdən kapitallaşdırmaq, onu subsidiyalaşdırılan sektordan iqtisadiyyatın gəlirli sektoruna çevirmək istəkləri nəzərə çarpır. Kapitallaşmaya keçid - mədəni irsə yeni münasibət deməkdir.

Son 10 ildə kreativ məhsul və xidmətlərin qlobal ticarəti iki dəfədən çox artaraq 624 milyard dollara çatıb. Kreativ iqtisadiyyat iqtisadi faydalarla yanaşı, qeyri-maddi dəyərlər yaradır və insana yönəlik davamlı inkişafı təmin edir. Bəzi ekspert araşdırmalarına görə 2024-cü ilə qədər kreativ sənayenin milli ÜDM-də payı 8,5%-ə qədər artacaq. Müqayisə üçün qeyd edək ki, müasir Almaniyada bu pay artıq 8%-dir.[170]

Məsələn, Los-Ancelesin Boyle Heights-in sənət məkanlarının yaradılmasından tutmuş NASA-nın Reaktiv Hərəkət Laboratoriyasının elmi işlərinə qədər yaradıcılıq ruhunun geniş təzahürləri var. Onlar birlikdə regionun gələcək inkişafını müəyyən edən əsas iqtisadi sərvətdir.

Resurs təminatının və mədəni irsin dəstəklənməsinin yeni yollarının axtarışı mədəniyyət, hökumət və biznesin sosial tərəfdaşlıq prinsipləri əsasında qarşılıqlı fəaliyyətinin genişləndirilməsini nəzərdə tutur. Maliyyə böhranının nəticələri göstərdi ki, yalnız büdcə və uzunmüddətli büdcədənkənar mənbələrin birləşməsi ilə mədəniyyət təşkilatlarının yaradıcı muxtariyyətini və iqtisadi müstəqilliyini təmin etmək olar. Bu, mədəniyyət və mədəni irs sahəsinin iqtisadi əsaslarına yeni baxışa, onların maliyyələşdirilməsinə yanaşmaların dəyişməsinə və ərazilərin sosial-iqtisadi inkişafında mədəni resursların rolunun yenidən qiymətləndirilməsinə səbəb olur. [55, s.185-189: 86]

Yaradıcılıq həm də dünyanın istənilən yerində tapa biləcəyimiz, bərpa olunan, davamlı və tükənməyən resursdur. Hazırda iqlim böhranı və pandemiya ilə üzləşdiyimiz bir vaxtda məhz insana səmtlənən, inklüziv inkişafa təkan vermək potensialı olan kreativ iqtisadiyyat həmişəkindən daha da aktualdır.

Kreativ iqtisadiyyat iqtisadi fayda ilə bərabər həm də qeyri-maddi dəyərlər yaradır və insanın ehtiyaclarına istiqamətlənmiş stabit inkişafa təminat verir. "Kreativ iqtisadiyyat" anlayışına yaradıcı şəxslərin azad surətdə öz işlərini təqdim etməsi, rəy mübadiləsi və ideyaları ilə bölüşməsi üçün yaradılmış məkanlar da daxildir. Günümüzdə ən böyük uğuru, ən əsası isə, şəxsi məmnunluq hissini artıq pullar və ya texnologiyalar deyil, məhz ideyalar gətirir.

Bundan başqa, kreativ iqtisadiyyat istehsalata, xidmətlərə, ticarətə və əyləncə sahələrinə yeni həyat verir. O, insanların yaşamaq, işləmək və təhsil almaq istədikləri, düşündükləri, kəşflər etdikləri və yaradıcılıqla məşğul olduqları mühiti dəyişdirir.

### 3.3. Kreativ sektor: dünya təcrübəsi və inkişaf potensialı

Kreativ sektorun sosial-iqtisadi inkişafda rolunun tədqiqi qlobal maliyyə və pandemiya böhranlarından sonra bütün ölkələrdə xüsusi aktuallıq kəsb etdi, böhranın nəticələri, mədəni resurslara əsaslanan yeni innovativ inkişaf modelləri regional planlaşdırmanın mövcud strateji istiqamətlərinə yenidən baxılması məsələsini gündəmə gətirdi. Beynəlxalq təcrübədə yaradıcı sahələr uzun müddətdir ki, bir çox ölkələrin mədəni və sosial-iqtisadi siyasətində davamlı prioritetə çevrilib. Belə ki, Böyük Britaniyada 1970-ci illərdən layihələr hazırlanır ki, bu da artıq 1990-cı illərdə yaradıcı sahələrin müəyyən edilməsi, stimullaşdırılması və dəstəklənməsi texnologiyalarının əsasını təşkil edir. Yaradıcı sahələrin inkişafı proqramları yaradıldı ki, bu da kapital axınını, məşğulluq yeni strukturunu formalaşdırdı və yeni gəlir mənbələri yaratdı. Tərk edilmiş ərazilərdə və tərk edilmiş sənaye binalarında yaradıcı klasterlər - ümumi yer və qarşılıqlı əməkdaşlıq və rəqabət münasibətləri ilə əlaqəli müstəqil yaradıcı şirkətlərin icmaları formalaşmağa başladı. İndi Böyük Britaniya dünya bazarını polad və toxuculuqdan daha çox "yaradıcı" və ya "intellektual" məhsulla: dizayn əşyaları, kitablar, filmlər, multimedia texnologiyaları və s. təmin edir.

Bu, bütün səviyyələrdə hakimiyyət orqanlarının həyata keçirdiyi ardıcıl tədbirləri nəticəsində əldə edilib.

Müxtəlif ölkələrdə bir sıra milli standartlar Britaniyada 1998-ci ildə tətbiq edilən yanaşmalara əsaslanaraq inkişaf etmişdir. Hesablamalar iqtisadi fəaliyyətin 13 növünün: reklam, memarlıq, sənətkarlıq, dizayn, moda, kino, musiqi, ifaçılıq sənəti, nəşriyyat, proqram təminatı, yayım, incəsənət və antikvar bazarı göstəriciləri əsasında aparılır.

Bu yanaşma (sahə yanaşması da adlanır) bu gün ən çox yayılmışdır. Bir çox dövlətlər kreativ sənayelərin öz təsnifatlarını yaratmışlar, lakin məlumatları müqayisə edilməsi üçün hər kəs beynəlxalq təşkilatların - YUNESKO, UNCTAD, DƏMT, Avrostat-ın tövsiyələrinə əməl edir. Vətəndaşlarının yaradıcılıq qabiliyyətlərinin iqtisadi potensialı, məsələn, Avstraliya, Almaniya və Koreya Respublikası tərəfindən dəstəklənir. Böyük Britaniyada isə hətta xüsusi strategiya həyata keçirilir və kreativ sənaye sahəsində dünya lideri olmağı planlaşdırır. Avropa İttifaqının ərazisində yaradıcı peşə nümayəndələrinə və təşkilatlara kömək etmək üçün 1,46 milyard avro büdcəsi olan Kreativ Avropa (Creative Europe) proqramı işləyir.

Bu gün daha çox insan öz ideyalarını və yaradıcılıq fantaziyalarını gəlir mənbəyinə çevirir. Kreativ iqtisadiyyat dünyanın ən sürətlə inkişaf edən sektorlarından biridir və qlobal ÜDM-in 3%-ni təşkil edən 2,25 milyard ABŞ dolları səviyyəsində gəlir gətirir və gəncləri (18-25 yaş) digər sektorlardan daha çox iş yeri ilə təmin edir. Hazırda bütün dünyada mədəniyyət sektorunda 30 milyon insan çalışır. 2019-cu ilə kreativ sənaye sektorunun qlobal ÜDM-də orta payı 6,6%; inkişaf etmiş ölkələrdə bu pay 8-12% təşkil etmişdir. 2019-cu ilə qədər kreativ sənayelərin orta artım tempi 15% olmuşdur. [124] Ümumi əlavə dəyər baxımından yaradıcı sənaye seqmentində dünya liderləri ABŞ (988 milyard dollar) və Çindir (921,6 milyard dollar). Ölkənin ÜDM-də kreativ sahələrin payına görə birinci yeri İtaliya (6,1%), ikinci yeri Böyük Britaniya (5,8%) və Avstraliya (5,7%) tutur. ABŞ və Çində hər

birində 4,2%, İtaliyada 3,8%, Almaniyada 3,1% təşkil edir. [130] Dünya üzrə orta göstərici isə 3%-dir. [125]

Birləşmiş Millətlər Təşkilatı Baş Assambleyasının 74-cü sessiyasında 2021-ci il Davamlı İnkişaf naminə Beynəlxalq Kreativ İqtisadiyyat İli elan edilib. İl Birləşmiş Millətlər Təşkilatının Ticarət və İnkişaf üzrə Konfransı (UNCTAD) tərəfindən YUNESKO və BMT-nin digər müvafiq qurumları ilə əməkdaşlıq çərçivəsində keçirilir. Məqsəd - inkişaf etməkdə olan ölkələrə daha məhsuldar və layiqli iş yerləri yaratmağa kömək etməklə, bütün dünyada mədəni və kreativ sənayeləri təşviq etməkdir. Artan iqtisadiyyat, ölkələrə yoxsulluğu aradan qaldırmağa və öz vətəndaşları üçün daha yaxşı həyat yaratmağa imkan verəcək. [131: 132]

BMT ölkələrə aşağıdakıları tövsiyə edir: [133]

- İnnovasiyalara və kütləvi sahibkarlığa dəstək;
- Mədəni üzünüifadənin müxtəlifliyinin təşviqi;
- Davamlı inkişaf haqqında insanları maarifləndirmək;
- Rəqəmsal texnologiyaların və infrastrukturun inkişaf etdirilməsi.

Davamlı İnkişaf üçün Beynəlxalq Kreativ İqtisadiyyat İli bundan da yaxşı vaxtda elan oluna bilməzdi. COVID-19 pandemiyası kreativ iqtisadiyyatı iflic edib. Yaradılmadan, istehsaldan, yayılmadan, əlçatanlığa qədər, kreativ sənayenin əlavə dəyər dövriyyəsinin heç bir iştirakçısı onun təsirindən qaça bilməyib. Səhiyyə böhranı mədəniyyət sektorunda əvvəllər mövcud olan problemli məsələləri də üzə çıxarıb və dərinləşdirib. Bir çox sənət adamları və mədəniyyət işçiləri digər sahələrdə çalışanları xilas edən sosial və iqtisadi yardım hüququna malik deyildilər. İndi hər zamankından daha çox onlayn mədəni media resurslarından istifadə edilsə də, yaradıcı işçilər və müəlliflər çox vaxt cəmiyyət qarşısında xidmətlərinə görə layiqincə qiymətləndirilmirlər.

Pandemiya böhranı həm də bizə yaradıcılığın rifahımız üçün - sağ qalmağımız üçün nə qədər vacib olduğunu göstərdi. 2020-2021-ci illərdə insanlar filmlərdə, televiziya şoularında, musiqidə və rəqsdə

təsəlli və sabitlik tapdılar. İncəsənətə artan diqqət məhz indi kreativ iqtisadiyyata sərmayə qoymaq üçün tarixdə ən əlverişli vaxta çevirir.

Almaniya, Fransa, Avstriya və İspaniyada irimiqyaslı sənayesizləşdirmə layihələri və yaradıcı klasterlərə dəstək həyata keçirilib. 1988-ci ildə Şimali Reyn-Vestfaliya hökuməti sənaye kompleksini dizayn, təhsil, turizm və mədəniyyət mərkəzinə çevirmək planını qəbul etdi. Keçmiş mədənin ərazisində Ruhr Muzeyi və Müasir Sənaye Dizayn Muzeyi, incəsənət studiyaları, Şimali Reyn-Vestfaliya Dizayn Mərkəzi, Müasir Xoreoqrafiya Mərkəzi və yaradıcı şirkətlərin ofisləri yerləşirdi. Hər il Zollverein turistlər və müasir rəssamlar da daxil olmaqla, təxminən 800.000 ziyarətçini cəlb edir. Almaniyadakı kreativ sənayelərdən danışarkən, hətta beynəlxalq səviyyədə ən böyük yaradıcılıq mərkəzlərindən biri sayılan Berlini qeyd etməmək olmaz. Onun ərazisində çoxlu sayda yaradıcı qruplar: rəssamların məhəllələri, teatrlar, konsert meydançaları, müasir incəsənət mərkəzləri və s. var. [158, s.111-112]

2008-ci ildə Berlin şəhəri tərəfindən nəşr olunan "İnkişaf və Potensial" hesabatında şəhərdə iqtisadiyyatın bu sektorunda 6775-ə yaxın müəssisə fəaliyyət göstərirdi. Vyana, Paris, Amsterdam, Haaqa, Lill, Brüssel, Barselona və Qərbi, Mərkəzi və Şərqi Avropanın digər şəhərlərində bundan az əhəmiyyətli layihələr həyata keçirilməyib. [158, S.112] Bütün bunlar Avropa ölkələrinin hakimiyyət orqanlarının yaradıcı sahələrə münasibətini açıq şəkildə nümayiş etdirir, indi təkcə onların potensialını tanımaqdan və ya dəstəyin vacibliyindən danışılmır. Avropa ölkələrində kreativ sektor sənayenin ənənəvi sektorlarını bir çox cəhətdən qabaqlayaraq iqtisadiyyatın tam hüquqlu sahəsinə çevrilir.

İqtisadiyyatın kreativ sektorunun dəstəklənməsinin prioritet və perspektivləri haqqında tezis Cənub-Şərqi Asiya ölkələrində, ilk növbədə Çində kreativ sənayenin inkişaf etdirilməsi təcrübəsi ilə təsdiqlənir. 2000-ci ilin oktyabrında Çin Kommunist Partiyasının qurultayı ölkənin beşillik inkişaf planı üçün tövsiyələr siyahısına kreativ

sənayelərin inkişafını da daxil etdi. Lakin Çində kreativ sənayelərin inkişaf etdirilməsinin məqsədi iş yerləri yaratmaq və ya şəhərləri və kənd yerlərini "yenidən qurmaq" deyil, innovasiya yaratmaqdır.

2004-cü ildən Şanxayda üç əsas bölmədən (Şanxay beynəlxalq kreativ sənayelər sərgisi, Şanxay beynəlxalq şəhər kreativ sənayelərin inkişafi forumu, Şanxayda kreativ sənayelərin illik qiymətləndirilməsi) və altı yaradıcılıq festivalından ibarət "Beynəlxalq yaradıcılıq sahələri həftəsi" keçirilir. Bu tədbirlərin əsas məqsədləri: ölkələr arasında əlaqələrin və əməkdaşlığın möhkəmləndirilməsi; innovasiyaların təşviqi və əqli mülkiyyətin qorunması; biznes strukturları arasında yaradıcı məhsul və xidmətlərin ticarəti üçün platformanın yaradılması; yaradıcı məhsul və xidmətlərə tələbatın artması; ahəngdar cəmiyyətin yaradılması və kreativ biznesin dövlət tərəfindən dəstəklənməsi üçün yaradıcılıq sahələrinin potensial funksiyalarının öyrənilməsi; Şanxayın yaradıcı şəhər kimi nüfuzunun və imicinin gücləndirilməsidir. [158, s.112-113]

Beləliklə, yaradıcılıq sahələrinin inkişafındakı müsbət dinamikanı qiymətləndirərək, bu sahənin Çin hakimiyyəti üçün prioritetlərdən biri olaraq qalacağını güman etmək olar. Bunu bu gün qabaqcıl kreativ şəhər adı uğrunda Şanxayla rəqabət aparan, kreativ klasterlərin sayı sürətlə artan, yaradıcılıq sahələrinin uğurlu fəaliyyəti üçün inkişaf etməkdə olan infrastrukturu, məqsədyönlü siyasəti ilə Pekinin yerli hakimiyyət orqanlarının innovativ mühit yaratmağa yönələn nümunəsi də təsdiq edir.

Xaricdə mədəniyyət və incəsənət sahəsində kreativ sənayelər çoxdan əhəmiyyətli vergi güzəştlərinə malikdirlər ki, bu da yaradıcılıq işinin xüsusiyyətləri və onların yaratdığı məhsulun xüsusi sosial əhəmiyyəti ilə bağlıdır. Maliyyə böhranı və onun nəticələrinin aradan qaldırılması üçün əksər ölkələrdə büdcələrin vəziyyətinin kəskin şəkildə pisləşməsi onların dövlət siyasətinin birbaşa maliyyələşdirmədən müəyyən istiqamətə yönəldilməsinə səbəb olduğu dövrdə yaradıcılıq sahələrinin dəstəklənməsinin və iqtisadi

tənzimləmənin dolayı alətlərindən, o cümlədən vergi alətlərindən daha da geniş istifadə edilmişdir. Vergi güzəştləri sistemi ilk növbədə, istehsalın artımının stimullaşdırılmasına və mədəni mal və xidmətlərin müxtəlifliyinin təmin edilməsinə, sosial-mədəni siyasətə uyğun olaraq mədəniyyət sektorunda qiymət sabitliyinin qorunmasına və ona qeyri-dövlət maliyyə resurslarının axınının asanlaşdırılmasına yönəldilir.

Kreativ və Mədəniyyət Sahələrinin (KMS) inkişafına dair qlobal kontekstdə müxtəlif araşdırmalar aparılıb. Ən son təfsilatlı analiz BMT-nin Ticarət və İnkişaf üzrə Konfransı (UNCTAD) təşkilatının 2002-2015-ci illər üzrə Kreatv İqtisadiyyata Baxış sənədidir. Bu sənədə əsasən, KMS -lər dünya üzrə araşdırma aparılan illər ərzində orta hesabla illik 7,3%-lik artım göstəriblər. Bununla yanaşı, qeyd edilən illər ərzində KMS-lərin məhsul və xidmətləri üzrə dünya ixracı iki dəfədən çox artıb. Belə ki, 2002-ci ildə bu göstərici 208 milyard dollar olduğu halda, 2015-ci ildə artaraq 509 milyard dollar olub. Ümumilikdə YUNESKO-nun, Böyük Britaniya və digər qabaqcıl ölkələrin hesablamalarına görə, KMS-lər iqtisadiyyatın ənənəvi sahələrindən 2 dəfə daha sürətlə inkişaf edir və buraya daha az sərmayə tələb olunur. Ümumiyyətlə, KMİ-lərin sürətlə inkişafı həm rəqəmsallaşmanın, sosial şəbəkələrin və internetin inkişafı ilə, həm də bu sahəyə dövlətlərin diqqətinin artması və əlavə sərmayələrin yatırılması ilə əlaqələndirilir. Son illər ərzində müxtəlif dövlətlər KMS-lərin iqtisadi potensialını görərək bu sahənin inkişafı üzrə strateji sənədlər qəbul edib.

Hazırda mədəniyyət və kreativ sahələrinin dövriyyəsi təxminən 1,3 trilyon dollar təşkil edir, onun artım sürəti isə sənaye və xidmət sahələrini qabaqlayır. Yalnız mədəni turizm dünya turizm sahəsi gəlirlərinin təqribən 40%-ni verir və son on il ərzində stabil artım nümayiş etdirir. Son 10 ildə ümumdünya kreativ əmtəə dövriyyəsinin və xidmətlərinin həcmi demək olar ki, iki dəfə artıb və 624 milyard ABŞ dollarına çatıb.

## 3.4. Azərbaycan Respublikasında kreativ sənayenin kapitallaşdırılması

İnkişaf etmiş ölkələrdə kreativ məhsulların iqtisadiyyata verdiyi töhfə ÜDM-in 4-6 faizini təşkil edir: Azərbaycanın bu sahədə mövcud potensialını nəzərə alsaq, perspektivdə bu sektor ölkəyə ən azı 1-1,5 milyard dollar əlavə gəlir gətirə bilər. Bu məqsədlə, kreativ məhsulların xarici bazarlarda təşviqi məqsədilə "Azexport.az" portalı yaradılmışdır.

Azərbaycanda Kreativ və Mədəniyyət Sənayesi ənənəvi olaraq müxtəlif formalarda mövcuddur. Bura həm qədim sənətkarlıq növləri, həm dərin musiqi ənənələri, həm də ədəbiyyat, film, rəssamlıq, foto və digər sahələr daxildir. Azərbaycan xalqı yaradıcı və inkişafa meyilli xalq olduğundan, KMS-lər həmişə ictimai həyatda mərkəzi rol oynayıb.

Azərbaycanda Kreativ iqtisadiyyat yenicə sənaye və ya iqtisadiyyatın bir parçasına çevrilib. Yaradıcı iqtisadiyyatın təməl çərçivəsi və məzmunu əqli mülkiyyət hüquqlarının qorunmasından keçir. İnkişaf səviyyəsini dəyərləndirsək, etiraf etməliyik ki, həm hüquqi mexanizmlərin təkmilləşdirilməsi, həm əlverişli mühitin yaradılması, həm də institusional tərəfdaşlıq təcrübəsinin tətbiqi baxımından uzun bir yol keçməliyik. Yəni böyük potensial var, amma onun monetizasiyası üçün əlverişli şərait yaradılmaldır.

Ölkəmizdə KMS-lərin inkişafı üzrə uzunmüddətli strateji planlaşdırmanın və inkişaf proseslərinin effektiv koordinasiyasının təmin edilməsi üçün "Kreativ Sənayenin İnkişafına dair Strategiya"nın hazırlanmasına ehtiyac var. Hazırlanacaq bu sənəd və sənədin əsasında aparılacaq praktiki fəaliyyət yaradıcı məhsulların artmasına, ixracın şaxələndirilməsinə, kiçik və orta sahibkarlığın inkişafına, kölgə iqtisadiyyatının payının azaldılmasına, gənclər arasında işsizliyin azaldılmasına, dövlətlə cəmiyyət arasında daha sıx əməkdaşlığa və digər geniş milli məqsədlərə töhfə verə bilər. KMS-lərin inkişafı təhsildə müasir yeniliklərin tətbiqinə, regionlarda iqtisadi inkişafa, təşkilatlararası və özəl sektor ilə əməkdaşlığın gücləndirilməsinə gətirib

çıxaracaq. Bu sahədə yaradılan iş yerləri digər istehsalat sahələri ilə müqayisədə rəqəmsallaşmaya daha dözümlüdür, çünki insan intellekti ilə sıx bağlıdır.

Azərbaycanda kreativ sənayenin və müəllif yaradıcılığının dinamik yüksəlişi müşahidə olunur. Kreativ sənaye sektoru 2010-cu ildə ÜDM-in 3,5 faizini, 2015-ci ildə ÜDM-in 5,1 faizini, 2020-ci ildə ÜDM-in 5,3 faizini təşkil edib. 2010-cu ildə Azərbaycanın ÜDM-də müəllif hüquqları layihələrinin payı 1,8 faiz, 2015 və 2020-ci illərdə isə hər biri 2,9 faiz təşkil edib.

Dövlət Statistika Komitəsininin iqtisadi fəaliyyət növlərinin təsnifatı (İFNT) sənədindən seçilmiş yaradıcı fəaliyyət sahələri üzrə gəlir və istehsal, gəlirlilik və məşğulluq göstəricilərində müəyyən artımların baş verdiyini görmək mümkündür. Yaradıcı fəaliyyət sahələri üzrə malların təqdim edilməsi, işlərin yerinə yetirilməsi və xidmətlərin göstərilməsindən əldə edilən gəlirlər 2017-ci ildə 1 milyard 89 milyon 459,4 min manat, 2018-ci ildə 1milyard 285 milyon 607,7 min manat, 2019-cu ildə 1 milyard 732 milyon 839,8 min manat, 2020-ci ildə 1 milyard 368 milyon 360,3 min manat, 2021-ci ildə isə 1 milyard 430 milyon 469,3 min manat təşkil edib. Ancaq bu rəqəmlər də dəqiq mənzərəni ifadə etmir.

Pandemiyanın təsirlərini nəzərə almasaq, yaradıcı sənayelərlə birbaşa bağlı olan və birbaşa bağlı olmayan, lakin fəaliyyətində bu sahələrdən yararlanan iqtisadi istiqamətlərdə artımların baş verməsəbəbini reklam, marketinq, dizayn və SMM xidmətlərinə böyük önəmin verilməsi, turizm sənayesinin inkişafı ilə əlaqələndirmək olar. Texnoloji həllərin artması, yaradıcı sənayelər sahəsində milli bazar iştirakçılarının beynəlxalq bazarlara öz xidmətlərini asanlıqla çıxarması üçün yaranmış təbii şəraiti də artımlara təsir edən səbəb kimi göstərə bilərik. Bütün bunlara baxmayaraq, koronavirus pandemiyası səbəbindən sosial təcrid məcburiyyətinə görə bütün sahələrdə olduğu kimi yaradıcı sənayelərin inkişafında da müəyyən azalmalar baş verib.

Müasir dövrdə kreativ sahələr mədəni turizmin inkişafı üçün baza şərtinə çevrilməkdədir, çünki o, maraq yaratmaq, mədəni irsi və ənənəvi sənətkarlığı populyarlaşdırmaq, suvenirlərin, müasir naviqasiya və informasiya materiallarının və internet əlavələrin istehsalı və satışını təmin etmək, turistləri, qonaqları və yerli sakinləri mədəni fəaliyyətlərə və birgə yaradıcılığa cəlb edən qonaqpərvərlik infrastrukturu yaratmaq qabiliyyətinə malikdir. Məhz kreativ sektorun kiçik müəssisələri, mədəni irsin təbliği və yayılması ilə məşğul olur, müəyyən bir ərazidə müasir yaradıcılıq proseslərinin katalizatoru kimi çıxış edirlər. Azərbaycanda təkcə yerli sakinlərin deyil, həm də turistlərin marağına və səmərəli tələbinə arxalana bilən yaradıcılıq sahələrinin əhəmiyyətli potensialı toplanıb, bu, həm də böyük və genişlənən bazardır.[167:169]

Qeyd etmək vacibdir ki, Azərbaycanın ixrac potensialının aşağı olmasına baxmayaraq, kreativ sənayedə idxal son illərdə əhəmiyyətli dərəcədə artmayıb, bu sahədə xarici ticarət balansı da mənfi saldoya malikdir. İdxalı əvəzləmə siyasəti hələ də Azərbaycanın kreativ sahələrinin inkişafına ciddi təsir göstərməyib. Dünyada kreativ sənayelərin dinamik inkişafı Azərbaycanı seçim qarşısında qoyur: Azərbaycanın yaradıcı təbəqəsini dəstəkləmək və inkişaf etdirmək, bununla da yeni bazarlarda qlobal rəqabət qabiliyyətini artırmaq və ya inkişaf etmiş ölkələr üçün ixtisaslı yaradıcı gənclərin təchizatçısı olmaq, innovativ iqtisadiyyata keçid imkanını qapamaq. Belə şəraitdə, mədəni irs obyektləri əsasında yaradıcı klasterlərin və artmalikanələrin intensiv yaradılması çox perspektivli görünür, lakin ixracın dəstəklənməsi və yaradıcı sahələrin qlobal bazarlara çıxarılması üçün xüsusi mərkəzi və regional proqramlar tələb olunur.[158, s.108]

Son zamanlar dünyada dövlətin və cəmiyyətin insan kapitalının inkişafına və beynəlxalq rəqabət qabiliyyətinin artırılmasına diqqətinin artması Azərbaycanda da yeni iqtisadiyyatda mədəni irsə və kreativ sahələrə münasibətləri tədricən dəyişir. Dünyada mədəni-tarixi irsin qorunması, onun bərpasını və inkişafını təmin edən yeni idarəetmə

texnologiyalarının müzakirəsi məsələlərinə dövlət və bələdiyyə orqanlarının ekspert və mütəxəssislərinin diqqəti getdikcə artır. Bu maraq həm də, yerli icma üçün ərazidə mövcud olan mədəni irsin əhəmiyyətindən irəli gəlir. [54, s.48-61]

Uzun müddət mədəni irs və ümumən mədəniyyət iqtisadi baxımdan baha başa gələn sahə hesab olunurdu. Mədəniyyətin "özlüyündə dəyəri" konsepsiyası: "o, özlüyündə dəyərli olan yığılmış ictimai sərvət, mədəni irs və yaradıcılıq nailiyyətlərinin məcmusu kimi qorunub saxlanmalı və qorunmalıdır" yanaşması üstünlük təşkil edirdi. [85: 93, s.264-269] Mədəniyyət təşkilatlarının fəaliyyətinin maliyyə bazası əsasən büdcə vəsaitləri və ya himayəçi qurumların sabit maliyyə dəstəyi hesabına formalaşırdı. Mədəniyyət təşkilatları mədəniyyətin gələcək nəsillər üçün qorunub saxlanması və getdikcə daha çox insanların sənətlə tanış olması üçün "uca" və "əbədi" bir işlə məşğul olmaları ilə tanınırdı. Ənənəvi olaraq hesab olunurdu ki, mədəniyyət təşkilatlarının idarə edilməsi biznes təşkilatlarının idarəçiliyindən əsaslı şəkildə fərqlənir və buna görə də yüksək mədəniyyəti bazarın sərt reallıqlarından qorumaq lazımdır.

Ancaq XX əsrin sonlarında. bütün dünyada, o cümlədən Azərbaycanda mədəniyyət təşkilatlarına və mədəni irsin qorunmasına büdcə və sponsorluq dəstəyi durmadan azalmaqda idi. Bundan əlavə, dövlət və yerli hakimiyyət orqanları tərəfindən təmsil olunan bütün maliyyə donorları, xeyriyyə fondları, sponsorlar və himayədarlar fəaliyyətlərinin səmərəliliyindən və sosial əhəmiyyətli nəticələrindən asılı olaraq, mədəniyyət təşkilatlarına dəstək verməyə başladılar. Bu, mədəniyyətin və mədəni irsin cəmiyyətdəki yeri və rolu, mədəniyyət təşkilatlarının istifadə etdiyi idarəetmə texnologiyaları, onların müxtəlif auditoriyalarla işləmə üsulları və ictimaiyyətin diqqətini cəlb etmək kimi mövzuların nəzərdən keçirilməsinə təkan verdi.

Kreativ sənayelər fərdi yaradıcılığa, bacarıq və istedada əsaslanan, yaxud mülkiyyətin inkişafi və ya istehsalı vasitəsilə sərvət, iş yerləri yaratmaq potensialına malikdir. Bu baxımdan, Azərbaycan xalqının

zəngin yaradıcılıq irsi, ölkəmizdə mövcud multikultural mühit, mədəni özünüifadə müxtəlifliyinin dəstəklənməsi, əhalinin əksər hissəsinin təhsilli və internetə çıxışının olması ölkədə bu sahələrin inkişafı üçün münbit ekosistemin mövcudluğunu şərtləndirir.

Kreativ iqtisadiyyatın inkişafına zəmin yaradan digər amil kimi iqtisadiyyatın diversifikasiyası fonunda qeyri-neft ixracatının artmasına, innovasiyaların tətbiqinə və insan kapitalının inkişafına dövlət dəstəyini qeyd etmək olar. Azərbaycanda bu sahənin iqtisadi dəyərinin mərkəzləşdirilmiş formada hesablanması, sistemli statistikanın formalaşdırılması və ümumilikdə sahənin iqtisadi resurs nöqteyi-nəzərdən inkişafı üçün konkret addımların atılması vacibdir.

Hazırda milli səviyyədə kreativ sənayelərə dair əhatəli statistikanın mütəmadi dərc edilməməsi bu sektor üzrə inkişaf proseslərinin ölçülməsinə tam imkan vermir. UNCTAD-ın hesabatına görə, Azərbaycanın 2014-cü ildə yaradıcı sənayelər üzrə məhsul idxalı 138,04 milyon, ixracı isə 3,95 milyon ABŞ dolları olub. Nəticədə, yaradıcı sənayelər üzrə 134,09 milyon ABŞ dolları dəyərində mənfi ticarət balansı əmələ gəlib. Yaradıcı sənayelərin Azərbaycan iqtisadiyyatındakı payının müəyyən edilməsinə dair 2017-ci ildə Avropa İttifaqı tərəfindən Azərbaycan üzrə "Mədəniyyətin inkişafı indikatorları" hesabatı hazırlanıb. Hesabatda 2016-cı il üçün yaradıcı sənayelərin rəsmi olaraq ÜDM-dəki payının 1%, yəni 374 milyon ABŞ dolları olduğu qeyd edilib. [132]

Qlobal Rəqabətlilik İndeksində ölkəmiz "Əqli mülkiyyətin qorunması" göstəricisi üzrə 140 ölkə sırasında 71-ci yerdən 30-cu yerə irəliləmiş, kreativ iqtisadiyyatın ÜDM-dəki payı 3,5%-dən 5,3%-ə yüksəlmişdir. 2019-cu ildə aparılmış Beynəlxalq Əqli Mülkiyyət Təşkilatının Metodik Göstərişlərinə əsaslanan araşdırmada kreativ iqtisadiyyatın Azərbaycanda 2015-ci il üzrə ÜDM-də payının 5,1% təşkil etdiyi bildirilir. Araşdırma göstərir ki, 2003-cü ildən 2015-ci ilədək (2015-ci il də daxil olmaqla) kreativ sənayenin artımı 220,5 milyon manatdan 2 milyard 815,9 milyon manata, yəni 13 dəfə

yüksəlib. [132]

Başqa bir məlumatda kreativ fəaliyyət sahələri üzrə gəlir və istehsal, eləcə də məşğulluq üzrə 2020-ci il göstəricilərinə əsasən, ölkəmizdə kreativ sənaye sahələrindən əldə edilmiş gəlir təqribən 1.4 milyard manat təşkil edir və payı ÜDM-də 1,88%-dir. Əqli Mülkiyyət Agentliyinin məlumatına görə, kreativ sənayenin ÜDM-də payının 2010-cu ildə 3,5 faiz, 2015-ci ildə 5,1 faiz, 2020-ci ildə 5,3 faiz olduğunu, Azərbaycanın müəllif layihələrinin ÜDM-də payının isə 2010-cu ildə 1,8 faiz, 2015-ci və 2020-ci ildə 2,9 faiz təşkil etmişdir. [132]

Yuxarıdakı fərqli rəqəmlərdən də göründüyü kimi, kreativ sənayelər iqtisadi blok olaraq kateqoriyalaşdırılmadığı üçün İFNT siyahısı üzrə toplanan rəqəmlərdə fərqli mənzərələr yaranır. Beynəlxalq təcrübənin nəzərə alınması ilə Azərbaycanda bu sənaye sahələrində dəqiqləşdirilmiş əhatəli statistik məlumatların toplanılması təcrübəsinin 7 əsas sahə üzrə ölçülər (iqtisadiyyat, təhsil, idarəçilik, sosial iştirak, gender bərabərliyi, kommunikasiya və irsin mühafizəsi) və bu ölçülər üzrə 22 indikatoru əhatə edən YUNESCO-nun Mədəniyyət İnkişafı İndikatorları metodoloji təlimatına uyğun olaraq yenidən təşkili nəzərdən keçirilməlidir.

Ölkəmizdə kreativ sənayelər sahəsində peşəkar sahəvi təşkilatların və birliklərin, ticarət assosiasiyalarının olmaması və ya zəif olması da sahələr üzrə müfəssəl statistik göstəriciləri, inkişaf məlumatlarını əldə etməyə imkan vermir. Sektor üzrə əhatəli statistikaya nail olmaq üçün sistemli fəaliyyətlərin görülməsinə ehtiyac var. Xüsusilə peşəkar təşkilatlar bu məsələlərdə dövlətə, dövlət isə öz növbəsində peşəkar təşkilatların fəaliyyətinə dəstəyi artırmalıdır.

Müasir əmək bazarında ciddi keyfiyyət və məzmun dəyişikliyinin şahidi oluruq. Artıq bir sıra peşələr bazardan çıxaraq yeni peşələrlə əvəzlənir və bu proses birbaşa təhsil proseslərinə təsir edir. Bu baxımdan, beynəlxalq əmək bazarında prosesləri diqqətlə izləmək lazımdır və gələcək planlaşmanı da ona uyğun qurmaq tələb olunur.

Avropa statistikasına baxsaq, 2011-2017-ci illər arasında kreativ məşğulluq sahəsində ümumilikdə 800.000-dən çox artım olub, bu sahədə çalışanların sayı 7,852 milyondan 8,658 milyona çatıb. Son beş ildəki dəyişiklikləri və rəqəmsal transformasiyanı nəzərə alsaq, bu göstərici daha da artıqdır. Milli səviyyədə baxsaq, ölkəmizdə kreativ sənaye sahələrində 2020-ci il göstəricilərinə əsasən, 88.000 muzdlu insan və fərdi sahibkar çalışıb, 2021-ci ildə isə bu rəqəm 98.806 olub. [132] Bu, kreativ fəaliyyətlər və onunla əlaqədar olan iqtisadi fəaliyyət sahələrinə dair əldə edilmiş göstəricidir. Buraya qeyri-yaradıcı sektorlarda yaradıcı peşələr üzrə çalışan şəxsləri əlavə etsək, məşğulluq göstəriciləri ilə yanaşı ÜDM-də pay və gəlirlilik göstəricilərində də artımın olduğunu görə bilərik. Bunun mümkün olması üçün, sözsüz ki, haqqında bəhs etdiyim beynəlxalq təcrübəyə əsaslanan statistika toplanılması təcrübəsinin tətbiqini reallaşdırmaq lazımdır.

Bu işdə aidiyyəti qurumların iştirakı ilə beynəlxalq təcrübədən istifadə edərək, milli qaydaların işlənilməsi zəruridir. Digər ən vacib məsələ - müasir gənclərin yanaşmasındakı transformasiyadır. Yəni gənclər bütün dünya üzrə artıq sərbəst işlərə (freelance) üstünlük verməyə başlayıblar. Onlar öz beyin və xidmətlərini artıq aylıq məvacib üçün deyil, günlük və daha qısa müddət üçün təqdim edirlər. Gənclər müasir texnoloji vasitələrlə əmək bazarında yeni özünüməşğulluq sistemi qururlar. Bu faktorun iqtisadi siyasət və fəaliyyət sahələrində nəzərə alınması qaçılmazdır.

Son zamanlar Azərbaycanda da mədəni irsin və kreativ sənayelərin kapitallaşdırılmasına münasibət dinamik şəkildə dəyişir. Artıq ölkəmizdə formalaşmağa başlayan mədəniyyət məhəllələri və yaradıcılıq klasterləri şəhərlərin və kənd yerlərinin ən yaxşı yaradıcı resurslarını cəmləşdirir, geniş ictimaiyyət üçün cəlbedici olan prinsipcə yeni bədii mühit yaradır. Bu məkanlarda mütəmadi olaraq sərgilər, konsertlər, festivallar, təqdimatlar, müasir incəsənət, memarlıq və dizayn sahəsində maarifləndirici proqramlar, eləcə də xeyriyyə tədbirləri keçirilir. Bütün bunlara baxmayaraq, Azərbaycanda yaradıcı

sahələr hələ də konseptual olaraq ənənəvi mədəniyyətə və mədəni irsin qorunmasına yanaşmalarda sistemlilik görünmür. Bu, kreativ iqtisadiyyatın inkişafina və mədəni irsin kapitallaşmasına mane olur.

Müxtəlif ölkələrdə toplanmış təcrübə Azərbaycanda kreativ sahələrin dəstəklənməsi və innovativ mədəniyyət layihələrinin uğurla həyata keçirilməsi üçün şərait yaradılması üzrə tədbirlər kompleksinin işlənib hazırlanmasına da müəyyən təlimatlar verir. Bunlara: güzəştli icarə haqqı; kiçik kreditlər sistemi; mədəni sahibkarlıq üçün vençur investisiya fondları; mədəniyyət sahibkarlığı üzrə təlim proqramları; kiçik yaradıcı şirkətlərə biznes məsələləri üzrə davamlı məsləhətlər və s. aiddir.

Kreativ sahələrə dəstək uyğun maliyyələşdirmə şərtlərini ehtiva edən qrantlar şəklində təqdim edilə bilər. Avropada bu mexanizm son illər geniş vüsət alıb. Bu cür qrantların məqsədi, təkcə mədəniyyət təşkilatlarının maliyyə vəziyyətini yaxşılaşdırmaq deyil, həm də onların bazar mühitinə uyğunlaşmasına kömək etməkdir. Qrantlar onları korporativ idarəetmə təcrübələrini mənimsəməyə, kommersiya fəaliyyətinin inkişafi, habelə qeyri-dövlət maliyyə mənbələrinin cəlb edilməsi yolu ilə özünü təmin etməyi stimullaşdırır.

Azərbaycan üçün kreativ klasterlərin və mədəni məhəllələrin inkişafina, o cümlədən mədəni irs obyektlərinin, habelə boşaldılmış istehsalat binalarının və ərazilərinin bərpasına məsul olmaqla güzəştli şərtlərlə icarəyə verilməsi yolu ilə təşviq edilməsi vacibdir. Azərbaycanın kreativ sahələrinin məhsul və xidmətlərinin ixrac potensialına dəstək vermək və onları dünya bazarlarına çıxarmaq lazımdır. Bu, digər məsələlərlə yanaşı, əqli mülkiyyət hüquqlarının təmin edilməsi və qorunması istiqamətində ciddi iş tələb edir. Bunsuz, yaradıcı şəxslər və müəllif qrupları üçün kapitallaşdırmaq və davamlı gəlir mənbələri yaratmaq mümkün deyil.

Kreativ iqtisadiyyata əsaslanan mədəni irsin kapitallaşdırılmasının müasir strategiyalarından daha səmərəli istifadə etmək üçün dövlət səviyyəsində yaradıcılıq sahələrinə sistemli dəstək vermək lazımdır.

Bununla əlaqədar olaraq, ərazilərin ortamüddətli inkişafı üçün əsas idarəetmə vəzifələrindən biri – sosial infrastrukturun, müasir inkişafa yönəlmiş ərazilərə yaradıcı təbəqənin axınının və təhkim olunmasının gücləndirilməsi əsasında, iqtisadi fəal əhalinin kənd yerlərindən və kiçik şəhərlərdən paytaxta axınının dayandırılması və sosial-mədəni inkişafın təmin edilməsidir. Mədəniyyət və turizm sahəsində əməkdaşlıq və layihə fəaliyyətinin inteqrasiyası üçün müvafiq institutlar və hüquqi şərait yaratmaq lazımdır. Yaradıcılıq sahələri sektorunda yerli əhalinin təsərrüfat subyektlərinin, mülklərinin və sahibkarlıq fəaliyyətinin müstəqil yaşamasını və inkişafını təmin edən, o cümlədən turist axınının mərkəzləşdirilmiş şəkildə təmin edilməsi, suvenirlərə və mədəni nümunələrə tələbatın artırılması yolu ilə xüsusi layihələrin miqyasının artırılması tələb olunur.

Kreativ potensialın yaradılması və kreativ istehsal sahələrinin sistemli dəstəklənməsi, regionların və bələdiyyələrin mədəni irsin kapitallaşdırılmasına və müasir iqtisadiyyatın post-sənaye sektorları ilə sənaye modelinin əlavə edilməsinə yönəlmiş strateji inkişaf Proqramlarında əsas vəzifə kimi qoyulmalıdır. Yaradıcı təbəqənin mövcudluğu ərazilərə ilk növbədə, xüsusi mədəni tədbirlər və ya ərazilərin maddi və qeyri-maddi simvolik mədəniyyət ehtiyatlarından istifadə əsasında artmalikanələrin və mədəni-maarif klasterlərinin formalaşdırılması yolu ilə mədəni turizm və qonaqpərvərlik sənayesini inkişaf etdirməyə imkan verəcək.

## 3.5. Ağıllı şəhər və ağıllı kənd konsepsiyasında yeni kreativ imkanlar: rəqəmsallaşan və interaktiv yaradıcı proseslər

Ötən əsrin 80-ci illərində kompüterlər həyat və iş tərzimizi dəyişdirdi, daha sonra internet kompüterlərdən istifadə qaydalarını dəyişdirdi. Bu proses davam hələ də davam edir və informasiya texnologiyaları (İT) hər gün həyatımızda nələrisə dəyişir. Artıq İT təsiri özünü ətraf-mühitdə “Ağıllı şəhər” (Smart city) və “Ağıllı kənd” (Smart village) konsepsiyalarında özünü göstərir.

Son zamanlar ölkəmizdə də bu konsepsiyalar aktuallaşmışdır. Belə ki, işğaldan azad edilmiş bölgələrdə analoji layihələrin icrasına başlanmışdır. İlk olaraq, Zəngilanın Ağalı kəndində icra edilən "ağıllı kənd" layihəsi əsasən 5 komponent üzrə aparılır. Onlar yaşayış, istehsal, sosial xidmətlər, "ağıllı kənd təsərrüfatı", alternativ enerji sahələridir.

Texnologiya şəhərlərin inkişafına birbaşa və dolayı yolla təsir göstərir. Məsələn, məlumatların toplanmasının avtomatlaşdırılması, şəhərin mərkəzində bir alış-veriş sahəsinin istifadəsi kimi şəhərin aspektləri haqqında fikir verir. Sensorlar və tətbiqetmələrin əlaqələnməsi ilə əraziyə neçə nəfərin daxil olduğu, üstünlük verilən marşrutlar, insanların orada kimlərlə və necə işlədikləri barədə məlumatlar toplana bilər. Memarlar, yaradıcı şəxslər də bu məlumatları şəhərin inkişaf etdirilməsində istifadə edə bilərlər.

Ağıllı şəhər layihələrinin icrası zamanı ortaya müəyyən problemlər çıxır. Bu məsələlərin həllində yaradıcı insanların rolu mütləqdir. Digər tərəfdən, hal-hazırda ağıllı şəhər etiketini daşıyan bəzi şəhərlər, əsasən transmilli İT şirkətləri tərəfindən kifayət qədər qapalı bir modelə uyğun olaraq formalaşdırılmışdır. Həmin modellərin təkmilləşdirilməsinə və fərqli aspektlərdən inkişaf etdirilməsinə ehtiyac var. Bu ehtiyacın qarşılanması üçün isə yaradıcı insanların prosesdə iştirakı mütləqdir.

Şəhərlərin transformasiyası - ağıllı şəhərlərin yaradılması kreativliklə icra edilir. Bu ziyarətçiləri, sakinləri və ağıllı beyinləri cəlb etməyin yeganə yoludur.

Konsepsiyanın vacıb elementlərindən biri kimi şəhər kreativliyi kontekstində mədəni kimlik və yaddaş baxımından yeni yaradıcı imkanlar açılır: rəqəmsallaşan və interaktiv yaradıcı proseslər, ifadəlilik və təqdimatlar. Bu konsepsiyanın tətbiq edildiyi yaşayış məkanlarında insan fəaliyyətinə gündəlik təsirə malik yeni texnologiyalarla işləməyi bacaran yaradıcı insanlar tərəfindən yeni bədii yaradıcı və rəqəmsal işlər, şəhər və kəndlərin yaradıcı ahənginə və koloritinə birbaşa təsir göstərir. Binaların fasadlarında qurulan video çarxlar və bədii təsvirlər

küçələrə daha dinamik təəssürat və kreativ görkəm verir.

Yaradıcı şəhərlər öz simvolları ilə tanınır. Şəhərlər memarlıq abidəsi, milli yemək, heykəl və ya təbiətinin xüsusiyyəti ilə tanına bilərlər. Məsələn, Avropanın bəzi şəhərləri şəhər içərisində şəhər statusu ilə məşhurdur. Maltanın Mdina şəhəri orta əsr divarları ilə ziyarətçilərin diqqətini çəkir.

Hər şəhərin xüsusi bir tarixi mütləq ki, olur. İnsanların fikrincə, bu zonanın necə görünməli olduğuna dair stereotip bir təsəvvür var: piyada keçidləri, köhnə binalar və küçə kafeləri. Bundan əlavə köhnə şəhər müasir infrastruktur və bərpa edilmiş binalar ilə xarakterizə olunmalıdır. Tarixi məkanlar turistlər tərəfindən tez-tez ziyarət olunduğu üçün həmin məkanların yerləşdiyi şəhərlərdə yaradıcılığı inkişaf etdirmək vacibdir.

İncəsənət hər kəs üçün əlçatan olmalıdır, buna görə də o küçələrdə nümayiş etdirilməlidir. Söhbət təkcə qrafitlə çəkilən və digər divar şəkillərindən deyil, həm də şəhər sərgilərindən gedir. Məsələn, Kişinyovun kənarında paslanmış dəmirdən hazırlanmış heykəllər sərgisi var. Araşdırılmadığı üçün yox olma riski yüksəkdir. Sərgi Sovet sisteminə xas olan bəzi vəziyyətləri ələ salmağı hədəfləyən bir sıra heykəlləri təmsil edir və bədii dəyəri danılmazdır.

Kreativ şəhərlər həmçinin ictimai məkanları ilə də diqqət çəkməlidir. Buraya fərqli dizaynda təqdim edilmiş kafeləri, “Creative Hub” mərkəzlərini və s. qeyd edə bilərik. Şəhər yerlərinin idarəedilməsi müntəzəm olaraq dəyişir və texnoloji tərəqqini izləyir. Mobillik və dayanıqlılıq konsepsiyanın daha çox diqqət etdiyi əsas amillərdən hesab edilir. Şəhər və insanlar arasında interaktivlik onu daha yaşanılır yerə çevirərək yaradıcılıq üçün də imkanlar açır.

Nəhayət, yerli ziyalıları dəstəkləməyi öyrənmək lazımdır. Belə ki, xalqın mədəni irsin qorunub saxlanmasına münasibəti, bilavasitə həmişə milli şüurun sözçüsü və dirijoru olmuş ziyalı təbəqə ilə bağlıdır. Son illərdə artıq Bakıdakı binalarda və küçələrdə də biz mədəniyyətimizi əks etdirən incəsənət nümunələrini görə bilirik.

# IV FƏSİL. AZƏRBAYCAN REGİONLARINDA MƏDƏNİ İRSİN İQTİSADİ DÖVRİYYƏYƏ İNTEQRASİYASININ TƏŞKİLATİ-İQTİSADİ MEXANİZMLƏRİ

## 4.1. Regionun mədəni-tarixi mühitinin yaxşılaşdırılması yolları

Regionun mədəni-tarixi mühitinin səmərəli qurulması problemi təkcə mövcud mədəni irs obyektlərinin qorunması ilə bağlı deyil. Fikrimizcə, burada aşağıdakı tədbirləri eyni vaxtda həyata keçirməklə effektiv nəticə əldə etmək olar:[160]

- qeyri-maddi obyektlərin (bu və ya digər yerdə formalaşmış adət-ənənələrin, həyat tərzinin) qorunmasına yönəlmiş tədbirlərin görülməsi;

- mədəni irs obyektləri haqqında məlumatların təhsilin bütün pillələrində doğma torpağın tarixi çərçivəsində gənclərin yaşadıqları rayonla eyniləşdirmə səviyyəsinin artırılması ilə tədris prosesinə fəal inteqrasiyası;

- yerli sakinlərin (ilk növbədə məktəblilərin və tələbələrin) regionda yerləşən mədəni irs obyektlərinin qorunması işlərinə fəal cəlb edilməsinə yönəlmiş tədbirlər görülməsi;

- mədəni irs obyektlərinin tam qorunub saxlanılması və əhali üçün əlçatan olması ilə regionun təsərrüfat mexanizmlərinə inteqrasiyası üzrə daha fəal siyasətin aparılması (məsələn, mülkiyyətçilərin üzərinə məcburi yüklər qoyulmaqla obyektlərin özəlləşdirilməsi və obyektlərin inkişafı);

- mədəni irs obyektləri əsasında turizm məhsullarının və brendlərinin formalaşdırılması, mədəni-tarixi turizmin inkişafı və regional turizm klasterlərinin yaradılması.

Bu tədbirlərin səmərəliliyi, ilk növbədə, onların həyata keçirilməsinin kompleksliyindən asılıdır. Əslində, nəzərəçarpacaq müsbət iqtisadi effekt yalnız orta və uzunmüddətli perspektivdə əldə edilə bilər. Mədəni irs obyektlərinin region iqtisadiyyatının yüksəlişində qeyri-iqtisadi amillərdən biri kimi xidmət etməsi üçün regionda mədəni irs obyektlərinin idarə olunması üzrə kompleks proqramın hazırlanması zəruridir. Bu proqrama tədbirlər planından əlavə, regionda yerləşən mədəni irs obyektlərinin vəziyyətinin təhlili və müəyyən şərtlərlə mədəni irs obyektlərinin qorunması prosesində iştirak etməyə hazır olan maraqlı biznes nümayəndələrinin bazası daxil edilməlidir.[160]

Regionun mədəni irs obyektlərinin səmərəli idarə olunması üçün idarəetmənin vəzifələri, fikrimizcə, aşağıdakı kimi təqdim edilə bilər:

- regionda mövcud olan mədəni irs obyektlərinin vəziyyətini, onların gələcəkdə istifadəsinin mümkün istiqamətlərini qiymətləndirilməsi;
- mədəni irs obyektlərini real vəziyyəti nəzərə alınmaqla maliyyələşmə ardıcıllığına görə sıralanması;
- mədəni irs obyektlərinin mühafizəsi üçün zəruri vəsaitin hesablanması və onların əlavə mümkün maliyyə mənbələrinin müəyyən edilməsi;
- regionun vahid mədəni-tarixi mühitinin formalaşmasının səmərəliliyinin qiymətləndirilməsi;
- mədəni irs obyektlərinin rayon sakinləri arasında "tanınmasının" monitorinqi;
- aparılan monitorinqin nəticələrinə əsasən, mədəni irs obyektlərinin rayon gəncləri arasında populyarlaşdırılmasına yönəlmiş mədəni-maarifləndirmə tədbirlərinin həyata keçirilməsi;

- regionda mövcud olan mədəni irs obyektləri əsasında populyar turizm məhsullarının yaradılması;
- turizm məhsullarının Azərbaycanın digər bölgələrinə tanıtmağa yönəlmiş tədbirlərin görülməsi;
- regionun mədəni irsi haqqında məlumat, tarix və fotoşəkillərdən ibarət açıq elektron platformanın yaradılması.

Həyata keçirilən tədbirlər regionun, şəhərlərin tarixinə maraq yaratmalı və müəyyən bir bölgənin sakinləri kimi fərdi və qrup özünüidentifikasiyasının inkişafina yönəldilməlidir. Məktəblilər və tələbələr arasında regionun mədəni irsi haqqında bilik yarışının keçirilməsi nəzərdə tutula bilər. Bundan əlavə, məktəblərdə ən yaxşı universitet tarix müəllimləri və tarix tələbələri tərəfindən region (rayon) ərazisində yerləşən mədəni irs obyektləri haqqında açıq mühazirələrin keçirilməsi də zəruridir.[160]

Mədəni irsin qorunub saxlanması xərclərinin maliyyələşdirilməsinə xeyriyyəçilərin cəlb edilməsinə, rayon əhalisinin (xüsusilə gənclərin) mədəni irsin qorunmasında fəal iştirakına yönəlmiş tədbirlər də həyata keçirilməlidir. Xeyriyyəçilik İnstitutu mədəni irs obyektlərinin maliyyələşdirilməsi üçün əlavə kanal kimi çıxış edə bilər. Xeyriyyəçilik fenomenini təhlil edən əksər əsərlərdə, o, təsərrüfat subyektlərinin əmlakının, pulunun əvəzsiz olaraq başqa agentlərə verilməsi, habelə işin heç bir maddi maraq güdmədən yerinə yetirilməsi və ya digər dəstək növləri üzrə fəaliyyət kimi təqdim olunur.

Xeyriyyəçilik fenomeni: tamamilə pulsuz əsasda kömək etmək istəyinə əsaslanan altruistik motivasiya; nəticə kimi ictimai tanınma və hörmətlə əlaqəli qeyri-pul faydalarını nəzərdə tutan "*xidmətə görə xidmət*" motivasiyası; xeyriyyəçilikdən daxili məmnunluq qazanmaqla kifayətlənən motivasiyası növlərinə əsaslana bilər. Etiraf etmək lazımdır ki, bu gün Azərbaycan regionlarında mədəni irsin qorunmasına

yardımla bağlı xeyriyyəçilik institutu kifayət qədər inkişaf etməmişdir və faktiki olaraq, bu əlavə maliyyə kanalından praktikada istifadə edilmir.

Yuxarıda qeyd etdiyimiz tədbirlərin həyata keçirilməsi inkişaf etmiş mədəni-tarixi mühitini yaratmaqla regionun, həmçinin orada yerləşən kiçik şəhərlərin daxili turizm bazarında "tanınmasını" gücləndirə və bununla da onu turistlər üçün daha cəlbedici edə bilər.

## 4.2. Regionların mədəni irs obyektlərinin qorunması və bərpasının təşkilati-iqtisadi mexanizmləri

Regionların mədəni irs obyektlərinin əhəmiyyətli dərəcədə itirilməsi onu göstərir ki, hazırda mövcud olan daşınmaz abidələrin dövlət mühafizəsi tədbirləri mədəni irs obyektlərinin təhlükəsizliyini tam təmin etmir. Bu gün, öncül dünya ölkələrinin əksəriyyətində bölgələrin mədəni irs obyektlərinin qorunması və istifadəsi sahəsində sosial-iqtisadi münasibətlərin tənzimlənməsi ilə bağlı səlahiyyətlərin əksəriyyətinin mərkəzi səviyyədən regional səviyyəyə ötürülməsi təcrübəsi geniş yayılmışdır. Bununla əlaqədar, mərkəzi və regional səviyyələrdə dövlət orqanları regionların daşınmaz mədəni irs fondları və onları təşkil edən bina və tikililərin qorunması və istifadəsi ilə bağlı sosial-iqtisadi münasibətlərdə *ictimai qəyyumluq (meritor)* funksiyasını həyata keçirməlidir. Daşınmaz mədəni irsin regional fondlarının qorunması və istifadəsi proseslərinin tənzimləyici, informasiya, təşkilati və iqtisadi təminatı formaları, üsulları və təsir vasitələri vahid təşkilati-iqtisadi mexanizmə inteqrasiya olunması əsasında təkmilləşdirilməlidir. [83, s.126]

Təşkilati-iqtisadi mexanizm altında - daşınmaz mədəni irsin regional fondlarının qorunmasını təmin edən və onlardan istifadənin səmərəliliyinin artırılmasına töhfə verən təşkilati strukturların,

normativ-hüquqi bazanın, formaların, metodların, dövlət təsirinin təşkilati və iqtisadi vasitələrinin məcmusu başa düşülür.

Regionların daşınmaz mədəni irsinin qorunmasının təşkilati-iqtisadi mexanizminin ən mühüm aləti - daşınmaz abidələrin bərpası üzrə məqsədyönlü proqramlardır. Lakin dövlət-özəl tərəfdaşlıq prinsipi həyata keçirilsə belə, bu cür proqramların resursları adətən cüzi olur ki, bu da daşınmaz abidələrin məhdud sayda təmir layihələrini maliyyələşdirməyə imkan verir. Bu baxımdan, regional məqsədli proqramlarda iştirak etməkdə obyektlərin və ya layihələrin seçilməsi üçün onların investisiya prioritetlərinin müəyyən edilməsi problemi yaranır. [59, s.113:63, s.97 ]

Bir qayda olaraq, yerli hakimiyyət orqanları mədəni irs obyektlərinin səriştəli bərpasını və ya istismarını məsələn, mədəni turizmi kapitallaşdırmağa və ya onlardan istirahət və sosial proqramları genişləndirməyə istifadə etməklə, görüləcək işləri zəif və yarımçıq həyata keçirirlər. Bu mənada, Şekspirin doğulduğu Stratford-Avon şəhərinin nümunəsini örnək kimi göstərmək olar. Cəmi 30 minə yaxın əhalisi olan bu kiçik şəhəri, məhz yerli hakimiyyət orqanlarının və qeyri-dövlət qurumlarının səriştəli, lakin eyni zamanda diqqətli siyasəti sayəsində, hər il təxminən 5-6 milyon turist ziyarət edir. Məsələn, Birmingem Universitetinin şəhərdəki filialı Şekspir istedadının pərəstişkarları və görkəmli alimlər üçün ölliyə yaxın festivaldan, teatr tamaşalarından, böyük elmi konfranslardan, sərgilərdən və s. ibarət maarifləndirici proqramlar təşkil edir. Təxminən eyni şeyi - Motsartın irsini uzun illərdir özündə yaşadan Salzburqa da etmək olar.

Hazırda hətta cüzi regional proqramlara və bəzən keyfiyyətsiz bərpa işlərinə baxmayaraq, Azərbaycana səyahətin cəlbediciliyi artmaqdadır. Son illərdə ölkəmizə turist, qonaq kimi gələnlər və hər hansı mədəni tədbirə qatılan çox sayda insanlar, hətta paytaxtda

yerləşən beynəlxalq təşkilatların missiyaları və diplomatik nümayəndələr, ucqar şəhərlərə və məkanlara da getməyə can atırlar, getdikcə ölkəmizə daha çox orijinal formada baxmağa səy göstərirlər.

Azərbaycanda unitar dövlət, mərkəzləşdirilmiş idarəetmə naminə naminə qurban verilən yerli özünüidarəetmə ənənəsinin praktiki olaraq olmamasına baxmayaraq, yerli əhalinin öz bölgəsinin tarixinə, mədəniyyətinə və ənənələrinə sadiqliyi qalmaqdadır. Gözümüzün qabağında öz doğma yerinin, şəhərinin, kəndinin, hətta ayrı-ayrı soyların tarixini öyrənən həvəskar tədqiqatçıların bütöv bir nəsli yetişir.

Dövlətin köklü, yerli tələbatı vaxtında tutmalı və mədəni irsin insanların gündəlik, rutin həyatına qaytarılmasına artan ictimai tələbatı bacarıqla təşkil etməsi vacibdir. İndi mədəni irs sahəsində siyasəti yenidən qurmaq, ən azı, bürokratik nəzarət və əngəllər olmadan daha yaxşı və çevik ediləcək işləri aşağı səviyyələrə, ilk növbədə yerli özünüidarəetmə strukturlarına həvalə etmək lazımdır. Mədəni turizmin dəstəklənməsi üçün təsirli tədbir kimi qanunvericiliyin məntiqini düzəltməyə başlamalıyıq: mədəni irs sahəsində qanunvericiliyimiz hələlik daha çox qadağanedicidir, halbuki, o, stimullaşdırıcı olmalıdır. Məsələn, könüllülük fəaliyyəti hər cür təşviq edilməli, kiçik və yerli yaradıcı sənayelər dəstəklənməli və onların istehlakçılarına fayda verməlidir.

Bundan başqa, əlverişsiz sanitar-epidemioloji vəziyyətdə xidmətlərin göstərilməsi qaydalarının yumşaldılması da zəruridir, belə ki, yüksək tələbin qoyulması yalnız daxili turizmin artması fonunda böyüyən regional kiçik biznesə xələl gətirir. Bundan əlavə, mümkün olduğu yerlərdə kiçik şəhərlərə həyat və abadlığı qaytarmaq vacibdir. Burada söhbət, yeni müəssisələrin yaradılmasından, yerli abidələrin və ya təbiətin kapitallaşdırılmasından gedir.

Yəqin ki, gələcəkdə ekoloji cəhətdən təmiz həyat tərzi dəbinə uyğun kəndin sakitliyinə doğru çəkilmək meylləri daha da artacaqdır. Bu da kiçik şəhərlər üçün yeni perspektivlər yarada bilər. Sadəcə olaraq, yol infrastrukturunu təkmilləşdirmək, mümkün olan regionlara və məkanlara dəmir yolu xətləri çəkmək və ya belə bir səfərin vaxtını və xərclərini əhəmiyyətli dərəcədə azaltmaq, eləcə də ətraf mühitin cəlbediciliyinə, onun rahatlığına sərmayə qoymaq və onları abadlaşdırmaq lazımdır.

Nəhayət, yerli ziyalıları dəstəkləməyi öyrənmək lazımdır. Belə ki, xalqın mədəni irsin qorunub saxlanmasına münasibəti, bilavasitə həmişə milli şüurun sözçüsü və dirijoru olmuş ziyalı təbəqə ilə bağlıdır. Bu günə mövcud olan regional inkişafla bağlı siyasət sənədlərində mədəniyyətin mümkün faydaları və onun gətirə biləcəyi spesifik effektlər ifadə olunmayıb. İqtisadiyyat və mədəniyyət müxtəlif sahələrə aid olsalar da, bu elə bir reallıqdır ki, mədəniyyətin tətbiqi effekti tamamilə hamı üçün, o cümlədən, mədəniyyətlə təkcə tamaşaçı kimi deyil, həm də iqtisadi fəaliyyətin tamhüquqlu subyekti kimi maraqlı ola bilməlidirlər.

Azərbaycanda mədəni irsin daşınmaz əmlak obyektlərinin mühafizəsi sahəsində mövcud vəziyyət, bir tərəfdən, dövlət tənzimlənməsinin yüksək payı, digər tərəfdən isə irs obyektlərinin mühafizəsi üçün büdcədən maliyyələşmənin kifayət qədər olmaması ilə xarakterizə olunur. Vəziyyət abidə binalarının konservasiyası sahəsində əlverişli investisiya mühitinin olmaması ilə daha da ağırlaşır ki, bu da təkcə, tarixi binaların inkişafı üçün qanunvericilik bazasının mükəmməl olmaması ilə deyil, mədəni irs obyektlərinin transformasiyası üçün səmərəli iqtisadi mexanizmlərin olmaması ilə bağlıdır. Bu səbəbdən, qarşıdakı illərdə tarix və mədəniyyət abidələrinin yenidən qurulmasına nəinki əhəmiyyətli investisiyaların yönəldilməsi, həm də milli səviyyədə

mədəni irs obyektlərinin inkişafı strategiyasına köklü şəkildə yenidən baxılması zəruridir.

## 4.3. Azərbaycan Respublikasında dövlətin mühafizəsində olan daşınmaz tarixi-mədəniyyət abidələrinin iqtisadi dövriyyəyə inteqrasiyası

Mədəni irsin qorunması problemi xüsusilə XX əsrdə dünyanı narahat etməyə başlayıb, çünki bu, münaqişələrlə bağlı bir dövrdür. II Dünya müharibəsindən sonra bu sahədə beynəlxalq sənədlər imzalanıb, sonrakı illərdə YUNESCO və quruma üzv olan ölkələrin təşəbbüsü ilə "Hərbi münaqişələr zamanı mədəni dəyərlərin qorunması haqqında" (1954), "Dünya mədəniyyət və mədəni irsin qorunması haqqında" (1972) və s. konvensiyalar qəbul edilib.

Azərbaycanda bu sahədə mövcud olan beynəlxalq sənədlərə, o cümlədən sualtı mədəni irsin qorunması, memarlıq abidələrinin qorunması haqqında konvensiyalara qoşulub. [175:176] Bir sıra tarixi abidələrimiz YUNESCO-nun qeyri maddi-mədəni irs siyahısına daxil edilib. Ümumilikdə dünyanın 148 ölkəsinin 900-dən çox mədəniyyət obyekti bu siyahıda yer alıb. Sevindirici haldır ki, onların arasında Azərbaycan mədəniyyət abidələri də var. Əlbəttə, abidələrin qorunması ilə bağlı mövcud konvensiyaların şərtlərinə əməl etmək böyük məsuliyyət tələb edir. Ölkəmiz abidələrin qorunması istiqamətində beynəlxalq konvensiyalara qoşulmaqla yanaşı, bu sahədə beynəlxalq əlaqələrini də gücləndirir. Təbii ki, Azərbaycan kimi turizmin yeni-yeni inkişaf etdiyi ölkələrdə tarixi abidələrin qorunub nümayiş obyekti kimi turistlərə təqdim edilməsi vacibdir.

Mədəni irs obyektlərinin dövlət reyestrinin genişləndirilməsi təbii prosesdir və bu, mədəni irsin gələcək nəsillər üçün qorunub saxlanılması istəyindən xəbər verir. Ölkəmizdə reyestrə daxil edilmə,

təkcə təhlükəsizlik tədbirlərinin həyata keçirilməsi üçün dövlət mühafizəsi deyil, həm də abidənin kateqoriyasından asılı olaraq – büdcə sisteminin mərkəzi və ya yerli əhəmiyyətli səviyyəsindən büdcə vəsaitlərinin ayrılması deməkdir.

Böyük Britaniyada mədəni və tarixi daşınmaz əmlak obyektləri üç kateqoriyaya bölünür: I dərəcə - müstəsna maraq doğurur; II dərəcə - mühüm əhəmiyyətə malikdir və xüsusi maraq doğurur; III dərəcə - xüsusi maraq doğurur. [25, s.10]

Bu gün dünyanın bir çox ölkələrində olduğu kimi, Azərbaycanda da mədəni irs obyektləri dövlət tərəfindən qorunur. Bərpa üçün vəsaitlər mütəmadi olaraq qəbul edilən respublika məqsədli proqramlar çərçivəsində ayrılır. Bununla belə, maliyyələşdirmənin həcminə baxılsa (hətta xərclərin özünün effektivliyi məsələsinə toxunmadan), bu vəsaitin o qədər də çox olmadığı aşkar görünür. Mədəni irs obyektləri haqqında məlumatlara görə, son on ildə (2010-2019) bu sahədə illik xərclər orta hesabla 340-350 milyon manat təşkil edib

2020 və 2021-ci illərdə abidələrin pasportlaşdırılması prosesi yüksələn xətlə davam edib. 15-i işğaldan azad olunmuş ərazilərdəki abidələr olmaqla 110 pasport layihəsi 2021-ci ildə təsdiq edilib. Hazırda isə 155 abidənin pasportu və 108 abidənin mühafizə zonası üzrə sənədlərin təsdiqlənməsi ilə bağlı müvafiq işlər (Pasportlaşmaya münasibətdə Azərbaycan Milli Elmlər Akademiyası ilə razılaşma, mühafizə zonalarına münasibətdə rayon/şəhər icra hakimiyyətləri, Şəhərsalma və Arxitektura Komitəsi, Əmlak Məsələləri Dövlət Xidməti ilə razılaşma) görülür.

2020-ci ildə Azərbaycan Respublikasının dövlət büdcəsindən mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət sahələrinə 342,0 mln. manat vəsait

ayrılıb ki, bu da ÜDM-in cəmi 0,5%-i, dövlət büdcəsinin xərclərinin isə 1,5%-i təşkil edir.

Abidələrin bərpasına tələb olunan vəsait onun həcmindən, memarlıq xüsusiyyətlərindən, texniki vəziyyətindən, yerləşdiyi ərazidən, aid olduğu dövrdən və s. asılı olaraq dəyişir. Mövcud təcrübə və qiymətləndirmə göstərir ki, orta hesabla 4-5 abidənin bərpa-konservasiyası 600 min manatdan çox vəsait tələb edir.

Bütün şərtləri nəzərə alaraq demək olar ki, son illər Azərbaycanda mədəni irsin iqtisadi dövriyyəyə inteqrasiyası, onların kapitallaşdırılması, habelə mədəni irsin rekonstruksiyası və bərpası üçün büdcədənkənar vəsaitlərin cəlb edilməsi mexanizminin yaradılması prosesinə başlanılıb. Bununla belə, belə mexanizmlər Azərbaycanın bütün regionlarında istifadə edilmir. Belə ki, Azərbaycanda dövlət qeydiyyatında olan 5693 mədəni irs obyektindən 4679-u və ya 82,2%-i regionlarda (20,5%-i Naxçıvan MR-də) yerləşir və onların da əksəriyyəti bələdiyyə mülkiyyətindədir. İctimai qurumların mülkiyyətində olan əksər mədəni irs obyektlərinin vəziyyəti onların iqtisadi dövriyyədə istifadə imkanlarını istisna edir.

Cədvəl 4.1. Dövlətin mühafizəsində olan daşınmaz tarixi-mədəniyyət abidələri [153]

| | **1998** | **2000** | **2001** | **2016** | **2019** | **2020** |
|---|---|---|---|---|---|---|
| Daşınmaz tarixi-mədəniyyət abidələrinin sayı - cəmi | 6535 | 6628 | 6308 | 5363 | 6036 | 5693 |
| arxeoloji | 2218 | 2218 | 2045 | 2034 | 2550 | 2542 |
| memarlıq | 92 | 4123 | 3860 | 2927 | 3086 | 2766 |
| bağ-park, monumental və xatirə abidələri | 3938 | 287 | 196 | 194 | 223 | 216 |
| dekorativ, tətbiqi sənət abidələri | 287 | - | 207 | 208 | 177 | 169 |

Cədvəl 4.1., Diaqram 4.1 və Qrafik 4.1-də Azərbaycan Respublikasında 1998-2020-ci illər ərzində Dövlətin mühafizəsində olan daşınmaz tarixi-mədəniyyət abidələrinin sayının dəyişməsi haqqında məlumatlar verilmişdir (Cədvəldə ancaq abidələrin sayında dəyişiklik baş verən illər əks olunmuşdur).







Göründüyü kimi tarixi-mədəniyyət abidələrinin sayı üzrə ən yüksək rəqəm 2000-ci ildə (6535); o cümlədən arxeoloji – 2019 (2550); memarlıq – 2000 (4123); bağ-park, monumental və xatirə

abidələri - 1998 (3938); dekorativ, tətbiqi sənət abidələri 1998 (287) olmuşdur. Təhlil olunan illər ərzində daşınmaz tarixi-mədəniyyət abidələrin sayı azalaraq 6535-dən 5693-ə, dekorativ, tətbiqi sənət abidələri sayı 287-dən 169-a, bağ-park, monumental və xatirə abidələri 3938-dən 216-ya düşmüş; əksinə arxeoloji abidələrin sayı 2218-dən 2542-yə, memarlıq abidələri 92-dən 2766-ya yüksəlmişdir.

Cədvəl 4.2. 2010-2020-ci illərdə dövlətin mühafizəsində olan daşınmaz tarixi-mədəniyyət abidələrinin əhəmiyyətinə görə bölgüsü [123]

| | **2010** | **2015** | **2018** | **2019** | **2020** |
|---|---|---|---|---|---|
| **Dünya əhəmiyyətli tarixi-mədəniyyət abidələri** | **65** | **65** | **64** | **101** | **102** |
| arxeoloji | 44 | 44 | 45 | 80 | 80 |
| memarlıq | 21 | 21 | 19 | 21 | 22 |
| **Ölkə əhəmiyyətli daşınmaz tarixi-mədəniyyət abidələri** | **2034** | **2034** | **1987** | **2145** | **2121** |
| arxeoloji | 1616 | 1616 | 1606 | 1671 | 1663 |
| memarlıq | 359 | 359 | 324 | 387 | 374 |
| bağ-park, monumental və xatirə abidələr | 59 | 59 | 57 | 87 | 84 |
| **Yerli əhəmiyyətli daşınmaz tarixi-mədəniyyət abidələri** | **4209** | **4209** | **3312** | **3790** | **3470** |
| arxeoloji | 384 | 384 | 383 | 799 | 799 |
| memarlıq | 3480 | 3480 | 2584 | 2678 | 2370 |
| bağ-park, monumental və xatirə abidələri | 137 | 137 | 137 | 136 | 132 |
| dekorativ, tətbiqi sənət abidələri | 208 | 208 | 208 | 177 | 169 |

Cədvəl 4.2, Diaqram 4.2, 4.3 və 4.4-dən göründüyü kimi 2010-2020-ci illərdə dövlətin mühafizəsində olan daşınmaz tarixi-mədəniyyət abidələrinin əhəmiyyətinə görə dünya əhəmiyyətli tarixi abidələrinin sayı 65-dən 102-yə, o cümlədən: arxeoloji – 44-dən 80-ə, memarlıq – 21-dən 22-yə; ölkə əhəmiyyətli tarixi abidələrin sayı 2034-

**Diaqram 4.2. Dünya əhəmiyyətli daşınmaz tarixi-mədəniyyət abidələri**




**Diaqram 4.3. Ölkə əhəmiyyətli daşınmaz tarixi mədəniyyət abidələrinin sayı**




**Diaqram 4.4.Yerli əhəmiyyətli daşınmaz tarixi-mədəniyyət abidələrinin sayı**



dən 2121-ə, o cümlədən: arxeoloji – 1616-dan 1663-ə, memarlıq – 359-dan 374-ə, bağ-park, monumental və xatirə abidələri – 105; abidələrin sayı: arxeoloji - 1565, memarlıq - 203, bağ-park, monumental və xatirə abidələri - 59-dan 84-ə yüksəlmiş; yerli əhəmiyyətli tarixi abidələrinin sayı isə 4209-dan 3470-ə düşmüş, o cümlədən:memarlıq - 3480-dən 2370-ə; bağ-park, monumental və xatirə abidələri - 137-dən 102-yə; dekorativ, tətbiqi sənət abidələri - 208-dən 169-a düşmüş, lakin arxeoloji abidələrin sayı - 384-dən 799-a yüksəlmişdir. Azərbaycanda xeyli sayda mədəni irs obyektlərinin dövlət qeydiyyatına alınmasına baxmayaraq, mədəni irsin iqtisadi dövriyyəyə cəlb edilməsi təcrübəsi geniş yayılmayıb. Mədəni irsin iqtisadi dövriyyəyə cəlb edilməsi təcrübəsi sərt qanunvericilik və onların bərpası üçün maliyyə çatışmazlığı çərçivəsində baş verir. Azərbaycan praktikasının özəlliyi ondan ibarətdir ki, mədəni irs obyektlərinin yalnız kiçik bir hissəsi şəxsi əllərdədir.

Cədvəl 4.3. 2020-ci ilin sonuna qoruqların ərazisində yerləşən abidələrin əhəmiyyətinə görə bölgüsü [154]

| | **Cəmi** | **onlardan əhəmiyyət dərəcələrinə görə** | | |
|---|---|---|---|---|
| | | **dünya** | **ölkə** | **yerli** |
| **Abidələrinin sayı** | **1534** | **24** | **427** | **1083** |
| tarixi | 60 | 3 | 12 | 45 |
| memarlıq | 845 | 5 | 175 | 655 |
| arxeoloji | 192 | 10 | 135 | 47 |
| heykəltaraşlıq | 43 | 6 | 37 | - |
| bağ-park, monumental və xatirə abidələri | 6 | - | 2 | 4 |
| dekorativ, tətbiqi sənət abidələri | 5 | - | - | 5 |
| digər | 383 | - | 66 | 317 |

Cədvəl 4.3-dən göründüyü kimi qoruqların ərazisində yerləşən abidələrin əksəriyyəti 70,6%-i yerli əhəiyyətli abidələrdir, ölkə əhəmiyyətli abidələr 27,8%, dünya əhəmiyyətli abidələr isə cəmi 1,6% təşkil edir. Abidələrin 55,1%-i memarlıq, 12,5%-i arxeoloji, 3,9%-i tarixi, 2,8%-i heykəltaraşlıq obyektləridir.

Bir faktı da qeyd etmək lazımdır ki, investor üçün köhnəni bərpa etməkdənsə, yeni bir obyekt tikmək daha ucuz və ya sərfəlidir. Bu, təkcə tələb olunan işin mürəkkəbliyi ilə deyil, həm də bərpa işlərini həqiqətən lazımi keyfiyyətlə həyata keçirə bilən az sayda şirkətin olmasındadır. Azərbaycanda hələlik bərpa işlərinin inkişafı, işlərin qısa müddətdə aparılmasına imkan verən müasir bərpa texnologiyaları dünya təcrübəsindən çox geri qalır.

## 4.4. İşğaldan azad olunmuş regionlarda dövlətin mühafizəsində olan daşınmaz tarixi-mədəniyyət abidələrinin əhəmiyyətinə görə bölgüsü

"Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublıkasının Qanununa 7-ci Maddəsinə görə abidələr əhəmiyyət dərəcələrinə görə: dünya, ölkə və yerli əhəmiyyətli abidələrə bölünür.[3, Maddə 7] Dünya əhəmiyyətli abidələrin siyahısı müvafiq beynəlxalq təşkilatlara təqdim edilir.

Cədvəl 4.4, Diaqram 4.5, 4.6 və 4.7-dən göründüyü kimi 2020-ci ilin sonuna Azərbaycan Respublikasının dövlətin mühafizəsində olan daşınmaz tarixi-mədəniyyət abidələrinin əhəmiyyətinə görə regionlar üzrə dünya əhəmiyyətli abidələrinin sayı: arxeoloji - 79, memarlıq - 17; ölkə əhəmiyyətli abidələrin sayı: arxeoloji - 1601, memarlıq - 296, bağ-park, monumental və xatirə abidələri - 40; yerli əhəmiyyətli abidələrinin sayı: arxeoloji – 774, memarlıq - 1589, bağ-park,

Cədvəl 4.4. 2020-ci ilin sonuna Azərbaycan Respublikasının şəhər və rayonları üzrə dövlətin mühafizəsində olan daşınmaz tarixi-mədəniyyət abidələrinin əhəmiyyətinə görə bölgüsü [127]

| şəhər və rayonlar | Dünya əhəmiyyətli | | Ölkə əhəmiyyətli | | | Yerli əhəmiyyətli | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | arxeoloji | memarlıq | arxeoloji | memarlıq | bağ-park, monumental və xatirə abidələri | arxeoloji | memarlıq | bağ-park, monumental və xatirə abidələri | Dekorativ-tətbiqi sənət abidələri |
| Azərbaycan Respublikası | 80 | 22 | 1663 | 374 | 84 | 799 | 2370 | 132 | 169 |
| Bakı şəhəri | 1 | 5 | 62 | 78 | 44 | 25 | 781 | 18 | - |
| Naxçıvan MR | 49 | 7 | 336 | 93 | 30 | 453 | 188 | 9 | - |
| Abşeron-Xızı İR | - | - | 35 | - | 1 | 5 | 36 | 3 | 4 |
| Dağlıq Şirvan İR | 2 | - | 74 | 8 | - | 51 | 34 | 6 | 6 |
| Gəncə-Daşkəsən İR | 3 | - | 93 | 23 | 4 | 10 | 254 | 9 | 1 |
| Qarabağ İR | 8 | 3 | 219 | 97 | - | 14 | 294 | 17 | - |
| Qazax-Tovuz İR | 6 | 1 | 207 | 9 | 1 | 27 | 118 | 10 | 7 |
| Quba-Xaçmaz İR | 4 | 1 | 114 | 6 | 2 | 56 | 120 | 12 | 9 |
| Lənkəran-Astara İR | 2 | - | 272 | 2 | - | 81 | 230 | 7 | 121 |
| Mərkəzi Aran İR | - | - | 17 | 1 | 1 | 3 | 19 | 12 | - |
| Mil-Muğan İR | 1 | - | 37 | - | - | 1 | 6 | 6 | - |
| Şəki-Zaqatala İR | 2 | 1 | 123 | 25 | - | 38 | 177 | 8 | 4 |
| Şərqi Zəngəzur İR | 1 | 4 | 42 | 27 | - | 16 | 101 | 9 | 17 |
| Şirvan-Salyan İR | 1 | - | 32 | 5 | 1 | 19 | 12 | 6 | - |

**4.5. Qarabağ və Şərqi Zəngəzur İR üzrə dünya əhəmiyyətli daşınmaz tarixi abidələrin sayı**




**Diaqram 4.6. Qarabağ və Şərqi Zəngəzur İR üzrə ölkə əhəmiyyətli daşınmaz tarixi abidələrin sayı**




**Diaqram 4.7.Qarabağ və Şərqi Zəngəzur İR üzrə yerli əhəmiyyətli daşınmaz tarixi abidələrin sayı**



monumental və xatirə abidələri – 114; dekorativ, tətbiqi sənət abidələri - 169 olmuşdur.

Qarabağ iqtisadi rayonu üzrə dünya əhəmiyyətli abidələrinin sayı: arxeoloji – 8, memarlıq – 3; ölkə əhəmiyyətli abidələrin sayı: arxeoloji – 219, memarlıq – 97; yerli əhəmiyyətli abidələrinin sayı: arxeoloji – 14, memarlıq – 294, bağ-park, monumental və xatirə abidələri – 17 olmuşdur.

Şərqi Zəngəzur iqtisadi rayonu üzrə dünya əhəmiyyətli abidələrinin sayı: arxeoloji - 1, memarlıq - 4; ölkə əhəmiyyətli abidələrin sayı: arxeoloji - 42, memarlıq - 27; yerli əhəmiyyətli abidələrinin sayı: arxeoloji - 16, memarlıq - 101, bağ-park, monumental və xatirə abidələri - 9; dekorativ, tətbiqi sənət abidələri - 17 olmuşdur.

Başqa sözlə, Azərbaycanda mövcud olan dünya əhəmiyyətli abidələrin: arxeoloji – 11,2%-i, memarlıq – 31,8%-i; ölkə əhəmiyyətli abidələrin: arxeoloji – 15,7%-i, memarlıq – 33,2%-i; yerli əhəmiyyətli abidələrinin: arxeoloji – 35,7%-i, memarlıq – 49,4%-i, bağ-park, monumental və xatirə abidələri – 19,7%-i; dekorativ, tətbiqi sənət abidələri – 10,1%-i işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonunda yerləşir.

Əlavə Cədvəl 1-də işğaldan azad olunmuş rayonlarda qeydə alınmış mədəni irs abidələri haqqında məlumat [116] verilmişdir.

***Qarabağ iqtisadi rayonu üzrə dövlət qeydiyyatına alınmış mədəni irs abidələri:***

**Ağdam rayonunda** - *tarixi-dini abidə kimi* - qədim və orta əsrlərə aid 9 alban məbəd və kilsəsi; XVIII-XIX əsrlərə aid 5 məscid; *ziyarətgah kimi* - qədim və orta əsrlərə aid 11 türbə; 11 pir, ocaq və qəbristanlıq, daş heykəl; *tarixi memarlıq abidəsi kimi* - orta əsrlərə aid 2 imarət və iqamətgah; 1 karvansara; 2 bürc və qala; 2 sandığabənzər abidə və sərdabə;

**Fizuli rayonunda** - *tarixi-dini abidə kimi* - XVII-XIX əsrlərə aid 17 məscid; *ziyarətgah kimi* - orta əsrlərə aid 8 türbə; 10 pir və ocaq; *tarixi memarlıq abidəsi kimi* - XVII-XIX əsrlərə aid 2 karvansara; 1 hamam; 2 körpü; XII-XVII əsrlərə 4 məqbərə, sandığabənzər abidə və qəbir;

**Şuşa (şəhər daxil olmaqla) rayonunda** - *tarixi-dini abidə kimi* - XVIII-XIX əsrlərə aid 5 alban kilsəsi və monastrı; XVIII-XIX əsrlərə aid 15 məscid və mədrəsə; *ziyarətgah kimi* – XVIII-XIX əsrlərə aid 3 türbə və 1kaha; 6 pir və ocaq; *tarixi memarlıq abidəsi kimi* - son tunc və ilk dəmir dövrünə aid daş qutu qəbirlər və 1 daş qutu nekropol; dəmir dövrünə aid 1 nekropol; tunc dövrünə aid kurqan; XVIII-XIX əsrlərə aid 3 qala divarı və bürcü; XVIII-XIX əsrlərə aid 5 saray, malikanə, qəsr və iqamətgah; 1 karvansara; İsa bulağı; 1 məqbərə (XX əsr);

**Xocalı rayonunda** - *tarixi-dini abidə kimi* - qədim və orta əsrlərə aid 17 alban məbəd və kilsəsi; *ziyarətgah kimi* - e.ə. VII-VII əsrlərə aid qəbristanlıq; qədim və orta əsrlərə aid 6 pir, ocaq və ziyarətgah; *tarixi memarlıq abidəsi kimi* - ilk və orta tunc dövrünə aid 2 nekropol; tunc dövrünə aid daş qutu nekropol; küp qəbirlər nekropolu; dəmir dövrünə aid 4 daş qutu nekropol; dəmir dövrünə aid 1 kurqan; tunc dövrünə aid 1 kurqan və kurqanlar; qədim və orta əsrlərə aid 3 qala; qədim qəbristanlıq; qoç və yəhər şəkilli qəbir daşları;

**Xocavənd rayonunda** - *tarixi-dini abidə kimi* - qədim və orta əsrlərə aid 62 alban məbədi, kilsə, monastr və kompleksi; 1 məscid; *ziyarətgah kimi* – qədim və orta əsrlərə aid 4 türbə və 4 günbəz; 9 pir və ocaq.

***Şərqi Zəngəzur iqtisadi rayonu üzrə dövlət qeydiyyata alınmış mədəni irs abidələri:***

**Kəlbəcər rayonunda** - *tarixi-dini abidə kimi* - qədim və orta əsrlərə aid 30 alban məbəd və kilsəsi; XVIII-XIX əsrlərə aid 3 məscid;

*ziyarətgah kimi* - qədim və orta əsrlərə aid 6 pir və ziyarətgah; *tarixi memarlıq abidəsi kimi* - qədim və orta əsrlərə aid 2 nekropol; 5 qoç fiquru; 6 qala; 1 körpü;

**Laçın rayonunda** - *tarixi-dini abidə kimi* - qədim və orta əsrlərə aid 11 alban məbəd və kilsəsi; XVIII-XIX əsrlərə aid 3 məscid; *ziyarətgah kimi* - qədim və orta əsrlərə aid 11 türbə; 10 pir, ocaq və ziyarətgah; *tarixi memarlıq abidəsi kimi* - daş dövrünə aid 1 daş qutusu; qədim və orta əsrlərə aid üzərində ərəb yazıları olan 4 at fiquru və 2 qoyun fiquru; X-XIX əsrlərə aid 4 körpü; XV-XVII əsrlərə aid 2 qala; qədim və orta əsrlərə aid 6 kurqan; XIV-XVIII əsrlərə aid 2 saray və 1 ev muzeyi;

**Qubadlı rayonunda** - *tarixi-dini abidə kimi* - qədim və orta əsrlərə aid 3 alban məbəd və kilsəsi; XVIII-XIX əsrlərə aid 9 məscid; *ziyarətgah kimi* - qədim və orta əsrlərə aid 7 türbə; 14 pir, ocaq, bulaq, qəbristanlıq və ziyarətgah; *tarixi memarlıq abidəsi kimi* - IV əsrə aid 5 sığınacaq 7 qala; qədim və orta əsrlərə aid 2 qoç fiquru; XIX əsrə aid 2 körpü; XIX əsrə Qədim Haramı qəbristanlığı və Oğlan-qız abidəsi;

**Cəbrayıl rayonunda** - *tarixi-dini abidə kimi* - XVI-XIX əsrlərə aid 5 məscid; *ziyarətgah kimi* – qədim və orta əsrlərə aid 7 türbə və məqbərə; 34 pir və ocaq; 5 qəbristanlıq; *tarixi memarlıq abidəsi kimi* - qədim və orta əsrlərə aid 1 nekropol; 9 kurqan; 4 qala, bürc, saray və siklop tikililəri; 2 Xanəgah; 2 şəhərcik qalıqları və yaşayış yeri; 2 Xudafərin körpüsü; 1 kəhriz; 2 başıkəsik günbəz, ərəb yazıları və qoyun abidəsi;

**Zəngilan rayonunda** - *tarixi-dini abidə kimi* - qədim və orta əsrlərə aid 2 alban kilsəsi; XVII-XIX əsrlərə aid 6 məscid; *ziyarətgah kimi* – qədim və orta əsrlərə aid 4 türbə və günbəz; 15 pir və ocaq; *tarixi memarlıq abidəsi kimi* - e.ə. VI-IV əsrlərə aid 1 nekropol; e.ə. IV-II əsrlərə aid küp qəbirlər; VIII-XIV əsrlərə aid 4 sərdabə və məqbərə;

IX-XVI əsrlərə aid abidələr və 2 yaşayış yeri; orta əsrlərə aid 5 qala, bürc və qüllə; 1 körpü.

Müharibə bitəndən sonra Azərbaycanda yerləşən xarici səfirliklərin nümayəndələri, siyasətçilər, Avropanın bəzi ölkələrinin parlament sədrləri və üzvləri, jurnalistlər tərəfindən Qarabağ və Şərqi Zəngəzur bölgələrinə çoxsaylı səfərləri təşkil olunub. Onlar həmin bölgələrdəki Azərbaycan mədəni irsinin tamamilə necə məhv edilməsinin şahidi olmuşlar. İşğal zamanı 67 məsciddən 65-i Ermənistan tərəfindən dağıdılmışdır. Lakin onlar hər hansı erməni mədəni irsinin dağıdılmasını görmədilər. Əksinə, erməni mədəni irsi həm Bakıda, həm də Qarabağda mühafizə olunur.

İşğaldan azad olunmuş rayonların (Qarabağ və Şərqi Zəngəzur regionlarının) təbiəti və tarixi-mədəni irs abidələri turist cəlb etmək baxımından üstünlüyə malikdir. Bü üstünlükdən istifadə edilməsi üçün aşağıdakı tədbirlərin görülməsini vacib hesab edirik:

- bu regionlarda müxtəlif turizm növlərinin inkişafının dəstəklənməsi, o cümlədən turizm sahəsində göstərilən xidmətlərin keyfiyyətinin yaxşılaşdırılması;
- işgüzar turizminin aktiv inkişafı, konqres və sərgi (MICE - Meetings, Incentives, Conferences, Exhibitions) infrastrukturunun yaradılması;
- dini turizm klasterinin yaradılması;
- tarixi hadisə, o cümlədən Şanlı qələbəmizlə bağlı hadisə turizmi üçün yerlərin müəyyən edilməsi və abadlaşdırılması;
- tarixi və mədəni irs obyektlərinə sərmayə qoyarkən investorlar üçün əlverişli təşviq şərtlərinin hazırlanması;

- tarixi və mədəni irs obyektlərinin, yaşayış yerlərinin YUNESKO-da qeydiyyatı və müvafiq statusun alınması üçün işlərin gücləndirilməsi;
- orijinal və bərpa edilmiş tarixi mühit əsasında turizm məhsullarının inkişafı və mədəni-maarif turizminin formalaşdırılması.

Mədəni irs obyektlərinin təmiri xeyli maliyyə xərcləri tələb edir ki, bu da indiki şəraitdə bütün regionlarda olduğu kimi işğaldan yeni azad olunmuş, məskunlaşmanın başlamadığı və sosial-iqtisadi həyatın normal məcraya düşməsi bir neçə il çəkəcəyi Qarabağ və Şərqi Zəngəzur regionlarında yerli büdcələrə daxil olacaq gəlirlərlə mümkün deyil. Bununla əlaqədar olaraq, ölkə ərazisində, xüsusən regionun özündə mədəni irs obyektlərinin iqtisadi dövriyyəyə cəlb edilməsi məqsədilə müxtəlif kommersiya təşkilatlarının yaradılmasına ehtiyac vardır. Bu təşkilatların əsas fəaliyyəti daşınmaz əmlakla, o cümlədən mədəni irs obyektlərinin yenidən qurulması və ya təmiri məqsədi ilə aparılan əməliyyatlarla bağlı olmalıdır.

Bu mexanizm, subyektin mülkiyyətində olan, gələcəkdə isə bələdiyyə mülkiyyətində olan mədəni irs obyektlərində təmir-bərpa işlərinin aparılmasına və təsərrüfat dövriyyəsinə cəlb olunmasına imkan verəcəkdir. Buna görə də, işğaldan yeni azad olunmuş hər iki regionun sosial-iqtisadi inkişafına dövlət dəstəyinin kompleks tədbirlərini özündə əks etdirən, MİO-lərindən istifadə üçün uzunmüddətli proqramlar tərtib edilməlidir.

Qarabağ və Şərqi Zəngəzur regionlarında MİO-lərini qorumaq üçün bərpa işlərinin növlərinə də diqqət yetirilməlidir. Ümumilikdə Azərbaycan xalqının mədəni irs obyektlərinin (tarix və mədəniyyət abidələrinin) mühafizəsi üzrə işlərin siyahısı "Mədəni irsin mühafizəsi üzrə fəaliyyətin lisenziyalaşdırılması haqqında" Əsasnaməyə əlavədə təsvir edilmişdir. Lakin burada təsvir olunan yenidənqurma anlayışının

məzmunu tam aydın deyil. Adətən, ikiqat şüşəli pəncərələrin quraşdırılması, obyekt daxilində müxtəlif növ üzlük işləri artıq bərpa sayılır. Halbuki, MİOlərinin tam bərpası yeni tikintidən bir neçə dəfə baha başa gəlir. Obyektdə struktur yenidənqurma işləri də onu söküb yenidən tikməkdən baha başa gələcək. Obyektdaxili bərpa işləri isə bəzən ümumi xərcləri br neçə dəfə artırır. Ona görə də, maliyyə resurslarının cəlb edilməsində müxtəlif mexanizmlərdən istifadə investorların cəlb edilməsini sürətləndirə bilər.

### 4.5. İşğaldan azad olunmuş ərazilərdə mədəni və tarixi irs abidələrinin təkrar pasportlaşdırılması zərurəti

Hazırda işğaldan azad olunmuş ərazilərdə dövlət qeydiyyatına alınmış 706 tarix və mədəniyyət abidəsi vardır, onlardan 6-sı dünya əhəmiyyətli memarlıq, 5-i dünya əhəmiyyətli arxeoloji, 119-u ölkə əhəmiyyətli memarlıq, 121-i ölkə əhəmiyyətli arxeoloji, 393-ü yerli əhəmiyyətli memarlıq, 23-ü yerli əhəmiyyətli bağ-park, monumental və xatirə, 22-si yerli əhəmiyyətli arxeoloji abidələr, 17-si dekorativ-tətbiqi sənət nümunələridir.

Azad olunmuş şəhər və rayonlarda tarix-mədəniyyət abidələrinin qorunması və bərpası ilə əlaqədar "Yol Xəritəsi" sənədinin hazırlanıb, infrastruktur layihələrinin icrası zamanı işğaldan azad edilmiş rayonlarda yerləşən abidələrin, tarixi-memarlıq və arxeoloji əlamət daşıyan obyektlərin qorunması üçün qabaqlayıcı mühafizə tədbirlərinin təmin edilməsi məqsədilə elektron xəritələr tərtib edilib.

"Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində müvəqqəti xüsusi idarəetmənin təşkili haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 29 oktyabr tarixli 1170 nömrəli Fərmanına uyğun olaraq Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində Azərbaycan Respublikası Mədəniyyət

Nazirliyinin nümayəndələri tərəfindən tarix və mədəniyyət obyektlərinin (abidələrinin və müəssisələrinin) ilkin inventarlaşdırılması və mühafizəsi məqsədilə abidələrin və mədəniyyət müəssələrinin monitorinqlərinə başlanılmışdır. İndiyədək aparılmış monitorinqlər zamanı dövlət qeydiyyatında olan 312 tarix-mədəniyyət abidəsinin monitorinqi həyata keçirilmiş, həmin ərazilərdə yerləşən dövlət qeydiyyatında olmayan tarixi, memarlıq, arxeoloji əlamət daşıyan 106 obyekt (yeni aşkar olunmuş abidə) aşkar edilmişdir. [137]

"Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində müvəqqəti xüsusi idarəetmənin təşkili" haqqında Azərbaycan Respublikası Prezidentinin 29 oktyabr 2020-ci il tarixli Fərmanının 7.8-ci bəndinin icrası üçün Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nümayəndələri işğaldan azad olunmuş rayonlara ezam edilmiş və mədərıiyyət obyektlərinin (abidələrinin və müəssisələrinin) ilkin inventarlaşdırılması və mühafizəsi ilə bağlı vəzifələrin yerinə yetirilməsinə başlanılıb.

Cədvəl 4.5. İşğaldan azad olunmuş ərazilərdə dövlət qeydiyyatına alınmış tarix-mədəniyyət abidələrinin vəziyyəti

| Abidənin vəziyyəti | Ağd am | Fiz uli | Xoca vənd | Şu şa | Zəngi lan | Cəbr ayıl | Qub adlı | Laç ın | Cə mi |
|---|---|---|---|---|---|---|---|---|---|
| Qeydiyyata alınmlş abidələrin sayı | 136 | 63 | 83 | 210 | 19 | 43 | 42 | 73 | 669 |
| Tamamilə məhv edilib | 8 | 9 | - | 26 | - | - | 8 | - | 51 |
| Dağıdılıb, qalıqları qalıb | 6 | 14 | 1 | 96 | 7 | 9 | - | 1 | 134 |

Cədvəl 4.5 və Diaqram 4.8-dən göründüyü kimi işğaldan azad olunmuş ərazilərdə dövlət qeydiyyatına alınmış tarix-mədəniyyət abidələrinin dağıdılma vəziyyəti: bütün işğl zonası üzrə 27,7%; Ağdam rayonu üzrə 10,3%; Fizuli rayonu üzrə 36,5%; Şuşa şəhəri üzrə 58,1%; Zəngilan rayonu üzrə 36,8%; Cəbrayıl rayonu üzrə 20,9%% Qubadlı rayonu üzrə 19,0%; Laçın üzrə 1,4% (cəmi 1 obyekt dağıdılıb) olmuşdur. (Xocavənd və Xocalı rayonları hələlik işğal altında olduğundan abidələrin vəziyyəti haqqında məlumat yoxdur.)

**Diaqram 4.8. İşğaldan azad olunmuş rayonlarda dövlət qeydiyyatında olan abidələrin vəziyyəti**




İndiyədək aparılmış ilkin monitorinqlər zamanı dövlət qeydiyyatında olan 403 tarix-mədəniyyət abidəsinə baxış keçirilib. Bundan əlavə həmin ərazilərdə yerləşən dövlət qeydiyyatında olmayan, tarixi, memarlıq arxeoloji əlamət daşıyan 162 obyektin (yeni aşkar olunmuş abidə) monitorinqi aparılıb.

Həyata keçirilən monitorinqlər zamanı dövlət qeydiyyatına alınmış 185 tarix-mədəniyyət abidesinin dağıntıya məruz qaldığı müəyyən edilmişdir ki, onlardan 51-i tamamilə məhv edilmiş, 134-ü isə dağıdılmış, qalıqları qalmışdır. [139]

"Azərbaycanın mədəniyyət paytaxtı-Şuşa şəhəri haqqında" Azərbaycan

Respublikasının Qanununa əsasən, Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərinin inzibati sərhədləri daxilində Şuşa Şəhəri Dövlət Qoruğu yaradılmışdır. Qoruq ərazilərində yerləşən abidələrin mühafizəsi və qorunması çərçivəsində bütün tarix-mədəniyyət qoruqlarında yerləşən abidələrdə monitorinq keçirilmiş və bərpa-konservasiyaya ehtiyacı olan 11 qoruq üzrə 72 abidəyə dair müvafiq arayış hazırlanaraq dövlət investisiya siyahısına daxil edilməsi üçün müvafiq Dövlət Xidmətinə, həmçinin işğaldan azad edilmiş ərazilərdə yerləşən dini abidələrin siyahısı hazırlanaraq müvafiq dövlət orqanına təqdim edilmişdir. [137]

Şuşa şəhərindəki abidələrin "Bərpa təlimatı" da hazırlanıb. Sənəddə bir neçə əsas istiqamətlər üzrə məlumat və tövsiyələr öz əksini tapıb. Bunlar işğalın nəticələri və səbəb olduğu dağıntılar, abidələrin monitorinqi və inventarlaşdırılması, abidələrin bərpası və regenerasiyası, bərpa prosesi, abidələrin identifikasiya və lokalizasiya məlumatları, tikililərin tipologiyası və xüsusiyyətləri, abidələrin bərpa statusu və risk faktorları, onların qorunması üçün təcili mühafizə tədbirləri, abidələrin tarixi-memarlıq tədqiqatları və memarlıq tipologiyası və s.-dən ibarətdir.

Azərbaycanın mədəniyyət mərkəzi Şuşanın 2020-ci il noyabrın 8-də Ermənistanın işğalçı qoşunlarından azad edilməsindən sonra şəhərdə çoxşaxəli mədəni quruculuq işlərin həyata keçirilməkdədir. 12-13 may 2021-ci ildə Şuşada "Xarıbülbül" festivalı, 30-31 avqust 2021-ci ildə Vaqif Poeziya Günləri, 18-24 sentyabr 2021-ci ildə Üzeyir Hacıbəyli XIII Beynəlxalq Musiqi Festivalı, keçirilmişdir. [144]

Hazırkı monitorinq Ermənistan Respublikasının 30 illik işğalı nəticəsində tarix-mədəniyyət abidələrinə qarşı törətdiyi qanunsuz və cinayətkar hərəkətlərini, həmin ərazilərin hansı vəziyyətdə təhvil alındığını müəyyənləşdirməyə imkan vermişdir. İşğaldan azad olunmuş ərazilərdə məscidlər, mədrəsələr, körpülər, məbədlər nəinki dağıdılmış,

eyni zamanda bir çox hallarda təyinatına uyğun olmayan şəkildə istifadə olunaraq xalqımızın milli mənəvi dəyərləri təhqir edilmişdir.

Erməni silahlı qüvvələri tərəfindən ən çox dağıdılan daşınmaz mədəni irs nümunələri - islam dini abidələri, yəni məscidlər, türbələr və digər inanc yerləri olmuşdur. Məhz bu abidələri ermənilər mənimsəyə bilmədikləri üçün kütləvi şəkildə dağıdıblar. Çünki həmin abidələr üzərində ərəb əlifbası ilə epiqrafik yazılar olub. Bunlar məscidlər, qəbirüstü məzar daşları, türbələr və s. abidələrdir. Xocavənd rayonunda yerləşən Azıx mağarası, Ağdam rayonunda yerləşən Şahbulaq qəsrinin yaxınlığında xarici ölkələrdən olan mütəxəssislərin də daxil edildiyi saxta arxeoloji ekspedisiyalar tərəfindən qanunsuz qazıntı işləri təşkil olunmuşdur. Ermənistan tərəfinin vandalizmi yalnız müsəlman tarixi dini-memarlıq abidələrinə deyil, həmçinin xristian tarixi-dini abidələrinə münasibətdə də özünü göstərmişdir. Belə ki, Kəlbəcər rayonunda yerləşən Xudavəng və Gəncəsər monastırları da daxil olmaqla Qafqaz Albaniyasına aid bir çox məbədlər mənimsənilərək vandalizmə məruz qalmışdır. Xudavəng monastırına aid Arzu xatun kilsəsinin şərq divarındakı, Xudavəng monastırının incisi hesab olunan freska xüsusi üsullarla kəsilərək götürülmüşdür. Gəncəsər monastırında aparılmış qanunsuz təmir işləri nəticəsində onun əzəli görkəminə zərər dəymişdir.

Ermənistan tərəfinin mədəniyyət obyektlərinə qarşı bu cür vandalizm aktları bir çox beynəlxalq sənədlərə, o cümlədən 1954-cü ildə Haaqada qəbul edilmiş "Silahlı münaqişə zamanı mədəni sərvətlərin qorunması haqqında Konvensiya"nın, "Arxeoloji irsin qorunması haqqında" Avropa Konvensiyasının, "Ümumdünya mədəni və təbii irsinin mühafizəsi haqqında Konvensiya"nın müddəalarını kobud şəkildə pozmuşdur.

Dağlıq Qarabağ və ona bitişik ərazilərdə hələ sovet dövründə nisbətən ətraflı arxeoloji tədqiqat işləri Tərtər, Ağdam və Füzuli rayonlarında aparılıb. Hadrut rayonunda Azıx və Tağlar mağara düşərgələrində uzun illər arxeoloji qazıntılar aparılsa da rayonun digər abidələrində geniş tədqiqat işləri həyata keçirilməyib. Kəlbəcər, Laçın, Qubadlı, Zəngilan, Cəbrayıl rayonlarında işğala qədərki dövrlərdə məhdud zaman çərçivələrində aparılmış tədqiqatlar nəticəsində azsaylı abidələr aşkar edilib. Halbuki bu rayonlarda, Qarabağın dağlıq və Aran ərazilərində daha çoxsaylı tarixi abidələrin olmasını ehtimal etmək üçün hərtərəfli əsaslar vardır.

Buna görə də, həm əvvəllər məlum olan, həm də yeni aşkar edilmiş abidələrin pasportlaşdırılması işləri həyata keçirilməlidir.

Daşınmaz tarix və mədəniyyət abidələrinin qorunması haqqında Azərbaycanın Dövlət qanunvericiliyinin yaratdığı şərait çərçivəsində, dövlət orqanlarının, hüquqi şəxslərin və vətəndaş cəmiyyəti üzvlərinin gündəlik vəzifələrinə çevrilməlidir. Azərbaycanın işğal altındakı ərazilərində, erməni vandalizminin qarşısını almaq üçün Beynəlxalq təşkilatların vasitəsi ilə abidələrin mühafizə edilməsinə nəzarət işləri həyata keçirilməlidir. Çünki, Ermənistan "Hərbi münaqişələr zamanı mədəni sərvətlərin qorunması haqqında" Haaqa Konvensiyasının və "Mədəni sərvətlərin qeyri-qanuni dövriyyəsi haqqında" Paris Konvensiyasının müddəalarını kobudcasına pozaraq Azərbaycanın mədəni sərvətlərini talamaqla məşğuldur.

### 4.6. İşğalın nəticələrinin və dəymiş zərərlərin qiymətləndirilməsi problemi

Memarlıq irsinin onun xassələrnin və dəyər göstəricilərinin öyrənilməsi cari dövrün əsas məsələsi olmaqla, nəzəri və praktik fəaliyyətin mövcud nəticələrinin ciddi təhlilini tələb edir. Tarix və

mədəniyyət abidələrinin qiymətləndirilməsi müasir dövrdə daha da aktuallaşmaqdadır. Xüsusən Rusiyanın Ukraynaya hərbi təcavüzü ilə ölkənin onlarla abad və qədim şəhərlərinin, yaşayış binalarının, mədəni irs obyektlərinin dağıdılması və viran qoyulması bu məsələləri daha da aktuallaşdıracaqdır. xüsusən diqqəti cəlb edir.

Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin rəsmi razılığı əsasında Nazirlər Kabinetinin 2014-cü il 26 fevral tarixli, 51s saylı Sərəncamı ilə yaradılmış Azərbaycan Respublikası ərazilərinin Ermənistan silahlı qüvvələrinin işğalı nəticəsində itki və tələfatların qiymətləndirilməsi üzrə İşçi Qrupu yaradılmışdır.

İşçi Qrupununun tərtib etdiyi metodologiya əsasında apardığı qiymətləndirmə Azərbaycan Respublikası ərazilərinin Ermənistanın işğalı nəticəsində məruz qaldığı zərər, o cümlədən maddi, mədəni və mənəvi itkilər üzrə dəqiq faktlara, beynəlxalq və respublika səviyyəli qanunlara, konvensiyalara, bəyannamələrə, standartlara və praktik təcrübəyə əsaslanır.

Cədvəl 4.6. Dünya Bankı bu və ya digər istiqamətlərdə 7 müharibənin nəticələri üzrə tədqiqatı [153]

| *S/s* | ***İtki və təlafatların növləri*** | **Qiymətləndirmə yanaşması** |
|---|---|---|
| **4.** | **Tarix və mədəniyyət abidələrinə dəymiş zərərlər** | |
| 4.1. | Tarixi abidələr | Bərpa xərcləri hesablanır |
| 4.2. | Memarlıq abidələri | |
| 4.3. | Incəsənət abidələri | |
| 4.4. | Arxeoloji abidələr | |

Bu zərərlərin hesablanması üçün vahid metod və məlumatların olmaması səbəbilə son 20 ildə belə metodlar inkişaf etdirilir,

tədqiqatlar aparılır və dünya ictimaiyyəti tərəfindən qəbul edilir.

Dünya miqyasında müharibələrin (məs. Şri-Lanka, Nigeriya, Pakistan-Hindistan və s.), ekoloji zərərlərin, AES qəzalarının (Məsələn, Çernobıl AES) və cinayətkarlığın nəticələrinin qiymətləndirilməsi təcrübəsi vardır.

İşğal altındakı tarix və mədəniyyət abidələrinin qiymətləndirilməsi metodologiyası Azərbaycan praktikasında ilk dəfədir ki həyata keçirilir. Abidələrin qiymətləndirilməsi Beynəlxalq Qiymətləndirmə Standartlarına uyğun aparılır. Təbii ki, müharibə amili işğal altındakı ərazilərdə qiymətləndirmə zamanı oradakı abidələrə baxış keçirilməsinə mane olur. Lakin qiymətləndiricilər bu proses zamanı abidənin daxili və ya xarici interyerində bədii-obraz keyfiyyətinin mürəkkəbliyini müəyyənləşdirmək üçün abidənin memarlıq xüsususiyyətləri və tikinti üslubu üzərində təhlillər aparırlar, xarici ölkə arxivlərini və digər informasiya mənbələrini araşdırır, eləcədə kosmosdan müşahidələr aparmaqla öz məqsədlərinə nail olurlar.

İşğal altındakı ərazilərdə mədəni irs potensialının əsasını arxeoloji abidələr təşkil edir. İşğal altındakı ərazilərdə arxeoloji abidələrin çoxluğu dəyərli obyektlərin xüsusi ümuiləşdirmə və sistemləşdirmə yolu ilə tətqiq edilməsi şəraitini tələb edir. Nəzərə almaq lazımdır ki, işğal altındakı ərazilərdə arxeoloji abidələr ermənilər tərəfindən xüsusi qəddarlıqla istismara məruz qaldığından, onların bir çoxu tamamilə məhv edilərək artıq coğrafi xəritədən silinmişdir. Buna misal olaraq Xocalı rayonundakı Xocalı, Əsgəran, Xankəndi kurqanlarını, Ağdam rayonunun Kültəpə kurqanlarını, Füzuli rayonu ərazisindəki Qarabulaq kurqanlarını, Laçın, Kəlbəcər rayonları ərazilərindəki onlarla kurqanları ermənilər tamamilə dağıdaraq hətta coğrafi xəritədən belə siliblər. Qeyri-qanuni qazıntılar zamanı kurqanlardan tapılan bir çox məişət əşyaları, bəzəklər və ov alətləri, azərbaycan

ərazilərindən çıxarılaraq Ermənistana daşınıb aparılmışdır. Ermənilər tərəfindən, Azərbaycandan çıxarılan daşınan tarix və mədəniyyət abidələrinin ümumilikdə dəyəri yüz milyardlarla manat vəsaitlə ölçülür. Dağıdılan arxeoloji abidələrin sayı isə hələlik dəqiq məlum deyil.

Azərbaycanda arxeoloji abidələrin qeydiyyata alınması və mühafizəsi dövlət orqanlarının səlahiyyətindədir. Lakin, yüzlərlə abidə Ermənistanın işğalı altına düşdüyündən Dövlət faktiki olaraq bu abidələr üzərində nəzarət mexanizmini itirmişdir. Müasir dövrdə, yəni Beynəlxalq aləmdə arxeoliji abidələr üçün ümumi qəbul edilmiş terminologiya formalaşmışdır ki, onun da əsasını funksional və tarixi xronoloji prinsiplər təşkil edir.

İşğal altındakı abidələrin hər bir tipi böyüklüyündən və ya kiçikliyindən asılı olmayaraq müxtəlif xassəli informasiya daşıyıcısıdır. İnformasiyanın keyfiyyəti eyni zamanda saxlanılma, öyrənilmə dərəcəsi və əhəmiyyətlilik kimi subyektiv amillərlə müəyyən edilir. Bu təsnifləşdirmənin köməyi ilə tarixi-mədəni irsin saxlanılması və istifadəsi üzrə mövcud beynəlxalq təcrübəni düzgün qiymətləndirmək, həmçinin təkmilləşdirilməsi istiqamətində müvafiq tövsiyələr vermək mümkündür.

Tarixi memarlıq abidəsi işğal ərazisində yerləşdiyindən ona vizual baxış keçirmək və onun iqtisadi göstəricilərini əldə etmək mümkün deyil. Bu da abidənin məcmu aşınmasını obyektiv qiymətləndirmək imkanlarını məhdudlaşdırır. İşğal zonasında olan tarixi abidələrin 20 ildən artıq bir müddətdə baxımsız qalmasını və onlardan bəzilərinin qeyri-sivil qaydada istifadə olunmasını və bəzilərinin dağıdılmasını nəzərə alsaq onların məcmu aşınmasının 40 %-dən aşağı olmadığını yəqin etmək olar.

Nəzəri biliklərin və praktiki vərdişlərin nəticələri əyani şəkildə memarlıq abidlərinin mürəkkəbliyini və çox aspektli olmasını sübut

edir. İndi bu düsturla rayonlar üzrə qiymətləndirmə apara bilərik. Əvvəlcə rayon ərazilərində yalnız Dövlət qeydiyyatında olan və zərər çəkmiş tarix və mədəniyyət abidələrinin saylarını kateqoriyalar üzrə müəyyənləşdiririk.

Memarlıq abidələri içərisində ermənilər tərəfindən ən çox dağıntılara və tələfata məruz qalan islam dini abidələri, yəni məscidlər, türbələr və digər inanc yerləri olmuşdur. Dağlıq Qarabağ və ətraf rayonların ərazilərində rəsmi fəaliyyət göstərmiş 67 müsəlman məscidinin (Şuşada 13, Ağdamda 5, Füzulidə 16, Zəngilanda 12, Cəbrayılda 5, Qubadlıda 8, Laçında 8) 63-ü tamamilə, 4 məscid isə qismən dağıdılaraq yararsız hala salınmışdır. Məhz bu səbəblərdən, Erməni işğalı altında qalan bu abidələrə dəyən zərərlərin qiymətləndirilməsi xüsusi əhəmiyyət daşıyır və bu qiymətləndirmədən sonra mədəniyyətimizə vurulan zərərlərin həcminin nə dərəcədə böyük olduğunu görmək mümkün olacaqdır. Bundan ötrü, təxirəsalınmadan işğal altındakı tarix və mədəniyyət abidələrinə dəymiş zərərlərin qiymətləndirilməsi metodologiyası hazırlanmalıdır və bu, əslində, Azərbaycan praktikasında, hətta dünya praktikasında ilk dəfə həyata keçirilən təcrübə olacaqdır.

Abidələrə dəymiş zərərlərin qiymətləndirilməsi bu sahədə mövcud olan və hamı tərəfindən qəbul edilən Beynəlxalq Qiymətləndirmələrə uyğun aparılmalıdır. Təbii ki, işğal faktoru qiymətləndirmə zamanı oradakı abidələrə baxış keçirilməsinə mane olur. Lakin qiymətləndiricilər bu proses zamanı müxtəlif arxivlərdən abidənin daxili və ya xarici interyerində bədii-obraz keyfiyyətinin mürəkkəbliyini müəyyənləşdirmək üçün məlumatlar əldə etməlidirlər. Bu məlumatlar, abidənin memarlıq xüsususiyyətləri və tikinti üslubu üzərində təhlillər aparmağa şərait yaradacaq. Bütün bunlardan başqa xarici ölkə arxivləri və digər informasiya mənbələrini araşdırılacaq,

eləcədə kosmosdan müşahidələr aparmaqla nəzərdə tutulan dəlilləri əldə etmək mümkün olacaqdır.

Azərbaycan Ordusu müqəddəs torpaqlarımızı erməni işğalçılarından təmizlədikdən sonra xalqımıza məxsus tarixi və mədəniyyət abidələrinin vandalizmə məruz qaldığı, dağıdılaraq yerlə-yeksan edildiyi, bir qismi isə saxtalaşdırılaraq mənimsənilmə istiqamətində cəhdlərin edildiyi aşkar olundu. Qarabağ ərazisində ermənilərin "saxta tarix istehsal edən" müəssisə də aşkar olunub. Ermənilər həmin sexdə tarixi abidələr, daşlar üzərində iş aparır, yeni metodlarla qədim abidələr düzəldirmişlər.

## 4.7. Ümumdünya İrs Obyektlərinin seçilməsi üçün meyarlar

Ümumdünya İrs Komitəsi Ümumdünya Mədəni və Təbii İrsin Mühafizəsi Haqqında Konvensiyanı ratifikasiya etmiş İştirakçı Dövlətlərin Baş Assambleyası tərəfindən seçilmiş 21 iştirakçı dövlətin nümayəndələrindən ibarətdir. Komitə obyektlərin təhlükəsizliyinə nəzarət etmək üçün monitorinq sistemi yaradıb. Dünya Mədəni və Təbii İrsin Qorunması Fondu məhdud resursları olan ölkələrə xüsusi maliyyə və texniki yardım göstərir. Fonda ayırmalar bütün iştirakçı dövlətlər tərəfindən YUNESKO-nun büdcəsinə məcburi töhfələrinin 1%-i həcmində verilir; qeyri-hökumət təşkilatlarından və fiziki şəxslərdən əlavə töhfələr qəbul edilir. Təbii Ümumdünya İrs obyektlərinin ümumi sahəsi dünyadakı bütün Xüsusi Mühafizə olunan Təbiət Ərazilərinin (PA) 13%-dən çoxunu təşkil edir. [179:181:182]

Ümumdünya İrs Obyektləri Birləşmiş Millətlər Təşkilatının Təhsil, Elm və Mədəniyyət Təşkilatı (YUNESCO) tərəfindən idarə olunan beynəlxalq konvensiyaya əsasən hüquqi mühafizə altında olan ərazi və ya görməli yerlərdir. Ümumdünya İrs Obyektləri YUNESKO tərəfindən mədəni, tarixi, elmi və ya digər əhəmiyyət kəsb edən

obyektlər kimi müəyyən edilir. Bu obyektlər "bəşəriyyət üçün müstəsna dəyərə malik bütün dünyanın mədəni və təbii irsini" ehtiva edir. Seçilmək üçün Ümumdünya İrs Obyekti coğrafi və tarixi baxımdan müəyyən edilə bilən və xüsusi mədəni və ya fiziki əhəmiyyətə malik bir növ unikal abidə olmalıdır. Məsələn, Dünya İrs Saytları qədim xarabalıqlar və ya tarixi tikililər, binalar, şəhərlər, səhralar, meşələr, adalar, göllər, abidələr, dağlar və ya səhra ola bilər. Ümumdünya İrs Obyekti görkəmli insan nailiyyətini ifadə edə bilər və planetdəki intellektual tariximizin vəsiyyəti kimi xidmət edə bilər və ya heyrətamiz təbii gözəlliyə malik bir yer ola bilər.[180:183:187]

Ümumdünya İrs Komitəsi Ümumdünya Mədəni və Təbii İrsin Mühafizəsi Haqqında Konvensiyanı ratifikasiya etmiş İştirakçı Dövlətlərin Baş Assambleyası tərəfindən seçilmiş 21 iştirakçı dövlətin nümayəndələrindən ibarətdir. Komitə obyektlərin təhlükəsizliyinə nəzarət etmək üçün monitorinq sistemi yaradıb. Dünya Mədəni və Təbii İrsin Qorunması Fondu məhdud resursları olan ölkələrə xüsusi maliyyə və texniki yardım göstərir. Fonda ayırmalar bütün iştirakçı dövlətlər tərəfindən YUNESKO-nun büdcəsinə məcburi töhfələrinin 1%-i həcmində verilir; qeyri-hökumət təşkilatlarından və fiziki şəxslərdən əlavə töhfələr qəbul edilir. Təbii Ümumdünya İrs obyektlərinin ümumi sahəsi dünyadakı bütün Xüsusi Mühafizə olunan Təbiət Ərazilərinin (PA) 13%-dən çoxunu təşkil edir.

Ümumdünya İrs Obyektləri Birləşmiş Millətlər Təşkilatının Təhsil, Elm və Mədəniyyət Təşkilatı (YUNESCO) tərəfindən idarə olunan beynəlxalq konvensiyaya əsasən hüquqi mühafizə altında olan ərazi və ya görməli yerlərdir. Ümumdünya İrs Obyektləri YUNESKO tərəfindən mədəni, tarixi, elmi və ya digər əhəmiyyət kəsb edən obyektlər kimi müəyyən edilir. Bu obyektlər "bəşəriyyət üçün müstəsna dəyərə malik bütün dünyanın mədəni və təbii irsini" ehtiva

edir. Seçilmək üçün Ümumdünya İrs Obyekti coğrafi və tarixi baxımdan müəyyən edilə bilən və xüsusi mədəni və ya fiziki əhəmiyyətə malik bir növ unikal abidə olmalıdır. Məsələn, Dünya İrs Saytları qədim xarabalıqlar və ya tarixi tikililər, binalar, şəhərlər, səhralar, meşələr, adalar, göllər, abidələr, dağlar və ya səhra ola bilər. Ümumdünya İrs Obyekti görkəmli insan nailiyyətini ifadə edə bilər və planetdəki intellektual tariximizin vəsiyyəti kimi xidmət edə bilər və ya heyrətamiz təbii gözəlliyə malik bir yer ola bilər.

Hər il Ümumdünya İrs Komitəsi "Ümumdünya İrs saytı statusu"nun verildiyi sessiyalar keçirir. 2021-ci ilin avqust ayına olan məlumata görə, YUNESKO-nun Ümumdünya İrs Siyahısına 167 iştirakçı ölkədə yerləşən 1154 obyekt (o cümlədən 897 mədəni, 218 təbii və 39 qarışıq) daxildir. Bundan əlavə, ümumi siyahıya məhv olmaq təhlükəsi altında olan 52 obyektdən ibarət alt siyahı daxildir.

Azərbaycan dünya əhəmiyyətli irs siyahısında: Bakıda Şirvanşahlar Sarayı və Qız Qalası ilə birlikdə Köhnə Qala; Qobustan qayaüstü rəsmlərinin mədəni mənzərəsi; Xan Sarayı ilə birlikdə Şəkinin tarixi mərkəzi  ilə təmsil olunur.

Obyektlər insan və ya heyvanların daxil olması, nəzarətsiz, nəzarətsiz və ya məhdudiyyətsiz giriş və ya yerli inzibati səhlənkarlıq təhlükəsi ilə üzləşə biləcək nəsillər üçün praktiki qorunma üçün nəzərdə tutulub. Obyektlər YUNESKO tərəfindən qorunan ərazilər kimi qeyd olunub. Siyahı, Baş Assambleyası tərəfindən seçilən 21 "İştirakçı Dövlət"dən ibarət Ümumdünya İrs Komitəsi tərəfindən idarə olunan Beynəlxalq Ümumdünya İrs Proqramı tərəfindən aparılır. Proqram bəşəriyyətin ümumi mədəniyyəti və irsi üçün görkəmli mədəni və ya təbii əhəmiyyətə malik abidələri kataloqlar, adlar və onları qoruyur. Proqram 1972-ci il noyabrın 16-da YUNESKO-nun Baş Konfransında qəbul edilmiş "Ümumdünya Mədəni və Təbii İrsin

Mühafizəsi Haqqında Konvensiya" ilə başlayıb. O vaxtdan bəri 193 üzv dövlət konvensiyanı ratifikasiya edərək onu ən geniş tanınan beynəlxalq müqavilələrdən birinə və dünyada ən populyar mədəniyyət proqramına çevirib.

Mədəni irsin Ümumdünya İrsi Obyekti olması üçün müəyyən tələblərə cavab verməlidir. Seçim üçün bir neçə meyar var. Təbii və mədəni qiymətli obyektlər var. Yəni onları ya insan, ya da təbiət tərəfindən yaradılmışdır.

Cədvəl 4.9. YUNESKO-nun Dünya İrs Siyahısına ən çox mədəni irs obyektləri ilə daxil olan ölkələr [143; 146; 148]

| Sıra | Ölkə | Mədəni Dünya İrs Obyektləri | Təbii Dünya İrs Obyektləri | Qarışıq Dünya İrs Obyektləri | Ümumi sayı |
|---|---|---|---|---|---|
| 1 | İtaliya | 48 | 5 | 0 | 53 |
| 2 | Çin | 36 | 12 | 4 | 52 |
| 3 | İspaniya | 40 | 3 | 2 | 46 |
| 4 | Fransa | 38 | 3 | 1 | 43 |
| 5 | Almaniya | 38 | 3 | 0 | 42 |
| 6 | Hindistan | 27 | 7 | 1 | 36 |
| 7 | Meksika | 27 | 6 | 1 | 34 |
| 8 | İngiltərə | 26 | 4 | 1 | 31 |
| 9 | Rusiya | 17 | 11 | 0 | 28 |
| 10 | ABŞ | 12 | 10 | 1 | 23 |
| 11 | İran | 21 | 1 | 0 | 22 |
| 12 | Yaponiya | 17 | 4 | 0 | 21 |
| 13 | Braziliya | 14 | 7 | 0 | 21 |
| 14 | Avstraliya | 3 | 12 | 4 | 19 |
| 15 | Yunanıstan | 16 | 0 | 2 | 18 |
| 16 | Kanada | 8 | 10 | 0 | 18 |
| 17 | Türkiyə | 14 | 0 | 2 | 16 |
| 18 | Polşa | 14 | 1 | 0 | 15 |
| 19 | Portuqaliya | 14 | 1 | 0 | 15 |
| 20 | İsveç | 13 | 1 | 1 | 15 |

**Diaqram 4.9. YUNESKO-nun Dünya İrs siyahısına ən çox mədəni irs obyektləri ilə daxil olan ölkələr**




Siyahıya daxil edilmək üçün onlar müəyyən edilmiş tələblərə cavab verməlidir. Bunlara: müxtəlif dövrlərdə insan əli ilə yaradılmış, lakin müasir dünyada bir dəyəri təmsil edən abidələr, ansambllar,

görməli yerlər daxildir. Onlar həm də unikallığı ilə seçilməlidirlər. Siyahıya daxil edilməsi namizədin aşağıdakı meyarlardan birinə cavab verdiyini müəyyən etdikdən sonra Komitə tərəfindən qərara alınır:

İnsanın yaratdığı sənət əsərinin şah əsəridir: Dünya və ya milli mədəniyyətə əhəmiyyətli təsir göstərir; İtirilmiş sivilizasiyanın varlığına sübut olmaq, unikallıq tələblərinə cavab verir; Dünya və ya milli çərçivədə mədəni dəyəri təmsil edən tarixi bir dövrün memarlığının görkəmli nümunəsidir; İndi məhv olmaq və tamamilə yox olmaq təhlükəsi altında olan və əvvəllər mühüm bir tarixi dövrün sübutu olan bir insan məskəninə nümunədir; Ən mühüm tarixi məqamlarla birbaşa və ya dolayısı ilə bağlıdır.

Ümumdünya İrs Siyahısına daxil edilmək üçün obyekt görkəmli Dünya İrs Obyektiı olmalı və on meyardan ən azı birinə cavab verməlidir. Meyarlar Konvensiyanın özü ilə birlikdə Ümumdünya İrs konsepsiyasının tətbiqində əsas işçi alət olan "Ümumdünya İrs Konvensiyasının Tətbiqinə dair Təlimatlar"da izah edilmişdir. Seçim, tələb olunan meyarlardan birinə əsaslanır. Siyahıya düşmək üçün bir "uyğunluq" kifayətdir. Bura milli parklar, tarixi mərkəzlər, qədim və tarixi şəhərlər, müxtəlif dövrlərə və nəsillərə aid memarlıq ansamblları, məbədlər və məbəd kompleksləri daxildir. Müxtəlif dövrlərə aid qayaüstü rəsmlər də tarixi dəyərlərə aiddir.

Ümumdünya İrs konsepsiyasındakı inkişafı əks etdirmək üçün meyarlar Ümumdünya İrs Komitəsi tərəfindən müntəzəm olaraq nəzərdən keçirilir. Həmçinin obyekt qorunmalı, idarəetmə sisteminə malik olmalı, orijinallıq və bütövlük meyarlarına cavab verməlidir.

2004-cü ilin sonuna qədər Dünya İrs Obyektləri altı mədəni və dörd təbii meyar əsasında seçilirdi. Ümumdünya İrs Konvensiyasının həyata keçirilməsinə dair yenidən işlənmiş Təlimatların qəbulu ilə on meyardan ibarət vahid siyahı ortaya çıxıb. (Cədvəl 4.10)

Siyahıya daxil edilməsi təklif olunan obyekt:

i. insanın yaradıcı dühasının məhsulu olmalı;

ii. müəyyən bir müddət ərzində və ya müəyyən bir mədəniyyət sahəsi daxilində mövcud olan bəşəri dəyərlərin əlaqəsinin və memarlıq və ya texnologiyanın, monumental sənətin, şəhərsalma və ya landşaft planlaşdırmasının inkişafının əhəmiyyətini əks etdirməli;

Cədvəl 4.10. Dünya İrs Saytlarının siyahısına düşmək üçün tələb olunan kriterilər [157:176:179]

| | **Mədəni kriterilər** | | | | | | **Təbii kriterilər** | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| 2005-ci ilə qədər | C(i) | C(ii) | C(iii) | C(iv) | C(v) | C(vi) | N(i) | N(ii) | N(iii) |
| 2005-ci ildən sonra | (i) | (ii) | (iii) | (iv) | (v) | (vi) | (viii) | (ix) | (vii) |

iii. mövcud və ya yox olmuş mədəni ənənə və ya sivilizasiyanın unikal və ya ən azı müstəsna sübutu olmalı;

iv. bəşəriyyət tarixində mühüm mərhələni (mərhələləri) təsvir edən tikili tipinin, memarlıq və ya texnoloji ansamblın və ya landşaftın görkəmli nümunəsini təmsil etməli;

v. ənənəvi insanların məskunlaşmasının, müəyyən bir mədəniyyətə (və ya mədəniyyətlərə) xas olan qurudan və ya dənizdən istifadənin, insan və təbii mühitin qarşılıqlı əlaqəsinin, xüsusən də geri dönməz dəyişikliklər nəticəsində məhv olma riskinin mövcud olmasının görkəmli nümunəsini təmsil etməli;

vi. görkəmli dünya irsini təşkil edən hadisələr və ya ənənələr, ideyalar və ya inanclar, ədəbiyyat və incəsənət əsərləri ilə birbaşa və ya əhəmiyyətli dərəcədə əlaqəli olmalı (Ümumdünya İrs Komitəsinin fikrincə, bu meyardan digər meyarlarla birlikdə istifadə edilməlidir);

vii. unikal təbiət hadisələrini və ya müstəsna təbii gözəlliyə və estetik dəyərə malik əraziləri daxil etməli;

viii. Yer tarixinin əsas mərhələlərinin, o cümlədən qədim həyatın izlərinin, yer səthinin formalarının inkişafında baş verən mühüm geoloji proseslərin, relyefin əhəmiyyətli geomorfoloji və ya fizioqrafik xüsusiyyətlərinin əks olunmasının görkəmli nümunələri olmalı;

ix. quru, şirin su, sahil və dəniz ekosistemlərinin və bitki və heyvan icmalarının təkamülü və inkişafında davam edən mühüm ekoloji və bioloji proseslərin görkəmli nümunələrini təmsil etməli;

x. elm və təbiətin mühafizəsi baxımından görkəmli dünya irsini təmsil edən nəsli kəsilməkdə olan növlərin arealı da daxil olmaqla, onlarda bioloji müxtəlifliyin qorunması baxımından ən böyük əhəmiyyətə və əhəmiyyətə malik təbii əraziləri əhatə etməlidir.

Ümumdünya İrsi Obyektinə sahib olmaq, onları qəbul edən ölkələrin iqtisadiyyatları və turizm sənayeləri üçün böyük fayda ola bilər. Ümumdünya irsi obyektləri ölkəyə səfər edərkən adətən turistləri cəlb edir. Bu, ölkələrin turistlərdən daha çox pul götürməsi və pullarını xərcləməsi deməkdir. Bununla belə, problemlər də yarana bilər, çünki çoxlu sayda YUNESKO obyektlərinin olması ölkəni bu obyektlərin saxlanması və yenilənməsi üçün külli miqdarda pul xərcləməyə məcbur edir. Bu, xüsusilə çətin iqtisadi dövrlərdə ölkənin tarixi məkanlarına yönəltdiyi vəsaitləri məhdudlaşdıra bilər.

# V FƏSİL. AZƏRBAYCANDA MƏDƏNİ İRS OBYEKTLƏRİNİN QORUNUB SAXLANILMASI VƏ BƏRPASINA MALİYYƏ MƏNBƏLƏRİNİN CƏLB OLUNMASI MEXANİZMLƏRİ

## 5.1. Azərbaycanda mədəni irsin mühafizəsi və inkişafının idarə edilməsi və səmərəliliyinin artırılması problemləri

Mövcud idarəetmə sisteminin təhlili belə qənaətə gəlməyə imkan verir ki, ölkəmizdə mədəni irsin obyektlərinin, daşınmaz əmlakının idarə olunması sistemi müasir sosial-iqtisadi şəraitə və tələblərə tam uyğun gəlmir. Tarixi tikililərin idarə olunması sisteminin əsas xüsusiyyətləri - ciddi təhlükəsizlik qanunvericiliyi, irs obyektlərinin qorunub saxlanılması və inkişafı üçün büdcədənkənar vəsaitlərin cəlb edilməsi üçün effektiv tədbirlərin görülməməsi və bu daşınmaz əmlak obyektlərində dövlət mülkiyyətinin yüksək payının olmasıdır.

Daşınmaz tarix və mədəniyyət abidələrinin mühafizəsi və inkişafının idarə edilməsinin səmərəliliyinin artırılması yollarını müəyyən edən amillər sırasında dövlət tərəfindən maliyyə cəlb etmək üçün dövlət stimulları vasitəsilə tarixi daşınmaz əmlakın bərpası üçün investisiya layihələrinin cəlbediciliyinin artırılması qeyd edilməlidir. Bu cür layihələrə dövlət dəstəyinin beynəlxalq təcrübəsində daha çox istifadə olunan alət - güzəştli vergitutmadır. Üstəlik, onun həyata keçirilməsi müxtəlif yollarla: vergi güzəştlərinin verilməsi; daşınmaz əmlak vergisindən azad edilməsi və daşınmaz əmlak vergisinin "dondurulması" sistemi; təmir-bərpa işləri ilə əlaqədar irs obyektinin dəyərinin artmasına baxmayaraq dəyişməz verginin müəyyən edilməsidir.

Mədəni irs obyektlərinin qorunması və inkişafı layihələrinin sosial-iqtisadi səmərəliliyi yaxınlıqda yerləşən digər obyektlərin bazar dəyərinin və gəlirliliyinin artması; dövlət büdcəsinə vergi və digər daxilolmaların artması, tarixi abidələrin saxlanması üçün dövlət xərclərinin azalması, şəhər mühitinin keyfiyyətinin yaxşılaşdırılması və s. ilə müəyyən edilir. Ancaq bu nəticələrə əlavə olaraq, daşınmaz mədəni irs əmlakının qorunması və inkişafının idarə edilməsi daşınmaz mədəni irs əmlakının funksional istifadəsini canlandırmaq və tarixi obyektdən ən səmərəli istifadəni tapmaq və onu regionun yeni iqtisadiyyatının bazar mühitinə uyğunlaşdırmaq məqsədi daşıyır. [182:183]

Mədəni irs obyektləri müasir şəraitdə ənənəvi mədəni-tarixi təyinatla yanaşı dövlət mədəniyyət siyasətinin elementlərindən biri olmaqla, regional sosial-iqtisadi inkişafın mühüm amilinə çevrilir. Mədəni irs obyektlərinin qorunması və təbliği məsələlərinə hökumətin müxtəlif səviyyələrində diqqət artırılsa da, bütövlükdə ölkə üzrə mühüm problemlər sırasında - obyektlərin əhəmiyyətli hissəsinin qeyri-qənaətbəxş fiziki vəziyyəti, maliyyə çatışmazlığı, onların təhlükəsizliyini təmin etmək üçün obyektin tərkibinin saxlanmasına əsasların olmaması, hüquqi mexanizmlərin təkmil olmaması, bu sahədə dövlət, o cümlədən regional nəzarətin zəif olması və s. qeyd etmək olar. [184] Bununla yanaşı, mövcud problemlərə baxmayaraq, abidələrin bəziləri hələ də öz iqtisadi dəyərini itirməyib və təsərrüfat fəaliyyətində istifadə oluna bilər.

Abidələrin idarə edilməsinin regional aspekti, kifayət qədər çox sayda mədəni və iqtisadi cəhətdən cəlbedici obyektlərin olması və bu proseslərə bələdiyyələrin daha yüksək səviyyədə maliyyə dəstəyi ilə iştirakını zəruri edir, belə ki, bələdiyyələr mərkəzi idarəetməyə nisbətən daha sadə idarəetmə sxeminə və müvafiq mexanizmlərə malikdir.

[185] Bu da o deməkdir ki, regional təşəbbüslərin həyata keçirilməsi üçün kifayət qədər geniş sahələr mövcuddur.

Bundan əlavə, abidələrin bu günə qədər formalaşmış regional idarəetmə mexanizmi mədəni irs obyektlərinin qorunması və onların iqtisadi dövriyyəyə maksimum cəlb edilməsi məqsədlərinə adekvat cavab vermir: diqqətin yalnız büdcədən maliyyələşdirilməsinə yönəldilməsi dövlət orqanlarının və qurumlarının fəaliyyət dairəsini və onların imkanlarını süni şəkildə daraldır; aydın konseptual həllərin olmaması diqqəti uzunmüddətli, strateji məsələlərin həllinə yönəltməyə imkan vermir, cari problemlərin aradan qaldırılmasına çoxlu səy və vəsait sərf olunur. Bu sahədə dövlət-özəl tərəfdaşlığı da kifayət qədər inkişaf etməyib. Müxtəlif səviyyələrdə dövlət orqanlarının səlahiyyət və vəzifələrinin məhdudlaşdırılması və büdcə xərclərinin səmərəliliyinin artırılması, abidələrin idarə olunması sahəsində hakimiyyət orqanları, biznes ictimaiyyəti və vətəndaş cəmiyyəti strukturlarının qarşılıqlı əlaqəsi məsələləri həllini tapmamış qalır.

### 5.2. Mədəni irs obyektlərinin qorunub saxlanılması və bərpasına maliyyə mənbələrinin cəlb olunmasında dünya təcrübəsi.

Mədəni irs obyektlərinin (MİO) bərpası və qorunub saxlanılması üzrə böyük maliyyə yükünü təkcə dövlət çəkə bilməz. Dünya təcrübəsində büdcə dəstəyi mədəniyyət, hökumət və biznesin qarşılıqlı əlaqəsi sahəsində sosial tərəfdaşlığın demokratik texnologiyaları ilə əvəz olunur. Belə ki, Avropada son illər maliyyə vəsaitlərinin toplanmasından (fandreyzinq) istifadə mexanizmləri formalaşıb və bu mexanizmlər çərçivəsində maliyyə resurslarını birləşdirmək və cəmiyyətin ehtiyaclarına uyğun xərcləmək mümkün olur. *Fandreyzinq* çərçivəsində vəsaitin əsas hissəsi fiziki və hüquqi şəxslərin xeyriyyə ianələri hesabına formalaşır. Fandreyzinq ümumiyyətlə pul toplamaq

səylərinə aid olmaqla, qeyri-kommersiya təşkilatları, bəzən mənfəət məqsədli müəssisələr üçün investorların və ya digər kapital mənbələrinin müəyyənləşdirilməsinə və tələbinə istinad etmək üçün istifadə olunur. ABŞ-da ən əhəmiyyətli fandreyzinq səylərindən bəziləri kollec və universitetlər tərəfindən aparılır. Fandreyzinq, qeyri-kommersiya təşkilatı üçün bir neçə gəlir mənbəyindən yalnız biridir. Əlavə gəlir dövlət qurumları, ianələr və satış və xidmətlər tərəfindən verilən qrant şəklində ola bilər. Lakin bir qayda olaraq, bunun özü də mədəni irsi tam dəstəkləmək üçün kifayət etmir. [33, s.32-39: 134: 135]

Fandreyzinq fəaliyyəti 18-ci əsrdən başlayaraq əsasən Qərbi Avropada maarifçilik dövründə populyarlaşmağa başlamışdı və bu ənənə əsasən dini ideyalar ətrafında formalaşmışdı. Aristokrat və varlı insanlar hər hansı bir elm, tədris və ya mədəniyyət sahəsinə dəstək olmaqdan ötrü ianələr edirdilər. Müsəlman ölkəsi kimi ölkəmizdə fandreyzinq məscid və ya dini liderlərin ətrafında formalaşan vəqflər vasitəsilə həyata keçirilirdi. Azərbaycan Çar Rusiyasının tərkibində olduğu müddətdə bu cür fəaliyyətlər geniş inkişaf tapmışdı. Azərbaycanda fandreyzinqlə bağlı Hacı Zeynalabdin Tağıyev, Ağa Musa Nağıyev kimi neft milyonçularını göstərmək olar. Onlar məktəblərin açılması, azərbaycanlı gənclərin xaricdə təhsil alması ilə yanaşı mədəniyyət sahəsinə də yardımlar edirdilər. 1918-ci ildə Azərbaycan müstəqilliyini əldə etdikdən sonra da neft milyonçuları dəstəklərini davam etdirmişdilər.

Sovet dönəmində digər sahələrdə olduğu kimi sosial istimqaətlərdə də hər şeyi dövlətin əlində cəmləşmişdi. Bu baxımdan özəl və ya fərdi faəliyyətə imkan verilmirdi.

Fandreyzinqin 3 növü var: 1) fərdi fandreyzinq – bu, daha çox fərdi insanların seçdikləri qeyri-hökümət təşkilatları, yaxud ictimai

birliklərə aylıq, yaxud mövsümi və ya bir dəfə ianələr etməsindən ibarət bir sahədir. 2) korporativ fandreyzinq – bu, daha çox korporativ sosial məsuliyyətlə əlaqələndirilərək biznes sahəsinin müəyyən təşkilatlara və ya ictimai birliklərə göstərdikləri dəstəkdir. 3) dövlət və ya dövlətlərüstü fandreyzinq – burada bir çox nazirliklər və ya beynəlxalq təşkilatların uzun müddətli sosial dəyişikliklər yönündə göstərdikləri fəaliyyət nəzərdə tutulur.

Dünya təcrübəsinə nəzər salsaq, individual və ya fərdi fandreyzinq fəaliyyətləri tətbiq olunur. Fandreyzinq sosial bir vərdişdir, hər hansı bir ideyaya, təşkilata, güvəndiyiniz bir işə maddi vəsaitin ayrılmasıdır. Bu sosial vərdiş Azərbaycanda zamanla itirilmiş olsa da, yenidən gündəmə gəlməkdədir. 2021-ci ildə Qarabağ Dirçəliş Fondunun Fandreyzinq və kommunikasiya şöbəsi yaraılıb.

Dünya təcrübəsində mədəni irs obyektlərinin saxlanması və bərpası üçün maliyyə vəsaitinin çatışmamasına baxmayaraq, dövlət fəal şəkildə daim bu obyektlərin ərazinin təsərrüfat həyatına cəlb edilməsinə çalışır. Bu problemin həlli üçün müxtəlif səmərəlilik dərəcələri ilə istifadə olunan dörd mexanizm vardır:

1. MİO-ların xüsusi mülkiyyətçilərin məsuliyyətinə verilməsi ilə özəlləşdirilməsi;
2. MİO-ların inkişafı (devolepment);
3. MİO-ların əsasında turizm məhsullarının yaradılması;
4. MİO brendinin formalaşdırılması və əmlaka bitişik digər daşınmaz əmlakın daha yüksək qiymətlərlə sonrakı satışı.

Bu mexanizmlərin hamısı Azərbaycanda istifadə edilmir, çünki onların hazırda istifadəsinə mane olan bir sıra məqamlar var. Bununla belə, xarici ölkələr bu sahədə əhəmiyyətli müsbət təcrübə toplayıblar və təbii ki, bunlar hərtərəfli öyrənilməlidir. MİO-ların özəlləşdirilməsi mexanizmindən istifadənin parlaq nümunəsi kimi Fransanı göstərmək

olar. Bu ölkədə memarlıq abidəsi kimi tanınan tikililərin təxminən yarıya qədəri özəlləşdirilib. [99, s.40-47] Belə bir sistemin tətbiq olunduğu dövlətlərdə mülkiyyətçi MİO-ların qorunması, istifadəsi və təşviqi ilə bağlı müvafiq öhdəliklər götürür. Hər hansı bir qanun pozuntusu MİO-ların mülkiyyətçidən alınması da daxil olmaqla, ən sərt sanksiyalara səbəb olur.

Burada qeyd etmək yerinə düşər ki, dövlət, istifadə etdiyi mexanizm çərçivəsində büdcəni müvafiq səviyyədə doldurmaq deyil, dövləti belə obyektlərin bərpası yükündən azad etmək məqsədi güdür. Buna görə də, məsuliyyətlərlə yanaşı, səlahiyyətli orqanlar MİO-ların sahibləri və ya kirayəçiləri üçün müavinətlər, subsidiyalar və s. nəzərdə tutur. Avropa ölkələrində dövlət MİO-ların bərpasını və iqtisadi fəaliyyətdə istifadəsini stimullaşdırmaq üçün daha çox vergitutma mexanizmlərindən istifadə edir. Aİ ölkələrində ən çox yayılmış güzəştlər: obyektlərin balans dəyərinə görə deyil, kadastr əsasında hesablanan daşınmaz əmlak vergisi güzəştləri; vergilərin təxirə salınması güzəştləri; MİO-ların bərpası və saxlanması ilə bağlı xərclərin və ya minimal dərəcə ilə icarə haqqının toplanması və s. kimi mexanizmlərdən ibarətdir. Bəzi Aİ ölkələrində tarixi binalarda bərpa və tikinti işlərinə görə güzəştli ƏDV dərəcəsi də müəyyən edilib. Çox vaxt tarixi binaların təmiri və saxlanması xərcləri gəlir vergisi güzəştləri hesabına kompensasiya olunur.

Son vaxtlar MİO-lardan istifadənin ikinci mexanizmi populyarlıq qazanıb, onun çərçivəsində son 30 il ərzində Avropada belə obyektlərin konservasiyası və bərpası üçün infrastruktur formalaşmağa başlayıb. Məqsədi - cəmiyyətin rəyi nəzərə alınmaqla, mədəni irsin görünüşünün bərpası və qorunması ilə bağlı rəqabətqabiliyyətli inkişaf layihələrinin formalaşdırılmasından ibarət olan irs menecmenti populyarlıq qazanmaqdadır. Söhbət, obyektin uyğunlaşdırılmasına, onun ərazinin

mədəni-təsərrüfat dövriyyəsinə cəlb edilməsinə yönəlmiş tədbirlər kompleksindən, ümumi ideya ilə birləşdirilən ayrıca investisiya layihələri qrupunun yaradılmasından gedir. [5, s.138-140] Bu mexanizm nəzərdə tutur ki, belə strukturlar bu cür layihələrin nəinki tam və ya qismən işlənib hazırlanmasına dəstəyi, həm də bərpa və bərpa işləri üçün müvafiq texnologiyaların seçilməsi və istifadəsi tələblərinə və onların keyfiyyətinə nəzarəti də öz üzərinə götürürlər. Bu isə öz növbəsində, layihənin dəstəklənməsi ilə məşğul olan işçilərin peşəkarlıq səviyyəsinə bir sıra tələbləri formalaşdırır.

Avropa ölkələrində qeyri-kommersiya ictimai təşkilatları lazımi vəsaitin toplanması prosesində fəal iştirak edirlər. Belə ki, YUNESKO-nun saytlarında lider olan İtaliyada hər il təxminən 1,5 milyard avro cəlb olunur, Böyük Britaniyada bərpa layihələrinin üçdə biri ölkənin milli konsaltinq və maliyyə dəstəyindən keçir. [15] İctimai təşkilatlar bir qayda olaraq, xeyriyyə vəsaitlərinin cəlb edilməsində və onların sonrakı xərclənməsinə nəzarətdə iştirak edirlər. Lakin bu mexanizmdə ağrılı məqam - bərpa layihəsinin vahid mərkəzdən idarə edilməsidir.

Mədəni irs obyektlərindən istifadənin səmərəliliyinin artırılmasına kompleks yanaşma nisbətən yaxınlarda formalaşmağa başlayıb. Burada, mədəni irsin qorunması və inkişaf etdirilməsinin əsas iştirakçıları: bütün səviyyələrdə hakimiyyət orqanları, ictimai və qeyri-kommersiya təşkilatları, fondlar, müəssisələr, yerli icmalar və şəxslər arasında funksiyaların bölüşdürülməsi əsas götürülür. Məsələn, Britaniya irsini xilas edək (Save British Heritage) təşkilatı 1975-ci ildə, Fransa İrs Fondu 1996-cı ildə yaradılmışdı. 1970-ci ildən başlayaraq bütövlükdə mədəni irs sektoruna diqqəti artırmaq, tərəfdaşları birgə əməkdaşlığa və işləməyə yönəldilən səylər üzrə vaxtaşırı tədbirlər keçirilir. Bu baxımdan, ölkənin mədəni irsi və ondan istifadə sahəsində aktual məsələlərin müzakirəsi üçün peşəkar platforma kimi

Fransada mədəni irs sərgisi olan Beynəlxalq Salon məhz bu məqsədlərə xidmət edir.

XX əsrin ortalarında ABŞ-da milli trast tərəfindən mədəni və tarixi obyektlərin müasir istifadəsini nəzərdə tutan Baş küçə "Main Street" proqramı hazırlanmışdı. Burada, binaların təkrar istifadəsi və müasir reallıqlara uyğunlaşdırılması yolu ilə şəhərlərin iqtisadi yaşam qabiliyyətinin bərpası nəzərdə tutulurdu. Belə obyektlərin sahibləri üçün mülkiyyətində olan binaları sökməyə deyil, köhnə tikililəri bərpa və inkişaf etdirməyə sövq etmək üçün hərtərəfli vergi güzəştləri sistemi təklif edilirdi. [42, s.81]

Avropa və ABŞ-da MİO-lardan bu cür istifadə, turizmin və qonaqpərvərlik sənayesinin (ekoturizm, aqroturizm və müəyyən bir yerin müstəsna xüsusiyyətlərindən istifadə edərək digər turizm növləri) inkişafını nəzərdə tutur.[76, s.223] Belə layihələr əsasən, öz dövrünün görkəmli şəxslərinin övladlarına məxsusdur.

Bəzən özəlləşdirilən obyektlər əsasında vahid mədəniyyət və turizm brendi formalaşır. Onun formalaşmasında həm daşınmaz əmlak obyektlərinin özəl sahibləri, həm də yerli və regional hakimiyyət orqanları bərabər əsasda iştirak edirlər. Belə uğurlu əməkdaşlığa misal olaraq *Rothenburg ob der Tauber* şəhərinin əmlak kompleksini göstərmək olar, burada, bütün mülk sahiblərinin hərəkətləri şəhərin Milad bayramına həsr olunmuş imicinin formalaşmasına tabedir. Şəhər memarlığı, suvenir məhsullarının mövzusu, nəqliyyat (şəhər və özəl) bilavasitə bu bayramla əlaqələndirilir. Bütün şəhər ritualları və ənənələri stilizə edilir və qismən teatrlaşdırılır. Şəhərin tarixi hissəsində yerləşən muzeylər də adı çəkilən mövzuya həsr olunur və ya onunla əlaqələndirilir. Tarixi hissədəki bütün otellər, iaşə obyektləri, mağazalar özəldir. Qeyd etmək lazımdır ki, otellər yaşayış kimi tikilmiş evlərdə yerləşir və əksər hallarda, stilizə edilmiş interyerə malikdir. Otellərin

əksəriyyəti ailə biznesidir. Şəhər dünyanın hər yerindən çoxlu sayda turistlər cəlb edir. Lakin bu tarixi-turizm kompleksinin fəaliyyətində açıq-aşkar mövsümilik var: turist axınının pik nöqtəsi noyabr ayına - yanvarın birinci yarısına düşür. Bundan sonra aprel ayına qədər səfərlərdə kəskin azalma müşahidə olunur. Bu dövrdə, özəl mağazaların əksəriyyəti bağlanır və əmək qabiliyyətli əhalinin bir hissəsi şəhəri tərk edir. Bu tendensiya sabitdir və yerli hökumətlərin səyləri hələlik bu prosesi yumşalda bilmir. Şəhər rəhbərliyini xüsusilə narahat edən məsələ, gedən işçi qüvvəsinin daha gənc hissəsinin növbəti mövsümə qədər geri qayıtmamasıdır. MİO-lara xidmət edən insanların yaşı da durmadan artır. [157, s.121]

Bu cür qarşılıqlı əlaqənin parlaq nümunələri Almaniya və Fransanın müxtəlif şəhərlərində - Tübingen, Sen-Malo, Landşut və s. mədəni irs obyektlərindən istifadədə özünü göstərir. Bu obyektlər dünyanın hər yerindən gələn turistlər arasında populyardır. Halbuki, həmin şəhərlərdə əhalinin sayı 90 min nəfəri də keçmir. [157, s.123]

İngiltərədə mədəni irsin qorunub saxlanması sistemi, yəni Böyük Britaniyanın əsas tarixi şəhərləri ilə bağlı vəziyyət də diqqətəlayiqdir. Bu ölkədə, mədəniyyət abidələrinin dövlət qeydiyyatı aparılıb, onun çərçivəsində İngiltərə (Uels ilə birlikdə), Şotlandiya və Şimali İrlandiya üçün tarixi park və bağların dövlət siyahıları tərtib edilib. [56, s.45] Belə obyektlərin ərazi mühafizəsi sahəsində ictimai təşkilatlar və yerli hakimiyyət orqanları birinci dərəcəli rol oynayır.

Böyük Britaniyanın mədəni irs sisteminə Milli Trast (National Trust) ictimai təşkilatı tərəfindən idarə olunan özəl mülkiyyət və özəl sərmayələr böyük təsir göstərir.[56, s. 71] Bu təşkilat, tarixi bağların və parkların, kəndlərin, mülklərin və nisbətən toxunulmamış təbiətin ən iri sahibidir. Mövcud qanunvericiliyə uyğun olaraq, etibar edilmiş əmlakın satışı yalnız parlamentin hər iki palatası tərəfindən belə bir

qərarın təsdiqi və Kraliçanın razılığı əsasında mümkündür. Eyni zamanda, şəxsi mülklərin Trasta verilməsi keçmiş mülkiyyətçilərin orada ömürlük yaşamaq hüququnu saxlayır. Böyük Britaniya Milli Trastı inkişaf etmiş ölkələrdə ümumdünya "Milli Etimad" hərəkatının təşkilinin başlanğıcı olmuşdur.

Amma məsələ, təbii ki, təkcə mədəni irsin xroniki maliyyələşməsində deyil. Ekspertlərə görə, problem həm də ondadır ki, Azərbaycanda dövlətin bu sahədə rolu tam inhisarçıdır. Məsələn, Fransada memarlıq, tarix və mədəniyyət abidələri kimi tanınan binaların təxminən 50 faizi özəl mülkiyyətdədir. Onların hamısı, əlbəttə ki, ciddi qanunvericilik normaları ilə qorunur, lakin təhlükəsizlik və bərpa işlərinin aparılması üçün qayğı sahibinin çiyinlərindədir. Eyni zamanda, o, abidə kimi təsnif edilən obyektin yenidən qurulması və bərpası da daxil olmaqla istənilən dəyişikliyi əlaqələndirməyə borcludur.

Lakin bununla yanaşı, dövlət hələ də mədəni irs obyektlərinin bərpasına külli miqdarda vəsait xərcləyir. Təkcə 2020-ci ildə Fransa hökuməti böhrana baxmayaraq, bütün mədəni irs obyektlərinə 460 milyon avro xərcləməyi planlaşdırır ki, bunun da yalnız 280 milyonu memarlıq strukturlarının bərpası və bərpasına gedəcək. Fransada olduğu kimi İtaliyada da xeyli sayda mədəni irs obyekti var. Burada bərpa və vəsaitin ayrılması məsələsi müsabiqə əsasında aparılır və deklorativ xarakter daşıyır. ABŞ-da, əsasən özəl investorların pulları hesabına tarixi daşınmaz əmlakın bərpası üçün federal proqram mövcuddur. Proqramın mövcud olduğu dövrdə vergi güzəştləri və daha 117 milyard ABŞ dolları özəl investisiyalar hesabına 73 milyard dollara yaxın vəsait cəlb edilib və beləliklə, 40 minə yaxın obyekt bərpa olunub.

Üstəlik, həmin İtaliya və Fransada dövlətin adətən böyük şəhərlərdən uzaqda yerləşən sahibsiz mədəni irs obyektlərini bir avroya satması proqramı var. Alqı-satqı şərti öhdəlikdir, ona görə yeni sahibi üç il ərzində əldə etdiyi qəsri və ya əmlakı bərpa və ya restavrasiya etməlidir. Beləliklə, dövlət maliyyə yükünü sahibinin çiyninə yükləyir. Eyni zamanda, səlahiyyətlilər ən varlı və uyğun sahibi tapmaq üçün hərtərəfli seçim aparırlar.

Nəzərdən keçirdiyimiz mexanizmlərdən dördüncüsü, konkret mədəni irs obyekti brendinin formalaşması və onun hesabına ona bitişik torpaqların dəyərinin yüksəlməsi ilə bağlıdır. Belə bir obyektin bərpası üçün proqram həyata keçirilməklə, eyni zamanda geniş maarifləndirmə kampaniyası təşkil edilir ki, bu, həm də bərpa olunan obyekt üçün gizli reklam rolunu oynayır. Məqsəd - obyektə və ətraf əraziyə ictimaiyyətin marağını maksimum dərəcədə artırmaqdır. Nəticədə, obyektin yanındakı daşınmaz əmlak bahalaşmağa başlayır, şəhərin zonal torpaq qiymətinin xəritəsi dəyişir.

Bu mexanizmin praktikada tətbiqi həmişə mümkün olmur. Yüksək səmərəliliyi üçün obyektin dövlət və ya bələdiyyə mülkiyyətində olan torpaq sahəsində yerləşməsi zəruridir. Bundan əlavə, torpaq sahəsi kifayət qədər böyük və tikilməmiş olmalıdır (yaxud üzərindəki tikililər də dövlət və bələdiyyə mülkiyyətində olmalıdır). Yalnız bu halda, mədəni irs obyektinə bitişik daşınmaz əmlakın satışı (icarəyə verilməsi) büdcəyə xeyli vəsait gətirə bilər. [187, s.101]

## 5.3. Mədəni irsin qorunması və bərpasının müasir maliyyələşdirmə mexanizmləri

Mədəni irsin qorunması və bərpası ilə bağlı irimiqyaslı vəzifəni təkcə büdcə maliyyələşdirilməsi hesabına həll edilməsi mümkünsüzdür. Mədəni irsin mühafizəsi sahəsində əlavə maliyyə

resurslarının cəlb edilməsi, çoxkanallı maliyyələşdirilmə sistemi yaratmaq üçün əlverişli institusional mühitin yaradılması davacibdir.

Hər bir ölkənin mədəni irsin qorunması və maliyyələşdirilməsi sahəsində unikal təcrübəsi var, özünəməxsus vasitə və üsullardan istifadə edir. Azərbaycanda uzun müddətdir ki, mədəni irs sahəsində maliyyələşdirmə modellərinin, idarəetmə formatının dəyişdirilməsi və mülkiyyət hüququnun genişləndirilməsi zərurəti müzakirə olunur. Tarix-mədəni irs abidələrinin qorunub saxlanması sahəsində xarici təcrübənin öyrənilməsi Azərbaycan reallığı üçün həm müsbət institutları aşkar etmək, yeri gəldikcə onları təqlid etmək, həm də bəzi yeniliklərin mümkün mənfi nəticələrini anlamaq üçün aktuallığını davam etdirəcəkdir. Tarixi-mədəni irsin qorunub saxlanması sahəsində dünya təcrübəsində xüsusi yer tutan Avropa ölkələri (Fransa, İtaliya, Almaniya, Böyük Britaniya) müasir və səmərəli mexanizmlər işləyib hazırlamış və onları praktikada tətbiq etmişlər.[157, s.31]

Əksər Avropa ölkələri mədəni-tarixi irsin qorunub saxlanılması və dirçəldilməsinə kompleks yanaşma, bu sahəni tənzimləyən səmərəli qanunvericiliyin, habelə bu sahədə qanunların icrasına nəzarət etmək üçün zəruri səlahiyyətlərə malik hakimiyyət strukturlarının mövcudluğu ilə səciyyələnir. Bu ölkələrdə əsas qanunvericilik bazası 20-ci əsrin əvvəllərində formalaşıb və indiki mərhələdə, mövcud sosial-iqtisadi vəziyyətə uyğun olaraq tarixi irs sahibləri ilə dövlət arasında münasibətləri tənzimləyən, əlavə olaraq tətbiq edilən normativ hüquqi aktların köməyi ilə fəaliyyət göstərir. [80, s.47-48]

Son onilliklərdə tarix və mədəniyyət abidələrinin mühafizəsinə yanaşma dövlətin, regionların, bələdiyyələrin, korporativ və özəl sektorların, ictimai təşkilatların və vətəndaşların (istehlakçıların) resurslarının birləşdirilməsindən ibarət çoxkanallı sistemə əsaslanır. Əksər inkişaf etmiş ölkələrdə mədəni irsin dəstəklənməsi üzrə mövcud tendensiyalar tarix və mədəniyyət abidələrinin cəmiyyətdə müəyyən fəaliyyət növünə uyğunlaşdırılması ilə bağlıdır. Abidənin ən yaxşı şəkildə qorunub saxlanmasına o halda nail olmaq olar ki, obyekt

cəmiyyət tərəfindən tələb olunsun, çünki funksiyasını itirmiş memarlıq abidəsi mənəvi və fiziki cəhətdən məhv olur. Konservasiya prosesi həm də ona yönəlib ki, bərpaçı obyekti müəyyən mühafizə, istismar və ictimai istehlak şərtləri əsasında qoruyub saxlasın.

Uyğunlaşma, obyektin adaptasiyası, mədəni və iqtisadi dövriyyəyə daxil edilməsi ilə əlaqəli olan "valorizasiya" (valorizasiya - bəxş etmə və ya dəyərləndirmə) anlayışı ilə müəyyən edilmiş mühüm tədbirlər toplusudur. Məsələn, İtaliyada federal hakimiyyət orqanları mədəni irs obyektlərini qoruyur, yerli hakimiyyət isə eyni obyektlərin valorizasiyası (dəyərləndirilməsi) ilə məşğul olur. Qoruma funksiyaları böyük maliyyə investisiyaları tələb edir və valorizasiya prosesi müəyyən gəlir gətirə bilər. [92]

Mədəni irs mədəni turizmin inkişafı üçün də əsasdır. Son onilliklərdəin əsas meyli – tarixi irsin iqtisadi və sosial dövriyyəyə daha fəal daxil edilməsinə şərait yaradan, abidələrin yenidən qurulması və bərpasına qoyulan sərmayələrin qaytarılmasını təmin edən, yeni iş yerləri yaradan mədəni turizmin daha fəal inkişafı ilə xarakterizə olunur. Bir sıra Avropa ölkələrində həyata keçirilən strateji yanaşma ona əsaslanır ki, maliyyə-iqtisadi böhran şəraitində, məhz ərazilərin mədəni irs ehtiyatlarına əsaslanan mədəni turizm, müəyyən dərəcədə büdcə vəsaitləri çatışmazlıqlarını kompensasiya edə bilər. [157, s,35]

Avropa ölkələrində dini qurumların mədəni irsin qorunub saxlanması üzrə fəaliyyətlərdə tərəfdaşlıqla iştirakı nəzərdə tutulur. Kilsə qurumları onlara məxsus obyektlərə görə məsuliyyət daşıyır, onların mühafizəsi üzrə müəyyən öhdəliklərə tabedirlər. Belə ki, İsveç Mədəni İrs Aktı əyalət administrasiyasının icazəsi olmadan, 1939-cu ildən əvvəl tikilmiş kilsə binalarında hər hansı əsaslı struktur dəyişikliyi qadağan edir. [77]

Milli mədəni irs sahəsində könüllülər hərəkatının xarici təcrübəsi (Böyük Britaniya, Almaniya, Hollandiya, İtaliya, İspaniya, ABŞ, Kanada və digər ölkələr) çox genişdir. Bu ölkələrdə könüllü təşkilatlar və onların ayrı-ayrı fəalları tarixi-mədəni dəyərlərin qorunub

saxlanması prosesinin tamhüquqlu iştirakçıları kimi qəbul edilir. [92] Belə ki, nüfuzlu müstəqil "İngilis İrsi" təşkilatının (İngiltərə Tarixi Bina və Abidələr Komissiyası) fəaliyyəti əsasən müxtəlif yaş və sosial qruplardan olan könüllülər tərəfindən həyata keçirilir.

Bir qayda olaraq, iştirakçıların həvəsləndirilməsi üçün qeyri-maddi stimulların inkişafına önəm verilir, eyni zamanda ölkə qanunvericiliyində gediş-gəliş, yaşayış və s. xərclər baxımından əlverişli şərait yaradılır. Dövlət və cəmiyyət tərəfindən bu resursun əhəmiyyəti dərk olunur, çünki könüllülük fəaliyyəti əhalinin geniş təbəqəsinin diqqətini mədəni irsə cəlb etməyə kömək edir, həm də bu sahə üçün müsbət iqtisadi effekt yaradır.

İtaliya ən zəngin mədəni irsə malikdir, onun ərazisində hər il milyonlarla turisti cəlb edən 55 YUNESKO-nun Ümumdünya İrs Obyektləri var. İtaliya Avropada ilklərdən biri olaraq milli mədəni irsin qorunması konsepsiyasını hazırlamağa başlamışdır və indiki mərhələdə bu prioritet dəyişməz olaraq qalır. Lakin son illərin iqtisadi vəziyyəti tarix və mədəniyyət abidələrinin saxlanması üçün büdcədən ayrılan vəsaitlərin əhəmiyyətli dərəcədə azalmasına səbəb olur. Nəticədə, bölgələr, əyalətlər və şəhərlər mədəni irsin kommersiyalaşdırılması resursundan getdikcə daha çox istifadə edirlər. [51]

Son onilliklərdə dövlət siyasəti "dövlət-özəl və korporativ sektor" münasibətləri sisteminin inkişafına yönəldilib, mədəniyyət abidələrinin qorunub saxlanılması, maliyyə resurslarının cəlb edilməsi üçün digər modellər (lotereyalar, "faiz xeyriyyəçilik" və s.) işlənib hazırlanmışdır. Müxtəlif mənbələrə görə, İtaliyada milli mədəni irsin təxminən 60%-i xüsusi mülkiyyətdədir. [88] Ənənəvi olaraq, obyektlərin bir hissəsi təhlükəsizlik öhdəliklərinə uyğun olaraq, bir nəsildən digərinə keçir.

Beləliklə, layihə bütün İtaliya vətəndaşlarına öz ölkələrinin mədəni inkişaf strategiyasında iştirak etmək imkanı verir, İtaliya mədəniyyətinin inkişafı üçün vəsait cəlb edir və məşğulluğun artırılmasına şərait yaradır. Belə bir qanunun qəbulu, ölkənin bir çox qurumlarının qeyri-qənaətbəxş və hətta acınacaqlı vəziyyətdə

olduğunu nəzərə alsaq, ölkənin mədəni irsinin dəstəklənməsi üçün fərdi şəxslərin yardımına ehtiyacın hökumət tərəfindən etirafı kimi qiymətləndirilə bilər. [83]

Demək lazımdır ki, xarici kapital tez-tez İtaliyanın tanış tarix və memarlıq abidələrinin qorunmasına sərmayə qoyur. Qədim dövrlərdən bəri Romada qorunub saxlanılan Qay Sesti piramidasının (Piramid di Caio Cestio) bərpasını himayə və tərəfdaşlığın müsbət nümunəsi hesab etmək olar. Bundan əvvəl, Mədəni İrs, Mədəni Fəaliyyətlər və Turizm Nazirliyi tərəfindən maliyyə toplama (fandreyzinq) kampaniyası keçirilmişdi və buna sponsorluq xərclərinin qaytarılmasını gözləmədən 2 milyon avro dəyərində genişmiqyaslı işi maliyyələşdirən Yaponiyadan olan tekstil maqnatı Yuzo Yagi cavab vermişdi. Aşkar xeyriyyəçilik xüsusiyyətlərinə malik başqa bir sponsorluq layihəsi - Hewlett Packard konserninin yaradıcısının oğlu, qədim Herkulaneum şəhərinin konservasiyasına 16 milyon avrodan çox sərmayə qoyan amerikalı xeyriyyəçi Devid Pakardın fəaliyyətidir. [88]

Mədəni irsin dövlət tərəfindən və ya sponsorların fəal iştirakı ilə qorunması məsələsi İtaliya ictimaiyyəti tərəfindən indi də geniş müzakirə olunur. Əsas narahatlıq doğuran məsələlər - ictimai mədəni dəyərlərin kommersiyalaşdırılması, mədəniyyət abidələrinin özəlləşdirilməsi və memarlıq abidələrinin xarici kapitalın əlinə keçməsidir. Ən yüksək rezonansa Roma Kolizeyinin vizual istifadə hüquqlarının obyektin ümumi bərpasına, eləcə də orada turizm mərkəzinin tikintisinə 25 milyon avro ayıran Dieqo Della Vallenin "Tods" şirkətinə verilməsi təşəbbüsü səbəb olub. Narazılıq Kolizeydəki şəkillərin reklam və kommersiya məqsədləri üçün istifadə olunması ilə bağlı olub. Lakin tədricən Della Vallenin özünün münasibəti ictimai rəyin təzyiqi altında dəyişməyə başladı. Hazırda "Tods "və Colosseum arasındakı vizual assosiasiya loqoları Kolizey biletlərində çap olunan İtalyan xeyriyyə təşkilatlarının reklamı ilə əvəz edilmişdir. [92]

Venesiya İtaliya şəhərləri arasında mədəni sponsorluqda liderdir.

Lüks mal istehsalçıları bundan öz markaları üçün vizual fayda əldə etməyə çalışırlar. Bəzi hallarda, özəl kapital, genişmiqyaslı bərpa işləri, memarlıq abidələrinin əldə edilməsi ilə yanaşı, yenidən qurulmuş binalarda şəxsi muzeylər və qalereyalar açır. Fransız kolleksiyaçısı Fransua Pino tərəfindən məşhur yapon memarı Tadao Andonun dizaynı əsasında həyata keçirilən iki muzey və sərgi sahəsinin açılışı buna parlaq nümunədir. 2005-ci ildə F. Pino Venesiya Palazzo Qrassisini (Palazzo Grassi) əldə edərək, bir ildən sonra burada muzey açmış və burada geniş sənət əsərləri kolleksiyası nümayiş etdirir. [92]

Keçmiş Punta della Dogana Dəniz Gömrüyünün binasının bərpası üzrə şəhər müsabiqəsində qalib gələn kolleksiyaçı 20-ci və 21-ci əsrləri əhatə edən daimi incəsənət sərgisi üçün yeni sahə yaratmışdı. Layihənin dəyəri 20 milyon avro təşkil edib. Qeyd edək ki, bərpa zamanı bütün işlər Venesiya hakimiyyəti ilə ciddi razılıq əsasında, binaların interyerini diqqətlə qorumaqla həyata keçirilib. Romada Trevi Fəvvarəsi Fendi moda evinin 2 milyon avrodan çox vəsaiti hesabına bərpa edilib. Gələcəkdə şirkət Romadakı digər memarlıq obyektlərinə sərmayə qoymağa davam edəcək. [157, s.149]

Artıq XX əsrin 80-ci illərinin sonlarında İtaliyada milli irs obyektlərinin saxlanması üçün dövlət vəsaitlərinin kəskin çatışmazlığı var idi. Buna görə də, 1990-cı illərin əvvəllərində lotereya satışından müəyyən bir məbləğin mədəniyyətə, xüsusən də mədəni sərvətlərin bərpasına və qorunub saxlanmasına yönəldilməsi qərara alındı. Maraqlıdır ki, İtaliyada ilk rəsmi lotereya 1732-ci ildə Kapitoli təpəsində keçirilib və uduşlar ödənildikdən sonra əldə edilən vəsait Romada Trevi fəvvarəsi kimi yeni memarlıq tikililərinin tikintisi üçün ictimai işlərin ödənilməsinə sərf edilib. [157, s.42]

İtaliyanın digər şəhərlərində (Turin, Genuya və Florensiya) lotereyalar uzun müddət sosial-mədəni xarakter daşıyırdı. Müasir lotereya 1998-2003-cü illərdə 300-dən çox obyekti, o cümlədən Palazzo Barberini, Villa Adriana, Akademiya Qalereyası, Uffizi Qalereyasını və digər bir çox obyekti maliyyələşdirərək mədəni irsə 1

milyard avrodan çox vəsait yönəltməyə imkan verdi. [101] Qeyd etmək lazımdır ki, benefisiarların genişlənməsi və 2007-ci ildən bəri ümumi iqtisadi vəziyyət, əvvəllər müəyyən edilmiş ayırma standartlarının əhəmiyyətli dərəcədə azalmasına səbəb olmuşdur.

Ölkə vətəndaşlarının bilavasitə iştirak edə biləcəyi milli irs abidələrinin dəstəklənməsi üçün daha bir resurs üzərində dayanaq. 1990-cı ildən İtaliyada kilsənin yeni maliyyələşdirmə sistemi fəaliyyət göstərir - birbaşa büdcə ayırmalarının əvəzinə vergi ödəyicilərinin özlərinin seçimi ilə - "8 promille" (otto promille) adlanan alternativ yönləndirilmiş maliyyələşdirmə mexanizmi ilə əvəz edilmişdir. Hazırda illik gəlir vergisi bəyannaməsi əsasında ödəyicilər şəxsi gəlir vergisinin 0,8% məbləğində bir hissəsini dini konfessiyaları dəstəkləmək və ya sosial və humanitar xarakterli layihələri maliyyələşdirmək üçün istifadə edə bilərlər. Vətəndaşların sosial layihələrə ayırdıqları vəsaiti birbaşa dövlət idarə edir. Ərizəçilər müsabiqə əsasında maliyyə alırlar. Məsələn, 2010-cu ildə mədəni irsin qorunmasına ümumi dəyəri 107 milyon avrodan çox olan 262 layihə dəstəklənib ki, bu da dövlət proqramlarına ayrılan vəsaitin 74,6 faizini təşkil edib. [35] Qeyd edək ki, İtaliyanın mədəni irsinin təxminən 70%-i, 95 min kilsədən 85 mini mədəniyyət obyekti kimi təsnif edilir, o cümlədən 1535 min monastır, 3 min monumental kompleks, 5,5 min kitabxana, 26 min arxiv, 700 kilsə kolleksiyası və s dini xarakter daşıyır. Ona görə də vətəndaşların gəlir vergisinin 0,8%-dən katolik kilsəsinə daxil olan vəsaitlər də hər il muzeylərin, arxivlərin və kitabxanaların saxlanmasına, mədəniyyət obyektlərinin mühafizəsinə və qorunmasına, bərpasına, infrastrukturunun saxlanmasına yönəldilir. [102, s.100]

Əmanət kassalarını, kredit təşkilatlarını və bankları İtaliyada mədəni irsin ənənəvi və əhəmiyyətli sponsorları adlandırmaq olar. Qanun əmanət kassalarından gəlirlərinin 50%-ni sosial ehtiyaclar üçün tutmağı tələb edir. Vəsaitlərin çox əhəmiyyətli hissəsi regional səviyyədə tarix və mədəniyyət abidələrinin saxlanmasına yönəldilib: 2013-cü ildə bu sahənin ümumi maliyyələşdirilməsi 83 milyon avro,

2014-cü ildə 81,3 milyon avro təşkil edib. [63]

Ötən əsrin 80-ci illərindən başlayaraq kommersiya banklarının fəaliyyətində ölkənin mühüm mədəniyyət abidələrinin qorunub saxlanmasına və populyarlaşdırılmasına yönəlmiş iri layihələr də meydana çıxmışdır. İtaliya əmanət kassalarına oxşar sistem, sosial və maliyyə təşkilatlarının regional şöbələri tərəfindən teatr qruplarının qastrolları, konsertlər, rəsm sərgiləri və s. maliyyələşdirən İspaniyada da mövcuddur. [73, s.104-108: 99, s.77] Ən böyük İspaniya bankı "La Caixa", öz xeyriyyə fondu vasitəsilə ölkədə "CaixaForum" mədəniyyət mərkəzlərinin (Barselona, Madrid, Tarragona, Sevilya və s.) açıldığı abidələrin yenidən qurulması üçün irimiqyaslı layihələr həyata keçirir.

Avropa ölkələri arasında Fransa mədəni dəstək sahəsində haqlı olaraq Avropanın lideri hesab olunur. Müasir mədəni proteksionist tədbirlər çox rasional və məhsuldardır. Fransa mədəni irsin tədqiqi və qorunmasını dövlətin məsuliyyəti sferasına ilk daxil edənlərdən biri olmuşdur. Artıq 1791-ci ildə ölkədə Abidələrin Mühafizəsi Komissiyası yaradılmışdı, bu komissiya bütün ölkə ərazisində şəbəkə yaratmaq strategiyasını hazırlamışdı, sonra 1830-cu ildə - Tarixi Abidələrin Mühafizəsi Baş Müfəttişliyi və 1837-ci ildə İncəsənət və Abidələr Komitəsi Yaradılmışdı. Bu komitənin məqsədlərindən biri Fransa ərazilərində əvvəllər mövcud olmuş və mövcudluğunu davam etdirən bütün abidələrin illüstrasiyalı təsvirinin nəşri olmuşdur.

Mədəni irsin qorunması layihələrini tənzimləyən Əsas Qanun 1913-cü ildə ortaya çıxdı. O vaxtdan bəri, rejimlərin dəyişməsinə baxmayaraq, hakimiyyətin mədəni sərvətlərlə bağlı siyasəti praktiki olaraq dəyişməz qalmış və dövlətin mədəniyyət sahəsinə müdaxiləsinin qanuniliyi ilə səciyyələnir. [99, s.19] Hazırda ölkədə həyata keçirilən mədəni irsin mühafizəsi 20-ci əsrdə irs sahəsində qəbul edilmiş çoxsaylı normativ aktları və müxtəlif qanunların mətnlərini özündə birləşdirən İrs Məcəlləsinə (Code du patrimoine) əsaslanır.

Fransada mülkiyyət formasından asılı olmayaraq tarixi abidələrin mühafizəsinin kifayət qədər ardıcıl sistemi inkişaf etmişdir. Bu sistemin

əsasını abidə sahiblərinin hər hansı hərəkətinə nəzarət etməklə yanaşı, həm də mədəni irs obyektlərinin mühafizəsinin əsas məsələlərində, xüsusən də abidələrin lazımi qaydada saxlanılması və təbliğinin stimullaşdırılmasında dövlət və mülkiyyətçinin əməkdaşlığı təşkil edir. Bundan əlavə, Fransa şəhərlərinin vahid tarixi və ya bədii ansamblların və interyerlərin, memarlıq mühitinin qorunması və genişləndirilməsi qanunla dəstəklənir. [110]

Eyni zamanda, yerli hakimiyyət orqanlarının məsuliyyət dairəsi daim genişlənir, 2004-cü ildən yerli tarixi irsi idarə etmək hüququ onların yurisdiksiyasına verilib. Fransanın şəhərlərində, o cümlədən Parisdə tarixi abidələrin mühafizəsi milli Şəhər Məcəlləsinə uyğun olaraq hazırlanmış yerli urbanizm planının (PLU) tərkib hissəsidir. Uzunmüddətli perspektivdə şəhərdə abadlıq və inkişaf planı da qəbul edilir ki, bu da müəyyən mədəni irs obyektlərinin bərpasında prioritetləri müəyyən etməyə və mövcud maliyyə resurslarından maksimum səmərəli istifadə etməyə imkan verir. [64, s.145]

Fransada mədəniyyətin vergi qanunvericiliyi vasitəsilə dolayı maliyyələşdirilməsi getdikcə daha çox inkişaf etdirilir və bu, özəl sektorun burada fəaliyyəti üçün əlverişli mühit yaradır. Əlavə maliyyə resurslarından birinə, o cümlədən mədəni irsin qorunub saxlanmasına yönəlmiş müasir Fransa xeyriyyəçilik sistemi üzərində daha ətraflı dayanaq. Fransa 20-ci əsrin sonlarına qədər himayədarlığın inkişafına və xeyriyyə fondlarının sayına görə Qərb ölkələrindən, xüsusən də anqlosakslardan geri qalırdı. 2003-cü il avqustun 1-də milli sərvətlərə aid edilən mədəni irs obyektlərinin mühafizəsi ilə məşğul olan müəssisələr üçün müstəsna vergi güzəştləri tətbiq edən "Mədəniyyət məqsədləri üçün birliklər və özəl fondlar haqqında" Qanunun qəbulundan sonra vəziyyət kökündən dəyişdi.

Fransada biznes və mədəniyyətin qarşılıqlı əlaqəsinin fərqli xüsusiyyəti korporativ fondların olmasıdır. Sponsorluq bilavasitə şirkətlər tərəfindən həyata keçirildiyi halda, korporativ xeyriyyəçilik əksər hallarda, şirkətlər tərəfindən məhz bu məqsədlə yaradılmış

korporativ fondlar vasitəsilə həyata keçirilir. Mədəni və ya sosial sahələrdə fəal şəkildə dəstək verən demək olar ki, hər bir Fransız şirkətinin öz Fondu vardır. 2003-cü il qanunu xüsusi olaraq, korporativ xeyriyyəçilik üçün əlverişli vergi şəraiti yaratdı. Qanunvericilik şirkətlərə sosial sahəyə, o cümlədən mədəniyyətə töhfənin 60%-ə qədərini birbaşa vergi məbləğindən (vergitutma bazasından deyil) - ümumilikdə şirkətin dövriyyəsinin 5%-ə qədərini çıxmağa imkan verir. Bu məbləğdən artıq olan haqlar da ardıcıl beş il ərzində vergidən çıxıla bilər. (Müqayisə üçün: əvvəllər ianələr yalnız dövriyyənin 3,25%-ə qədəri limitlə vergi tutulan gəlirdən çıxıla bilərdi. [80]) Vergi ayırmaları haqqında qanun qüvvəyə minəndən bəri, xeyriyyəçiliklə məşğul olan müəssisələrin sayı bir neçə dəfə artıb. (– 2003-cü ildə 2 mindən az, 2008-ci ildə 12 mindən çox). Fransada 2003-cü ildə qəbul olunan "Himayədarlığı haqqında" qanuna Mədəniyyət və Rabitə Nazirliyinin təşəbbüsü ilə mütəmadi olaraq yeniliklər əlavə olunması vacibdir. Mədəni irs sahəsində xüsusi mülkiyyətdə olan tarixi abidələrin bərpa işlərinin aparılması və əlçatanlığı artırmaq üçün müəyyən şərtlərlə müəssisə və fiziki şəxslərdən ianə toplanması mümkün olub. [65]

Tarix və mədəniyyət abidələrinin özəlləşdirilməsi irs obyektlərinin kapitallaşdırılmasının və onların bərpası və saxlanması üçün özəl investisiyaların cəlb edilməsinin ən geniş yayılmış üsullarından biridir. Fransada memarlıq, tarix və mədəniyyət abidələri kimi tanınan və dövlət mühafizəsi altında olan tikililərin təxminən 50%-i özəl mülkiyyətdədir. Digər Avropa ölkələrində olduğu kimi, mövcud sistemə əsasən, mülkiyyətçi mədəni irs obyektlərinin qorunması, istifadəsi və populyarlaşdırılması (ictimai istifadənin təmin edilməsi) öhdəliyini öz üzərinə götürür. Belə ki, abidələrin mühafizəsi ilə bağlı Fransa qanunvericiliyinə əsasən, mülkiyyətçi abidə kimi təsnif edilən obyektdə hər hansı dəyişikliyi (yenidənqurma və bərpa da daxil olmaqla) razılaşdırmağa borcludur ki, bunun üçün işə başlamazdan ən azı dörd ay əvvəl işin ətraflı layihəsi daxil müvafiq Ərizə ililə bölgənin

prefektinə təqdim edir. Obyektin mülkiyyətinin dəyişdirilməsi (satqı, bağışlama və s.) barədə mədəniyyət və rabitə nazirinə məlumat verilməlidir. Eyni zamanda, obyektin tarixi abidə olduğu və üzərinə məsuliyyətlər tətbiq ediləcəyi barədə yeni mülkiyyətçi əvvəlcədən məlumatlandırılmalıdır. Eyni şəkildə, mühafizə olunan obyektin bilavasitə yaxınlığında hər hansı tikinti də nazirliklə razılaşdırılmalıdır. Aİ ölkələrinin qanunvericiliyi sahibi tərəfindən üzərinə götürdüyü öhdəliklərin pozulmasına görə abidənin heç bir kompensasiya ödənilmədən müsadirə edilməsinə qədər ciddi sanksiyaları nəzərdə tutur. [69]

Böyük Britaniyada Milli Lotereyanın irsə dəstək institutlarından biri kimi istifadə edilməsindən əvvəl xeyriyyəçiliyi stimullaşdırmaq və özəl sektoru mədəniyyətə dəstək üçün cəlb etmək üzrə bir çox dövlət proqramları həyata keçirilib. Bu mühüm qurumun yaranması üçün ilkin şərtlər hələ 16-cı əsrdə yaranmışdı. Hələ 1569-cu ildə Böyük Britaniyada ilk milli lotereya təqdim edilmişdi, ondan əldə olunan gəlirlər Beş Liman (Cinque Ports) adlanan yerin - fırtınadan ciddi ziyan dəymiş sahilyanı şəhərlərin bərpasına yönəldilmişdi. Sonrakı əsrlərdə ictimai və kvazi-ictimai ehtiyacların maliyyələşdirilməsi üçün lotereyalar təşkil edilirdi.

Bununla birlikdə, korrupsiya və fırıldaqçılıq faktlarının artması, habelə lotereya iştirakçıları arasında oyun asılılığının inkişafı halları səbəbindən, 18-ci əsrin sonlarında onlardan istifadənin aşağı səmərəliliyi sübut edildi və sonuncu lotereya 1826-ci ildə keçirildi. Müasir milli lotereya, ilk dəfə 1994-cü il noyabrın 19-da keçirildi və operatorun effektiv reklam kampaniyası sayəsində Camelot özəl agentliyi (Camelot Group plc) əhali arasında böyük uğur qazandı və ilk üç il ərzində 5 milyard funt-sterlinq pul toplaya bildi. [86]

Bilet satışından əldə edilən bütün gəlirlər aşağıdakı kimi bölüşdürülüb: əldə edilən gəlirin təxminən yarısı lotereyanın uduş fondunu təşkil edib, gəlirin 5%-i lotereya biletlərinin distribütorlarına məxsus olub, digər 5%-i isə "Camelot" lotereyasının operatorunda

saxlanılıb, 4,5%-i lotereyanın təşkili xərclərinin ödənilməsinə, 0,5%-i isə mənfəət kimi, 12%-i dövlət xəzinəsinə daxil olub, qalan vəsait (təqribən 28%) isə "xoşməramlı niyyətlərə" yönəldilib. "Xoş niyyət" dedikdə incəsənət, irs, xeyriyyəçilik və könüllülük, idman, yeni minillik sahəsində layihələr nəzərdə tutulurdu. [46]

Tarixi binaların bərpası və təmirinin ənənəvi üsullarını öyrətmək üçün əlavə təşəbbüslərin həyata keçirilməsinin, habelə yerli əhali arasında irsin qorunmasının əhəmiyyəti haqqında məlumatlılığın artırılması üçün proqramların həyata keçirilməsinin vacibliyini də qeyd etmək lazımdır. Əvvəlcə təlim proqramı layihə rəhbərləri tərəfindən nəzərdən keçirilməsə də, yerli tikinti firmalarının ixtisaslarını müəyyən etmək üçün araşdırma apardıqdan sonra məlum oldu ki, heç bir podratçı şəhər landşaftının bərpası və bərpası tələblərinə cavab verə bilməyib. Bu baxımdan, bu layihə böyük əhəmiyyət kəsb edir. [46]

İştiraklı büdcələşdirmə (participatory budgeting) institutu büdcə vəsaitlərinin bir hissəsinin xərclənməsi istiqamətləri üzrə vətəndaşların rəyini nəzərə alaraq onların büdcə təşəbbüslərinə cəlb edilməsi yolu ilə səlahiyyətlərin demokratik şəkildə vətəndaş cəmiyyəti institutlarının xeyrinə yenidən bölüşdürülməsinə misaldır. Bu institut, bələdiyyə idarəetmə təcrübəsində ən uğurla istifadə olunur. Yaxşı idarəçilik bələdiyyə səviyyəsindən başlayır və yerli hökumətin qərarlarının qəbulunda vətəndaşların iştirakı mühüm elementdir.

İştiraklı büdcələşdirmə ilk dəfə 1980-ci illərdə Latın Amerikasında tətbiq edilmişdir. Bu təcrübənin vətəni o dövrdə diktaturadan demokratiyaya keçidin dərin transformasiya proseslərindən keçən Braziliya idi. 1988-ci ildə ölkədə yeni konstitusiya qəbul edildi və bu konstitusiya vətəndaş təşəbbüsünün fəallaşması üçün daha geniş azadlıqlar təmin etdi, eyni zamanda siyasi sistem hələ də korrupsiya və klientalizm tüğyan edirdi.[157, s.224]

Mərkəzi hökumətə müxalif olan Rio Qrande-du-Sul əyalətinin paytaxtı Porto Aleqre şəhərində 1988-ci ildə Fəhlə Partiyası hakimiyyətə gəldi, onun rəhbərləri iştiraklı büdcənin əsas prinsiplərini

ortaya qoydular. Porto Aleqre nümunəsi ekspertlər tərəfindən institusional yenilik kimi tanınır.

İştiraklı büdcələşdirmənin əsas ideyası ondan ibarət idi ki, siyasi proseslərdə və seçki kampaniyalarında iştirak etməyən sadə vətəndaşlara büdcə vəsaitlərini bölüşdürmək imkanı verilirdi. Prosedur üç mərhələdən keçməkdən ibarət idi: aşağı səviyyədə qonşuların (xalq yığıncaqlarının) yığıncaqları; rayonların iştirakçı (təşəbbüs) şuralarına nümayəndələrin irəli sürülməsi; sonra isə şəhərin əsas təşəbbüs şurasına nümayəndə heyətinin göndərilməsi. Xalq yığıncaqlarının keçirilməsində məqsəd bələdiyyə büdcə vəsaitlərinin (şəhər infrastrukturu, səhiyyə, təhsil, mədəniyyət, idman və s.) xərclənməsinin əsas prioritetlərini müzakirə etmək və büdcə dinləmələrində iştirak etmək üçün yuxarı səviyyəli təşəbbüs şuralarına namizədlərin irəli sürülməsi olub. İctimai müzakirələrdə iştirak etmək istəyən bütün sakinlərə bu fürsət verilib.

Üstəlik, vətəndaşların özünütəşkil proseslərinin aktivləşdirilməsində həlledici rol oynayan xalq məclisləri idi. Nümayəndələr yalnız bir il mandat alırdılar və nümayəndə tərəfindən ciddi nəzarət edilirdi. Şəhərin əsas təşəbbüs şurası həftədə bir dəfə 2 saat toplanırdı. Bələdiyyə büdcəsinin qəbulu və ya rədd edilməsinin bələdiyyə məclisinin səlahiyyətində olmasına baxmayaraq, bələdiyyə büdcəsinin 15%-nin xərclənməsinin əsas istiqamətləri şəhərin təşəbbüs şurası tərəfindən müəyyən edilirdi. Büdcə vəsaitləri (göstərilən 15% daxilində) aşağıdakı meyarlar nəzərə alınmaqla şəhərin rayonları üzrə bölüşdürülürdü: 1) büdcə vəsaitlərinin istifadəsi üzrə əsas istiqamətlərin siyahısı və onların çoxluq prinsipi üzrə sıralanması: "bir şəxs - bir səs"; 2) ərazidə yaşayan əhalinin sayı; 3) mövcud infrastrukturun və ya xidmətlərin keyfiyyəti. Ekspertlər etiraf edirlər ki, sosial ədalət prinsipinin tətbiqi bu eksperimentin ən mühüm nailiyyətlərindən biri olub. [136]

Porto Aleqredə iştirakçı büdcənin tətbiqindən sonrakı ilk illərdə 1000-dən az adam iştirak edirdisə, 1992-ci ildə iştirakçıların sayı demək

olar ki, 8000-ə çatırdı. 2002-ci ildə iştirakçıların sayı 28000-i keçmişdi.

Hazırda bu qurumun müxtəlif variasiyalarından Latın Amerikası, Qərbi və Şərqi Avropa, ABŞ və son vaxtlar Çin də daxil olmaqla dünyanın 20-dən çox ölkəsində istifadə olunur.

İştiraklı büdcələşdirmənin mövcudluğunun demək olar ki, 30 ildən artıq tarixində bu institusional yenilik dünyada özünün formalaşması və inkişafının beş əsas mərhələsindən keçib. Birinci mərhələ 1989-1997-ci illər arasında baş verdi və bu, Braziliyanın Porto Aleqre və Uruqvayın Montevideo şəhərlərində büdcə prosesinin transformasiyası ilə bağlı idi. Braziliyada o dövrdə 30 bələdiyyədə iştirakla (təşəbbüslə) büdcələşdirmə təcrübəsi tətbiq edilməyə başlandı. İkinci mərhələ - 1997-ci ildən 2000-ci ilə qədər - təcrübədə iştirak edən bələdiyyələrin sayı 140-a çatması ilə, Braziliyada iştirakla (təşəbbüslə) büdcələşdirmə təcrübəsinin geniş yayılması daha əlamətdar oldu. Üçüncü mərhələ, 2000-ci ildən sonra və bu institutun xarici ölkələrdə yayılması və onun müxtəlif variasiyalarının meydana çıxması ilə başladı. Dördüncü mərhələ, 2007/2008-ci illərdə Braziliya, Kolumbiya, Argentina, İspaniya, Almaniya, Çili, Portuqaliya, Böyük Britaniya, ABŞ və digər ölkələrdə milli və beynəlxalq iştirakçı büdcə strukturlarının formalaşması ilə başladı. Beşinci mərhələ, iştirakçı büdcənin daha geniş vətəndaş iştirakçılığı sisteminə və vətəndaş təşəbbüslərinin aktivləşdirilməsi proseslərinə inteqrasiyası ilə xarakterizə olunur. [43, s.33]

2013-cü ilə qədər dünyada idarəetmə praktikasında iştiraklı büdcədən istifadə edən 1269-dan 2778-ə qədər (yuxarıdan aşağıya: şəhər səviyyəsindən yerli idarəetmənin ən aşağı səviyyəsinə qədər): Latın Amerikasında - 626-dan 1138-ə qədər; Avropada - 474-dən 1317-yə qədər; Asiyada - 58-dən 109-a qədər; Afrikada - 110-dan 2113-ə qədər bələdiyyə var idi.

Ekspertlərin fikrincə, iştirakla (təşəbbüslə) büdcələşdirmənin uğurlu təcrübəsi dörd əsas amilin qarşılıqlı təsirindən: yerli hökumətin yüksək vəzifəli şəxsi tərəfindən bu təşəbbüsə fəal dəstək; davam edən

ictimai dinləmələrdə öz mövqelərini müdafiə etməyə hazır və qadir olan vətəndaş cəmiyyəti; qanunvericilərin iştirakla (təşəbbüslə) büdcələşdirməyə hücumlarını dəf edən əlverişli siyasi mühit; vətəndaşın razılığını almış layihələri dəstəkləmək üçün lazım olan maliyyə resurslarından asılıdır. [26, s.23-24]

Azərbaycanda iştirakla (təşəbbüslə) büdcələşdirmə təcrübəsi yayılmayıb, faktiki olaraq nə büdcənin qəbul olunmasında, nə icrasında vətəndaş cəmiyyətinin iştirakı təmin olunmayıb. Maliyyə Nazirliyinin özü tərəfindən hazırlanan "Vətəndaşın Büdcə Bələdçisi"ndə sadəcə bu sahədə mövcud olan bəzi məqamlar şərh edilir. Bu təcrübə keçmiş sovet respublikalarnda da zəif yayılmışdır. Rusiya Federasiyasında Yerli Təşəbbüslərə Dəstək Proqramı Dünya Bankının dəstəyi ilə həyata keçirilməyə başlayıb və hazırda yeddi regionda təmsil olunur. Proqram 2007-ci ildə Stavropol diyarında başlayıb, sonra 2009-cu ildən Kirov, 2012-ci ildə Tver, 2013-cü ildə Nijni Novqorod vilayətlərində və Xabarovsk diyarında, 2014-cü ildə - Başqırdıstan Respublikasında, 2015-ci ildə - Saxa Yakutiya Respublikasında həyata keçirilməyə başlanıb. [26, s.29]

Hələ ki, iştirakla (təşəbbüslə) büdcələşdirmənin mədəni irsin qorunması ilə bağlı layihələrlə çox az əlaqəsi var. Lakin Nyu-Yorkda 2012-2016-cı illərdə iştirakla büdcə vasitəsilə parklar, kitabxanalar və abidələr kimi müxtəlif mədəniyyət müəssisələrini qorumaq və yaxud yaxşılaşdırmaq mümkün olmuşdur.

Etiraf etmək lazımdır ki, ölkəmizdə mədəniyyətin bir sistem kimi maliyyələşdirilməsi hələ də formalaşmayıb. Müstəqillik illərində Azərbaycanda proqram-məqsədli və layihəli maliyyələşdirməyə, smeta maliyyələşdirmədən imtinaya və mədəniyyət təşkilatlarının iqtisadi müstəqilliyinin genişləndirilməsinə, mədəniyyət təşkilatlarının fəaliyyətinin genişləndirilməsini nəzərdə tutan çoxkanallı sistemin tətbiqinə, mədəni fəaliyyətlərə dəstək mənbələri və vətəndaş cəmiyyəti institutlarının bu prosesdə iştirakı, nəhayət, sadəcə olaraq mədəniyyətə ayrılan vəsaitin artırılması zərurətinə çağıran müxtəlif təkliflər irəli

sürülüb. Bütün bunlar ya əməli inkişaf almayıb ya da ən yaxşı halda, mədəniyyət təşkilatlarının vəziyyətini yaxşılaşdıran amilə çevrilməyib. Bu, demək olar ki, son 30 ildə qəbul edilmiş, dolayısı ilə və bilavasitə mədəniyyətin maliyyələşdirilməsi qayda və prosedurlarını müəyyən edən əsas və xüsusi qanunlar da müsbət dəyişikliklərə səbəb olmayıb.

Başqa sözlə, mədəniyyətin maliyyələşdirilməsində bilavasitə sistemli transformasiyaların bütün illərində mahiyyət etibarı ilə heç nə dəyişməyib. Çox pislənən "qalıq prinsipi" hələ də hökm sürür: mədəniyyət sərvətlərinin istehlakçıları, mədəniyyət sərvətlərinin yaradıcıları, mədəniyyət işçiləri və təsisçiləri dövlət və ya bələdiyyələr olan mədəniyyət təşkilatları üçün iqtisadi təminat yoxdur; regionların mədəni nemətlərlə təminatında bərabərsizlik azalmır, hətta artır. Azərbaycan vətəndaşları, əvvəlki kimi, mədəniyyətə dövlət xərclərinə dair qərarların qəbulunda birbaşa iştirakdan faktiki olaraq kənarlaşdırılıb. Müstəqillik illərində təsirli bir qanunun və dövlətin açıq şəkildə ifadə edilmiş mədəniyyət siyasətinin olmadığı bir şəraitdə, mədəniyyətin mövcudluğu məhdud şəkildə ayrılan büdcə vəsaitlərinin ümidinə qalıb.

Eyni zamanda, ümumi qanunvericiliyin inkişafı, digər qanunvericilik aktlarının ortaya çıxması, o cümlədən dövlət büdcəsinin işlənib hazırlanması və təsdiqi, müxtəlif idarə proqramlarının həyata keçirilməsi və çox vaxt sadiq olmayan normativ hüquqi aktların qəbulu mədəniyyət və ya mədəni fəaliyyətin xüsusiyyətlərini nəzərə almır, mədəniyyətin hərtərəfli maliyyələşdirilməsi sisteminin formalaşmasını təmin edən, ictimai həyatın bu ən vacib sahəsinin uğurlu fəaliyyəti üçün şərait yaradan səmərəli institusional mühitin yaradılmasını tələb edir. Bütün bunlar bilavasitə mədəni irsin qorunub saxlanmasının maliyyələşdirilməsinə, mədəniyyət abidələrinin aşkar edilməsi, konservasiyası, bərpası və uyğunlaşdırılması üçün zəruri maliyyə və maddi resursları ilə təmin edilməsinə də aiddir.

Mədəniyyət sahəsində istehlakçılara verilən təminatlar - dövlət və bələdiyyə qurumları tərəfindən yaradılan mədəniyyət məhsullarının

bütün ölkə vətəndaşları üçün əlçatan olmasına Azərbaycan Konstitusiyasında verilən təminatlardır. Bu cür təminatlar "seqment muxtariyyəti" konsosiativ prinsipinə uyğun olaraq, Azərbaycanın hər bir regionunda bu güzəştlərin baza ilində mövcudluğu və sonrakı illərdə onun artırılması imkanları səviyyəsində müəyyən edilməlidir. Həmin öhdəlikləri qiymətləndirərkən pullu xidmətlərin qiymətlərinin baza ilində üstünlük təşkil edən orta səviyyəsindən və bu qiymət səviyyəsini saxlamaq üçün zəruri olan büdcə subsidiyalarının hər bir region və hər bir mədəniyyət fəaliyyəti növü üzrə mövcud həcmlərindən istifadə edilməlidir. [157, s.72] Bu, ilk növbədə, dəyərli mallar olmaqla, dövlət tərəfindən subsidiyalaşdırılan bütün mədəni məhsullara və mədəni irsə də aiddir.

Mədəniyyət layihələrinin müsabiqə ilə maliyyələşdirilməsi dövlətin mədəniyyət fəaliyyəti sahəsində ayrı-ayrı layihə və proqramların həyata keçirilməsi üçün xüsusi büdcə vəsaitlərinin ayrılması zərurəti ilə qeyri-hökumət mədəniyyət təşkilatlarının dəstəyi ilə bağlı bir öhdəliyidir. Bununla əlaqədar, innovativ maliyyələşdirmə modeli bu standarta uyğun olaraq müəyyən edilmiş büdcə vəsaitlərinin dövlət və bələdiyyə mədəniyyət müəssisələrinin birbaşa büdcədən maliyyələşdirilməsinə (büdcə dotasiyalarına) və müxtəlif mülkiyyət formalı təşkilatlar tərəfindən həyata keçirilən layihələrin müsabiqə əsasında maliyyələşdirilməsini nəzərdə tutmalıdır.

Belə ki, bütün maraqlı hüquqi şəxslərin, o cümlədən dövlət və bələdiyyə qurumlarının, qeyri-hökumət mədəniyyət təşkilatlarının, mədəniyyət fəaliyyəti ilə məşğul olan digər təşkilatların iştirak edə biləcəyi mədəniyyət layihələrinin müsabiqə ilə maliyyələşdirilməsinə ayrılan büdcə vəsaitlərinin məbləği qiymətləndirilərkən, əhalinin mədəniyyət sərvətlərindən əldə edilməsinə təminatların və dövlətin mədəniyyət işçilərinə əmək haqqının ödənilməsi üzrə öhdəliklərinin həyata keçirilməsi üçün zəruri olan subsidiyaların ümumi həcminin 30 faizindən 50 faizinə qədər məbləğdə bu xərclərin xüsusi çəkisini müəyyən edən qayda tətbiq oluna bilər.

Burada, diqqətəlayiq hal odur ki, qismən fərdi büdcə təyinatları institutu və "iştirakla (təşəbbüslə) büdcələşdirmə" liberal doktrina ilə təmsilçi demokratiya arasındakı xroniki ziddiyyəti yumşaltmağa imkan verir. Üstəlik, "iştirakla (təşəbbüslə) büdcələşdirmə"dən fərqli olaraq, vətəndaşların fərdi büdcə təyinatları institutu əsasında seçimi qətidir və nümayəndəlik və icra hakimiyyəti orqanlarının qərarlarından asılı deyildir. Prosessual olaraq, fərdi büdcə təyinatları institutu büdcə vəsaitlərinin kiçik bir hissəsini idarə etmək imkanını təmin edir və bununla da, vətəndaşların hansı mədəni fəaliyyət növlərinin onlar üçün daha böyük əhəmiyyət kəsb etdiyinə müstəqil qərar vermək hüququnu reallaşdırır.

Vəqf (endaument) fondları institutunun tətbiqi mədəni fəaliyyətlərə müntəzəm dəstək mənbəyi yarada bilər. Eyni zamanda, "israf etmədən xərclə, topla" strategiyasından istifadə olunarsa, bu qurumun effektivliyi və maliyyə dəstəyinin miqyası xeyli artacaq. Vəqf fondlarının müəyyən edilmiş vergilərlə və fərdi büdcə təyinatları institutunun birləşməsinə əsaslanan bu strategiyanın həyata keçirilməsi, eyni zamanda, mədəniyyət sektorunun inkişafı üçün büdcənin yaradılması, onun müxtəlif səviyyələrdə hakimiyyət orqanlarının qərarlarından asılılığının azaldılması istiqamətində mühüm addım olacaqdır. Bu, vəqf fondunu ildən-ilə artıran fərdi büdcə təyinatlarının müntəzəmliyi ilə bağlıdır.

Eyni zamanda, "iştirak əsasında büdcələşdirmə" proseduru əsasən, yerli səviyyədə tətbiq edilir və ianə fondlarının fəal yaradılması ilə xarakterizə olunur, təsdiqində isə yalnız "seçilmiş insanlar" iştirak edən müvafiq büdcənin müvafiq xərcləri barədə əhalinin rəyinin öyrənilməsini nəzərdə tutur. [107, s.75] Lakin maliyyə imkanları olmadığından bu model hələ də geniş yayılmayıb. [86, s.243-244] Onun real inkişafı vəqf fondlarının doldurulması üçün əlavə mənbələr tələb edir.

Təklif etdiyimiz konsosiativ model - müxtəlif mədəni fəaliyyət növləri, o cümlədən mədəni irsin qorunması üçün regional və mərkəzi

səviyyələrdə müstəqil qeyri-kommersiya təşkilatları şəklində sektoral ianə fondlarının formalaşdırılmasını nəzərdə tutur. Onların kifayət qədər maliyyə resursları ilə təmin edilməsi üçün ənənəvi vəqf formalaşdırılması mənbələri ilə yanaşı, onun fərdi büdcə təyinatlarından və qeyd olunan vergilərdən daxil olan vəsaitlər hesabına doldurulması ilə mümkündür.

Bu halda, illik haqlar mədəni fəaliyyətlərin dəstəklənməsinə yönəldilmiş vəqf kapitalından artan investisiya gəlirini təmin etməklə, müvafiq ianə fondlarında toplanacaq və qorunacaq. Xüsusi vurğulanmalıdır ki, dövlət öhdəliklərinin yerinə yetirilməsini təmin edən büdcə standartlarına uyğun ayrılan subsidiyalardan fərqli olaraq, ianə fondlarının gəlirləri inkişaf büdcəsi formasında nəzərə alınmalı və müvafiq qrantlar şəklində müsabiqə əsasında bölüşdürülməlidir.

Bu zaman, dövlət və bələdiyyə mədəniyyət müəssisələri çoxkanallı maliyyələşdirmə sisteminin bütün növ mənbələrindən: dövlət tapşırığının həyata keçirilməsi üçün büdcə subsidiyaları almaq; müvafiq layihə və proqramların maliyyələşdirilməsi üçün Mədəniyyət Nazirliyi və regional mədəniyyət orqanları tərəfindən təşkil olunan açıq müsabiqələrdən; müvafiq ianə fondlarından qrantlar almaq üçün müsabiqələrdən; qanunla müəyyən edilmiş bütün növ vergi güzəştlərindən istifadə edə bilərlər.

Himayə olunan sərvətlər nəzəriyyəsinin "konsosiativ demokratiya" prinsipləri ilə tamamlanması, bu fənlərarası nəzəriyyənin tətbiqi potensialını əhəmiyyətli dərəcədə artırmağa imkan verib. Bu, bütün mədəni fəaliyyət növlərinə və xüsusən də mədəni irsin qorunmasına aiddir. Məhz burada, himayə olunan sərvətlərr nəzəriyyəsi əsasında hazırlanmış yeni ictimai dəstək üsulları, habelə mədəniyyət sahəsində əsas dörd əsas institutun müxtəlif kombinasiyada birləşməsindən yaradılmış ümumi maliyyələşdirmə modeli tətbiq oluna bilər:

- mədəniyyət sərvətlərinin istehlakçıları, mədəniyyət işçiləri və mədəniyyət təşkilatları qarşısında dövlət öhdəliklərinin yerinə yetirilməsini təmin edən, bütün səviyyələrin büdcələrində mədəniyyətə

ayrılan xərclərin minimum payını xarakterizə edən diferensiallaşdırılmış büdcə normativləri institutu;

- büdcə vəsaitlərinin bölüşdürülməsində, dövlətin vergi daxilolmalarının cüzi hissəsinin xərclənməsi istiqamətlərinin seçilməsində vətəndaşların iştirakını təmin edən fərdi büdcə təyinatları institutu;
- siyahısı mədəniyyət haqqında əsas qanunvericilik və ya digər normativ hüquqi aktlarla müəyyən edilməli olan konkret vergi və ödəniş növlərindən əldə olunan gəlirin birbaşa mədəniyyət sahəsinə köçürülməsini nəzərdə tutan markalı (nişanlı) vergilər institutu;
- müsabiqəli qrant maliyyələşdirilməsi formasında mədəniyyət fəaliyyətinin dəstəklənməsinə yönəldilmiş ianə fondlarından artan cari gəlir əldə etmək üçün markalı (nişanlı) vergilərdən və fərdi büdcə təyinatlarından daxilolmaların toplanmasına imkan verən vəqf fondları institutu.

Nəhayət, onu da vurğulayaq ki, əsasən mədəniyyətə ictimai dəstək institutlarını səciyyələndirən, təklif olunan mədəni fəaliyyətin iqtisadi tənzimlənməsi sistemi bütün növ mədəni sərvətlər üçün nümunə sayıla bilər və nədəni irsin mühafizəsinin xüsusi şərtlərinə müəyyən uyğunlaşdırma ilə o, müvafiq institusional islahatlar üçün də əsas ola bilər.

## 5.4. Mədəni irsin qorunması və bərpasının vergilər vasisilə stimullaşdırılması

Mədəni irs sahəsində həyata keçirilən siyasətin əsas məqsədlərindən biri də özəl investisiyalar və tarixi daşınmaz əmlakın bərpası iştirakçıları üçün obyektlərin cəlbediciliyinin formalaşdırılmasıdır. Çətin iqtisadi vəziyyət Avropa ölkələrinin hökumətlərini memarlıq abidələrinin saxlanması üçün büdcənin yükünü yüngülləşdirmək üzrə müxtəlif tədbirlər görməyə sövq edir. Məsələn, İspaniyada dövlət qurumları yaxın gələcəkdə yerləşdikləri

yüzlərlə memarlıq abidəsi binalarının satılması və ya icarəyə verilməsini planlaşdırılır. Ekspert hesablamalarına görə, dövlətin balansında olan, lakin tam tələbat olmayan on minlərlə belə binalar var. [99, s.77]

Proqramı idarə edən federal agentlik olan Milli Park Xidmətinin məlumatına görə, Tarixi Yerlərin Milli Reyestrində hər il siyahıya alınmaq üçün müəyyən edilmiş minə yaxın mülkü olan təxminən 1,59 milyon tarixi əhəmiyyətə malik bina var. Bununla belə, bu tarixi əmlakın yalnız 20%-i gəlir gətirən əmlak kimi təsnif edilir. Məhz belə binalarla bağlı Federal Tarixi Əmlakın Bərpa Proqramı fəaliyyət göstərir. [19, s.2] Proqramın tarixi ərzində 40000-dən çox tarixi obyektin bərpası üçün vergi endirimləri və 117 milyard dollar özəl investisiya hesabına təxminən 73 milyard dollar cəlb edilib. Proqramda hər il ölkə üzrə 1000-ə yaxın layihə iştirak edir və tarixi binaların bərpası və mühafizəsi üçün ildə təxminən 4 milyard dollar toplayır.

Daşınmaz tarix və mədəniyyət abidələrinin mühafizəsi və inkişafının idarə edilməsinin səmərəliliyinin artırılması yollarını müəyyən edən amillər sırasında dövlət tərəfindən maliyyə cəlb etmək üçün dövlət stimulları vasitəsilə tarixi daşınmaz əmlakın bərpası üçün investisiya layihələrinin cəlbediciliyinin artırılması qeyd edilməlidir. Bu cür layihələrə dövlət dəstəyinin beynəlxalq təcrübəsində daha çox istifadə olunan alət - güzəştli vergitutmadır. Üstəlik, onun həyata keçirilməsi müxtəlif yollarla: vergi güzəştlərinin verilməsi; daşınmaz əmlak vergisindən azad edilməsi və daşınmaz əmlak vergisinin "dondurulması" sistemi; təmir-bərpa işləri ilə əlaqədar irs obyektinin dəyərinin artmasına baxmayaraq dəyişməz verginin müəyyən edilməsidir.

ABŞ-da mədəniyyət və incəsənətin dəstəklənməsi ilə bağlı proqramlar xüsusi maraq doğurur. XX əsrin ortalarında ABŞ-da milli trast tərəfindən mədəni və tarixi obyektlərin müasir istifadəsini nəzərdə

tutan Baş küçə “Main Street” proqramı hazırlanmışdı. Burada, binaların təkrar istifadəsi və müasir reallıqlara uyğunlaşdırılması yolu ilə şəhərlərin iqtisadi yaşam qabiliyyətinin bərpası nəzərdə tutulurdu. Belə obyektlərin sahibləri üçün mülkiyyətində olan binaları sökməyə deyil, köhnə tikililəri bərpa və inkişaf etdirməyə sövq etmək üçün hərtərəfli vergi güzəştləri sistemi təklif edilirdi. [5, s.81]

Həmçinin, ABŞ-da Federal Tarixi Reabilitasiya Vergi Krediti proqramı mövcuddur. Proqram 1970-ci illərin ortalarında Merilend ştatından senator Glenn Beal tərəfindən irəli sürülüb və 1976-cı il Vergi İslahatları Aktı ilə qanuniləşdirilib. Bu proqram, kommersiya məqsədləri üçün istifadə edilməsi və gəlir əldə etməsi şərti ilə, fərdi sahiblər üçün gəlir vergisi kreditləri və tarixi mülklərin korporativ sahibləri üçün gəlir vergisi kreditləri təqdim edir. [157, s.64]

Proqramda iki növ imtiyaz var: 20% vergi güzəştləri - Tarixi Yerlərin Milli Reyestrində qeyd olunan tarixi binalarda aparılan təmir-bərpa işlərinin dəyərinin 20% vergi ödənişləri məbləğindən çıxma və 10% vergi güzəştləri - 1936-cı ilə qədər tikilmiş, lakin tarixi yer statusuna malik olmayan binalara münasibətdə vergi ödənişlərinin məbləğindən, təmir-bərpa işlərinin dəyərinin 10%-i məbləğində tutulma. Mövcud sistem 1986-cı ildən tətbiq edilir, ilkin vergi endirimi təmir və bərpa işlərinin dəyərinin 25%-ni təşkil edir və Prezident Ronald Reyqanın dövründə (1986-cı il Vergi İslahatı Aktı) 20%-ə endirilib. [157, s.65]

2014-cü ildə proqram çərçivəsində vergi güzəştləri hesabına 1156 mədəni və tarixi obyektin bərpasına 5,98 milyard dollar ayırıb. Tamamlanmış layihələr üzrə 77 762 iş yeri açılmışdır (və ya Proqramın başlanmasından indiyədək 2,4 milyon iş yeri). Mütəxəssislərin fikrincə, tarixi obyektlərin bərpasına özəl sərmayə, orta hesabla, vergi kreditlərinin təqdim edilməsi xərclərinin beş qatını təşkil edir: başqa sözlə, 1 dollar vergi kreditinə 5 dollar özəl sərmayəyə düşür.

Bu proqramın ABŞ-ın müxtəlif ştatlarında müəyyən xüsusiyyətlərə malik analoqu var. Üstəlik, bir qayda olaraq, onlar Federal proqramla birlikdə fəaliyyət göstərirlər və "birləşmiş dövlət vergi endirimləri" ("Piggibacke" State Credits) kimi təsnif edilirlər. Milli Park Xidmətinin məlumatına görə, 2013-cü ildə tamamlanmış bərpa layihələrinin təxminən yarısı birləşdirilmiş vergi kreditləri hesabına həyata keçirilib. Virciniya, Luiziana, Missuri və Nyu-York 2014-cü ildə birləşmiş proqramlar çərçivəsində tarixi daşınmaz əmlakın bərpasında ən fəal ştatlar kimi tanınıb. [19, s.1]

Məsələn, Montana ştatında federal proqramı tamamlayan və əlavə vergi güzəştləri təmin edən bir proqram var. Tarixi Əmlakın Qorunması Kreditinə əsasən, Tarixi Yerlərin Milli Reyestrində sadalanan və kommersiya məqsədləri üçün istifadə edilən tarixi mülklərin fərdi sahibləri federal gəlir vergisi bəyannaməsində tələb olunan vergi kreditinin 25%-i həcmində dövlət gəlir vergisi endirimi alırlar. [2, s.2] Montana Gəlir Departamentinin məlumatına görə, 2012-ci ildə 28 fərdi vergi ödəyicisi bu proqram çərçivəsində 232.000 ABŞ dolları məbləğində vergi güzəşti almışdır ki, bu da hər bir vergi ödəyicisi üçün orta hesabla 8.300 dollardır. Eyni zamanda, bu vergi ödəyicilərinin illik gəlirləri 100.000 ABŞ dolları həddini əhəmiyyətli dərəcədə üstələyir və alınan vergi güzəştlərinin məbləği ümumi illik gəlirin 1%-dən 12%-ə qədərdir. [38, s.12]

Montana ştatında 1997-ci ildən bəri Vergi Krediti Proqramı fəaliyyət göstərir. Proqrama fiziki şəxslərdən və korporasiyalardan xeyriyyə fondlarına xeyriyyə ianələrini cəlb etmək üçün başlanmışdır. Qanuni olaraq xeyriyyə ianələrini qəbul etməyə icazə verilən xeyriyyə fondlarının siyahısı dövlət vergi bəyannaməsində qeyd olunur. Hər bir vergi ödəyicisinin xeyriyyə ianələrini bu fondlardan birinə köçürmək və vergi ödəməsi məbləğindən vergi endirimi almaq hüququ vardır.

Məsələn, Yellomstone İncəsənət Muzeyinə edilən xeyriyyə ianələrinin bir hissəsi gəlir vergisi və ya mənfəət vergisi üçün vergi endirimi kimi təsnif edilir. Bununla belə, bu çıxma yalnız ianə məbləğinin 40%-i həcmində mümkündür, halbuki ianələrin məbləği fərdi vergi bəyannaməsində 10.000 ABŞ dolları (birgə bəyannamə təqdim edildikdə 20.000 ABŞ dolları) hüdudlarında ola bilər, lakin ştat büdcəsinə vergi ödənişinin faktiki məbləğindən çox ola bilməz. [38, s.12]

Bazar münasibətlərinin inkişafı mədəniyyət sərvətlərinin cəmiyyətə uyğun olan həcmdə və keyfiyyətdə istehsalının stimullaşdırılmasına, habelə mədəniyyət sahəsinə əlavə maliyyə resurslarının cəlb edilməsinə geniş imkanlar yaradır. Bu məqsədlə vətəndaş cəmiyyəti institutları innovativ maliyyələşdirmə sisteminin mühüm elementlərinə çevrilməlidir, o cümlədən dövlət və bələdiyyə qurumlarına, fiziki və hüquqi şəxslərə, habelə öz vəsaitlərini onların inkişafına yatıran mədəni fəaliyyət iştirakçılarına vergi güzəştləri verilməlidir.

Söhbət, xüsusilə iqtisadi subyektlərin və əhalinin mədəniyyət, elm və təhsil xeyrinə xeyriyyəçilik fəaliyyətinin stimullaşdırılmasına yönəlmiş vergi proteksionizmi alətlərinin geniş spektrindən, "iştirakla (təşəbbüslə) büdcələşdirmə" institutundan, habelə büdcə vəsaitlərinin bölüşdürülməsində vətəndaşların bilavasitə iştirakının təmin olunmasndan gedir. Vergi proteksionizminin əsas istiqaməti - mədəni sərvətlərin yaradılması, saxlanması, bölüşdürülməsi və istehlakını stimullaşdıran fiziki şəxslərə - mədəni sərvətlərin istehlakçılarına və bədii sərvətlərin yaradılması ilə məşğul olan *frilanserlərə* gəlir vergisi güzəştlərinin (vergi tutulan gəlirin azaldılması); dövlət və qeyri-dövlət mədəniyyət təşkilatlarının mənfəət vergisi üzrə (sıfır dərəcə formasında); mədəni fəaliyyətlə və ya mədəniyyət sahəsində xeyriyyəçilik fəaliyyəti ilə məşğul olan təşkilatların mənfəət vergisi üzrə

güzəştlərin (vergi tutulan mənfəətin azaldılması şəklində) verilməsindən ibarətdir. [82, s.95-137: 57, s.92-99: 72, s.127-128]

Mədəni irs sahəsində iqtisadi həvəsləndirmə proqramları çox müxtəlifdir və müxtəlif səviyyəli subsidiyaları, qrantları, habelə vergi güzəştlərini əhatə edir. Subsidiya həm büdcə, həm də qeyri-dövlət mənbələri hesabına həyata keçirilə bilər. Məsələn, bərpa işləri ilə bağlı xərclərin bir hissəsinin kompensasiyası təmin edilir və ya giriş təmin etmək üçün sahibinə əlavə bir öhdəlik qoyulması ilə əlaqələndirilir (İtaliya, Böyük Britaniya, Fransa, İspaniyada).

Avropa ölkələrində dövlət mədəni irs obyektlərinin bərpasını və iqtisadi fəaliyyətdə istifadəsini stimullaşdırmaq üçün daha çox vergitutma mexanizmlərindən istifadə edir. Aİ ölkələrində ən çox yayılmış güzəştlər: obyektlərin balans dəyərinə görə deyil, kadastr əsasında hesablanan daşınmaz əmlak vergisi güzəştləri; vergilərin təxirə salınması güzəştləri; mədəni irs obyektlərinin bərpası və saxlanması ilə bağlı xərclərin və ya minimal dərəcə ilə icarə haqqının toplanması və s. kimi mexanizmlərdən ibarətdir. Bəzi Aİ ölkələrində tarixi binalarda bərpa və tikinti işlərinə görə güzəştli ƏDV dərəcəsi də müəyyən edilib. Çox vaxt tarixi binaların təmiri və saxlanması xərcləri gəlir vergisi güzəştləri hesabına kompensasiya olunur.

Qeyd etmək lazımdır ki, bir çox ölkələrdə güzəştli vergitutma imkanı maliyyə siyasətinə daxil edilir, subsidiyaların və vergi güzəştlərinin verilməsi variantları isə unikaldır və hər bir ölkədə fərqli şəkildə istifadə olunur. [68] Eyni zamanda, vergi güzəştləri təkcə investorlara deyil, həm də öz yaşayışı üçün tarixi daşınmaz əmlakı bərpa edənlərə şamil edilir. Məlum olduğu kimi, bərpa işlərindən sonra obyektin dəyərinin artması ilə Avropa ölkələrində dərəcələri çox yüksək olan daşınmaz əmlak vergisi də artır. Bununla belə, çəkilən xərcləri nəzərə alaraq, bərpa olunana qədər əvvəlki vergi dərəcəsinin

saxlanılması sistemi də tətbiq edilir. [80, s.47-48]

2006-cı ildən İtaliya vətəndaşları eksperimental qanun çərçivəsində gəlir vergisi ayırmaları üçün əlavə imkan əldə ediblər. Ölkənin mövcud qanunvericiliyi vergi ödəyicisinin seçimi ilə sosial əhəmiyyətli məqsədlər üçün, o cümlədən 2012-ci ildən fiziki şəxslərin gəlir vergisinin 0,5%-nin mədəniyyət və incəsənətin qorunması, dəstəklənməsi, inkişaf etdirilməsi və fəaliyyətinin maliyyələşdirilməsi üçün bölüşdürülməsi imkanını nəzərdə tutur. Mənfəət vergisi bəyannaməsini doldurarkən vergi ödəyicisi ödədiyi verginin 0,5%-ni köçürmək istədiyi təşkilatı və ya sektoru (konkret alıcı göstərmədən) seçir. Vətəndaşın köçürmə hüququndan istifadə etməmək hüququ var, onda onun vergisinin bütün məbləği dövlət büdcəsinə göndərilir.

İtaliya dövləti mədəni irsin qorunmasına özəl investisiyaları stimullaşdırmaq üçün kifayət qədər hüquqi imkanlara malikdir. Məsələn, daşınmaz və ya daşınar mədəni sərvətlərin bərpası və ya saxlanması ilə bağlı xərclər və mədəniyyət sərvətlərinin alınması və ya bərpası üçün dövlət və ya ictimai təşkilatlara, fondlara və ya birliklərə ianələrə görə vergi bəyannaməsindən çıxılmalar nəzərdə tutulur. Xeyriyyəçiliyə dəstəkdə ən son dəyişiklik İncəsənət Bonusu (Art Bonus) adlandırılan tarixi qanunvericilik aktının qəbul edilməsidir. [34]

2014-cü ildə İtaliyanın Mədəni İrs, Mədəni Fəaliyyətlər və Turizm Nazirliyi ictimai muzeylərə, arxeoloji obyektlərə, kitabxanalara və ictimai arxivlərə ianələri, habelə mədəni irs obyektlərinin saxlanmasını və bərpasını təşviq etmək üçün fiziki şəxslər və müəssisələr üçün vergi krediti sistemi təklif edib. Fiziki şəxslər illik vergi tutulan gəlirlərinin 15%-nə bərabər olan ianələrə görə 2014 və 2015-ci illərdə 65%, 2016-cı ildə və ondan sonrakı illərdə isə 50% vergi endirimi almışlar. Eyni şey, illik dövriyyəsinin 0,5%-ə qədərini bağışlayan şirkətlərə də aid

edilmişdir. Əvvəllər fiziki şəxslər və qeyri-kommersiya təşkilatları üçün ianə obyektinin dəyərinin yalnız 19%-i həcmində vergi endiriminə icazə verilirdi. Nəticədə, ayrı-ayrı şəxslərdən gələn ianələrin ümumi məbləği ildən-ilə azalır. İndi hər kəsin Art Bonus proqramının saytında investisiya obyekti seçmək və ya sorğular, müayinələr, məsləhətləşmələr və ya hətta səsvermədən sonra təsdiq oluna və investisiya obyektlərinin yekun siyahısında qeydiyyata alına bilən öz ideya və təkliflərini bölüşmək imkanı var . [34]

Ciddi öhdəliklərlə yanaşı, dövlət, mədəniyyət abidələrinin sahibləri üçün müxtəlif vergi güzəştləri də nəzərdə tutur. Əsas diqqət, tarixi mülkiyyət sahibləri üçün ümumi gəlir vergisinin mədəni irs əmlakının saxlanması, bərpası və istismarı üçün çəkilən xərclər müqabilində azaldılmasına yönəldilir. Belə bir güzəşti əldə etməyin əsas şərti hər kəs üçün bu obyektə ictimai girişin açılmasıdır. Abidəyə baxmaq üçün giriş müddəti ildə 50 gün olmalıdır ki, bunun da 25-i həftə sonları və bayram günləri, apreldən sentyabra qədər və ya iyuldan sentyabra qədər 40 gündür. Bu öhdəlik, müsbət məqamdır, çünki vətəndaşlar öz ölkələrinin mədəni dəyərlərinə sərbəst şəkildə baş çəkmək imkanına malik olduğundan, mülkiyyətçi stimul olaraq dövlətdən güzəştlər alaraq mədəni irs obyektlərini qaydasında saxlamaq üçün güzəştlər alır. Sahibi tərəfindən tarixi binada aparılan əsaslı təmir işlərinə 35% vergi endirimi (taxe foncière) tətbiq edilir. [64]

İtaliyanın getdikcə daha çox şəhərlərində (Roma, Milan, Venesiya və s.) turist vergisi tətbiq edilir ki, bu da aydın şəkildə müəyyən edilmiş məqsədlər üçün yığılan markalı (nişanlı) vergi növüdür. Əksər hallarda, vergidən əldə olunan gəlir şəhər infrastrukturunun saxlanmasına və tarixi-mədəni irsin qorunması üzrə fəaliyyətə yönəldilir.

Fransada mədəniyyətin vergi qanunvericiliyi vasitəsilə dolayı maliyyələşdirilməsi getdikcə daha çox inkişaf etdirilir və bu, özəl sektorun burada fəaliyyəti üçün əlverişli mühit yaradır. 2003-cü il qanunu xüsusi olaraq, korporativ xeyriyyəçilik üçün əlverişli vergi şəraiti yaratdı. Qanunvericilik şirkətlərə sosial sahəyə, o cümlədən mədəniyyətə töhfənin 60%-ə qədərini birbaşa vergi məbləğindən (vergitutma bazasından deyil) - ümumilikdə şirkətin dövriyyəsinin 5%-ə qədərini çıxmağa imkan verir. Bu məbləğdən artıq olan haqlar da ardıcıl beş il ərzində vergidən çıxıla bilər. (Müqayisə üçün: əvvəllər ianələr yalnız dövriyyənin 3,25%-ə qədəri limitlə vergi tutulan gəlirdən çıxıla bilərdi. Vergi ayırmaları haqqında qanun qüvvəyə minəndən bəri, xeyriyyəçiliklə məşğul olan müəssisələrin sayı bir neçə dəfə artıb. (2003-cü ildə 2 mindən az, 2008-ci ildə 12 mindən çox). Fransada 2003-cü ildə qəbul olunan "Himayədarlığı haqqında" qanuna Mədəniyyət və Rabitə Nazirliyinin təşəbbüsü ilə mütəmadi olaraq yeniliklər əlavə olunması vacibdir. Mədəni irs sahəsində xüsusi mülkiyyətdə olan tarixi abidələrin bərpa işlərinin aparılması və əlçatanlığı artırmaq üçün müəyyən şərtlərlə müəssisə və fiziki şəxslərdən ianə toplanması mümkün olub. [64, s.47-51]

Fransada vergi güzəştləri ilə yanaşı, bərpa və yenidənqurma layihələrini həvəsləndirməyə yönəlmiş qrantlar sistemi də mövcuddur. Bu cür maliyyələşdirmə, bir qayda olaraq, regional və bələdiyyə orqanları tərəfindən həyata keçirilir, məbləğ isə layihənin kommersiya məqsədinin nə qədər sərfəli olmasından asılıdır. [80, s.50] Bundan əlavə, müxtəlif subsidiyalar verilir (35% -dən 50% -ə qədər), onların miqdarı binanın növündən və vəziyyətindən asılıdır.

İnkişaf etmiş dünya ölkələrində mədəniyyət və incəsənət sahəsində kreativ sənayelər çoxdan əhəmiyyətli vergi güzəştlərinə malikdirlər ki, bu da yaradıcılıq işinin xüsusiyyətləri və onların yaratdığı məhsulun

xüsusi sosial əhəmiyyəti ilə bağlıdır. Maliyyə böhranı və onun nəticələrinin aradan qaldırılması üçün əksər ölkələrdə büdcələrin vəziyyətinin kəskin şəkildə pisləşməsi onların dövlət siyasətinin birbaşa maliyyələşdirmədən müəyyən istiqamətə yönəldilməsinə səbəb olduğu dövrdə yaradıcılıq sahələrinin dəstəklənməsinin və iqtisadi tənzimləmənin dolayı alətlərindən, o cümlədən vergi alətlərindən daha da geniş istifadə edilmişdir. Vergi güzəştləri sistemi ilk növbədə, istehsalın artımının stimullaşdırılmasına və mədəni mal və xidmətlərin müxtəlifliyinin təmin edilməsinə, sosial-mədəni siyasətə uyğun olaraq mədəniyyət sektorunda qiymət sabitliyinin qorunmasına və ona qeyri-dövlət maliyyə resurslarının axınının asanlaşdırılmasına yönəldilir.

Bir qayda olaraq, yaradıcı işçilərə peşə fəaliyyəti ilə bağlı xərclərin vergitutma bazasından çıxılması üçün əlavə güzəştlər: o cümlədən, qeyri-kommersiya yaradıcılıq təşkilatları üçün onların mədəniyyət mallarının və xidmətlərinin alınması ilə bağlı xərclərini kompensasiya etmək üçün ƏDV üzrə vahid güzəşt tətbiq edilir; yaradıcılıq sahələrinin inkişafına və ya mədəni irsin kapitallaşdırılması sahəsində peşəkar fəaliyyətə yönəldilmiş investisiyaların yaradıcı təşkilatın vergi bazasından və ya yaradıcı işçinin gəlir vergisindən tutulmasına icazə verilir.

Mədəniyyət fəaliyyəti ilə məşğul olan digər qeyri-kommersiya təşkilatları Mədəniyyət Nazirliyi və regional mədəniyyət idarələri tərəfindən müvafiq layihə və proqramların maliyyələşdirilməsi üzrə açıq müsabiqələrdə iştirak edə, habelə ianə fondlarından qrantlar almaq üçün müsabiqədə iştirak edə və qeyri-kommersiya təşkilatları üçün müəyyən edilmiş bütün növ vergi güzəştlərindən istifadə edə bilərlər. Kommersiya təşkilatlarına təklif olunan maliyyələşdirmə sisteminə uyğun olaraq, vergi güzəştləri müstəsna kimi, mədəniyyət sahəsində xeyriyyəçilik fəaliyyəti çərçivəsində verilir.

Fərdi büdcə təyinatları institutunu xüsusilə qeyd etmək lazımdır.

Bu institutun dominant xüsusiyyəti – vətəndaşların büdcə siyasətinin subyektlərinə çevrilməsi, onların “siyasi məcmu (aqregir) fərd” üçün normativ təlimatların hazırlanmasında və büdcə vəsaitlərinin müvafiq bölgüsündə birbaşa iştirakından ibarətdir. [93, s.64: 95, s.210-217] Konsosiativ demokratiya prinsiplərinə cavab verən bu institutun sələfi bir sıra Avropa ölkələrinin “faizli xeyriyyəçilik” mexanizmindən istifadə təcrübəsidir ki, ona görə də hər bir vergi ödəyicisinin qərarı ilə öz vergisinin 1%-dən 2%-ə qədər gəlir vergisi onun seçdiyi sosial və mədəni ehtiyaclara yönəldilir. [18: 32: 74: 103, s.141-145: 104, s.164-169]

Məsələn, tarixi yerlərin dirçəldilməsi layihələrini dəstəkləyən bir qrup şirkətlərə ödənişləri hissə-hissə ödəmək hüququ verən vergi möhləti də təqdim olunur. Mədəni irs obyektlərinin qorunub saxlanması üçün vergi güzəştlərinin müəyyən institusional şəraitdə investorların tarixi binalara müsbət münasibətinin yaradılması üçün nə dərəcədə həlledici ola biləcəyini Amerika təcrübəsindən görmək olar. İlk dəfə olaraq, bu sahədə vergi güzəştləri 1976-cı ildə tətbiq edilmişdi: qanunun qəbuluna qədər tarixi abidələrin sökülərək yerində yeni bina tikilməsi mülkiyyətçilərə 4-7% baha başa gəldiyi halda, onun bərpası 13-28% ucuz başa gəlməyə başladı. Daha sonra 1981-ci ildə tarixi binaların bərpasına investisiyalar üçün 25% vergi güzəştini nəzərdə tutan qanun qəbul edildi (1986-cı ildə 20%-ə endirildi). [87]

Xeyriyyəçilik, sponsorluq və müxtəlif vergi güzəştləri ilə yanaşı, dünya təcrübəsində mədəni irsə əlavə dəstək mənbələrinin uğurla cəlb edilməsi təcrübəsi toplanmışdır. Milli lotereyalar, məqsədli və ya ianə fondları, “faizlə xeyriyyəçilik” və markalı (nişanlı) vergilər bu qəbildəndir. [84] Bir çox ölkələrdə (Böyük Britaniya, Kanada, İtaliya, Almaniya, Finlandiya və s.) davam edən lotereyalardan əldə olunan gəlirlərin bir hissəsi mədəni irsin maliyyələşdirilməsinə yönəldilir. İtaliya və Böyük Britaniya milli lotereyalarını inkişaf etdirərkən yerli,

regional və milli irsin qorunub saxlanmasına və təbliğinə dəstək verən müxtəlif layihələr üçün əlavə resursların cəlb edilməsinə xüsusi diqqət yetirirlər.

1990-cı illərin sonundan etibarən bir sıra Avropa ölkələri (Macarıstan, Litva, Polşa, Rumıniya, Slovakiya, İtaliya və s.) "vergi təyinatı" prinsipi əsasında "faizlə xeyriyyəçilik" institutunu inkişaf etdirir və vətəndaşlara ictimai faydalı məqsədlərə öz gəlirlərindən 0,5%-2%-ə qədər ödənişlər etməyə imkan verir. [9] Bu, vergi ödəyicilərinə vergi yükünü və əlavə ödənişləri artırmadan ödənilən gəlir vergisindən sosial-mədəni sahəyə maliyyə dəstəyini müəyyən məhdudiyyətlər daxilində yönəltmək hüququ verən dövlət vəsaitlərinin xərclənməsi mexanizmidir. Mədəni irslə, habelə onların qorunması, bərpası və təbliği ilə məşğul olan ictimai təşkilatlar (məsələn, İtaliyada "İtalia Nostra") gəlir vergisindən sabit pay almaq hüququna malikdirlər.

Markalı (nişanlı) vergilər konkret vergi və ödəniş növlərindən əldə olunan gəlirlərin mədəniyyət sahəsində sahə fondlarına birbaşa köçürülməsini təmin edən xüsusi vergilərdir. Onların siyahısı vergi qanunvericiliyi və ya digər normativ hüquqi aktlarla müəyyən edilməlidir. Bu kimi gəlirlərə - mədəniyyət sahəsinə yönəldilən vergilər, dövlət lotereyasının, lotereya və bukmeker kontorlarının gəlirlərindən vergilər, turizm vergisi, xarici filmlərin icarəsindən əldə olunan gəlir vergisi, tikintinin smeta dəyərindən ayırmalar və ya ictimai obyektlərin yenidən qurulması, tütün və alkoqolun aksizləri və s. aid edilir .

# ƏSAS NƏTİCƏLƏR

Mədəni irsin təbliği, irs xidmətlərinin göstərilməsi, irs institutlarının fəaliyyəti nəticəsində gəlir əldə edilməsi və bu sahədə xeyli insanın məşğulluğa cəlb edilməsi sayəsində mədəni irsdən istifadənin birbaşa iqtisadi nəticələri var.

Mədəni irsin dövlət sektorunda gəlirlərə və daşınmaz əmlak bazarına təsirlə yanaşı müəyyən bir bələdiyyə və ya regionda gəlir, texniki xidmət və iş yerlərinin yaradılmasına dolayı və birbaşa multiplikasiya təsirləri də mövcuddur.

Mədəni irsin qorunmasının digər nəticəsi, əlaqəli sahələrin - qonaqpərvərlik sənayesinin, nəqliyyat və kommunal infrastrukturun inkişafıdır.

Hazırda mədəni irsin iqtisadiyyatında dövlət qurumlarının kifayət qədər diqqət yetirmədiyi əsas problem: mədəni irsə dövlət dəstəyinin, onun qorunub saxlanılması, o cümlədən təmir-bərpa işlərinin aparılması üçün tələb olunan büdcə vəsaitlərinin ayrılması zərurətinin əsaslandırılması; mədəni irs obyektlərinin bazar dövriyyəsinə çıxarılması, yəni abidələrin müasir iqtisadi şəraitdə kommersiya məqsədləri üçün uyğunlaşdırılması ilə bağlıdır.

Mədəni irsin nəticələrinin qiymətləndirilməsi onların dar miqyasda ölçülməsindən, əsasən turistlərin sayı baxımından qiymətləndirilməsindən və ya ziyarətçilərin növü, onların istehlakının xarakteri və qalma xərcləri baxımından, yerli səviyyədə daha diqqətlə təhlil edilməsindən asılı olaraq, fərqli şəkildə dəyərləndirilə bilər.

Mədəni irs özəl sektor, müstəqil biznes strukturları və kreativ məhəllələrin inkişafı baxımından regionların, şəhərlərin və kənd yerlərinin cəlbediciliyinin mühüm tərkib hissəsidir.

Mədəni irs obyektlərinə təkcə daşınmaz mədəni sərvətlər deyil, dini ayinlərin icrası ilə bağlı təbiət obyektləri də daxil edilməlidir.

Mədəni irs, Azərbaycanın bir çox əraziləri üçün dirçəliş və yeni sosial-iqtisadi şəraitə uyğunlaşma üçün əsas mənbəyə çevrilə bilər. Bunun üçün mədəni irsin kapitallaşdırılması və onun obyektlərindən istifadənin səmərəliliyi artırılmalıdır.

Mədəni irs yerlərində keçirilən festivallar və ictimaiyyəti cəlb edən digər bədii tədbirlər yerli sahibkarlar üçün mühüm gəlir mənbəyidir. İqtisadi resursların az olduğu kənd və periferik ərazilərdə mədəniyyət tədbirlərinin iştirakçılarının fəaliyyəti yerli iqtisadiyyata da təkan verir. Bu, öz növbəsində, aztəminatlı sosial kateqoriyalar və çətin vəziyyətdə olan insanlar üçün iş və gəlir əldə etmək üçün imkanlar yaradır ki, bu da sosial-iqtisadi inkişafı və sosial təbəqələşmənin azalmasına gətirib çıxarır.

Mədəni irs obyektləri onların bərpası və istifadəsini idarə etmək üçün vahid strukturların yaradılmasını tələb edir. Mədəni irsin mühafizəsi və idarə olunması sahəsində xarici təcrübə, işin təşkili və funksiyaların bölüşdürülməsini təhlil edərək belə qənaətə gəlmək olar ki, mədəni irs obyektlərindən istifadənin səmərəliliyinin artırılması problemlərinin həllindəki çətinliklər, uzunmüddətli perspektiv və məhdud resurslar, bu prosesdə bütün maraqlı iştirakçıların qarşılıqlı əlaqələndirilməsini tələb edir.

Mədəni layihələrin inkişafına marketinq nöqteyi-nəzərindən baxmaq, rəqabət üstünlüklərini müəyyən etmək, unikal təkliflər irəli sürmək və onları həyata keçirmək lazımdır.

Azərbaycan və xarici tədqiqatların təhlili göstərir ki, mədəni irsin qorunmasının müasir konsepsiyaları simvolik, qeyri-maddi, ekoloji aspektlərə diqqət yetirir, mədəniyyət obyektlərindən istifadənin səmərəliliyini artırmaq, bütün səviyyələrdə əsas iştirakçılar: hakimiyyət orqanları, ictimai və qeyri-kommersiya təşkilatları və fondları, kommersiya şirkətləri və özəl sahibkarlar, yerli icmalar və fərdlər

arasında funksiyaları bölüşdürmək üçün inteqrasiya olunmuş yanaşma üstünlük təşkil edir. Bu zaman əsas postulat kimi - mədəni irsin qorunmasından onun kapitallaşmasına keçid qəbul edilir.

Mərkəzi hökumət, regional və bələdiyyə orqanlarının qarşılıqlı əlaqəsi üçün yaxşı qurulmuş mexanizmlər olmadıqda və mədəni irs obyektlərinin əsas istifadəçiləri arasında əhəmiyyətli idarələrarası maneələrin mövcudluğunda, bir tərəfdən, yeni idarəetmə strategiyalarının hazırlanması, resursların konsolidasiyası, digər tərəfdən isə səmərəliliyin artırılması zərurəti ortaya çıxır.

Uğurlu dünya təcrübəsi və Azərbaycanın özündə sınaqdan çıxmış bəzi nümunələr, mədəni irsin kapitallaşmasının onunla bağlı olan sahələrin – istirahət, yaradıcılıq sahələrinin, kiçik biznesin inkişafından və düzgün əlaqələndirilməsindən də asılıdır. Mədəni və turizm komplekslərinin formalaşdırılması yolu ilə mövcud muzeylərin genişləndirilməsi effektiv strategiya olardı.

Mədəni irsin qorunması sahəsində daha bir mürəkkəb problem - onun kapitallaşdırılması üçün sistemli və düşünülmüş siyasətin olmaması, kiçik şəhərlərin tədricən deqradasiyasıdır. Halbuki, mədəni irs obyektləri onların diqqətli və səriştəli istismarı şərti ilə, həm bölgəyə əlavə turist axını cəlb edə bilər, həm də yerli icmalar üçün semantik cəlbedici məkanlara çevrilə bilər.

Mədəni irs obyektlərinin kapitallaşdırılması maraqlı biznes subyektlərinin maksimum cəlb edilməsinə, eləcə də mədəni irsdən istifadədə könüllülük fəaliyyətinin genişləndirilməsinə və yerli icmaların iştirakına əsaslanmalı, investorların real marağını təmin etmək üçün həmin obyektlərdə əlavə hazırlıq işləri aparılmalıdır.

Turizm infrastrukturunun qurulması üçün birincisi, abidənin bərpası və ya konservasiyası həyata keçirilməli, bunun əsasında xüsusi mühafizə zolağı yaradılmalıdır. Şəhər mərkəzindən uzaqda yerləşən

tarixi abidələrin yaxınlığında hotellərin, motellərin olması da önəmlidir. Yəni turistin həm gəzməsi, həm də istirahəti üçün lazımi şərait yaradılmalıdır.

Tarixi mədəniyyət abidələri turizmin inkişafına təsir göstərən, ölkənin turistlər üçün cəlbedici olmasını şərtləndirən mühüm amillərdəndir. Bu abidələrin pasportlaşdırılması, yerləşdikləri ərazilərə turizm marşrutunun müəyyən edilməsi mühüm önəm kəsb edir. Əgər ölkəmizdəki abidələrdən turizm məqsədi üçün lazımi səviyyədə istifadə edilsə, xeyli sayda turist cəlbinə nail ola bilərik.

Müasir dünyada turizm sənayesi bu gün yaxşı formalaşmış mexanizmlə iqtisadiyyatın ən böyük, yüksək gəlirli və ən dinamik sahələrindən biridir. Buna görə, turizm bazarında konkret regionun müsbət imicinin yaradılması xüsusi aktuallıq kəsb edir.

Azərbaycanda turizmin inkişafı istiqamətində ən mühüm tədbirlərdən biri daxili, xarici və mədəni turizm marşrutlarının köməyi ilə Azərbaycanın turizm sahəsinin dünya turizm bazarına inteqrasiyasıdır.

Turizm sektoru ən qabaqcıl beynəlxalq təcrübə əsasında qurulmalı, ən mütərəqqi ideyalar tətbiqinə əsaslanmalıdır ki, turistlər ölkəmizdən və xidmətlərimizdən məmnunluq duysunlar. Azərbaycan çoxsaylı turizm məhsulları sayəsində beynəlxalq turizm bazarında da rolunu və nüfuzunu artırmaqdadır.

Mədəni irs turizmi fəaliyyətinin və xidmətlərinin "arzu olunan" formalarının inkişafı irsin lazımi qaydada bərpası və irsin təqdimatı üçün maraqlı fəaliyyətlərin təşviq edilməsi yolu ilə (bunlara vergi güzəştləri və müavinətləri, qrantlar, prizlər və s. mükafatlar, tərəfdaş əlaqələri, şəbəkə və reklam agentliklərinin yaradılması, irsin və ekoturizmin təbliği ilə bağlı fəaliyyətlər və s.) reallaşdırıla bilər.

Turizm mədəniyyətin inkişafına xidmət etməlidir, eləcə də turistlərdən əldə olunan gəlirlər vasitəsilə tarix-mədəniyyət abidələrinin də bərpası aparılmalıdır. Azərbaycanda turizmin inkişafında tarixi abidələrin çox böyük rolu var.

Şəhərlərdə və kənd yerlərində ərazilərin simasını dəyişən kreativ klasterlər onların cəlbediciliyini artırmaqla, kapitalın, turistlərin və yeni gəlir mənbələrinin axınını təmin edir.

Kreativ iqtisadiyyat beynəlxalq ticarətin ən dinamik sektorlarından birinə çevrilir, bunu son illərdə dünya ixracının iki dəfə artması da sübut edir.

Kreativ sektorun kiçik müəssisələri, mədəni irsin təbliği və yayılması ilə məşğul olur, müəyyən bir ərazidə müasir yaradıcılıq proseslərinin katalizatoru kimi çıxış edirlər.

Böhranın nəticələri, mədəni resurslara əsaslanan yeni innovativ inkişaf modelləri regional planlaşdırmanın mövcud strateji istiqamətlərinə yenidən baxılması məsələsini gündəmə gətirib. Beynəlxalq təcrübədə yaradıcı sahələr uzun müddətdir ki, ölkələrin mədəni və sosial-iqtisadi siyasətində davamlı prioritetə çevrilib.

Xaricdə mədəniyyət və incəsənət sahəsində kreativ sənayelər çoxdan əhəmiyyətli vergi güzəştlərinə malikdirlər ki, bu da onların yaratdığı məhsulun xüsusi sosial əhəmiyyəti ilə bağlıdır.

Maliyyə böhranı və onun nəticələrinin aradan qaldırılması üçün əksər ölkələrdə büdcələrin vəziyyətinin kəskin şəkildə pisləşməsi, onların dövlət siyasətinin birbaşa maliyyələşdirmədən müəyyən istiqamətə yönəldilməsinə səbəb olduğu dövrdə yaradıcılıq sahələrinin dəstəklənməsinin və iqtisadi tənzimləmənin dolayı alətlərindən, o cümlədən vergi alətlərindən daha da geniş istifadə edilməkdədir.

Ölkəmizdə mədəni irsin inkişafı üzrə uzunmüddətli strateji planlaşdırmanın və inkişaf proseslərinin effektiv koordinasiyasının

təmin edilməsi üçün "Kreativ Sənayenin İnkişafına dair Strategiya"nın hazırlanmasına ehtiyac var. Hazırlanacaq bu sənəd və sənədin əsasında aparılacaq praktiki fəaliyyət yaradıcı məhsulların artmasına, ixracın şaxələndirilməsinə, kiçik və orta sahibkarlığın inkişafına, kölgə iqtisadiyyatının payının azaldılmasına, gənclər arasında işsizliyin azaldılmasına, dövlətlə cəmiyyət arasında daha sıx əməkdaşlığa və digər geniş milli məqsədlərə töhfə verə bilər.

Kreativ sənayenin inkişafı təhsildə müasir yeniliklərin tətbiqinə, regionlarda iqtisadi inkişafa, təşkilatlararası və özəl sektor ilə əməkdaşlığın gücləndirilməsinə gətirib çıxaracaqdır.

Hazırda milli səviyyədə kreativ sənayelərə dair əhatəli statistikanın mütəmadi dərc edilməməsi bu sektor üzrə inkişaf proseslərinin ölçülməsinə tam imkan vermir. Azərbaycanda bu sahənin iqtisadi dəyərinin mərkəzləşdirilmiş formada hesablanması, sistemli statistikanın formalaşdırılması və ümumilikdə sahənin iqtisadi resurs nöqteyi-nəzərdən inkişafı üçün konkret addımların atılması vacibdir.

Azərbaycanda yaradıcı sahələr hələ də konseptual olaraq ənənəvi mədəniyyətə və mədəni irsin qorunmasına yanaşmalarda sistemlilik görünmür. Bu, kreativ iqtisadiyyatın inkişafına və mədəni irsin kapitallaşmasına mane olur.

Müxtəlif ölkələrdə toplanmış təcrübə Azərbaycanda kreativ sahələrin dəstəklənməsi və innovativ mədəniyyət layihələrinin uğurla həyata keçirilməsi üçün: güzəştli icarə haqqı; kiçik kreditlər sistemi; mədəni sahibkarlıq üçün vençur investisiya fondları; mədəniyyət sahibkarlığı üzrə təlim proqramları; kiçik yaradıcı şirkətlərə biznes məsələləri üzrə davamlı məsləhətlərlə təmin olunmadır. Kreativ sahələrə dəstək, uyğun maliyyələşdirmə şərtlərini ehtiva edən qrantlar şəklində təqdim edilə bilər.

Azərbaycan üçün kreativ klasterlərin və mədəni məhəllələrin inkişafına, o cümlədən mədəni irs obyektlərinin, habelə boşaldılmış istehsalat binalarının və ərazilərinin bərpasına məsul olmaqla, güzəştli şərtlərlə icarəyə verilməsi yolu ilə təşviq edilməsi vacibdir. Azərbaycanın kreativ sahələrinin məhsul və xidmətlərinin ixrac potensialına dəstək vermək və onları dünya bazarlarına çıxarmaq lazımdır.

Kreativ iqtisadiyyata əsaslanan mədəni irsin kapitallaşdırılmasının müasir strategiyalarından daha səmərəli istifadə etmək üçün dövlət səviyyəsində yaradıcılıq sahələrinə sistemli dəstək vermək lazımdır. Bununla əlaqədar olaraq, ərazilərin ortamüddətli inkişafı üçün əsas idarəetmə vəzifələrindən biri – sosial infrastrukturun, müasir inkişafa yönəlmiş ərazilərə yaradıcı təbəqənin axınının və təhkim olunmasının gücləndirilməsi əsasında, iqtisadi fəal əhalinin kənd yerlərindən və kiçik şəhərlərdən paytaxta axınının dayandırılması və sosial-mədəni inkişafın təmin edilməsidir.

Mədəniyyət və turizm sahəsində əməkdaşlıq və layihə fəaliyyətinin inteqrasiyası üçün müvafiq institutlar və hüquqi şərait yaratmaq lazımdır. Yaradıcılıq sahələri sektorunda yerli əhalinin təsərrüfat subyektlərinin, mülklərinin və sahibkarlıq fəaliyyətinin müstəqil yaşamasını və inkişafını təmin edən, o cümlədən turist axınının mərkəzləşdirilmiş şəkildə təmin edilməsi, suvenirlərə və mədəni nümunələrə tələbatın artırılması yolu ilə xüsusi layihələrin miqyasının artırılması tələb olunur.

Kreativ potensialın yaradılması və kreativ istehsal sahələrinin sistemli dəstəklənməsi, regionların və bələdiyyələrin mədəni irsin kapitallaşdırılmasına və müasir iqtisadiyyatın post-sənaye sektorları ilə sənaye modelinin əlavə edilməsinə yönəlmiş strateji inkişaf Proqramlarında əsas vəzifə kimi qoyulmalıdır.

Kreativ şəhərlər həmçinin ictimai məkanları ilə də diqqət çəkməlidir. Mobillik və dayanıqlılıq konsepsiyanın daha çox diqqət etdiyi əsas amillərdən hesab edilir. Şəhər və insanlar arasında interaktivlik onu daha yaşanılır yerə çevirərək yaradıcılıq üçün də imkanlar açır.

Regionun mədəni-tarixi mühitinin səmərəli qurulması üçün aşağıdakı tədbirləri eyni vaxtda həyata keçirməklə effektiv nəticə əldə etmək olar:

- qeyri-maddi obyektlərin (bu və ya digər yerdə formalaşmış adət-ənənələrin, həyat tərzinin) qorunmasına yönəlmiş tədbirlər;
- mədəni irs obyektləri haqqında məlumatların təhsilin bütün pillələrində doğma torpağın tarixi çərçivəsində gənclərin yaşadıqları rayonla eyniləşdirmə səviyyəsinin artırılması ilə tədris prosesinə fəal inteqrasiyası;
- yerli sakinlərin (ilk növbədə məktəblilərin və tələbələrin) regionda yerləşən mədəni irs obyektlərinin qorunması işlərinə fəal cəlb edilməsinə yönəlmiş tədbirlər görülməsi;
- mədəni irs obyektlərinin tam qorunub saxlanılması və əhali üçün əlçatan olması ilə regionun təsərrüfat mexanizmlərinə inteqrasiyası üzrə daha fəal siyasətin aparılması (məsələn, mülkiyyətçilərin üzərinə məcburi yüklər qoyulmaqla obyektlərin özəlləşdirilməsi və obyektlərin inkişafı yolu ilə);
- mədəni irs obyektləri əsasında turizm məhsullarının və brendlərinin formalaşdırılması, mədəni-tarixi turizmin inkişafı və regional turizm klasterlərinin yaradılması.

Mədəni irs obyektlərinin region iqtisadiyyatının yüksəlişinə xidmət etməsi üçün regionda mədəni irs obyektlərinin idarə olunması üzrə kompleks proqramın hazırlanması zəruridir. Bu proqrama tədbirlər planından əlavə, regionda yerləşən mədəni irs obyektlərinin

vəziyyətinin təhlili və müəyyən şərtlərlə mədəni irs obyektlərinin qorunması prosesində iştirak etməyə hazır olan maraqlı biznes nümayəndələrinin bazası daxil edilməlidir.

Azərbaycan regionlarında mədəni irsin qorunmasına yardımla bağlı xeyriyyəçilik institutu kifayət qədər inkişaf etməmişdir və faktiki olaraq, bu əlavə maliyyə kanalından praktikada istifadə edilmir.

Daşınmaz mədəni irsin regional fondlarının qorunması və istifadəsi proseslərinin tənzimləyici, informasiya, təşkilati və iqtisadi təminatı formaları, üsulları və təsir vasitələri vahid təşkilati-iqtisadi mexanizmə inteqrasiyası əsasında təkmilləşdirilməlidir.

Hazırda hətta cüzi regional proqramlara və bəzən keyfiyyətsiz bərpa işlərinə baxmayaraq, Azərbaycana səyahətin cəlbediciliyi artmaqdadır. Son illərdə ölkəmizə turist, qonaq kimi gələnlər və hər hansı mədəni tədbirə qatılan çox sayda insanlar, hətta paytaxtda yerləşən beynəlxalq təşkilatların missiyaları və diplomatik nümayəndələr, ucqar şəhərlərə və məkanlara da getməyə can atırlar, getdikcə ölkəmizə daha çox orijinal formada baxmağa səy göstərirlər.

İndi mədəni irs sahəsində siyasəti yenidən qurmaq, ən azı, bürokratik nəzarət və əngəllər olmadan daha yaxşı və çevik ediləcək işləri aşağı səviyyələrə, ilk növbədə, yerli özünüidarəetmə strukturlarına həvalə etmək lazımdır. Mədəni turizmin dəstəklənməsi üçün təsirli tədbir kimi qanunvericiliyin məntiqini düzəltməyə başlamalıyıq: mədəni irs sahəsində qanunvericiliyimiz hələlik daha çox qadağanedicidir, halbuki, o, stimullaşdırıcı olmalıdır.

Bundan əlavə, mümkün olduğu yerlərdə kiçik şəhərlərə həyat və abadlığı qaytarmaq vacibdir. Burada söhbət, yeni müəssisələrin yaradılmasından, yerli abidələrin və ya təbiətin kapitallaşdırılmasından gedir.

Yəqin ki, gələcəkdə ekoloji cəhətdən təmiz həyat tərzi dəbinə uyğun kəndin sakitliyinə doğru çəkilmək meylləri daha da artacaqdır. Bu da kiçik şəhərlər üçün yeni perspektivlər yarada bilər. Yol infrastrukturunu təkmilləşdirmək, mümkün olan regionlara və məkanlara dəmir yolu xətləri çəkmək və ya belə bir səfərin vaxtını və xərclərini əhəmiyyətli dərəcədə azaltmaq, eləcə də ətraf mühitin cəlbediciliyinə, onun rahatlığına sərmayə qoymaq və onları abadlaşdırmaq lazımdır.

Nəhayət, yerli ziyalıları dəstəkləməyi öyrənmək lazımdır. Belə ki, xalqın mədəni irsin qorunub saxlanmasına münasibəti, bilavasitə həmişə milli şüurun sözçüsü və dirijoru olmuş ziyalı təbəqə ilə bağlıdır. Bu günə mövcud olan regional inkişafla bağlı siyasət sənədlərində mədəniyyətin mümkün faydaları və onun gətirə biləcəyi spesifik effektlər ifadə olunmayıb. İqtisadiyyat və mədəniyyət müxtəlif sahələrə aid olsalar da, bu elə bir reallıqdır ki, mədəniyyətin tətbiqi effekti tamamilə hamı üçün, o cümlədən, mədəniyyətlə təkcə tamaşaçı kimi deyil, həm də iqtisadi fəaliyyətin tamhüquqlu subyekti kimi maraqlı ola bilməlidirlər.

Azərbaycanda mədəni irsin daşınmaz əmlak obyektlərinin mühafizəsi sahəsində mövcud vəziyyət, bir tərəfdən, dövlət tənzimlənməsinin yüksək payı, digər tərəfdən isə irs obyektlərinin mühafizəsi üçün büdcədən maliyyələşmənin kifayət qədər olmaması ilə xarakterizə olunur. Vəziyyət abidə binalarının konservasiyası sahəsində əlverişli investisiya mühitinin olmaması ilə daha da ağırlaşır ki, bu da təkcə, tarixi binaların inkişafı üçün qanunvericilik bazasının mükəmməl olmaması ilə deyil, mədəni irs obyektlərinin transformasiyası üçün səmərəli iqtisadi mexanizmlərin olmaması ilə bağlıdır. Bu səbəbdən, qarşıdakı illərdə tarix və mədəniyyət abidələrinin yenidən qurulmasına nəinki əhəmiyyətli investisiyaların yönəldilməsi, həm də milli səviyyədə

mədəni irs obyektlərinin inkişafı strategiyasına köklü şəkildə yenidən baxılması zəruridir.

Son illər Azərbaycanda mədəni irsin iqtisadi dövriyyəyə inteqrasiyası, onların kapitallaşdırılması, habelə mədəni irsin rekonstruksiyası və bərpası üçün büdcədənkənar vəsaitlərin cəlb edilməsi mexanizminin yaradılması prosesinə başlanılıb. Bununla belə, belə mexanizmlər Azərbaycanın bütün regionlarında istifadə edilmir.

